*YAXŞI İŞLƏR GÖRMƏKDƏ BİR-BİRİNİZİ ÖTMƏYƏ ÇALIŞIN*

**QURANİ-Kərim (Ayə 2, surə 148)**

# ŞUŞA ŞƏHƏRİNİN GERBİ



Mərkəzi Şuşa şəhəri olan Şuşa qəzası çar hökumətinin Qafqazda 1840-cı il aprel ayının 10-da imzaladığı inzibati islahatlarına əsasən KASPİ vilayətinin tərkibində yaradılmışdır. 1846-cı ildən Bakı, 1867-ci ildən etibarən YELİZAVETPOL (GƏNCƏ) quberniyasının tərkibində olmuşdur. Qəzanın ərazisi 4911 km$^2$ idi.

1843-cü il may ayının 21-də başqa şəhərlərin gerbləri ilə yanaşı Şuşa şəhərinin də gerbi təsdiq olunmuşdur.

Qalxanın yuxarı yarısında qızılı fonda KASPİ vilayətinin gerbinin bir hissəsi, aşağıda, yaşıl fonda ASİYA yəhər-cilovu olan irəliyə doğru şığıyan AT təsvir olunmuşdur.

Qalxanın aşağı hissəsi göstəriri ki, qəzada əla AT cinsləri (QARABAĞ ATI) yetişdirilir.

ASİYA yəhəri və cilovu hazırlanır.

Şuşanın gerbi Bakı şəhərinin gerbindən yalnız aşağı hissəsi ilə fərqlənir.

GERBDƏ yalnız müsəlman nişanələri vardır.

YUNİS RZA oğlu HÜSEYNOV

# AZƏRBAYCANIN QARABAĞ BÖLGƏSİNİN TARİXİ

Bakı – 2019

**Kitab müəllif tərəfindən oxuculara hədiyyədir.**

**Redaktor və rəyçi:** **Z.H.BAYRAMLI,**
*tarix üzrə elmlər doktoru*

**Rəyçilər:** **X.S.QASIMOV,**
*tarix üzrə elmlər doktoru*

**D.M.ƏZİMLİ,**
*tarix üzrə fəlsəfə doktoru, dosent*

**Yunis Hüseynov -** ***tarix üzrə fəlsəfə doktoru***
**AZƏRBAYCANIN QARABAĞ BÖLGƏSİNİN TARİXİ.**
Bakı, 2019, - 208 səh.

*Kitabda Azərbaycanın Qarabağ bölgəsinin qədim tarixindən, xüsusilə bölgənin xanlıqlar dövründən bəhs olunur. Müəllif bu əsəri zəngin, mötəbər mənbələr, arxiv materialları xeyli tarix ədəbiyyatı əsasında yazmışdır. Əsərdə Qarabağ xanlığının 75 illik tarixi təhlili, tədqiq edilmişdir.*

ISBN 978-9952-8364-8-6

© Y.R.Hüseynov, 2019

# ÖN SÖZ

Azərbaycan Respublikasının Qarabağ bölgəsi tarixinin qədim qaynaq və mənbələr əsasında araşdırılması dövrümüzün əsas mövzusudur. Bu sahədə Azərbaycanın tarixçi alimləri, arxeoloqlar böyük işlər görmüş və indi də mühüm elmi tədqiqatlar uğurla davam etdirilir.

Azərbaycanın Qarabağ bölgəsi tarixinin araşdırılıb elmi surətdə öyrənilməsi sahəsində **Azərbaycan Milli Elmlər Akademiyasının Tarix İnstitutunun tarixçi alimləri** böyük işlər görmüşlər.

Əslən şuşalı, tarix üzrə fəlsəfə doktoru **Yunis Hüseynov da özünün elmi fəaliyyətini bu sahəyə həsr etmişdir**. Alimin indiyə kimi qələmə alıb ərsəyə gətirdiyi 6 elmi əsəri Qarabağın, Şuşa şəhərinin zəngin tarixinə həsr olunmuşdur. Bir-birindən elmi cəhətdən fərqlənən bu əsərlər Yunis müəllimin gərgin elmi əməyinin bəhrəsidir.

Əsərdə Qarabağ bölgəsinin siyasi, iqtisadi həyatı, sosial və etnik tərkibi aydın və tutarlı dəlillər əsasında şərh olunur. Qarabağın lap qədimdən bu günümüzə qədər Azərbaycan Respublikasının tərkib hissəsi olduğu əsərdə öz əksini tapır. Qarabağ bölgəsi heç vaxt bu və ya başqa dövlətə yox, Azərbaycana mənsub olduğu bir mənalı olaraq sübuta yetirilir.

Alim **"Azərbaycanın Qarabağ bölgəsinin tarixi" əsəri** onun əvvəlki əsərlərinin elmi davamıdır. O, əsərdə belə bir maraqlı fikir irəli sürür:

"Mən nə qədər qaynaq, mənbə və digər əsərlərə müraciət etmişəmsə, orada bir dəfə də olsun **"hay"** sözü ilə qarşılaşmamışam. Bu ünsürün mənşəi haqqında, Qarabağa necə və hansı yollarla gətirilib yerləşdirilmələri əsərdə hərtərəfli təsvir olunur.

Tədqiqatçı əsərdə Qarabağ xanlığınn yaranması, siyasi, iqtisadi və sosial inkişafını mənbələr əsasında araşdırır və oxuculara dəyərli məlumatlar verir.

**"Azərbaycanın Qarabağ bölgəsinin tarixi"** elmi əsər erməni ünsürlərinin bütün iddialarını ifşa edir, onların bu diyara yad element olduğunu özündə ehtiva edir. Bu barədə Yunis müəllim tutarlı tarixi həqiqətlər söyləyir.

Əsər vətənpərvərlik ruhunda yazılmışdır. Kitabı oxuduqca bu mənəvi hiss anbaan hiss olunur.

Mən Yunis müəllimin "Azərbaycanın Qarabağ bölgəsinin tarixi" əsərini bütövlükdə şərh etmək istəmirəm. Onu demək istərdim ki, Qarabağ bölgəsinin zəngin və şanlı tarixinin qaynaq və mənbələr əsasında araşdırılıb öyrənilməsinə hələ böyük ehtiyac var.

**Z.H.Bayramlı,**
*tarix üzrə elmlər doktoru, professor*

# AZƏRBAYCANIN QARABAĞ BÖLGƏSİNİN TARİXİ

Qarabağda talan var,
Zülfü üzə salan var.
Gedirsən tezcə qayıt,
Gözü yolda qalan var.

Əzizim qarabağlıdır,
Sinəm çarpaz dağlıdır.
Nə gələn var, nə gedən,
Məgər yollar bağlıdır.

Qarabağda bağ olmaz,
Qara salxım ağ olmaz.
Qürbətdə yar sevənin,
Ürəyində yağ olmaz.

Mən aşiqəm Qarabağ,
Şəki, Şirvan Qarabağ.
Tehran Gülüstan olsa,
Yaddan çıxmaz Qarabağ.



**Qarabağ Xanı**
**Pənahəli xan**
**(1693-1763)**



**Qarabağ Xanı**
**İbrahimxəlil xan**
**(1721-1806)**

# AZƏRBAYCANIN QARABAĞ BÖLGƏSİNİN TARİXİ

Müstəqil Azərbaycan Respublikasının ayrılmaz tərkib hissəsi olan Qarabağ, xalqımızın məskən saldığı ulu torpaqdır. Qarabağda torpağın bərəkətli olduğu kimi, eyni zamanda da burada dünyanın yaranması ilə bağlı olan əsatir, əfsanə, xalq mərasimləri, söyləmələri, nağıl-rəvayətləri, dastanları ilə də çox zəngindir. Qarabağ bir də onunla şöhrətlidir ki, bu diyar ilk insan məskəni kimi bəşər tarixində ilk yerlərdən birini tutur. Azərbaycanın ulu keçmişinin zənginliyi onun hər yerində olduğu kimi Azərbaycanın Qarabağ bölgəsində də mövcuddur.

Qədim tarix kitablarında yazılır ki, Qarabağ vilayətinin sərhədləri belədir:

Cənub tərəfdən Xudafərin körpüsündən Sınıq körpüyə qədər-Araz çayı sahilləridir. Şərq tərəfdən Kür çayıdır. Şimal tərəfdən Qarabağın Gəncə sərhəddi Kür çayına qədər –Goran çayıdır. Qərb tərəfdən Küsbək, Salavartı və Ərikli adlanan uca Qarabağ dağ silsiləsidir.

**XII-XIII** əsrlərə kimi Qarabağ müxtəlif ünvanlar daşımışdır. Lakin bunlara baxmayaraq Qarabağ bir adla **– QARABAĞ** adlandırılmışdır.

Azərbaycanın qədim Daş Dövrü tarixi üçün nadir arxeoloji tapıntılar **AZIX, TACLAR, DAŞSALAHLI, QAZMA VƏ BUZEYİR** mağara düşərgələrində aparılan arxeoloji qazıntılar zamanı aşkara çıxarılmışdır. Bu tapıntılar ölkəmizin ərazisinin ilk insanın yaşadığı məskən olduğunu sübut edir.

Yeri gəlmişkən onu da deməyi lazım bilirəm ki, AZIX mağara düşərgəsində əldə olunan maddi-mədəni abidələr olduqca dəyərli və tariximiz üçün qiymətlidir.

AZIX mağara düşərgəsi Azərbaycan Respublikasının Qarabağ ərazisinin Cənub Şərq yamaclarının ucqar hissəsində yerlə-

şir. Əcdadlarımızın bizə miras qoyub getdikləri bu tarixi abidə **QURUÇAYIN** sol sahilində, dəniz səviyyəsindən **900** metrə qədər yüksəklikdə yerləşir. Həmçinin böyüklüyünə görə Azıx mağarası Cənubi Zaqafqaziyada **KARST** (Torpağı asanlıqla həll olunan suxurlardan ibarət olan sahələrdə relyefin xüsusi forması- Y.H,) boşluqları arasında ən şöhrətlisidir. Həcmcə kiçik yollarla birlikdə mağara düşərgəsinin ümumi uzunluğu **200** metrdən çoxdur. Mağara düşərgəsinin ümumi sahəsi isə **1250 kv.m-dən** çoxdur. Quruçayın yatağı Azıx mağara düşərgəsinin giriş yolunu kəsib aşağıya doğru enmiş, nəticədə burada terras (yer səthinin bir-birinin üstündə yerləşən üfüqi və ya bir qədər meyli açıqlıq hissə Y.H.) əmələ gəlmiş və beləliklə də mağara düşərgə su altında qalmaqdan xilas olmuşdur. Bununla da mağara düşərgədə ibtidai insanın yaşaması üçün əlverişli şərait yaranmışdır.

**Quruçay dərəsi, Azıx mağara düşərgəsinin yerləşdiyi ərazi ilə birlikdə, istehsal alətləri hazırlamaq üçün zəngin xammal mənbəyi olmuşdur. Ərazidə çaxmaq daşı ilə yanaşı kbars, kvarsit, bazait, felzit və başqa mineral daşlar vardı.**

**Qarabağın Azıx mağara düşərgəsi özünün maddi mədəniyyət abidələri qalıqlarına görə dünyada nadir abidədir. Elə buna görədir ki, mağara düşərgəsinin tədqiq olunmasında arxeoloqlarla yanaşı, paleozooloqlar (qədim geoloji dövrlərin heyvanlarını öyrənən elm sahəsi), paleoloqlar (qədim əl yazmalarının və qrafik xüsusiyyətlərini öyrənən elm), palentoloqlar (arxeoloji qazıntı zamanı tapılan daşa dönmüş heyvan və bitgilərdən bəhs edən elm) və başqa elm sahələrinin mütəxəssisləri iştirak etmişlər.**

Çox təbəqəli Azıx mağara düşərgəsinin cənub giriş yolunda arxeoloqlar qazıntı apararkən **10 arxeoloji** təbəqə aşkar etmişlər. Burada çöküntünün ümumi qalınlığı **13,5 metrə** bərabərdir. Mağara düşərgəsinin çöküntüsündə qədim **PALEOLİTİN** (daş əsrinin qədim dövrü) bütün təbəqələr qeydə alınmışdır.

**Qarabağın incilərindən biri də Quruçay mədəniyyəti-**

**dir. Bu mədəniyyət abidəsi Azıx mədəniyyət düşərgəsinin VII-X təbəqələrində aşkara çıxarılmışdır. Həmin təbəqələrdən 300-dən artıq daş məmulatları tapılmışdır. Aşkar olunmuş əmək alətləri içərisində başlıca yeri kobud çapma alətləri, qaşovlar və digər kobud alətlər diqqəti cəlb edir. Qarabağın ibtidai insanları əmək alətləri hazırlamağı və onlardan istifadə etmək üsullarını da bacarırdılar. Onlar əmək alətləri düzəltmək üçün daşları Qurucaydan toplayır və onları mağara düşərgəsinə gətirirdilər. Eyni zamanda da ibtidai insanlar həmin daşları bir-birinə sürtməklə səliqəyə salırdılar. Azıx mağara düşərgəsinin sakinləri yığıcılıq və ovçuluqla məşğul olurdular. Azıx və Quruçay əraziləri ibtidai insanların qidalanmaları üçün olduqca əlverişli idi.**

**Aparılan elmi tədqiqat işləri nəticəsində arxeoloq alimlər müəyyən edə bilmişlər ki, Quruçay mədəniyyəti Azıx mağara düşərgəsində 1,2 milyon il bundan əvvəl başlayıb və 700 min il əvvəl başa çatmışdır.**

**Qarabağın qədim AŞEL düşərgəsinin maddi mədəniyyət abidələri Azıx mağarasının VI təbəqəsində qeydə alınmışdır. Bəşəriyyət tarixində qədim və Orta Aşel mədəniyyətləri ilk dəfə olaraq Fransanın Sent- Aşel mağara düşərgəsində tapıldığına görə ona Aşel mədəniyyəti deyilir.**

**Azıx mağara düşərgəsinin VI təbəqəsindən OCAQ yeri də qeydə alınmışdır. Bu sübut edir ki, Azıxın ibtidai sakinləri od əldə etməyi və onu uzun müddət saxlamağı da bacarırdılar. Odun əldə olunması ibtidai insanın həyatında böyük əhəmiyyət kəsb etmişdir. Soyuqdan və vəhşi heyvanlardan qorunmaq üçün ibtidai insanlar oddan istifadə edir və qida üçün isti yemək hazırlayırdılar.**

**1968-ci ildə Azıx mağara düşərgəsində aparılan arxeoloji qazıntılar zamanı müxtəlif əmək alətləri ilə yanaşı, burada qədim insanın alt çənə sümüyü də tapılmışdır. Çənədə bir neçə diş də var. Çənə sümüyü 18-20 yaşlı qadına**

**məxsusdur. Bu qadın 350 min il bundan əvvəl AZƏRBAYCANIN QARABAĞ ərazisində yaşamışdır.**

**QARABAĞ** ərazisində möhtəşəm mağara düşərgələrindən biri də **TAĞLAR** düşərgəsidir. Mağara düşərgəsi Quruçayın sol sahilində yerləşir. **1963-cü ildən** etibarən burada arxeoloji qazıntı işləri başlanmışdır. Mağara düşərgəsindən **7 mindən artıq** daş məmulatı və ibtidai insanların ovladıqları **20 mindən** artıq müxtəlif heyvan sümükləri tapılmışdır. Mağara düşərgədə qədim insanlar **70 min il bundan əvvəldən 35 min il bundan** əvvələ qədər yaşamışdılar.

**Azıx mağara** düşərgəsində tapılan tikinti qalıqları sübut edir ki, onun sakinləri tikinti vərdişlərinə də yiyələnmişlər. Onlar eyni zamana da ilkin hesablamanı da bacarırdılar. Deməli, hissiyyatla təfəkkür arasında tərəddüd edən nəzəri fəaliyyət inkişaf edirdi. **K.Marksın dediyi kimi:**

**"...Hissiyyatla təfəkkür arasında tərəddüd edən əqlin ilk nəzəri fəaliyyəti hesablama idi".**

**İbtidai icma quruluşu tarixin inkişafı gedişində süquta uğradı. Onu QULDARLIQ quruluşu əvəz etdi. Müstəqil quldar dövlətlər əmələ gəldi. Azərbaycan ərazisində yaranan dövlətlərdən biri də QAFQAZ ALBAN dövləti idi.**

QAFQAZ ALBAN-AZƏRBAYCAN dövləti Şimali Azərbaycan ərazisində e.ə. III-IV əsrlərdə yaranmışdır. Qədim alban və digər mənbələrin verdiyi məlumatlara görə, Albaniyada 26 tayfa məskunlaşmışdır.

**Həmin tayfalar-albanlar, anarikalar, ocyniyanlar, çilbilər, diduarlar, gellər, hellər, kaspilər, qaradinanlar, qarqarlar, leqlər, ipinlər, maskutlar, müklər, parsillər sakasonlər, savdeylər, utilər və başqaları idilər.**

**Tarixi mənbələrdə göstərilir ki, utilər Azərbaycan Respublikasının Qarabağ bölgəsində XVIII-XIX əsrlərdə də yaşayırdılar. Azərbaycan ərazisində məskunlaşan tayfalar əsasən türkdilli tayfalar idilər.**

**Ərəb müəllifi İbn Hişamin istinad etdiyi məlumatda**

Əməvi xəlifəsi Müaviyənin (661-680) Azərbaycana və türklərə aid sualına "Azərbaycan qədimdən türklərin yaşadığı ölkədir" cavabı verilmişdir. Bu məlumat türk tayfalarının hələ Sasanilər dövründən Azərbaycanda və o cümlədən də onun bölgəsi olan Qarabağda yaşadıqlarını sübut edir.

Qarabağ min ildən artıq Albaniyanın tərkibində olmuş, onun siyasi, iqtisadi, mədəni və sosial inkişafını əxz etmişdir.

Qədim yunan coğrafiyaşünası, tarixçi Strabon "Coğrafiya" əsərində alban dövlətindən geniş məlumat vermişdir. Albaniya çoxmillətli dövlət idi. Əhalinin böyük əksəriyyətini albanlar təşkil edirdilər.

Albaniyada ünsiyyət dili, yəni dövlət dili alban dili idi. Qafqaz Albaniyasının müstəqilliyinə məlum olduğu kimi 705-ci ildə ərəblər son qoydular.

Mən, ARSAX barədə xüsusi danışmağı lazım bilirəm. ARSAX Qarabağın və Mil düzünün bir hissəsini əhatə edirdi. Arsax 12 kiçik inzibati əraziyə bölünürdü. Əhalisi qarqarlar, utilər, xəzərlər, barsillər və digər türkdilli əhalidən ibarət idi. Arsax I-IV əsrlərdə alban arşakilər sülaləsinə, VI-VIII əsrlərdə isə mehranilərə tabe idi. Albaniyanın siyasi və dini həyatında Arsax olduqca böyük əhəmiyyətə malik idi. Albaniyada çox hallarda katolikoslar (kilsə başçısı) Arsax ruhaniləri arasından seçilirdilər. 705-ci ildən sonra Arsax da Uti kimi ərəb xilafətinin tərkibinə qatılmışdır.

Ərəblərin təzyiqi ilə Alban kilsəsi monofizitiliyə etiqad etməyə məcbur olmuşdur. Ərəb işğalından sonra Albaniyada İslam dini sürətlə yayılır və möhkəmlənirdi. Bu prosses Qarabağda da davam edirdi. Qarabağın düzən ərazilərində İslam dini daha sürətlə yayılırdı. Qarabağın dağlıq ərazilərində yaşayan albanlar arasında islam dini zəif yayılırdı. Bunun səbəbi alban-xristian kilsəsinin dağlıq ərazidə xristian dinini qoruyub saxlaması idi. Beləliklə də ideoloji zəmində etnik parçalanma baş verdi. Azərbayca-

**nın Qarabağ bölgəsininın dağlıq ərazilərində yaşayan albanlar xristian dininə sadiq qaldılar.**

**Tarixi mənbələr sübut edir ki, albanlardan 270 il sonra ermənilər xristianlığı qəbul etmişlər. Vətəni, dini, folkloru, dövlətçiliyi olmayan erməni ünsürü üçün bu məqbuldur.**

**Qədim Albaniyanın tərkib hissəsi olan XAÇİN - ALBAN ərazisi Xaçınçay və Tərtər çaylarının vadilərində yerləşirdi. Qarabağ birdir, onun dağı da, düzəni də, dərəsi də, meşəsi də var. Qarabağın yuxarı hissəsinə "Dağlıq Qarabağ " deyimi 1920-ci ildə hansısa bir daşnak ünsürünün irəli sürdüyü saxta fikirdir.**

**Rusiyanın Azərbaycanın şimal ərazisini işğal etməsi nəticəsində Alban xristian kilsəsi təzyiqlərə məruz qaldı. 1836-cı ildə Rusiya Müqəddəs Sinodunun xüsusi fərmanı ilə, özünün ayrıca nizamnaməsi, xüsusi dini ayinləri olan alban xristian kilsəsi ləğv edildi. Erməni ünsürləri utanmadan Qarabağ ərazisində alban tarixinin canlı yadigarları olan dini və digər abidələri öz adlarına çıxırlar. Bu mümkün olan iş deyil. Erməni ünsürləri beynəlxalq hüquq normalarını kobud surətdə pozaraq Azərbaycanın Qarabağ bölgəsinin dağlıq ərazilərini "ARSAX" adlandırmışlar. Bu ünsürlər bilməlidilər ki, bunun üçün Azərbaycan Respublikasının qanunları qarşısında cavab verməli olacaqlar. Arsax Qarabağ deməkdir.**

**Erməni ünsürləri Qarabağa gəlmədilər. Deməli onlar icma adı daşıyırlar. Yəni erməni ünsürləri XIX əsrin əvvəllərində Azərbaycanın Dağlıq Qarabağ bölgəsinə gətirilib məskunlaşdırılmışlar. Azərbaycanlı əhaliyə qonşu olublar. Ona görə də onlar icma adlandırılır. Yerli azərbaycanlı əhaliyə icma demək olmaz.**

**Erməni ünsürləri ARSAX sözünün türk sözü olduğunu hələ də qanmırlar.**

**1215-ci ildə ARSAX-XAÇIN knyazlığına Alban Mehra-**

**nilər sulaləsinin nümayəndəsi olan Həsən Cəlal (1215-1261) rəhbərlik edirdi. Azərbaycan Atabəylər dövlətinin süqutunun gücləndiyi bir dövrdə hakimiyyətə gəlmiş Həsən Cəlal ağıllı dövlət xadimi kimi güclü qonşu dövlətlərlə əlaqə saxlamaq üçün etibarlı siyasi qurum yarada bilmişdir. Həsən Cəlal müstəqil hökmdar idi.**

**Həsən Cəlal alban katalikosunun xahişi ilə 1216-1231-ci illərdə "Albaniyanın baş kilsəsi" adlandırdığı QANZASAR kompleksini tikdirmişdir. Həsən Cəlal və onun qohumları bu monastırda dəfn olunmuşlar. Həsən Cəlalın hakimiyyəti illəri Cənubi Zaqafqaziyanın zəngin tarixi ilə sıx bağlıdır. Bu dövr feodal ara müharibələri, Atabəylər dövlətinin siyasi cəhətdən zəifləməsi, nəticədə Azərbaycanın təsərrüfat həyatının tənəzüllünə və xüsusilə də monqol hücumlarının güclənməsinə də təsadüf edir.**

**Həsən Cəlal bu ağır illərdə də albanların ərazi, siyasi və dini birliyini, milli şüurunu (milliyətcə alban olanların) qoruyub saxlamağa çalışır, çevik siyasət yeridirdi. Bütün bunlar monqolların hucumu dövründə və ondan sonra da ona hakimiyyətini saxlamaq imkanı verdi.**

**Əksər ərazisi yüksək yaylaq olan Qarabağın iqlimi mülayim, suyu bol, torpağı məhsuldar olduğu üçün tarix boyu böyük hökmdarların diqqətini cəlb etmişdir. Ərəb əsarətindən sonra Azərbaycan daha güclü işğalla qarşılaşdı. Bu işğal MONQOL işğalı kimi tarixə daxil olmuşdur. Monqolların yürüşü ərəfəsində Azərbaycanda mərkəzləşdirilmiş dövlət yox idi. Ölkədə feodal pərakəndəliyi hökm sürürdü. Azərbaycanda ELDƏNİZLƏR-ATABƏYLƏR dövləti (1136-1225-ci illər) və ŞİRVANŞAHLAR dövləti (təxminən VI əsr -1538-ci il) mövcud idi. MAĞARADA İSƏ RƏVVADİLƏR sülaləsi (1108-1227-ci illər) hökmranlıq edirdi. Azərbaycanda mövcud olan feodal pərakəndəliyindən istifadə edən ÇİNGİZ xan (1155-1227-ci illər) Azərbaycan üzərinə hücuma hazırlaşırdı.**

**Monqolların Azərbaycana ilk hücumu 1220-ci ildə başladı. CƏBƏ və SUBUTAYIN başçılıq etdikləri monqol qoşunları Zəncanı, Ərdəbili, Sərabı və başqa şəhərləri qarət edib dağıtdılar, bununla da onlar Təbrizə yaxınlaşdılar. Lakin Təbriz möhkəm qala divarları ilə əhatə olunmuşdu. Şəhəri hücumla ələ keçirmək mümkün deyildi. Bunu başa düşən monqol sərkərdələri CƏBƏ və SUBUTAY Təbrizlilərlə danışıqlara başladılar. Onlar təbrizlilərdən küllü miqdarda xərac alaraq qışlamaq üçün Azərbaycanın MUĞAN bölgəsinə getdilər.**

**Lakin çox keçmədi ki, monqollar 1221-ci ilin əvvəllərində yenidən Təbriz üzərinə yürüş etdilər. Şəhərin hakimi Şəmsəddin Tüçrayı monqollara pul, geyim və mal-qaradan ibarət çoxlu xərac verməklə Təbrizi bu dəfə də dağıdılmaqdan xilas edə bildi. Lakin monqollar Mağaranı talan etdilər, əhaliyə divan tutdular. Monqol zülmünə qarşı Həmədanda və Ərdəbildə xalq üsyanları baş verdi. Sərab şəhərini tutduqdan sonra monqollar Beyləqan şəhərinə hücum etdilər. İşğalçılar şəhərə od vurub yandırdılar, əhaliyə amansız divan tutub, çoxlu xərac aldılar.**

**Monqol qoşunlarının yeni qurbanı Şirvanın paytaxtı Şamaxı şəhəri oldu. Əhali düşmənə qarşı mərdliklə mübarizəyə qalxdı. Qüvvələr qeyri bərabər idi. Monqol döyüşçüləri şəhərə və əhaliyə görünməmiş divan tutdular. Ərəb tarixçisi Əl-Əsir şamaxılılar haqqında yazmışdır:**

**“Əhalinin qılınca sarılmaq lazımdır, bizə ölümdən qurtuluş yoxdur, döyüşmək və şərəflə ölmək hər şeydən yaxşıdır ” deyərək düşmənə qəhrəmancasına müqavimət göstərirdilər. Şamaxı şəhərinin əhalisi düşmənə qarşı üç gün vuruşdular. Sayca üstün olan monqollar çətinliklə şəhəri ələ keçirə bildilər. Yuxarıda adı çəkilən tarixçinin ifadəsincə desək, “şəhərdə əhalinin kökü kəsildi”.**

**Monqollar Azərbaycandan çoxlu qənimətlə şimala doğru hərəkət edərək, Dərbənd keçidini keçib, 1222-ci ildə**

**Monqolustana qayıtdılar. Onu da deyək ki, monqolların Azərbaycana qarşı ilk hücumu kəşfiyyat mahiyyəti daşıyırdı. Bu hücumlar Azərbaycanın ictimai-siyasi və mədəni həyatına olduqca ağır zərbə vurdu. Monqolların keçdikləri ərazilərdə maddi-mədəniyyət abidələri, ticarət yolları dağıdıldı, kənd təsərrüfatı talan edildi, əkin sahələri, xırmanlar yandırıldı və saysız-hesabsız mal-qara Monqolustana aparıldı.**

**Azərbaycan monqolların vurduqları ağır dağıntıları aradan qaldırmadığı bir şəraitdə Xarəzmşah Məhəmməd oğlu CƏLALƏDDİNİN hücumuna məruz qaldı. Onun Azərbaycan torpaqlarına dağıdıcı hücumu 1225-ci ildə başlandı. Marağa şəhərini ələ keçirən Cəlaləddin oradan Təbrizə hücum etdi. Atabəy Özbək Təbrizdən qaçdı və beləliklə də Eldənizlər-Atabəylər dövləti öz ömrünü başa vurdu. Təbriz əhalisi Cəlaləddinin qoşunlarına qarşı yeddi gün mərdliklə müqavimət göstərsələr də məğlub oldular. 1225-ci il iyul ayının 25-də Cəlaləddin Təbrizi ələ keçirdi. Bundan sonra Cəlaləddin Gəncəni, Beyləqanı, Bərdəni, Şəmkiri, başqa yaşayış məntəqələrini tutdu. Bu işğaldan sonra Ağsunqurilər dövləti də süquta uğradı.**

**Azərbaycanın sərvətləri, əhalinin əmlakları Cəlaləddinin göstərişi ilə talan olunur, əhali qılıncan keçirilirdi. Dözülməz sosial zülmə qarşı Azərbaycanda xalq hərəkatı başlanmışdır. 1231-ci ildə Cəlaləddinə qarşı GƏNCƏDƏ baş verən xalq üsyanı ən yüksək mərhələ idi. Bu üsyana xalq içərisində böyük nüfuza malik olan sənətkar BƏNDƏR başçılıq edirdi.**

**Gəncə şəhərinin daxilində yerləşən Xarəzm hərbi hissəsi məhv edildi. Üsyançılar şəhər hakimiyyətinin binasını dağıtdılar, məmurlar və digər vəzifə sahibləri öldürüldü. Gəncə sənətkarlarının başladıqları üsyana şəhərin əhalisi də qoşuldu. Ümumxalq üsyanı qarşısında aciz qalan Cəlalləddin üsyançılarla danışıqlara başlamağı təklif etdi. Danı-**

şıqlarda tarixçi NƏSƏVİ də iştirak edirdi. Səfirlər heyəti üsyançıları itaətə çağırdılar. Üsyançılarla danışıqlar aparıldığı zaman Cəlaləddinin qoşunu Gəncə şəhərinə yaxınlaşdı. O, dəfələrlə üsyançılarla danışıqlar aparmaq üçün şəhərə nümayəndələr göndərdi. Cəlaləddin şəhərə yaxın bağlardan birində ordugah qurmuşdur. Şəhərin əhalisi onlara Cəlaləddin tərəfindən əmin-amanlıq veriləcəyinə inanmır və mübarizəni qətiyyətlə davam etdirirdilər. Bəndər şəhərdən çıxıb düşmənə zərbə vurmaq qərarına gəldi. Bu mübarizədə buraxılan kobud səhv idi. Üsyançılar şəhərdən çıxmamalı idilər.

Qanlı döyüşdən sonra üsyançılar şəhərə doğru geri çəkilməli oldular. Buraxılan səhvdən istifadə edən Cəlaləddin üsyançıların ardınca özünü şəhərə sala bildi. Nəticədə üsyan amansızlıqla yatırıldı. Cəlaləddinin göstərişi və onun vəziri Şərəf əl-Mulkün məsləhəti ilə üsyanın rəhbərlərindən 30 nəfər Gəncə şəhərinin meydanında camatın gözü qarşısında edam olundular. Usyanın rəhbəri Bəndərə ən ağır cəza verildi. Cəlaləddin və vəziri Şərəf əl-Mülkün göstərişlərinə əsasən o, cəlladlar tərəfindən iti baltalarla tilətikə kötük üstündə doğrandı. Bu cəzalarla düşmənlər əhalinin mübarizə əzmini qırmaq istəyirdilər.

Xarəzmşah Cəlallədinə qarşı Xoyda, Mərənddə, Naxçıvanda və başqa şəhərlərdə də xalq hərəkatı geniş yayılmışdır. Mənbələrdə qeyd olunur ki, Cəlaləddin monqollara qarşı mübarizə aparırdı. Lakin özü də işğalçı idi. Hələ 1221- il noyabr ayının 24-də ÇİNGİZ xana məğlub olaraq Hindistana qaçmış və 1231-ci ildə yenidən Azərbaycana qayıtmış və yuxarıda qeyd olunan qanlı əməlləri törətmişdir. O, 1231-ci ildə monqolların ikinci dəfə Azərbaycana hücumu zamanı döyüşlərdə məğlub olaraq Kürdüstana qaçmış və orada 1231-ci ildə öldürülmüşdür.

Azərbaycanın cənnətməkan ölkə olması monqolların yadından çıxmırdı. Onlar 1231-ci ildə yenidən Azərbayca-

**na yürüş etdilər. Monqolların birinci yürüşləri zamanı və Xərəzimşah ordularının törətdikləri dağıntılardan özünə gələ bilməyən Azərbaycan xalqı düşmənə müqavimət göstərə bilmədi. Marağa əhalisi monqollara qarşı mübarizə aparsalar da, onlar məğlub oldular. Şəhər işğal edildi, əhali üzərinə vergi qoyuldu, Təbriz bu dəfə də çoxlu xərac verməklə dağıntıdan xilas oldu. Təbriz şəhərində olan mahir sənətkarlar, monqolların vətəni olan QARAQORUMA göndərildilər.**

**Monqollar Təbrizdən sonra yenidən qədim Gəncə şəhəri üzərinə yürüş etdilər. Gəncəlilər monqol işğalçılarına güclü müqavimət göstərdilər. Şəhərin qala divarlarını dağıdan monqollar qorxudan şəhərə girmədilər. Şəhər əhalisi əmlaklarının düşmən əlinə keçməsin deyə yandırırdılar. Yalnız döyüşdən bir həftə keçdikdən sonra monqollar şəhərə girə bildilər. Buna baxmayaraq gəncəlilərlə monqollar arasında qanlı mübarizə uzun çəkdi, nəhayət onlar 1235-ci ildə dahi NİZAMİNİN doğma şəhəri olan Gəncəni bütövlükdə işğal edə bildilər. 4 il Gəncə xaraba qaldı...**

**Monqollar ikinci dəfə yürüşləri zamanı Azərbaycanın başqa şəhərlərində də dağıntılar törətdilər, saysız-hesabsız insanları qılıncdan keçirdilər...**

**1256-cı ildə Monqol Hülakü xan Bağdadı ələ keçirərək, 508 il mövcud olan Abbasilər xilafətinə son qoydu. Bununla da HÜLAKÜLƏR (ELXANİKLƏR) dövləti yarandı. Azərbaycan Hülakülər dövlətinin siyasi-inzibati mərkəzləri Marağa və Təbriz şəhərləri olmuşdur. Çingiz xanın nəvəsi olan Hülakü xan 1265-ci il avqust ayının 2-də vəfat etmişdir.**

**XIII-XIV əsrlərdə Azərbaycanın Aran, Şirvan, Şəki, Muğan, Qarabağ və Arasbar əraziləri Azərbaycanın tərkibinə daxil olub, siyasi-ictimai, etnik-mədəni və mənəvi baxımdan onun ayrılmaz tərkib hissləri idilər.**

**"Əcaib Əd-dünya" adlı, müəllifi məlum olmayan mənbə xəbər verir ki, "XIII əsrdə türklər Aranda əsas etnik**

**qrup idi, burada 10 min türk süvarisi var idi".**

**Qarabağda XIII əsrdə də xeyli sayda alban etnik qrup yaşayırdı. Hülaki xanın dövründə Azərbaycana gələn etnik qruplar say etibarı ilə az idilər. Ona görə də türklər böyük üstünlük təşkil edirdilər. Türk dili, dövlət dili səviyyəsinə çatmışdır. XIV əsrdə Hülakülər dövləti ərazisində türklər mühüm, Azərbaycanda isə əsas yer tuturdular.**

**Hülakülər dövründə (1256-1357-ci illər) Azərbaycana gələn 16-dan çox qəbilə içərisində haylar olmamışdır. Onların Cənubi Zaqafqaziyaya ayaq açmaları XIX əsrin üçüncü onilliyinə təsadüf edir. QARABAĞ HÜLAKÜLƏR dövləti tərkibində siyasi, ictimai-iqtisadi və mədəni cəhətdən mühüm yer tuturdu. Təsadüfi deyildir ki, QAZAN XAN 1295-ci ildə Qarabağda Hülakilər dövlətinin başçısı təyin olunmuşdur. Aqra xan da Qarabağda Hülakülərin hökmdarı seçilmişdir.**

**XII-XIII əsrlər Azərbaycan tarixinin ən ağır dövrləri idi. Ərəb işğalı və onu əvəz edən monqol yürüşləri siyasi və ictimai həyata ağır zərbə vurmuşdur. Sosial və mədəni həyat tənəzzül dövrü keçirirdi. Bu dövrdə Azərbaycan İslam qanunları əsasında idarə olunurdu. Monqol qoşunlarının ardınca Azərbaycana axışan köçərilərlə əhali arasında mövcud olan münaqişə də tamamilə aradan götürülməmişdir. Bütün bunlar Azərbaycanın tarixi bölgəsi olan Qarabağda da mövcud idi.**

**Hülakü dövlətinin qış iqamətgahının Azərbaycanın tarixi bölgəsi olan Qarabağda yerləşməsi, yuxarıda deyildiyi kimi, hökmdarların burada elan olunması, bölgədə mövcud olan vəziyyətin tədricən müsbətə doğru dəyişməsinə səbəb oldu.**

**Azərbaycanın Qarabağ bölgəsində həyat tədricən inkişaf edir və təsərrüfat dirçəlirdi.**

**Fəzullah Rəşidəddin (1247-1318- ci illər) özünün "Cami ət- təvarix" əsərində Azərbaycanın Qarabağ bölgəsi ba-**

rədə ətraflı məlumat vermişdir. "Oğuznamə" əsərində müəllif göstərir ki, Oğuz türkləri Azərbaycanın ərazisində Azərbaycan dövləti yaratmışlar. Rəşidəddinin yuxarıda adları çəkilən "Cami ət- təvarix" və "Oğuznamə" əsərləri Azərbaycanın və onun Qarabağ bölgəsinin siyasi, iqtisadi və sosial tarixini öyrənmək üçün qiymətli mənbələrdi.

Qazan xanın vəfatından (1304-cü il) sonra Hülakülər (Elxanilər) dövləti ara çəkişmələri nəticəsində zəifləmə dövrünə düçar oldu. Bundan istifadə edən QIZIL ORDA xanları Azərbaycan üzərinə hücuma başladılar.

1335-ci ildə Sultan Əbu Səid Qızıl Orda ilə mübarizə aparmaq üçün Qarabağa, Kür çayının sahilinə gəldi. Bunu eşidən Qızıl Orda xanı təcili surətdə Kür sahilinə döndü. Lakin Qızıl Orda xanı Özbək vuruşmağa cəsarət göstərmədi və geri qayıtmağa məcbur oldu. Az keçmədi ki, Əbu Səid saray münaqişələri nəticəsində öldürüldü. Elxanilər dövlətinin süqutu, bu hadisədən sonra daha da sürətləndi...

1315-ci ildə Hülakülər dövlətinin vəziyyəti olduqca ağır idi. Qızıl Orda xanı Azərbaycanı ələ keçirmək üçün Misir məmlükləri ilə ittifaq bağladı. 1318-ci ildə onlar Elxanilər dövlətinin ərazisinə hücum etdilər. Bu hucum heç bir nəticə vermədi. Baş əmir Çobanın başçılıq etdiyi elxani qüvvələri qızılordaların birləşmiş qüvvələrini məğlubiyyətə uğrada bildilər.

1335-ci ildə Qızıl Orda xanı Özbək iki dəfə Azərbaycana hücum etdi. Onun bu hücumları da nəticəsiz başa çatdı. Əbu Səid Bağdad və Diyarbəkirdə olan qoşunlarını ARANA göndərdi. Siyasi vəziyyətin böhranı dövründə Sultan Əbu Səid arvadı Bağdad Xatun tərəfindən Qarabağda zəhərləndi və dünyasını dəyişdi. Bundan istifadə edən Qızıl Orda xanı Özbək Azərbaycana hücum edərək Kür çayına kimi irəliləyə bildi. Lakin Əbu Səidin varisi AQRA xan düşməni ay yarım döyüşdən sonra ölkədən qova bildi.

Qızıl Orda xanlarının Azrbaycan uğrunda mübarizələ-

**ri XIV əsrin ortalarına qədər davam etdi. Ölkənin bu dövrdə daxili vəziyyəti daha da ağırlaşdı. Xalq kütlələri ağır zülm altında idi. Çobani feodallarına qarşı xalqın mübarizəsindən istifadə edən Canı bəy yerli feodallarla ittifaqa girərək, müqavimətsiz Azərbaycan ərazisinə daxil oldu. Təbrizi ələ keçirən Cani bəy, öz xalqına qarşı qəddarlıq edən Çobani əmri Məlik Əşrəfi əsir aldı və edam etdirdi. 1357-ci ildə baş verən bu hadisə, Azərbaycanda Elxanilər dövlətinin süqutuna və Azərbaycanın müvəqqəti olaraq Qızıl Orda dövlətinə tabe olmasına səbəb oldu.**

**Şeyx Üveysin hakimiyyəti dövründə Azərbaycanda əvəllər olduğu kimi siyasi-iqtisadi və sosial vəziyyət gərgin olaraq qalırdı. Ölkədə tez-tez üsyanlar baş verirdi. Şeyx Üveysin Bağdadda olmasından istifadə edən Şirvanşah Kavus iki dəfə Qarabağa hucum etdi və əhalinin bir hissəsini zorla Şirvana köçürtdü. Köçürmədə məqsəd, Şirvanı işçi qüvvəsi ilə təmin etmək idi.**

**1367-ci ildə Bayram bəyin rəhbərliyi ilə Cəlairli qoşunu Şirvana daxil oldu və üç ay Şirvanda qaldı. Şirvanın hakmi Kavus yaranmış olan çətin vəziyyətdən çıxış yolunu Bayram bəylə danışıqda gördüyündən, onunla danışığa girdi. Bayram bəy onu tutaraq Şeyx Üveysin hüzuruna göndərdi və Şirvanı tamamilə ələ keçirdi. 1374-cü ildə Şeyx Üveys öldükdən sonra, hakimiyyətə onun oğlu gəldi.**

**Sultan Hüseyn (1374-1382-ci illər) hakimiyyətə gəldikdən sonra Cəlalirlər dövlətinin daxilində feodal ara müharibələri gücləndi. Şirazda Şah Süca, Diyarbəkirdə Qaraqoyunlu Qara Məhəmməd Cəlairlərə qarşı çıxaraq onların hakimiyyətini tanımaqdan imtina etdilər.**

**Şah Süca 1376-cı ildə Cəlairli qoşununu döyüşdə məğlub edərək Təbrizə daxil oldu. Lakin o, dövlət işləri ilə yox, vaxtını eyş-işrətə sərf etdi. 1377-ci ildə Azərbaycana gələn Şah Hüseynə müqavimət göstərə bilməyən Şah Süca yenidən Şiraza qayıtmalı oldu. Cəlairlər Qaraqoyunlu Bayram**

**Xacəni və Diyarbəkir hakimi Qara Məhəmmədi də özlərinə tabe edə bildilər.**

**Sultan Hüseyn dövlət xəzinəsini doldurmaq məqsədilə əhalinin ödədiyi vergiləri xeyli artırdı. Feodallar da Sultan Hüseynin daxili və xarici siyasətindən narazı idilər. Bundan istifadə edən Sultan Hüseynin qardaşı Sultan Əhməd Muğana və Arana gələrək, xeyli sayda qoşun toplayaraq Təbrizə gəldi və qardaşını öldürdü. O, 1382-ci ildən fasilələrlə Cəlairlər dövlətini 1410-cu ilə qədər idarə etdi. Bundan sonra Azərbaycanda yeni dövlət – QARAQOYUNLU dövləti yarandı. Azərbaycan və onun tarixi bölgəsi olan Qarabağ da Qaraqoyunlu dövlətinin tərkibində idi.**

**XIV əsrin ortalarında Azərbaycanda hökm sürən siyasi sabitsizlik əvəllər olduğu kimi qalırdı. Əmir Teymur və Toxtamış bundan istifadə edərək Azərbaycanı ələ keçirmək fikrində idilər. 1385-ci ildə Əmir Teymur qonşu dövlətlərin bəzilərinə məktub göndərərək ona tabe olmalarını tələb etdi. Lakin o, məktubuna müsbət cavab almadı.**

**Əmir Teymur XORASANI tutdu. O, buradan Azərbaycana doğru hərəkət etdi. Cəlairli Sultan Əhməd ona qarşı qoşun göndərdi. Sultaniyyə ətrafında baş verən döyüşdə Cəlairli qoşunu darmadağın edildi. Əmir Teymur Sultaniyyə şəhərini ələ keçirdi. Bu zaman Orta Asiyada daxili vəziyyətin gərginləşməsi haqqında Teymura xəbər verildi. O, təcili olaraq Səmərqəndə qayıtmalı oldu.**

**Əmir Teymurun Səmərqəndə qayıtması, Sultan Əhmədin Bağdadda olması, Qızıl Orda xanı Toxtamışın Azərbaycana qarşı işğalçı hücumuna şərait yaratdı. O, 1385-ci ildə Azərbaycana hücum etdi. Toxtamış 90 min qoşunla Təbrizi tutdu və əhalini qarət etdi. Təbrizlilər 8 gün ordalılara müqavimət göstərdilərsə də zülmdən yaxa qurtara bilmədilər.**

**Toxtamış Marağanı işğal və qarət etdikdən sonra, burada öz qoşununu iki hissəyə bölüb, bir hissəsini Mərəndə,**

**bir hissəsini də Naxçıvana göndərdi. Onlar həmin şəhərləri işğal edərək, əhalinin var-dövlətini əllərindən aldıqdan sonra Azərbaycanın Qarabağ bölgəsində birləşməli idilər. Bundan sonra onlar buradan şimal istiqamətində geri çəkilməli idilər. Tarixi mənbələrdə qeyd olunur ki, Toxtamış Azərbaycandan geri qayıdarkən 200 min nəfər adamı əsir aparmışdılar.**

**Müntəzəm olaraq bir-birini əvəz edən xarici hücumlar, eyni zamanda da daxili feodal ara müharibələri Azərbaycanda ağır siyasi-iqtisadi və sosial fəlakətlər törətmişdi. Əhalinin bütün sosial təbəqələri - şəhər və kənd əhalisi, sənətkarlar, tacirlər və din xadimləri ağır vəziyyətə düşmüşdülər.**

**Toxtamışın ardınca, 1386-cı ildə Cənubi Zaqafqaziyaya Əmir Teymurun ikinci hücumu başladı. Təbrizi ələ keçirən Teymur oradan Naxçıvana getdi. Əlincə qalasının ətrafında bir günlük vuruşmadan sonra Azərbaycanın Qarabağ bölgəsinə qışlamağı qərara aldı. Əmir Teymur Qarabağda olarkən Şirvanşah I İbrahim qiymətli hədiyyələrlə onun görüşünə getdi.**

**Əmir Teymurun şəxsi tarixçisi ŞƏRAFƏDDİN ƏLİ Yəzdinin verdiyi məlumata görə I İbrahim hər bir hədiyyədən 9 ədəd aparmışdır, lakin qullardan 8 nəfər götürmüşdü. Təqdimat zamanı I İbrahim qullarla bir sırada durmuş və Teymura olan itaətini nümayiş etdirmişdir.**

**Əlincə qalası istisna olmaqla, Əmir Teymur bütün Azərbaycan ərazisini işğal etmişdir. ƏLİNCƏ QALASI 1387-ci İLDƏN 1401-ci ilə qədər mühasirədə qaldi. 1399-cu ildə Əmir Teymur Hindistan səfərindən qayıtdıqdan sonra, Azərbaycanın yenə də Qarabağ bölgəsinə gəldi. 1401-ci ildə ƏLİNCƏ qalası da Teymura tabe oldu. Bir müddətdən sonra Əmir Teymur Səmərqəndə qayıtdı. Uzun sürən hərbi yürüşlər, Əmir Teymurun səhhətinə ağır təsir göstərmişdir. O, Azərbaycanın Qarabağ bölgəsində müharibələr nəti-**

**cəsində dağılmış suvarma kanallarının və BEYLƏQAN şəhərinin təmir olunmasını həyata keçirmişdir.**

**Azərbaycanın Qarabağ bölgəsində baş verən hadisələrdən biri də Əmir Teymurun ən əziz və sevimli adamı olan Seyid BƏRKƏNİN gözlənilmədən dünyasını dəyişməsi idi. Bu hadisə Əmir Teymura ağır təsir göstərdi... Seyid Bərkənin cənazəsi Əmir Teymurun sevimli şəhəri Səmərqəndə aparıldı və orada torpağa tapşırıldı.**

**Əmir Teymurun səhhəti 1405-ci ilin əvvəllərində daha da ağırlaşdı. Həmin il fevral ayının 17-də səhər həkim Fəzullah özündə cəsarət tapıb, Əmir Teymura həqiqəti söyləməyi qərara aldı. Həkim göz yaşları tökərək Əmir Teymura dedi ki, VƏSİYYƏTİNİ etsin... Beləliklə ƏMİR TEYMUR əbədiyyətə qovuşdu.**

**1507-ci ildə MƏHƏMMƏD ŞEYBANİNİN başçılıq etdiyi köçəri özbəklər Orta Asiya və Xorasanı tutaraq teymurilər dövlətinin varlığına son qoydular.**

**AZƏRBAYCANDA DÖVLƏT QURLUŞU VƏ İDARƏÇİLİK SİSTEMİNDƏN danışarkən qeyd etmək lazımdır ki, Hülakülər dövləti hərbi-feodal dövləti idi. Monqol imperiyası isə mükəmməl idarə sisteminə yiyələnmişdir. Lakin hər iki dövlət quru səhralara və ya zəif inkişaf etmiş ölkəyə deyil, siyasi-iqtisadi, mənəvi və mədəni cəhətdən inkişaf etmiş bir diyara gəlmiş, dünya şöhrətli yüksək mədəniyyətə malik olan xalqlarla qarşılaşmışdılar.**

**Azərbaycanda iki ənənəvi idarə sistemi - yerli və köçəri monqollara malik olan sistemlərin qarşılıqlı təsiri tədricən vahid, təkmilləşmiş, idarə sistemi bərqərar olmuşdur. Lakin monqollar hərbi sahədə öz üstünlüklərini qoruyub saxlamışdılar. Mülki idarəçilikdə və maliyyə sistemində yerli sistem üstünlük təşkil edirdi. Eyni zamanda da monqollar qədim, mükəmməl dövlətçilik ənənələrinə malik olan Azərbaycanın müsbət cəhətlərini mənimsəyirdilər.**

**Hülakülər dövlətində ölkənin ali hakimiyyət orqanı**

**qurultay idi. Qurultaylar iki yerə bölünürdü. Daşıdıqları siyasi əhəmiyyətə görə qurultaylar böyük və adi qurultaylar idi. Böyük qurultayda ən mühüm məsələlər müzakirə olunurdu. Böyük qurultayda elxanlar seçilir, vilayət hakimləri və mühüm dövlət məmurları təyin edilir, hərbi təsərrüfat planları müzakirə olunur və səs çoxluğu ilə qəbul olunurdu. Adi qurultaylarda adətən az əhəmiyyətə malik olan məsələlər müzakirə olunurdu.**

**Ölkənin başçısı Elxan (Sultan) dövlətin yerləşdiyi ərazinin mütləq hakimi idi, onun səlahiyyətlərini məhdudlaşdırmaq olmazdı. Hakimiyyətdə atanı oğul əvəz edirdi. Hülakülər dövlətində adi idarə sistemində ikinci yerli naib əs-səltənət tuturdu. Naiblər Elxan ölkədə olmadığı zaman onu əvəz edir, ölkənin daxili vəziyyəti və mühüm xəbərlərlə onu məlumatlandırırdı.**

**Monqollar dövründə Azərbaycanda dövlət idarəçiliyində üçüncü yeri baş əmr Əmir-ül Ümarə tuturdu. Hərbi və inzbati bölgü bir-biri ilə sıx bağlı idi.**

**Monqollar dövründə mərkəzi divanlar (məhkəmələr) vəzirlər tərəfindən idarə olunurdu. Vəzirlər ölkənin iqtisadi vəziyyətini sahmana salır, inkişafı, tənəzzülü müəyyənləşdirir və maliyyə məsələlərini həll edirdilər. Dövlətin ərazisi vilayətlərə, onlar da öz növbələrində tümənlərə bölünürdü. Hakimlər vilayətləri idarə edirdilər.**

**Monqollar dövründə ölkənin dini idarəsi baş ruhani təşkilatına məxsus idi. Mərkəzi dini təşkilatda dörd aparıcı qazi iştirak edirdi. Onların hər biri İslamın ən çox seçilən təriqətlərindən birini təmsil edirdi.**

**Baş qazi dini mühakimlərin araşdırılması, xəzinənin mühafizəsi, vəqf gəlirlərinin toplanması və məsrəfin üzərində nəzarəti, kəbin kəsilməsi, ölkədə İslamın inkişaf edib möhkəmlənməsi və başqa vəzifələri yerinə yetirirdi.**

**Əhalinin ən çox toplandığı yer məscidlər idi. Məscidlərdə məhkəmə iclaslarının aparılması qadağan idi. Dini**

**məhkəmələr öz fəaliyyətlərində müstəqil olub, yalnız baş qaziyə və sultana tabe idi.**

**Eyni vəziyyət Azərbaycanın Qarabağ bölgəsində də mövcud idi.**

**Yuxarıda qeyd etdiyimiz kimi XIII-XIV əsrlərdə Azərbaycanda köçəri maldarlıqla məşğul olan əhalinin sayı artmışdır. Mal-qara üçün əlverişli şəraitə malik olan Azərbaycan ərazisi, o cümlədən də Qarabağ bölgəsində türk-monqol tayfalarının sürətlə məskunlaşması davam edirdi. Qarabağda gəlmə tayfalar yerli əhali ilə tez-tez qarşı-qarşıya dururdular. Gəlmələr Azərbaycanın yerli oturaq əkinçi əhalisinə qarşı talançı hücumlar edir, onların otlaq sahələrini və mülklərini ələ keçirirdilər.**

**Azərbaycanın Qarabağ bölgəsində kənd təsərrüfatının bütün sahələri inkişaf etmişdir. Torpağın əsas hissəsi monqol əyyanlarının ixtiyarında idi. Divan və xassə torpaqları monqolların ali təbəqəsinin əlində cəmləşmişdir. Qarabağ ərazisində də monqol feodallarına çoxlu igta torpaqları bağışlanmışdır. Əhalinin üzərinə qoyulan mükəlləfiyyətlərdən biri də TƏRX mükəlləfiyyəti idi. Mükəlləfiyyətin mahiyyəti ondan ibarət idi ki, əhali dövlət anbarlarında yığılıb qalan artıq kənd təsərrüfatı məhsullarını bazar qiymətlərindən bir neçə dəfə yüksək qiymətə almağa məcbur olunmaları idi.**

**Qazan xanın (1295-1304-cü llər) islahatları Azərbaycanın bütün bölgələrinə də şamil olunmuşdur. Həmin islahatlar 1297-1304 cü illəri əhatə edirdi.**

**Monqollar dövründə Azərbaycanda sənətkarlığın inkişafı mənbələrdə öz əksini tapmışdır. Məişət üçün avadanlıqlar, xalça, toxuculuq, bədii sənət nümunələri, müxtəlif silah növləri, metal işləmə və digərləri inkişaf etmişdir.**

**Sənətkarları birləşdirən ƏXİ təşkilatları Azərbaycanın Qarabağ bölgəsinin Gəncə, Beyləqan bölgələrində də yaradılmışdır.**

**Azərbaycanın hər yerində olduğu kimi, onun Qarabağ bölgəsində də ticarət və maliyyə dövriyyəsi inkişaf etmişdir. XIV əsrdə bu sahədə xeyli irəliləyiş baş verdi. Ticarətdə toxuculuq, ipəkçilik, xalçaçılıq, zərgərlik məmulatları, metalişləmə, şüşə, saxsı qablar istehsalı, ayaqqabı, xəz-dəri məmulatı istehsalı və başqa sənət sahələri inkişaf etmişdir. Əsas əmtəə məhsulları xam ipək, pambıq, taxıl, ipək, yun və pambıq parçalar, kətan parça, pambıqdan toxunan müxtəlif geyimlər, qoyun yunundan hazırlanan müxtəlif yaraşıqlı corablar, üst geyimləri, çuxa, çalma, xalça, tabaq, kasa, kürə, daraq, ayaqqabı, çul, müxtəlif qablar, zinət əşyaları və sairə idi.**

**Azərbaycanın Qarabağ bölgəsinin Gəncə, Bərdə, Qəbələ ipəyi dövrün şöhrəti idi. Azərbaycan ərazisindən keçən ticarət yolları bir sıra ölkələrlə ticarət əlaqələri saxlamağa əlverişli şərait yaradırdı. Bərdə ipəyi Fransa və Xuzistana ixrac olunurdu.**

**Gəncədə, Beyləqanda böyük bazarlar mövcud idi. Azərbaycan Çin, Hindistan, İraq, Misir, Rusiya və Avropanın müxtəlif ölkələri ilə ticarət əlaqələri saxlayırdı. İpək ticarət yolunun Azərbaycan ərazisindən keçməsi ticarət dövriyyəsinin inkişafına böyük təsir göstərirdi.**

**Ticarətdə qızıl, gümüş və tümən dövriyyədə idi.**

**XV əsrin ilk illərində Şirvan və Şəki istisna olmaqla bütün Azərbaycan Teymurilərin hakimiyyəti altında idi. Teymuri Miranşahın Azərbaycanda həyata keçirdiyi daxili və xarici siyasət xalqın narazılığına gətirib çıxardı. Bu dövrdə Azərbaycanda hürufilik hərəkatı geniş vüsət almışdı. Bu hərəkat dini ehkamlara və teymurilərin işğalına qarşı çevrilmişdir. Teymurulər onlara qarşı mübarizəyə qalxan qüvvələrlə və hürufilərə qarşı ağır cəza tədbirləri görürdülər.**

**1402-ci ildə hürufilərin ideoloji rəhbəri olan Fəzullah Nəimini edam etdilər. Ağır cəza tədbirlərinə baxmayaraq**

**Azərbaycanda teymirilərə qarşı xalqın mübarizəsi yeni mərhələyə daxil oldu. Əmir Teymurun vəfatından sonra bu hərəkat məzmunca yeni inkişaf pilləsinə daxil oldu. Təbriz əhalisi Şeyx Əli Qəssab və Qazi İmaməddinin başçılığı ilə üsyana qalxdı.**

**Bu zaman yaranmış olan tarixi şəraitdən bacarıqla istifadə edən Şirvanşah I İbrahim Azərbaycanın Qarabağ bölgəsinin çox hissəsini və Gəncəni özünə tabe etdi.**

**I İbrahim, Ərdəbil hakimi Bestam Cagir, Şəki hakimi Seyid Əhməd və Gəncə hakimi Əmir Qaraman Teymuri Ömərə qarşı qüvvələrini birləşdirdilər. Bunu eşidən Teymuri Ömər Kür çayını keçib yeni hücuma başlamağa cürət etmədi və geri qayıtdı.**

**Bu hadisədən sonra Azərbaycan müvəqqəti olaraq Miranşahın oğlu Əbubəkirin hakimiyyətinə tabe oldu. Azərbaycan xalqı Əbubəkrə qarşı mübarizəyə qalxdı. Hər yerdə monqol zülmünə qarşı xalq üsyanları yeni mərhələyə yüksəldi.**

**Teymurilərə qarşı başlanan hərəkatdan istifadə edən Sultan Əhməd 1406-cı ildə Təbrizi yenidən tutdu və Cəlairi dövlətini bərpa etdi. Qısa müddətdən sonra təbrizlilər Əhmədin zülmünə dözməyərək Əbubəkrə müraciət edib onu şəhərə dəvət etdilər. Əhməd vəziyyətin çıxılmaz olduğunu hiss edərək Bağdada qaçdı.**

**Əbubəkir tezliklə Qaraqoyunlu Qara Yusif tərəfindən məğlubiyyətə uğradıldı.**

**QARAQOYUNLU DÖVLƏTİNİN YARANMASI. Azərbaycanda teymurilərə qarşı azadlıq mübarizəsinin başlanmasından istifadə edən Qara Yusif 1410-cu ilin avqust ayında Təbriz yaxınlığında baş verən döyüşdə Sultan Əhmədi məğlubiyyətə uğratdı. Beləliklə də Kür çayının cənubunda yerləşən Azərbaycan torpaqlarında Azərbaycan dövləti – QARAQOYUNLU DÖVLƏTİ yarandı. Qaraqoyunlu dövləti 1410-cu ildən 1468-ci ilə kimi mövcud olmuşdur.**

**Azərbaycan xalqının milli təşəkkülündə hələ VI- VII əsrdə iştirak etmiş Oğuz tayfalarından olan qaraqoyunlular bu dövlətin hərbi-siyasi həyatında fəal iştirak edirdilər. Qaraqoyunlu dövlətinin mərkəzi şəhəri Təbriz idi. Qaraqoyunlu dövləti geniş əraziləri özündə birləşdirirdi.**

**Müxtəlif zaman kəsiyində Gürcüstanın, İraqın və İranın qərb hissələri də Qaraqoyunlu dövlətinin tərkibində olmuşdur. Güclü siyasi-hərbi qüvvəyə malik olan Qara Yusif bütün Azərbaycan torpaqlarını öz hakimiyyəti altında birləşdirmək üçün Şirvan torpaqlarını da öz dövlətinə tabe etməyə çalışırdı.**

**Azərbaycanın Qarabağ bölgəsi lap əvvəldən Qaraqoyunlu dövlətinin tərkibində idi.**

**Qaraqoyunluları təşkil edən 8 tayfalar Baharlı, Sədli, Qaramanlı, Alpoud, Duharlı, Cağırli, Hacılı, Ağacəri idilər. Bu tayfalar arasında Baharlı və Sədli oymaqları xüsusi mövqe tuturdular. Sədli oymağının qədim Vətəni Naxçvan və Sürməli idi. Bayram Xocanın başçılığı ilə Qaraqoyunlular XIV əsrdə Şərqi Anadoluda bəylik yaratmışdılar. Bayram Xoca Cəlairli Sultan Üveysin Təbriz sarayında nüfuz sahibi əmrlərdən biri idi.**

**Qaraqoyunlu Qara Yusifin hərbi qüvvələri ilə Əbubəkrin qüvvələri, 1406-cı il oktyabrın 14-də Naxçıvan şəhərinin qərbində, Araz çayının sahilində üz-üzə gəldilər. Döyüş Qara Yusifin qələbəsi ilə başa çatdı. Əbubəkir yenidən Azərbaycanı ələ keçirmək məqsədilə hərbi yürüşə hazırlaşmağa başladı. Bunu eşidən Qara Yusif Təbriz yaxınlığında yerləşən Şənbi-Qazana gəldi. 1408 –ci il aprel ayının 21–də 20 min nəfərlik Qaraqoyunlu qoşunu monqol qoşunlarını darmadağın edərək Miranşahı öldürdü. Əbubəkr isə qaçmaqla canını qurtara bildi.**

**Qaraqoyunlu dövlətinin ən qəddar düşməni Xorasanda yerləşən Teymuri hökmdarı Şahrux idi. O, 1420-ci ilin yayında 200 minlik qoşunla Azərbaycana doğru hərəkətə**

**başladı. Qara Yusif rəqibi layiqincə cəzalandırmaq üçün 50 minlik qoşunla Təbrizdən çıxdı. Şahrux qüdrətli sərkərdə olan Qara Yusifdən qorxurdu...**

**Qara Yusif hərbi səfərə gedərkən, gözlənilmədən yolda xəstələndi və vəfat etdi. Qara Yusif 1355-1420-ci illər arasında yaşamışdır. Onun vəfatı Qaraqoyunlu ordugahında böyük çaxnaşmaya və hərcmərcliyə səbəb oldu. Baş vermiş hərc-mərclikdən istifadə edən Şahrux müqavimətsiz Təbrizə daxil oldu. Qaraqoyunlu dövləti müvəqqəti olaraq süqut etdi.**

**Teymuri Şahrux Təbrizi tərk etdikdən sonra Qara Yusifin oğlu İSGƏNDƏR yenidən buraya gəldi və Qaraqoyunlu dövlətini bərpa etdi.**

**Şahrux 1429-cu ilin yayında 100 min nəfərlik qoşunla ikinci dəfə Azərbaycana hücum etdi. İsgəndər bu döyüşdə məğlub oldu.**

**Şahrux başa düşürdü ki, Qaraqoyunlu dövlətini öz gücü ilə aradan götürə bilməyəcək. Ona görə də Qara Yusifin oğlanları arasında baş verən düşmənçilikdən istifadə etmək qərarına gəldi. Şahrux Qara Yusifin son beşiyi olan Əbu Səidi öz tərəfinə çəkməyə müvəffəq oldu.**

**1430-cu ildə Azərbaycanın Qarabağ bölgəsində qışlayan Şahrux yanına gəlmiş Əbu Səidi Azərbaycanın hakimi təyin etdi. Vəzifə düşgünü olan Əbu Səid atasına və qardaşlarına xəyanət edərək Şahruxun təklifini qəbul etdi. Aradan 5-6 ay keçdikdən sonra İsgəndər Təbrizə daxil oldu, qardaşı Əbu Səidi dövlətə xəyanətkarlıqda günahlandıraraq öldürdü və yenidən hakimiyyəti öz əlinə aldı.**

**Qaraqoyunlu şahzadələri arasında baş verən münaqişələr Teymuri Şahruxun Azərbaycana 1435-ci ildə üçüncü dəfə yürüş etməyə imkan yaratdı. Həmin ildə Rey şəhərində qışlayan Şahrux Van şəhərində olan Cahanşahı öz yanına dəvət edib, Teymurilərin vassalığını (aslıllığını) qəbul etmək şərti ilə Azərbaycanın hakimi təyin etdi.**

**Cahanşah qardaşı İsgəndərin hakimiyyətini öz əlinə aldı. Bu qardaşlar arasında müharibəyə səbəb oldu. İsgəndər 1438-ci ildə döyüşdə məğlub olub, ƏLİNCƏ qalasında gizləndi və oğlu tərəfindən orada qətlə yetirildi.**

**1447-ci ildə Şahrux öldükdən sonra Cahanşah müstəqil hökmdar elan olundu. Onun hakimiyyəti dövründə də daxili çəkişmələr davam edirdi. Bu çəkişmələrin mərkəzində Cahanşahın oğlanları dayanırdı.**

**Azərbaycan Qaraqoyunlu dövləti, daxili və xarici gərginliyə baxmayaraq, 1410-cu ildən 1468-ci ilə qədər mövcud olmuşdur. 58 il ərzində Azərbaycanın Qarabağ bölgəsi Qaraqoyunlu dövlətinin siyasi, iqtisadi, mədəni və sosial həyatında olduqca mühüm yer tutmuşdur.**

**Yuxarıda deyildiyi kimi Qaraqoyunlu dövlətinin süqutunun qarşısını almaq Cahanşaha müyəssər olmadı. Eyni kökdən ibarət olan AĞQOYUNLULARIN da müqavimətini sarsıda bilmədi. Qaraqoyunlu dövlətinin tarixə qovuşduğu şəraitdə, Ağqoyunlu tayfa ittifaqının siyasi həyatda yüksəlişi davam edirdi. Ağqoyunlular Azərbaycan xalqının təşəkkülündə iştirak etmiş OĞUZ tayfalarından idilər.**

**AĞQOYUNLU DÖVLƏTİ. Oğuz türkləri Ağqoyunlular XIV əsrdə kiçik Asiyanın şərqində məskunlaşmış Qaraqoyunlulardan qərbdə yaşayırdılar. Ağqoyunlu ittifaqına daxil olan etnik qruplar da Qaraqoyunlu tayfaları kimi Oğuz mənşəli idi.**

**XV əsrin əvvəllərində Ağqoyunlu tayfa ittifaqı Osmanlı sultanlığına qarşı apardığı mübarizələrlə yanaşı, Qara Yusifə də düşmən münasibət bəsləyirdilər. Azərbaycan ərazisində, o cümlədən də onun Qarabağ bölgəsində yerləşən Ağqoyunlu tayfa ittifaqı getdikcə siyasi həyatda özünəməxsus yer tuturdular. Onlar Qaraqoyunlulara qarşı mübarizəyə başladılar. Bu mübarizə XV əsrin 40-50-ci illərindən etibarən daha da gücləndi. Bu mübarizələrdə UZUN HƏSƏN xüsusi şücaət göstərirdi. Uzun Həsən qısa müddət**

**ərzində siyasi, iqtisadi, mədəni və sosial cəhətdən inkişaf etmiş AĞQOYUNLU dövlətini (1468-1501-ci illər) yaratdı.**

**1467-ci il noyabr ayının 11-də Ağqoyunlularla Qaraqoyunlular arasında baş verən MUŞ döyüşündən sonra Qaraqoyunlular bir daha özünə gələ bilmədi. Uzun Həsən Osmanlılara qarşı aramsız müharibələr aparmalı oldu. Onun bu müharibələrdə əsas məqsədi Osmanlıların şərqə doğru irəliləmələrinin qarşısını almaq idi.**

**Qaraqoyunlu dövlətinin ərazisi Ağqoyunlu dövlətinə məxsus idi. Dövlətin mərkəz şəhəri Təbriz idi. Ağqoyunlu dövlətinin siyasi, iqtisadi həyatında oturaq feodallar, şəhər əhalisi və hərbi-siyasi işlərində isə köçəri əyanlar əsas mövqe tuturdular. Qaraqoyunlu dövləti ilə müqayisədə Ağqoyunlu dövləti olduqca güclü idi.**

**Ağqoyunlu dövlətinin siyasi və iqtisadi cəhətdən möhkəmləndirilməsində Uzun Həsənin hazırladıb qəbul etdiyi "QANUNNAMƏ" (Həsən padşahın qanunları) olduqca böyük əhəmiyyətə malik oldu. Ağqoyunlu dövlətində həyata keçirilən bütün siyasi, iqtisadi, mədəni və sosial tədbirlər, onun tərkibində olan Azərbaycanın Qarabağ bölgəsinə də aid idi. Uzun Həsən daxili və xarici siyasətdə çeviklik nümayiş etdirirdi. O, ömrünün sonuna kimi Şirvanşah Fərrux Yasarla və Ərdəbil şeyxi Heydər Səfəvi ilə mehriban dostluq münasibətləri saxlamışdır. Uzun Həsən öz qızını Şeyx Heydərə ərə vermişdir. Uzun Həsənin vəfatından sonra (5 yanvar 1478-ci il) Ağqoyunlu dövlətində daxili vəziyyət zəiflədi. Köçəri əyanların ehtiyaclarını ödəmək üçün onlara böyük güzəştlər etmiş və geniş torpaq sahələri ələ keçirmiş UZUN HƏSƏNİN YARATDIĞI Ağqoyunlu dövləti daxili çəkişmələr nəticəsində tədricən çökməyə başladı.**

**1499-cu ildə Ağqoyunlu dövləti iki hissəyə bölündü. İki ildən sonra bu dövlət Uzun Həsənin nəvəsi İSMAYILIN yaratdığı Azərbaycan SƏFƏVİ-QIZILBAŞ dövləti ilə əvəz olundu.**

**Azərbaycanın Qarabağ bölgəsi Azərbaycan Səfəvilər dövlətinin tərkibində mühüm yer tuturdu.**

**AZƏRBAYCAN SƏFƏVİLƏR DÖVLƏTİNDƏ XV ƏSRİN ƏVVƏLLƏRİNDƏ məhsuldar qüvvələrin inkişafına imkan verməyən feodal pərakəndəliyi əvvəlki kimi mövcud idi.**

**Azərbaycan Osmanlı işğalı təhlükəsi qarşısında qalmışdı. Ölkəni xarici təhlükədən qorumaq üçün mərkəzləşdirilmiş gücü dövlətin yaradılması zərurətə çevrilmişdir. Xarici siyasi amil, Azərbaycan Səfəvilər dövlətinin yaradılmasının gedişini sürətləndirdi. İqtisadi cəhətdən daha çox inkişaf etmiş Azərbaycanın vilayətləri, o cümlədən də Qarabağ yeni dövlətin yaradılmasının təməlini təşkil edirdilər.**

**Yaranmış olan əlverişli siyasi şəraiti əldən vermək olmazdı. 1499-cu ildə belə bir şərait artıq yaranmışdır. Həmin ilin avqust ayında Şeyx Heydərin 13 yaşlı oğlu İsmayıl Lahicandan Ərdəbil şəhərinə yola düşdü. Gənc İsmayılı 7 nəfərdən ibarət etibarlı heyət müşahidə edirdi. Bu heyət – İsmayılın tərbiyəçisi və qəyyumu HÜSEYN BƏY LƏLƏ Şamil, Əbdüləli bəy Dədə (Dədə bəy), Xadim bəy Xülafə, Rüstəm bəy Qaramanlı, Bayram bəy Qaramanlı, İlyas bəy Ayqut oğlu Xunuslu və Qarapiri bəy Qacar idilər.**

**İsmayıl Çilandan birbaşa Ərdəbil şəhərinə getmədi. Cənuba və Cənub- Qərbə doğru Xalxal tərəfə dolama yolla kiçik bir dövrə vurdu. Deməli, dolama yolu gedib dövrə vurmaqda məqsəd burada yaşayan Şamlı tayfasını qızılbaşların bayrağı altında toplamaq məqsədi ilə edilmişdir.**

**İsmayılın bayrağı altında türkdilli şamlı, ustaclı, rumlu, təkəli, zülqədər, Əfşar, Qacar, Varsaq tayfalarından və Qarabağ sufilərindən 7000 qazi toplanmışdı.**

**Bütün döyüşləri öz xeyrinə uğrula başa çatdıran İsmayıl, 1501-ci ilin payızında Şərur düzündə Ağqoyunlu Əlvənd Mirzəni məğlub etdikdən dərhal sonra Təbrizə gəldi və böyük təntənə ilə Azərbaycan Səfəvilər dövlətinin Şahı elan olundu. Bu anadan etibarilə o, I ŞAH İSMAYIL adı ilə**

**adlandırılmağa başlandı.**

**Şərur döyüşündən sonra I Şah İsmayılın rəqibi olan Ağqoyunlu Sultan Muradı aradan götürmək lazım idi.**

**1503-cü ilin yazında I Şah İsmayıl Qənbər ağa adlı tərəfdarını xəbərdarlıq məktubu ilə Sultan Muradın yanına göndərib itaət etməsini tələb etdi. Məktubda Səfəvilərlə Ağqoyunlular arasında qan qohumluğu olduğu xatırlanırdı. Qızılbaş rəhbəri məktubunda onu da qeyd edirdi ki, əgər onun hakimiyyətini tanıdığı təqdirdə İraqi-Əcəmin bir hissəsini idarə etmək üçün Murada verəcək. Lakin Murad I Şah İsmayılın məktubuna müsbət cavab vermədi.**

**Belə olduqda I Şah İsmayıl 12 min nəfərlik qoşunla Təbrizdən çıxaraq Qızıllüzən çayını keçib cənuba- Həmədana doğru hərəkət etdi. Murad vuruşmaq üçün 70 min nəfərlik qoşun toplamışdı. I Şah İsmayılın qoşunlarının sayı altı dəfəyə qədər az olmasına baxmayaraq, 1503-cü il iyunun 1-də Həmədan yaxınlığında Alma Qulağı adlanan yerdə döyüş baş verdi. Bu döyüşdə I Şah İsmayıl böyük şücaət göstərdi. Muradın qoşunu darmadağın edildi.**

**Əgər Əlvənd Mirzə üzərində qələbə İsmayılı Azərbaycanın sahibi etmişdirsə, Muradın qoşunlarının darmadağın edilməsi, Farsın və İraqi-Əcəmin böyük hissəsinin qızılbaşların əlinə keçməsinə gətirib çıxardı.**

**Azərbaycan Səfəvilər dövləti yarandığı gündən etibarən Azərbaycan torpaqlarını, Qarabağı, Şirvanı, Naxçıvanı, Muğanı və Qızılüzən çayına qədərki Cənubi Azərbaycanı əhatə etmişdir.**

**I Şah İsmayıl mümkün olanı-yəni Azərbaycan torpaqlarını bütövlükdə özündə birləşdirən Azərbaycan Səfəvilər dövlətini yaratdı və ona 23 il başçılıq etdi.**

**Azərbaycan Səfəvilər dövlətində də Qarabağ bölgəsinin siyasi, iqtisadi, sosial və mədəni inkişafı ondan əvvəlki siyasi qurumlarda olduğu kimi idi. Azərbaycanın Qarabağ bölgəsinin əhalisi xarici müdaxiləyə qarşı Səfəvilər dövləti-**

**nin ayrılmaz tərkib hissəsi kimi, qızılbaşlarla birlikdə fədakarlıqla mübarizə aparmışlar.**

**AMASİYA sülhünün bağlanması ərəfəsində, Osmanlı sultanı ilə sülhün şərtlərini dəqiqləşdirmək üçün Səfəvi şahı Qarabağ sufilərindən biri olan Fərruxrad bəy sülhün şərtlərini dəqiqləşdirdikdən sonra, Osmanlı sultanı ilə Səfəvi şahı Amasiya şəhərində görüşdülər. Bu görüş zamanı, ilk dəfə olaraq hər iki dövlət arasında sülh müqaviləsi imzalandı. Şah I Təhmasiblə Sultan Süleyman arasında AMASİYA sülh müqaviləsi 1555-ci il may ayının 29-da imzalanmışdır. Sülhün şərtlərinə görə bütün Azərbaycan və onun tərkib hissəsi olan Qarabağ bölgəsi də Səfəvilər dövlətinin tərkibində qaldı. Yeri gəlmişkən onu da deyim ki, Qərbi Azərbaycan da Qarabağ kimi Azərbaycan Səfəvilər dövlətinin tərkibində saxlanıldı.**

**Lakin Amasiya sülhü Səfəvilərlə Osmanlılar arasında müharibələrə son qoymadı, müharibələrin birinci mərhələsini başa çatdırdı.**

**1579-cu ilin yayında Krım xanı Məhəmməd Gəray 100 minlik qoşuna Bağçasaraydan hərəkət edib, Şimali Qafqazı keçib Şirvana yaxınlaşdı. Krım xanı Osman Paşa ilə birləşərək Şamaxıya və Bakıya yürüş etdilər. Birləşmiş qüvvələr Kür çayını keçib Gəncəyə, Qarabağa və Muğana hücum etdilər. Şamaxı Əbubəkr Mirzə Qarabağın Qızılbaş hakimi I Mandi xan Qaraca Osman paşaya qarşı birlikdə mübarizə aparmaq məqsədilə müraciət etdi. 1586-cı ilin dekabr ayında Şah Məhəmməd Xudabəndənin oğlu Həmzə Mirzə Osmanlılarla sülh danışıqları apararkən sui-qəsd nəticəsində öldürülü. Bu hadisədən sonra, Osmanlı qoşununun başçısı Cəfər Paşa Cənubi Azərbaycanda bir neçə vilayəti zəbt edərək Qarabağa daxil oldu.**

**1586-1589-cu illərdə Osmanlı qoşunları Azərbaycan torpaqlarını zəbt etməyə nail oldular. 1587-ci ildə hakimiyyətə gələn Səfəvi şahı I Abbas, 1590-cı il mart ayının**

**21-də Osmanlı Sultanı II Muradla İstanbul sülhünü imzaladı. Sülhə görə Azərbaycan torpaqları (Qarabağ, Ərdəbil və Talış vilayətlərindən başqa) Osmanlı imperiyasının tərkibinə daxil edildi. İstanbul sülhü Səfəvi-Osmanlı müharibələrinin ikinci mərhələsini başa çatdırdı.**

**Səfəvilər dövlətində Azərbaycan ərazisi BƏYLƏRBƏYLİKLƏRƏ bölünürdü. Bu vilayətləri idarə edən bəylərbəylər adətən, Azərbaycan hərbi əyanları tərəfindən təyin olnurdular. Azərbaycanda Qarabağ bəylərbəyliyi təşkil olunmuşdur. XVI əsrin 40-cı illərində Qarabağ bəylərbəyliyinə Şah Təhmasib tərəfindən ŞAHVERDİ ZİYADOĞLU QACAR təyin edilmişdir.**

**Bəylərbəyliklər irsi idi. Bu nəsil XVI sərin 40-cı illərindən fasilələrlə Qarabağ bəylərbəyliyini XIX əsrin əvvəllərinə kimi idarə etmişdir. Qacarlar Azərbaycanın Qarabağ bölgəsinin yerli sakinləri kimi burada, İsgəndər bəy Münşinin yazdığı kimi, "Qışlaq və yaylaqlara, mülklərə, əmlak və bağlara malik idilər".**

**Səfəvilər dövründə Azərbaycanın Qarabağ bölgəsində kənd təsərrüfatı sənətkarlığın müxtəlif növləri, soyuq silahlar, hərbi geyim əşyaları, toxuculuq, xalçaçılıq, məişət əşyaları, xarici ölkələrlə ticarət mübadiləsi, maliyyə sistemi və digər həyat sahələri əhəmiyyətli dərəcədə inkişaf etmişdir. Səfəvi Osmanlı müharibələri Qarabağın siyasi-iqtisadi, sosial və mədəni həyatına ağır təsir göstərmişdir. Müharibələr əhalinin doğma yurdlarından didərgin düşmələrinə səbəb olmuşdur.**

**1605–ci ildə I Şah Abbas Osmanlı ordusuna ağır zərbə vurdu. Cıqaloğlu Sinan Paşa Diyarbəkirə qaçdı. Bu qələbədən sonra I Şah Abbas Qarabağa doğru hərəkət edərək, şəhərdə olan Osmanlı ordusunu mühasirəyə aldı. 1605-1606-cı illərdə Azərbaycanda olduğu kimi onun bölgəsi olan Qarbağda da aclıq başladı. Aclıq müharibələrin və qışın sərt keçməsinin nəticəsi idi. Şah aclığın törətdiyi ağır**

nəticələrini aradan qaldırmaq məqsədilə, Azərbaycanın digər bölgələrindən, o cümlədən Qarabağdan da 7 min tona qədər taxıl gətirilməsi haqqında göstəriş vermişdir.

Mövcud olan çətinliklərə baxmayaraq, Gəncənin mühasirəsi davam etdirilirdi. Osmanlı ordusunun başçıları təslim olmaq haqqında verilən təklifi qəbul etmədi. Mühasirə 4 ay davam etdi. 1606-cı il iyul ayının 5-də Səfəvi ordusu Osmanlıların müqavimətini qıraraq, Gəncə qalasını onlardan təmizlədilər. Qarabağ hakimi Hüseyn xan Müsahib Qacar hakimiyyətindən kənar edildi, Məhəmməd Ziyadoğlu Qacar hakimiyyətə gətirildi.

1634-cü ildə Osmanlı Sultanı IV Murad Cənubi Qafqazı ələ keçirmək məqsədilə hərbi əməliyyatlara başlamaq üçün orduya göstəriş verdi. Həmin il avqust ayının 10-da Osmanlı Ordusu Qərbi Azərbaycanın ərazisinə daxil olub, paytaxt RƏVAN şəhərini (indiki İRƏVANI) mühasirəyə aldı.

Səfəvi ordusunun baş komandanı Rüstəm xan qalanın müdafiəsini Təhmasiboğlu xan Qacara həvalə etdi. Özü isə Təbriz şəhərinə geri çəkildi. 10 günlük mühasirədən sonra Osmanlı qoşunu Rəvan qalasını ələ keçirdi. Sultan Murad Xoy qalasını ələ keçirib Təbriz şəhərinə doğru hərəkət edib, 1634-cü il sentyabr ayının 11-də şəhəri tutdu. Lakin Osmanlılar sentyabr ayının 15 də Təbriz şəhərindən geri çəkilməyə məcbur oldular.

1635-ci il aprel ayının 2-də Qarabağ və Şirvan əmrlərinin başçılıq etdikləri ordunun köməyi ilə I Şah Səfi Rəvan qalasını osmanlılardan tamamilə təmizlədilər.

Demək lazımdır ki, 1634-1635-ci illərin hərbi əməliyyatlarında Səfəvilərin qələbəsinin səbəbi I Şah Səfiyə miras qalmış güclü mərkəzləşdirilmiş hakimiyyət, iqtisadi inkişafın saxlanılması və güclü ordunun mövcud olması idi.

Səfəvi–Osmanlı müharibələri hər iki dövlətin siyasi, iqtisadi həyatına olduqca ağır təsir göstərmişdir. IV Sultan Murad 1638-ci il dekabr ayının 25-də Bağdad şəhərini ələ

**keçirdi. Bu qələbədən sonra İRAQI-ƏRƏM Osmanlı imperiyasının tərkibinə qatıldı. IV Murad Bağdad da təyin etdiyi yeni hakimi – Məhəmməd Ağanı Səfəvi sarayına göndərərək Sülh danışıqları aparmağı tapşırdı. Öz növbəsində I Şah Səfi də sülh təklifini qəbul etdi.**

**Səfəvilərlə -Osmanlılar arasında sülh müqaviləsi Qəsri - Şirində 1639-cu il may ayının 17-də imzalandı. Sülh müqaviləsini Səfəvilər tərəfindən Sarı xan, Osmanlılar tərəfindən isə Qara Murtuza Paşa imzaladılar.**

**Qəsri - Şirin sülhü uzun müddətli oldu. 1723-cü ilə kimi Səfəvilərlə Osmanlılar arasında silahlı münaqişə baş vermədi. Qəsri-Şirin sülhündən sonra Azərbaycanda, onun ayrılmaz hissəsi olan Qarabağ bölgəsində sakitlik bərqərar oldu, müharibələr nəticəsində boş qalmış şəhərlər bərpa edildi, bir sözlə, siyasi, iqtisadi və ictimai həyatın bütün sahələrində inkişaf başladı...**

**Yuxarıda dediyimiz kimi Azərbaycanın Qarabağ bölgəsi Ziyadoğlu Qacar nəslinin nümayəndələri tərəfindən idarə olnurdu. XVII əsrin 30-cu illərində Qarabağ başqa tayfanın nümayəndəsi olan Davud xan tərəfindən idarə olunurdu. Bu özünü doğrultmadı. Ziyadoğlu Qacar nəsli yenidən hakimiyyətə bərpa olundular.**

**Əvvəlki əsrlərdə olduğu kimi, XVII əsrdə də Azərbaycanda iqtisadiyyatın əsasını kənd təsərrüfatı təşkil edirdi. Bu təsərrüfatın aparıcı sahəsi əkinçilik və heyvandarlıq idi. Münbit geniş torpaq sahələri, əlverişli iqlim şəraiti, bol su mənbələri kənd təsərrüfatının bütün sahələrinin inkişafının mənbəi idi. Qarabağda üzümçülük, bağçılıq, baramaçılıq təsərrüfatları geniş əraziləri əhatə edirdi. Eyni zamanda burada at ilxıları da saxlanılırdı.**

**Səfəvilər dövründə Azərbaycanın bütün vilayətlərində olduğu kimi, onun Qarabağ bölgəsində də torpaq mülkiyyətinin 5 növü -divan, xassə, şərti, vəgf, mülk və icma mövcud idi. XVII əsrdə Azərbaycanda vergi və mükəlləfiy-**

yətlərin sayı 35-ə qədər idi.

XVII əsrin əvvəllərində Qarabağda məskunlaşan Oturiklər tayfasının nümayəndələrinin Marağa şəhərində hakim olmaları barədə məlumat verilir. Sənətkarlığın müxtəlif sahələri, xalçaçılıq və sair Səfəvilər dövlətinin tərkibində olan Qarabağın söhrəti idi.

Təsərrüfatın müxtəlif sahələrinin inkişafı haqqında QARABAĞ XANLIĞI haqqında yazıda daha ətraflı bəhs olunacaqdır... Azərbaycanın Qarabağ bölgəsi tarixən aqrar, yaylaq, qışlaq kimi, burada mövcud olan dövlətlərə xidmət etmişdir.

XVI əsrin sonu –XVII əsrdə Azərbaycanın hər yerində olduğu kimi, Qarabağda da elmin müxtəlif sahələri də inkişaf etmişdir. Səfəvi-Osmanlı müharibələri maarifin və elmin inkişafına ağır zərbə vurmuş, dövrün elm xadimləri ölkədən kənara getməyə məcbur olmuşlar. Onların arasında YUSİF MƏHƏMMƏDCAN oğlu QARABAĞİNIN adını qeyd etmək olar. Filosof Yusif Məhəmmədcan oğlu Qarabağda anadan olmuşdur. Səfəvi-Osmanlı müharibələri zamanı o, ölkəni tərk etməyə məcbur olmuşdur. Yusif Məhəmmədcan oğlu Qarabağ Orta Asiyaya mühacirət edərək Səmərqənd və Buxara şəhərlərində yaşamışdır. Yaxın və Orta Şərqdə ona "Böyük axund" təxəllüsü verilmişdir. Ərəb, fars dillərini dərindən bilən Yusif Məhmmədcan oğlu Qarabaği Səmərqənd mədrəsəsində dərc demiş və fəlsəfəyə aid əsərlər yazmışdır. Onun əsərləri uzun müddət Orta Asiyanın mədrəsələrində dərs vəsaiti kimi istifadə olunmuşdur.

1639-cu il 17 may Qəsri - Şirin muqaviləsindən başlayaraq, 1724-cü ilə kimi Səfəvilərlə Osmanlılar arasında silahlı münaqişə qismən də olsa baş vermədi. Bu nisbi sakitlik 1724-cü ildən sonra pozuldu. Xarici müdaxiləyə qarşı mübarizədə Səfəvi ordusunun sərkərdəsi Nadirqulu böyük şöhrət qazandı. O, 1722-ci ildən 1732-ci ilə kimi Səfəvi şahı II TƏHMASİBİN sərkərdəsi olmuşdur. Şah II Təhmasib

**1732-ci il yanvar ayının 16-da Kirmanşah şəhərində Səfəvi dövlətilə Osmanlı Türkiyəsi arasında imzalanan sülh müqaviləsini təsdiq etdi.**

**Sülh müqaviləsini təsdiq etməklə Şah II Təhmasib həm Səfəvilər dövlətinin və həm də özünün taleyini həll etdi...**

**Xorasandan qayıdan Nadir tərəfdarlarının köməyi ilə şah II Təhmasibi hakimiyyətdən salaraq, onun 8 aylıq oğlu Abbas Mirzəni III ABBAS adı ilə şah elan etdi. Bununla da Nadir Səfəvilər dövlətinin tam səlahiyyətli hökmdarı oldu.**

**Nadir 1732-ci il yanvar ayının 16-da imzalanan Səfəvi–Osmanlı müqaviləsini ləqğv etdi. Eyni zamanda da son 10 ildə Osmanlı qoşunları tərəfindən zəbt olunan Səfəvi torpaqlarının geri qaytarılmasına nail oldu.**

**Formal olaraq, Şah olan III Abbas qəflətən öldü. Bundan istifadə edən Nadir xan MUĞANDA çağırılan qurultayda Şah elan olundu. 1736-cı ildə baş verən bu hadisə nəticəsində Azərbaycan Səfəvilər dövləti tarixə qovuşdu. İranda Əfşarlar sülaləsi hakimiyyətə gəldi. Nadir şahın hakimiyyəti 1747-ci ilin iyun ayına kimi davam etmişdir.**

**Nadirin şah elan olunması Azərbaycanda bir mənalı qarşılanmadı. Nadir şah seçiləndə Ziyadoğlu nəslindən olan Gəncə xanları onun əleyhinə çıxdılar. Digər tayfa başçıları da Nadirin şah olmasını istəmirdilər. İyirmidörd, Otuziki, Cavanşir və başqa azərbaycanlı tayfa başçıları şahlığa Səfəvi nümayəndələrindən seçilməsini tələb edirdilər. Nadir şah olduqca qəddar və kinli idi. Şah elan olunduqdan sonra Nadir ona qarşı çıxanları cəzalandırdı.**

**Müxalif qüvvələrinin bir hissəsini Xorasana sürgün etdi. Azərbaycanda vilayətlərə yeni hakimlərin təyin olunmasına da Nadir şah ehtiyatla yanaşırdı. Onların fəaliyyətləri üzərində nəzarətçilər ayırmışdır. Ehtiyatla hərəkət edən Nadir şah Azərbaycandan getməzdən əvvəl köhnə inzibati ərazi bölgüsünü ləğv etdi. Bütün bəylərbəylikləri ləğv edərək, Təbriz bəylərbəyliyinə tabe etdirdi.**

**Nadir Şahın cəza tədbirlərinə ən çox məruz qalan bölgə Azərbaycanın Qarabağ bölgəsi oldu. Nadir şah nəinki başqalarına, eyni zamanda da öz uşaqlarına, qan qohumlarına qarşı da dözümsüz idi. O, böyük oğlu Rzaqulu Mirzənin gözlərini alovda qızardılmış mil çəkdirərərək kor etdirmişdir. Nadir şahın qəddarlığı nəinki xalqda, habelə qohumları və etibar etdiyi yaxın adamlarında da böyük narazılığa gətirib çıxardı. Bütün bunlar Nadir şaha qarşı sui-qəsdlə nəticələndi. Nadir şaha qarşı sui-qəsdə öz doğma oğlu Əliqulu Mirzə başçılıq edirdi. Sui-qəsdin təşkilinə Saleh bəy Əfşar, Qoçu bəy Əfşar Urumi daxil idilər.**

**Nadir şaha qarşı sui-qəsd 1747-ci il iyunun 20-də Xabuşan yaylağında həyata keçirildi. Şaha ilk qılınc zərbəsini Saleh bəy Əfşar endirmişdir. İran tarixində heç vaxt şah öz tayfasının nümayəndəsi tərəfindən öldürülməmişdir. İkinci qılınc zərbəsini şaha Qoçu bəy Əfşar vurmuşdur. Ölməkdə olan Nadirin başını isə Musa bəy Əfşarın nökəri kəsmişdir.**

**Bu hadisədən sonra, Nadir şahın qılınc gücünə yaratdığı imperiya dağıldı. İranda daxili vəziyyət gərginləşdi. Hakimiyyət uğrunda qanlı mübarizə başlandı. Azərbaycanın hər yerində olduğu kimi Qarabağda da siyasi vəziyyət dəyişdi. Şimali və Cənubi Azərbaycan ərazilərində müstəqil feodal dövlətləri - XANLIQLAR yarandı.**

**Azərbaycanın XVIII əsrin ikinci yarısının təlatümlü tarixi sözün əsl mənasında müstəqil və yarımmüstəqil dövlət qurumlarının yaranması tarixdir. Bu qurumlar tarixə xanlıqlar kimi daxil olmuşdur. Xanlıqlar İran hömdarlarına qarşı gərgin mübarizə aparmaqla yaranmışdır. Azərbaycan ərazisində ilk feodal qurupları olan xanlıqların yaranması XVIII əsrin 40-cı illərinə aiddir.**

**Xanlıqların əksəriyyəti Nadir şahın qətlindən sonra, bəziləri isə ondan əvvəl yaranmışdır. Ümumiyyətlə Şimali Azərbaycan ərazilərində 10, Cənubunda isə 8 xanlıq yaranmışdır. Bunlardan əlavə Kür və Araz çaylarının qovuşuğun-**

**da Cavad xanlığı və Kür çayının mənsəbində Salyan xanlığı da var idi. Bu xanlıqlar digər xanlıqlarla müqayisədə kiçik qurumlar idilər.**

**Azərbaycanın Qarabağ bölgəsində yaranan Qarabağ xanlığının banisi görkəmli dövlət xadimi PƏNAHƏLİ bəy CAVANŞİR idi. O, Qarabağın SARICALI oymağında 1693-cü ildə anadan olmuşdur. Pənahəli bəyin nəsli adlı-sanlı, çörəkli, mal-dövlət və ehsan sahibi olmuş adamlar idilər.**

**"QARABAĞ TARİXİ" salnaməsinin müəllifi olan MİRZƏ CAMAL CAVANŞİR QARABAĞİ yazır:**

**"Mərhum Nadir şah Qarabağ, Gəncə, Tiflis və Şirvan vilayətlərini aldıqdan sonra ellər və kəndlər arasında görüb tanıdığı hər bir şücaətli və işgüzar adamları yanına çağırıb, öz yaxın qulluqçuları sırasına alır və onları məvacib, ehtiram və mənsəb sahibi edərdi. Belə igid və işgüzar adamlar içərisində Cavanşirlər nəslindən olan Fəzləli bəy Cavanşir və onun qardaşı Pənahəli bəy Cavanşir qardaşları idilər."**

**Fəzləli bəyi Nadir şah Muğan qurultayından (1736-cı ilin mart ayı) sonra onun əməllərindən narazı olanlardan biri olduğu üçün edam etdirdi. Mənbələrdə qeyd edilir ki, Nadir şah Pənahəli bəyi yanına çağırıb, onu sarayda eşikağası təyin etdi. Pənahəli bəy özünün işgüzarlığı və Nadir şahın apardığı müharibələrdə ad-san qazandı. Qəlbi qara, paxıl adamlar Pənahəli bəyi şahın nəzərindən salmaq üçün, şaha yalan məlumatlar verməyə başladılar. Nəticədə Nadir şah Pənahəli bəyə düşmən kəsildi. Vəziyyətinin ağırlaşdığını hiss edən Pənahəli bəy çıxış yolunu Nadir şahın sarayından qaçmaqda gördü. Şahın Xorasanda olmasından istifadə edən Pənahəli bəy, öz yaxın adamları ilə birlikdə 1738-ci ildə doğma vətəni olan Qarabağa qaçdı. Nadirin bütün cəhdlərinə baxmayaraq Pənahəli bəyi tutmaq mümkün olmadı...**

**Mirzə Camal bəy Cavanşir sözünə davam edərək qeyd edir ki, "Şahın əmri ilə Pənahəli bəyin ailəsini, qohum-əqrabasını çox incidib, cərimə edildisə də heç bir faydası olmadı".**

**Heç bir maniə görmədən Pənahəli bəy Qarabağa gəldikdən sonra yaxın adamları ilə əlaqəyə girib, qüvvə toplamaq, siyasi hakimiyyətini qurmaq sahəsində məqsədyönlü tədbirlər görməyə başladı. Onu da qeyd edim ki, Pənahəli bəyin ağır günlərində Zəngəzur mahalının sultanı QARA MURTUZA ona dayaq olmuşdur... Pənahəli bəy 3 il el-oba arasında yaşamaqla bərabər gələcəyi haqqında da fikirləşməyi bir an da olsun unutmurdu... O da sələfi I ŞAH İSMAYIL kimi mümkün olanı-yəni QARABAĞIN müstəqilliyini təmin etməyi əsas məsələ kimi qarşıya qoymuşdur.**

**Fitri istedada və güclü iradəyə malik olan Pənahəli bəy böyük arzularla yaşayırdı. Nəhayət onun müqəddəs arzuları üçün şərait gəlib çatdı. Yuxarıda dediyimiz kimi Nadir şah 1747-ci ildə öz yaxın adamları tərəfindən öldürüldü. Beləliklə Pənahəli bəy Qarabağda üzə çıxdı və azad fəaliyyətə başladı.**

**Pənahəli bəy yanında olan bütün cavanları və yaxın adamlarını mal, geyim, at, silah və yaşayış üçün lazım olan əşyalarla təmin etdi. Bu zaman Qarabağa xəbər çatdı ki, Nadir şah tərəfindən vaxtilə Xorasana sürgün olunmuş Cavanşir və başqa ellər bütünlüklə öz doğma Vətənlərinə - QARABAĞA gəlməkdədirlər. Pənahəli bəyin oğlu İbrahimxəlil ağa da bir qədər əvvəl doğma vətəninə qayıtmışdır.**

**Vətənə qayıdanları Pənahəli bəy öz yaxın adamları ilə İraq və Azərbaycan sərhədlərinə qədər gedib, onları qarşıladı. Geri qayıdanlar Pənahəli bəyin sağ–salamat olduğunu görüb, çox sevindilər... Var-yoxdan çıxmış adamları qısa müddət ərzində həyat üçün lazım olan nə vardısa hamısı həyata keçirilirdi. Camaata göstərdiyi hörmət və qayğı Pənahəli bəyin el-oba arasında nüfuzunu daha da artırdı.**

# QARABAĞ XANLIĞININ YARANMASI

**1747-ci ildə Pənahəli bəyin tərəfdarları olanlar-əyanlar, silahlı qüvvələrin başçıları, din xadimləri və digər sosial təbəqələr PƏNAHƏLİ bəyi Qarabağ xanı elan etdilər. Bu mərasim üçün böyük məclis çağırılmışdır.**

**Pənah xan Gəncə- Qarabağ bəylərbəyliyinn varlığına son qoydu. Onun ərazisində iki müstəqil xanlıq - Gəncə və Qarabağ xanlıqları yarandı.**

**Pənah xan heç kim tərəfindən Qarabağa xan təyin edilməmişdir. Bu barədə tarixdə yalan məlumat olsa da onun heç bir əhəmiyyəti yoxdur.**

**Pənah xan Qarabağda müstəqil xanlıq yaratdıqdan sonra, onun qarşısında təxirəsalınmaz vəzifələr dururdu. Azərbaycanda yaranan xanlıqların paytaxt şəhərləri olduğu halda, Qarabağ xanlığında belə bir şəhər yox idi. Hərbi-siyasi tədbirlərin həyata keçirilməsi ilə yanaşı xanlığın varlığı üçün, onun etibarlı paytaxtı zəruri idi. Siyasi cəhətdən önəmli olan paytaxt şəhərin inşa olunması sahəsində atılan ilk addımlardan biri, yerli türk tayfasının adı ilə tarixə düşən BAYAT qalasının tikilməsi oldu.**

**Pənah xan əhalini, qohum və ailəsini, məmurları və digər sosial təbəqələri, ilk növbədə xanlığın ərazisini xarici basqınlardan qorumaq məqsədilə, xanlığın ərazisində qala paytaxt şəhərinin tikilməsini lazım bildi.**

**Ətraflı məsləhətdən sonra, Kəbirli mahalında BAYAT qalasının, 1748-ci ildə inşası başlandı. Qala tez bir zaman kəsiyində tikilib istifadəyə verildi. Bayat qalasının ətrafına hasar çəkildi, xəndək qazıldı, bazar, hamam və ibadət üçün məscid tikildi. Pənah xanın şöhrəti ətraf ərazilərdə də geniş yayıldı. Ətrafda yaşayan əhali, o cümlədən də Təbriz və Ərdəbil vilayətlərindən də çoxlu əhali, sənətkarlar və başqa peşə sahibləri öz ailə üzvüləri ilə birlikdə köçüb Bayat**

**qalasına gəlirdilər.**

**Bayat qalası tikilib möhkəmləndirildikdən sonra, Qarabağ xanlığının şöhrəti daha da artdı. Bunu eşidən Şirvan və Şəki xanlıqları öz aralarında ittifaq bağlayaraq Pənahəli xanı aradan götürmək üçün böyük hərbi qüvvə ilə onu mühasirəyə aldılar. Pənahəli xan döyüşçüləri ilə onlara qarşı böyük uğurla mübarizə apardı və qüvvələrinə ağır zərbə vurdu. Birləşmiş qüvvələrə vurulan zərbə, hərbi və siyasi baxımdan olduqca faydalı oldu. Şirvan və Şəki xanları ağır məğlubiyyətə uğradılar. Bir aya qədər davam edən vuruşma Pənahəli xanın tam qələbəsi ilə başa çatdı. Şəki və Şirvan xanları böyük məyusluqla geri qayıtmağa məcbur oldular. Dövrünün görkəmli adamlarından olan Şəki xanı Hacı Çələbi geri qayıdarkən, öz məğlubiyyətini açıq etiraf edərək demişdir:**

**"Pənahəli xan bu vaxta kimi sikkəsiz gümüş idi. Biz gəldik ona sikkə vurduq və geri qayıtdıq." Başqa bir məsələdə var: Hacı Çələbi demişdir ki, "Pənah adicə bir xan idi, biz gəldik, onu şah" etdik və geri döndük". 1748-ci il Bayat müharibəsi qələbə ilə başa çatdı.**

**Beləliklə, Azərbaycanın Qarabağ bölgəsində yenicə yaradılan Qarabağ xanlığı və onun yaradıcısı Pənahəli xan ilk döyüş sınağından şərəflə çıxdılar. Eyni zamanda da Bayat müharibəsi göstərdi ki, qala Qarabağ kimi güclü xanlıq üçün etibarlı deyildir.**

**Ətraf xanlar yenidən Qarabağ xanlığına hücum edə bilərdilər. Bu qaçılmaz idi. Daxildə mövcud olan, xristian alban məlikləri də Pənahəli xana tabe olmaq istəmirdilər. Xəmsə xristian alban məliklərindən yalnız XAÇIN məlikliyi yerli idi.**

**"QARABAĞNAMƏ"LƏRİN ilk müəllifi olan MİRZƏ ADIGÖZƏL bəy Qarabağda mövcud olan ailə mülklü məliklər haqqında daha ətraflı məlumat verir və onların Azərbaycanın bu bölgəsinə gəlib yerləşmələrini ətraflı izah edir.**

Azərbaycanın Qarabağ mahalında olan Xəmsə məliklərinin ayrıca adları var idi. Onlar həmin adla Qarabağda məlum idilər. Siyasi və iqtisadi cəhətdən zəif olan bu məliklər ailə nəslinə malik olub, dağlıq ərazilərdə yuva salmışdılar.

Mirzə Adıgözəl bəy məliklər haqqında "QARABAĞNAMƏ" salnaməsində yazır:

Bunlardan biri –DİZAQDIR. Məlikləri Məlik Yeqan adlanır. Loridən qaçıb gəlmiş, Nadir şahın səltənəti dövründə və onun əmri ilə məliklik taxtında oturub hörmət qazanmışdır.

İkincisi –VƏRƏNDƏDİR. Məlikləri mənşəcə alban olan Məlikşahnəzərəlilər olmuşdur... əsilləri də Göyçə əsilzadələrindəndir. Sonra oradan qaçıb Qarabağda Vərəndə mahalının məliklik camından sərxoş olmuşlar.

Üçüncüsü- XAÇİNDİR. Məlikləri Həsən Cəlal övladlarıdır. Onlar riyasət gəlininə gözəllik verib hökmran olmuşlar. Bu ailə məliklik mənsəbindən mərhum olduqdan sonra, bu mahalın müstəqil bir məliki olmamışdır... Axırda, Pənah xan Cavanşirin dövlət günəşi və şövkət bayrağı riyasət üfüqündən baş vurub Qarabağ vilayətini cəlal və dəbdəbə ilə işıqlandırdı. Bu zaman xınzırıstanlı Məlik Mirzə xan özünün "gözəl iradə və sədaqətli əqidəsinə görə" bu əbədi dövlət məmurlarının əmri ilə məliklik sikkəsinin gümüş kimi saf olan adına kəsdirdi. Ondan sonra da onun oğlu və nəvəsi məlik oldular...

Dördüncüsü- ÇİLƏBÖRD mahalıdır. Məlikləri Allahquludur. Əsilləri Mağazivdən gəlmədir. Bunlar Cermux qalasını özlərinə məskən, sığnacaq və mənzil etmişlər... Nadir şah ona Sultan rütbəsi vermişdir.

Beşincisi - TALIŞ mahalıdır. Məlikləri Usubdur. Əsilləri Şirvandan gəlmədir... Sonralar Məlik Uslub Gülstan qalasında sığınacaq tapmışdır".

Pənahəli xan yuxarıda adları çəkilən məlikləri özünə

**tabe etmək üçün ciddi tədbirlər gördü. Onları zərərsizləşdirdi. Xanlıqda daxili sabitliyi təmin etdi. Bundan sonra o, xanlığa daha etibarlı və möhkəm qala inşa etdirmək qərarına gəldi.**

**Xanlıq üçün yeni qala-paytaxtı Tərnəkütdə inşa olunan ŞAHBULAĞI qalası oldu. Mirzə Adıgözəlbəy yazır:**

**"Pənahəli xan Şahbulağı adı ilə məşhur olan Tərnəkütdə bir qala bina etdirdi. Daş və əhəngdən məscid, evlər, çarsu və hamamlar tikdirdi".**

**Bayat qalası dağıdıldı. Onun bütün sakinləri yeni qalaya - Şahbulağı qalasına köçürüldü. Şahbulağı qalası Bayat qalasına nisbətən etibarlı idi.**

**Mirzə Camal bəy Qarabaği yeni qala barədə öz salnaməsində belə yazır:**

**"Məsləhətə görə Bayat qalasını tərk etdilər. Şahbulağı yanındakı böyük çeşmə yanında qala tikərək, onun ətrafında yüksək yerdə geniş hasar hördülər, bazar, çarsu (meydan), hamam və məscid tikdilər... El camaatının bütün evləri, böyüklərin, sənətkarların, xanın yaxın adamlarının və xidmətçilərinin ailəsi Şahbulağı qalasına köçürüldü".**

**Beləliklə, Pənahəli xan Azərbaycanın Qarabağ bölgüsündə tam müstəqil oldu. Az müddət ərzində Şahbulağı paytaxt-qala kimi mövcud oldu. Şəki, Şirvan, Gəncə, İrəvan (Rəvan), Naxçıvan, Təbriz və Qaradağ xanları Pənahəli xanın sarayına elçi və məktub göndərib onunla dost və müttəfiq olmaq istədiklərini bildirirdilər. Pənahəli xan da həmin xanlara qohumluq əlaqələri yaratdı. Uğurlu xarici siyasət nəticəsində xanlığın ərazisi xeyli genişləndi.**

**Şahbulağı qalası paytaxt olduqdan sonra, Qarabağ xanlığında daxili və xarici sabitlik qısa müddət ərzində özünü göstərdi. Bu şəraitdən Pənahəli xan olduqca səmərəli istifadə edərək, xanlığın müdafiəsi sahəsində xeyli tədbirlər həyata keçirdi. Belə ki, yeni qala paytaxtının ətrafında və kənar ərazilərdə müdafiə qurğuları tikilir, silahlı**

**qüvvələrin döyüş qabliyyətini yüksəltmək və onların dövrün silahları ilə təchiz olunması təmin olunurdu. Bu olduqca mühüm işlər idi. Xanlıq yaranan gündən ona düşmən kəsilənlərin sayı artırdı.**

**1749-cu ildə inşa olunan Şahbulağı qalası Qarabağ Xanlığının əbədi paytaxt qala-şəhəri ola bilməzdi. Ona görə ki, cənubdan gələn xəbərlər daha möhkəm, daha etibarlı paytaxt qalasının olmasını tələb edirdi.**

**Nadir şahın öldürülməsindən sonra, İranda hakimiyyət uğrunda – Məhəmmədhəsən xan Qacar, Nadir şahın sərkərdəsi və qohumu Fətəli xan Əfşar və Kərim xan Zənd arasında silahlı mübarizə gedirdi. Bu qüvvələrin Azərbaycanın Qarabağ bölgəsində yenicə yaranan, bütün dövlətçilik rəmzlərinə malik olan Qarabağ xanlığına işğalçılıq yürüşləri gözlənilən idi. İlk növbədə Pənahəli xanın sarayında Məhəmmədhəsən xan Qacarın fəaliyyəti diqqətlə izlənilirdi.**

**Məhəmmədhəsən xan Qacar Mazandaran, İraq və Azərbaycan tərəflərində özünü müstəqil xan elan etdi. Yaxınlaşmaqda olan təhlükəni nəzərə alan Pənahəli xan və onun silahdaşları müdafiə tədbirlərini daha da gücləndirirdilər.**

**Pənahəli xan başda olmaqla saray əyyanları, din xadimləri və hərbiçilər xüsusi məsləhət şurası çağırdılar. Yaranmış və yaxınlaşan hərbi təhlükə ətraflı təhlil olunduqdan sonra belə qərara gəldilər:**

**“Nadir şah öldürüldükdən sonra bizimlə Əliqulu xan və Sərdar Əmir Aslanın arasında sülh, ittifaq və dostluq əlaqəsi var idi. İndi, çox mümkündür ki, belə bir münasibət və dostluq əlaqəsi bizimlə Məhəmmədhəsən xan Qacar arasında olmasın. Ətraf xanlardan da bir o qədər xatircəm deyilik. Onların Məhəmməd xanı üzərimizə təhrik edərək, onunla birlikdə bizə qarşı çıxacaqları ehtimalı vardır”.**

**Məhəmmədhəsən xan Qacarın hücumu zamanı Qara-**

**bağ əhalisinin qızılbaş qoşunlarının hücumundan qorumaq üçün tədbirlər görülməsi qərara alındı. Eyni zamanda da Şahbulağı qalasının da güclü orduya malik olan düşmənin hücumu qarşısında uzun müddət davam gətirə bilməyəcəyi də ehtimal olunurdu. Yaxınlaşmaqda olan faciələrin qarşısını almaq üçün tədbirlər müəyyənləşdirildi. Pənahəli xan müşavirədə qətiyyətlə bildirdi:**

**“Biz gərək dağların içində, möhkəm və keçilməz yerdə elə bir əbədi və sarsılmaz QALA inşa edək ki, onu güclü düşmən belə mühasirə edə bilməsin. Qalanın bir tərəfi dağlarda olan ellərin üzünə daim açıq olmalı və mahallarla əlaqəmiz bir an da kəsilməməlidir”.**

**Belə bir qala şəhərinin yerini müəyyənləşdirmək üçün Qarabağı hərtərəfli tanıyan, onun dağına, dərəsinə, ormanına, meşələrinə bələd olan xeyirxah adamları saraya toplamağı, Pənahəli xan göstəriş verdi. Lazım olan adamlar hazır olduqdan sonra geniş müşavirə çağırıldı. DİN xadimləri QURANİ-KƏRİMDƏN xeyir-dua surələri oxuyaraq Pənahəli xana uğurlar arzuladılar.**

**Qarabağ xanlığının yeni paytaxtının salınacağı yeri müyənləşdirmək üçün göndərilən bələdçilər bir aydan sonra Şahbulağı qalasına gələrək Pənahəli xana xoş xəbər verdilər və ondan muştuluq istədilər... Bələdçilər xana bildirdilər ki, tapdığımız ərazi üç tərəfdən hündür qayalarla əhatəlidir. Ərazinin xeyli hissəsində təbii istehkamların – yəni dağların hündürlüyü 250-300 metrə, ətraf ərazi ilə en kəsiyi 100 metrə bərabər idi. Bununla bərabər, bələdçilər Pənahəli xana bildirdilər ki, ərazinin qalın meşə örtüyü içərisində 2-3 bulaq var. Ərazidən axar su xətti yoxdur. Pənahəli xan bu xəbərdən məyus olmadı. O, göstəriş verdi ki, kənkanlar təmizlənən ərazilərdə quyu qazsınlar. Bu iş uğurla nəticələndi, yeni tikiləcək qalanın ərazisində çoxlu quyu qazıldı. Onların əksəriyyəti şirin sulu quyular idi. Qazılan quyular bol sulu idi. Qalanın inşa olunacağı ərazi sü-**

rətlə ağaclardan, kol-koslardan təmizləndi. Bəzi yerlərdə su kəhrizləri də tapıldı.

1750-ci il avqust ayının sonu-sentyabr ayının əvvəllərində yeni qala şəhərinin bünövrəsi Pənahəli xanın özü tərəfindən qoyuldu. Həmin gün Azərbaycanın Qarabağ bölgəsində müstəqil dövlət qurumunun – Qarabağ xanlığının və onun banisi Pənahəli xanın şərəfinə böyük şadyanalıq təşkil olunmuşdur.

Qarabağ xanlığının yeni-üçüncü paytaxtı ŞUŞA sürətlə inşa olunurdu. Bu mühüm işə böyük qüvvə cəlb olunmuşdur. Mahir ustalar və sənətkarlar səfərbərliyə alınmışdır. Xanlığın əhalisi qalanın inşa olunmasına əllərindən gələn köməkliyi əsirgəmirdi. Ərazidə işləyənləri ərzaqla, tikiti materialları ilə müntəzəm olaraq təchiz edirdilər. Ümumiyyətlə, ŞUŞA qalası ümumxalq tikitisi meydanına çevrilmişdir.

Mənə belə gəlir ki, Qarabağ xanlığının yeni paytaxtının inşası daha erkən dövrlərdən, 1749-cu ildən başlamışdır. Siyasi hadisələrin o dövrdəki gedişi bunu sübut edir. Ona görə ki, artıq 1753-cü ildə ŞUŞA Qarabağın mərkəzi şəhəri idi.

Şuşa qalasının inşa edilməsində Təbriz, İsfahan, Ərdəbildən və başqa şəhərlərdən dəvət olunan mahir ustalar da çalışırdılar. Onlar öz ailə üzvüləri və yaxın qohumları ilə birlikdə Şuşaya gəlirdilər. Qalada müəyyən məhlələr hazır olandan sonra bir daha geri qayıtmayıb qalada qalırdılar, onun sakinləri olurdular. Onu da qeyd edim ki, yeni paytaxt özündən əvvəlkilər kimi QƏDİM TÜRK TORPAĞINDA, Azərbaycanın Qarabağ bölgəsində salınırdı.

Şuşa qalası inşa olunarkən onun müdafiə hasarları da hörülür, müəyyən məsafələrdə gözətci bürcləri tikilirdi. Əlbəttə, bu iş təcili həyata keçirilirdi...

Yeni qalanın xeyli hissəsi tikilib başa çatdıqdan sonra, məmurların və din xadimlərinin məsləhəti ilə qalanın

**ilk daşını bünövrə qoyan PƏNAHƏLİ xanın şərəfinə PƏNƏHABAD adı verildi.**

**Bu hadisədən sonra, Şahbulağı qalasının sakinləri olan bütün rəiyyətləri- əyanlarının, mülazimlərin, din xadimlərinin və bir para kəndlərin kəndxudalarının ailələrini köçürüb, bu qalanın daxilində yerləşdirdilər. Bu vaxta kimi bu ərazidə yaşayış yox idi.**

**1752-ci ildə Məhəmmədhəsən xan Qacar (Ağa Məhəmməd şah Qacarın atası), İraq və Azərbaycan qoşunu ilə Şuşa qalasını almaq və Pənahəli xanı özünə tabe etmək məqsədilə Araz çayını keçib Şuşa qalasının ətrafında ordugah qurdu. O, Şuşanı bir ay mühasirədə saxladı, heç bir uğur əldə edə bilmədi. Pənahəli xanın döyüşçiləri, bütün qala əhalisi Məhəmmədhəsən xan Qacarın ordusuna ağır zərbə vurdular. Şuşa qalasının mühasirəsini davam etdirən və ağır zərbələrə məruz qalan Qacar xanına xəbər verdilər ki, Fars məmləkətinin Şiraz şəhərində böyük qoşun toplayan Kərim xan Zənd İraqı və Mazandaranı almaq üçün hərəkətə keçib.**

**Vəziyyətin ağır olmasını nəzərə alan Məhəmmədhəsən xan Qacar, Gəncəyə, Şirvana və Azərbaycanın başqa ərazilərinə hücum etməyin mənasız olduğunu nəzərə alaraq, təcili İraq, Fars vı Mazandaran tərəfə geri qayıtdı. Lakin Məhəmmədhəsən xan gəlib çatana qədər, Kərim xan Zənd bütün Fars vilayətini, İraqı və başqa əraziləri ələ keçirə bildi.**

**Hadiəsələrin Qacar xanın əleyhinə getdiyi belə bir şəraitdə, onun bir neçə yaxın adamı Məhəmmədhəsən xan Qacarı öldürüb, başını kəsərək Kərim xan Zəndə gətirdilər. Lakin o, qatillərə mükafat yox, başqalarına görk olsun deyə, onları edam etdirdi. Beləliklə, Şuşa qalasına ilk xarici hücum məğlubiyyətlə başa çatdı.**

**Qarabağın təbii gözəlliyi, insanların yaşamaları, əkib-becərmələri, bir sözlə xoşbəxt həyat üçün istənilən qədər**

**şəraitin olması, ona həsəd aparanların sayını artırırdı. Lakin bu həsəd xoş məramlı olmurdu. Məhəmmədhəsən xandan sonra, Nadir şahın sərkərdəsi və qohumu URMİYALI FƏTƏLİ xan ƏFŞAR, hakimiyyət həvəsi ilə Urmiya vilayətindən baş qaldıraraq, bütün Azərbaycan torpaqlarını ələ keçirdi. Onun məqsədi Nadir şah tərəfindən yaradılan Əfşarlar imperiyasını bərpa etmək idi. Fətəli xan Əfşar Azərbaycanın Cənub bölgəsində istədiyinə qismən də olsa nail ola bildi. Güclü orduya malik olan Fətəli xan Əfşar, Şimali Azərbaycan xanlıqlarını da özünə tabe etmək fikrinə düşdü. Görünür o, cənub xanlıqlarını özünə tabe etməklə kifayətlənmək istəmirdi.**

**Şimali Azərbaycanda yeni yaranmış xanlıqları da ələ keçirmək məqsədilə, o saysız-hesabsız qoşunla Qarabağ xanlığının ərazisinə daxil olaraq Şuşa qalasını mühasirəyə aldı. Fətəli xan qalanın yaxınlığında ordugah yaradaraq, çadırlar qurdurub, sanki bir şəhər saldırdı. Pənahəli xan Əfşar xanının bütün vədlərini rədd edir, onun qoşununa ağır zərbələr vurmaq üçün seçmə döyüşçüləri ilə birlikdə döyüşə atılır və Əfşar qoşunlarına qalib gələrək, yenidən qalanın içərisinə qayıdırdı. 6 aya qədər davam edən mühasirə hər iki tərəf üçün ağır nəticələrə səbəb oldu.**

**Şuşa qalasının mühasirəsi zamanı, Pənahəli xanın dostu Qara Murtuzanın silahlı döyüşçüləri də əfşarlara qarşı mərdliklə vuruşurdular. Döyüşlərdə Fətəli xan Əfşar 2 minə qədər döyüşçü itirdi.**

**Fətəli xan Əfşara qarşı müharibə partizan müharibəsi xarakteri aldı. Fətəli xan Əfşar başa düşürdü ki, Şuşa qalasını ala bilməyəcək. Qarşıdan isə soyuq qış gəlirdi, soyuqlar başlanmışdır. Düşmənin canlı qüvvəsinin itgisi günügündən artırdı.**

**Şuşada da vəziyyət yaxşı deyildi. Qala mühasirədə olduğu üçün kənardan ərzaq gətirmək mümkün deyildi. Barıt ehtiyatlı da tükənmişdir. Nəhayət, Pənahəli xan qalanı**

dağıntıdan qurtarmaq üçün, Fətəli xan Əfşardan asılılığı qəbul edərək böyük oğlu, Qarabağ xanlığının gələcək varisi İbrahimxəlil ağanı ona girov verməyə məcbur oldu... O, girovu aldıqdan sonra, dayanmadan Urmiya qalasına doğru geri çəkildi.

İranda hakimiyyət uğrunda mübarizə aparanlardan biri də Zəndlər sülaləsinin nümayəndəsi Kərim xan Zənd idi. O, böyük hərbi qüvvəyə malik olan Fətəli xan Əfşara qarşı mübarizədə aciz idi. Fətəli xan Əfşarla döyüşlərin birində, onun qardaşı öldürülmüşdür. Onların arasında qan düşmənçiliyi var idi. Kərim xanın ətrafında olan uzaqgörən adamlar məsləhət gördülər ki, güclü düşmənə qalib gəlmək üçün, güclü müttəfiq lazımdır. Belə bir güclü, igid, döyüş meydanlarında ad-san qazanan, Qarabağ xanı Pənahəli xan ola bilərdi. Fətəli xan Əfşara qarşı hər an o, mübarizəyə hazır idi.

Kərim xan Zəndin göstərişi ilə, onun mirzəsi, Qarabağa, Pənahəli xana aşağıdakı məzmunda məktub yazdı:

"Fətəli xan bizim nəinki düşmənimiz, hətta qanlımızdır. Sizə qarşı da yaramaz işlər görmüş, böyük oğlunu girov kimi Urmiyaya aparmışdır. İndi var qüvvə ilə bizə kömək etməli, birlikdə ümumi düşmənimiz olan Fətəli xanı aradan götürmək üçün Urmiya üzərinə hücum etməliyik. Bu işdə heç bir tərəddüd ola bilməz. Əgər biz birlikdə ondan intiqam alsaq, həm siz və həm də biz qisasımızı ala bilərik". Kərim xan Zənd heç də müttəfiq seçməkdə yanılmamışdır.

Pənahəli xan Fətəli xan Əfşardan yaxa qurtarmaq, İbrahimxəlil ağanı girovluqdan azad etmək üçün 1761-ci ildə 3 min seşmə süvari qoşunla Araz çayını keçərək Kərim xan Zəndin qoşunu ilə birləşdi. Kərim xan bu birləşmə nəticəsində qalibiyyət bayrağına nail ola bildi...

Pənahəli xanın məsləhəti ilə, Fətəli xan Əfşarın Şuşa qalasını mühasirəyə aldığı üsulu Urmiyada da tətbiq olundu. Şəhərin mühasirəsi o qədər dərin düşünülmüşdür ki,

**kənardan ora heç kim gedib gələ bilmirdi. Birləşmiş qüvvələr Fətəli xan Əfşara qalib gələrək onu aradan götürdülər. Kərim xan Zənd məqsədinə çatdıqdan sonra, namərdlik etdi. O, müttəfiqlərini azad etdi. Lakin Pənahəli xanı özü ilə Şiraza apardı. Riyakarcasına bildirdi ki: -"Fətəli xana qarşı döyüşlərdə çox əziyyət çəkmisən, gedək Şirazda bir neçə gün istirahət et, sonra Qalaya gedərsən". Onun məqsədi Pənahəli xandan canını qurtarmaq idi...**

**Kərim xan –Zənd Şiraza gəldikdən sonra, İbrahimxəlil ağanı girovluqdan azad etdirib, böyük hörmətlə Qarabağa yola saldı. Pənahəli xan başa düşdü ki, onun siyasi hakimiyyəti sona yetdi. Kərim xan onun üzərində olduqca güclü nəzarət qoydurmuşdu. Pənahəli xanın hər bir hərəkəti anba-an izlənilirdi. Bu ona fiziki və mənəvi cəhətdən ağır təsir göstərirdi.**

**Pənahəli xan "fəxri qonaq" əsirliyindən qaçıb canını qurtarmaq üçün cəhdlər göstərsə də mümkün olmadı... Onun işləri yarımçıq qaldı. Bütün gələcək arzu və istəkləri Şirazda məhv oldu... Kərim xan Zənd isə ən güclü rəqibini namərdcəsinə aradan götürə bildi...**

**Pənahəli xanın dövründə Qarabağ xanlığı müstəqil olmuş, heç bir dövlətdən asılı olmamışdır, heç kəsə bac-xərac verməmişdir. Onun hakimiyyəti dövründə (1747-1759 –cu illər) 1748-ci ildə BAYAT, 1749-cu ildə ŞAHBULAQ, 1750-ci ildə isə PƏNAHABAD-ŞUŞA qalaları tikilmişdir.**

**Görkəmli dövlət xadimi, Qarabağlı, Qarabağ xanlığının banisi, mahir sərkərdə PƏNAHƏLİ XAN 1763-cü ildə Şirazda Qarabağ həsrəti ilə əbədiyyətə qovuşdu. Özünün vəsiyyətinə əsasən cənazəsi Qarabağa gətirilərək AĞDAMDA ata mülkü adlanan İMARƏT adı ilə məşhur olan cənnətməkan deyilən yerdə dəfn olundu.**

**Mənbələrdə belə bir məlumat var ki, Pənahəli xanın cənazəsi qara gəcavədə, 4 qara at qoşulmuş 4 təkərli arabada XUDAFƏRİN körpüsünə qədər gətirilib, Qarabağ xan-**

**lığının mötəbər adamlarına verilmişdir.**

**Pənahəli xanın vəfatından sonra, onun miras qoyduğu Azərbaycanın Qarabağ bölgəsinin xanlığının xanı onun böyük oğlu İBRAHİMXƏLİL oldu.**

**Azərbaycanın Qarabağ bölgəsində yaranan Qarabağ xanlığı Pənahəli xanin varsi İBRAHİMXƏLİL xanın (1763-1806- cı illər) dövründə daha da gücləndi. Siyasi, iqtisadi, mədəni və sosial cəhətdən inkişaf pilləsinə daxil olan xanlığın əhalisinin 96 faizindən çoxlu Azərbaycan türkləri, qalan 3-4 faizini xəmsə alban xristianları və başqa tayfalar təşkil edirdilər. Xatırlatmaq lazımdır ki, xristian alban mənlikləri ailə-nəsil birlikləri idilər. Həsən Cəlalın nəsli istisna olmaqla, yerdə qalan dörd xristian alban məlikləri Qarabağda heç bir yadda qalan iz qoyub getməmişlər.**

**Azərbaycanın Qarabağ bölgəsinin əhalisinin əsas əmək məşğuliyyəti əkinçilik, maldarlıq, sənətkarlıq, toxuculuq və digər sahələr idi. İbrahimxəlil xan, İRAN və RUM dövlətləri ilə münasibətdə tam müstəqil olmuşdur. Mənbələrdə deyilir ki, onun hakimiyyəti dövründə hökm və fərmanları Şirvan, Şəki, Gəncə, İrəvan (Qərbi azərbaycan xanlığı), Naxçıvan, Xoy, Qaradağ, Təbriz, Ərdəbil vilayətləri, hətta Marağa, İraq və Azərbaycan sərhəddi olan Qaplanguhda belə işlənirdi.**

**Xanlığın müdafiəsinin gücləndirilməsində İbrahimxəlil xan qohumluq diplomatiyasından da istifadə edirdi. O, Avar və Dağıstan valisi Ümmə xan Nüsal xan oğlunun bacısını alaraq onunla qohum olmuşdur. Qaradağ, Xoy və Gəncə xanları ilə də qohumluq əlaqələri var idi. Lazım gəldikdə onlardan (xüsusilə ləzgilərdən) Qarabağa döyüşçülər dəvət edərdi. İbrahimxəlil xanın hakimiyyəti şahlıq səviyyəsinə çatırdı.**

**Şuşa qalasının tikinti işləri İbrahimxəlil xanın dövründə daha da sürətlənmiş, yeni məhəllələr salınmış, binalar tikilmiş, saraylar inşa olunmuş, küçələrə daş döşənmiş,**

şəhərin boru kəmərləri yenidən qurulmuş, müdafiə hasarları, müşahidə bürcləri və başqa sahələr qaydaya salınmışdır. Hər məhəllədə məscid, müqəddəs ocaqlar tikilib istifadəyə verilmişdir.

Bunlardan əlavə, İbrahimxəlil xanın iki qaya arasında tikilən yay istirahət sahəsi dövrünün möcüzəsi idi.

Qarabağda iqtisadi, mədəni və sosial inkişaf Şirazda Kərim xan Zənd tərəfindən girov saxlanılan Ağa Məhəmməd xan Məhəmmədhəsən oğlu Qacarın tarix səhnəsinə çıxan günə qədər davam etdi. 1779-cu ildə Kərim xan Zənd öldükdən sonra Ağa Məhəmməd xan Qacar Şiraz şəhərini tərk edərək, İranda hakimiyyət uğrunda mübarizəyə başladı.

Ağa Məhəmməd xan Qacar İranda hakimiyyət uğrunda mübarizəyə başladığı dövr feodal dağınıqlığının hökm sürdüyü dövr idi.

Ağa Məhəmməd Qacar Xorasan istisna olmaqla İranda bütün hakimiyyəti ələ keçirmişdir. XVIII əsrin 80-ci illərinin sonunda öz mövqeyini möhkəmləndirdikdən sonra, belə qərara gəlmişdir ki, sabiq Səfəvilər dövlətinin ərazilərini bərpa etdikdən sonra TACQOYMA mərasimi keçiriləcəkdir.

Hərbi yürüşə başlamazdan əvvəl, Ağa Məhəmməd xan Cənubi və Şimali Azərbaycan xanlıqlarına, eyni zamanda da Kartli - Kaxeti çarlığına fərmanlar göndərərək, onlardan tabe olmaları əlaməti kimi yaxın adamlarının girov kimi, Tehrana, Qacarlar sarayına göndərmələrini tələb etdi.

Mirzə Camal Cavanşir yazırdı:

“Ağa Məhəmməd xan Qacar İbrahimxəlil xana xələt, qızıl yəhər və əsbablı at göndərib, itaətə dəvət etdi. Elçilər gəlib-gedirdi. İbrahimxəlil xan girov adı ilə bacarıqlı şəxs olan Mirzə Vəli Baharlı ilə birlikdə əmisi oğlu Əbdüssəməd bəyi də onun yanına göndərdi”. Qacar xanı onları böyük hörmətlə qəbul edib, öz yanında saxladı.

**Bu "dostluğa" baxmayaraq İbrahimxəlil xan xanlığın müdafiə qabiliyyətini möhkəmləndirmək üçün tədbirlər görürdü. Xanlığın mərkəzi Şuşa qalasının müdafiəsi xüsusilə diqqət mərkəzində idi. Müdafiə işlərində xana, görkəmli dövlət xadimi , şair Molla Pənah Vaqif yaxından kömək edirdi. Şuşada xüsusi döyüş dəstələri (çərik) yerləşdirilirdi. Xanlığın qoşun hissəsinin bir qismi qala divarlarının kənarındakı yol keçidlərində mövqe tutmuşdur. Qacar xanının qeyri səmimiliyi durmadan üzə çıxırdı.**

**Mirzə Camal bəy qeyd edir ki, İbrahimxəlil xanla Ağa Məhəmməd xan Qacar arasında narazılıq əmələ gəldi. Narazılığın baş verməsi girovlar üçün təhlükəli vəziyyət yaratdığı üçün Əbdüssəməd bəy Mirzə Vəli Baharlı və bir neçə nəfər xidmətçiləri ilə Kirmandan qaçdılar. Lakin qaçanlar canlarını qurtara bilmədilər. Əbdüssəməd bəy vuruşmada öldürüldü. Mirzə Vəli Baharlı və yoldaşları Tehran şəhərinə aparılaraq həbs olundular. Qacar xanın əmri ilə Mirzə Vəlini top lüləsinin ağzına bağlayaraq atdılar. Həbs olunanların hamısı edam olundu.**

**1793-cü ildə Ağa Məhəmməd xan Qacar yenidən Azərbaycan xanlıqlarına fərmanlar göndərib onlardan tabe olmalarını tələb etdi və əks halda hərbi yürüşə başlayacağını bildirdi. İbrahimxəlil xan İrandan gələn qasidə bildirdi ki: - "Mənim atam vəsiyyət edib ki, heç kəsə bac-xərac verməyim, heç bir dövlətə də tabe olmayım".**

**Şimali Azərbaycan xanlıqları Cənubdan gələn təhlükəyə qarşı vahid cəbhədə birləşə bilmədilər. Qüvvələrin pərakəndəliyindən istifadə edən Qacar xanı Şimali Azərbaycana, ilk növbədə onun Qarabağ bölgəsinə hücum etmək qərarına gəldi. O, Ərdəbildən Şimali Azərbaycan istiqamətində 88 min nəfərlik qoşunla üç istiqamətdə hücuma keçdi. Ağa Məhəmməd xanın göstərişi ilə İran ordusunun birinci dəstəsi Muğan, ikinci dəstəsi onun qardaşı Əliqulu xanın başçılığı ilə İrəvan (Rəvan) və Ağa Məhəmməd xan**

**Qacarın özünün başçılıq etdiyi üçüncü dəstə isə Qarabağa doğru irəliləməyə başladılar.**

**İrəvana doğru hücum edən İran sərbazları Naxçıvan qalasında ağır məğlubiyyətə düçar oldular. Qacar xanın göstərişi ilə İran qoşunları Naxçıvan qalasının mühasirəsindən əl çəkib İrəvan qalasına doğru hərəkət etməyi qərara aldılar. Zəif müdafiə olunan İrəvan qalası sərbazlar tərəfindən işğal olundu.**

**Ağa Məhəmməd xan Qacarın rəhbərlik etdiyi İran ordusunun əsas dəstəsi 1795-ci ilin iyun ayında ŞUŞA QALASINI almaq üçün Qarabağ xanlığına hücum etdi. Şuşa qalası 1795-ci il iyun ayında mühasirəyə alındı. Mühasirə 33 gün davam etdi. Bu dövr ərzində Qacar xanı heç bir uğur əldə edə bilmədi. İbrahimxəlil xanın döyüşçüləri sərbazlara qəhrəmancasına müqavimət göstərir və onlara layiqli zərbələr vururdular.**

**Ağa Məhəmməd xan Şuşaya ilk hücumu zamanı kənardan da olsa şəhərə baxıb həsəd aparmışdır. Uca dağ başında qərar tutan Şuşa qalasını Qacar xanı qartala bənzədirdi. O, "Şuşa qalasının əzəməti və gözəlliyi qarşısında heyran qalmışdı. Şuşa o zaman Qacar məmləkətinin baş kəndi olan TEHRANDAN daha böyük, şəhər mədəniyyəti baxımından daha çox inkişaf etmişdir. Bütün ordu mənsubları da dağların qoynunda və ormanlıqda yerləşən bu şəhərin gözəlliyinə heyran olmuşdur".**

**Qarabağ döyüşçüləri gecələr də hücum edib düşmənə ağır zərbələr vururdular. Qacar xanının qalib gəlmək ümidləri boşa çıxdı. O, belə qərara gəldi ki, Tiflisə hucum etsin. Belə də oldu. Şuşa qalasında məğlub olan Ağa Məhəmməd xan Tiflisi tutdu, şəhəri dağıtdı, əhalinin var-yoxunu sərbazlar qarət etdi. 1795-ci il sentyabr ayının 20-də İran qoşunları küllü qarət, habelə 20 min əsirlə Tiflis şəhərini tərk etdilər. 1795-ci ilin noyabr ayında Ağa Məhəmməd xan Gəncədən Qarabağ xanı İbrahimxəlil xana qasid**

**göndərib tabe olmasını tələb etdi. Bu dəfə də o, rədd cavabı aldı. Bundan sonra o, qışlamaq üçün ordusunu Muğana çəkilməsi haqqında göstəriş verdi.**

**1796-cı il aprel ayının 18-də qraf V.A. Zubovun komandanlığı altında rus qoşunlarının Şimali Azərbaycana yürüşü başlandı. Qacar xanın Cənubi Zaqafqaziyada geniş miqyaslı hərbi əməliyyatları Rusiya imperiyasının mənafeynə uyğun gəlmirdi. Rusiyada siyasi və iqtisadi inkişaf, onu yeni müstəmləkələr və xammal mənbələri ələ keçirməyə sövq edirdi.**

**1796-cı il noyabr ayının 6-da II Yekaterinanın qəflətən ölümü yeni imperator I Pavel tərəfindən Zubovun qoşunlarının geri çağrılması, yenidən Ağa Məhəmməd xan Qacarın hərbi yürüşlərinin başlanmasına şərait yaratdı. Ağa Məhəmməd xan V.Zubovla məktublaşan Şimali Azərbaycan xanları ilə haqq-hesab çəkmək məqamının yetişdiyini nəzərə alaraq, yeni hərbi müdaxiləyə başlamaq üçün hazırlıq işlərinə başladı.**

**Ağa Məhəmməd xan Qacar Xoy, İrəvan xanlarına ağır cəza verdi. Onlar həbs edildi, əmlakları müsadirə olundu.**

**1796-cı ildə Ağa Məhəmməd xan, Tehranda İran şahı elan olundu. O, yeni yürüşlərə başlamaq məqsədi ilə hərbi hazırlıq işlərini gücləndirdi. Qacar şahının hərbi yürüşünün əsas istiqaməti yenə də Azərbaycanın Qarabağ bölgəsi idi. Buna görə də Ağa Məhəmməd şah Qacar Süleyman xan Qacar Lənkərandan qayıdan kimi onu Sadıq xan Şəqaqi və 10 min sərbazla kəşfiyyat aparmaq məqsədi ilə şahin qoşunlarının keçəcəyi yolların təhlükəsizliyini təmin etməyə göndərdi.**

**Qacar qoşunlarının ön dəstəsi Qarabağa doğru hərəkətə başlayan kimi Ağa Məhəmməd şah Qacar Sadıq xan Şəqaqinin vətəni olan SƏRAB xanlığını işğal etdi. Qacar şahı Sərabdan birbaşa Qarabağa doğru hərəkət edib, Araz çayının sahilində öz sərkərdələrinə çatdı. Sadıq xan Şəqaqi**

**Sərab xanlığının işğal olunmasını bildisə də, onu biruzə vermədi...**

**Ağa Məhəmməd şah Qacarın Qarabağa doğru hücumunu eşidən İbrahimxəlil xan onun irəliləməsini ləngitmək üçün Araz çayı üzərindəki Xudafərin körpüsünün bir bəndinin dağıdılması haqqında öz adamlarına göstəriş verdi. Lakin sərbazlar çətinliklə olsa da Araz çayını keçə bildilər. Çayı keçərkən sərbazlar itgiyə məruz qaldılar. Araz çayının axınının dəyişdirilməsi sahəsində də müəyyən işlər görüldü. Nəticədə çayın suyu ətrafa yayıldı. İran qoşunları gecə yarısı baş verən hadisədən vahiməyə düşdülər. Ağa Məhəmməd şah Qacar baş verən hadisənin səbəbini başa düşmədi. Güclü sel sərbazları kaşdırdı, onlar nizamsız surətd ora-bura qaçmağa başladılar. Sel hərbi düşərgənin ərazisində nə var idisə hamısını yuyub aparırdı. Qacar şahı canını çox çətinliklə qurtara bildi. Yalnız sel hündür ərazidə yerləşdirilmiş toplara zərər vurmadı. Sel qacarlara böyük ziyan vurdu. Ərzaqsız qalan sərbazlar ətraf yaşayış məntəqələrinə hucum edib, əhalinin son tikələrini əllərindən alırdılar. Onlar baş verən hadisənin əvəzini qarabağlılardan zülm etməklə çıxdılar.**

**Ağa Məhəmməd şah Qacar ətraf kəndlərdən qarət yolu ilə xeyli ərzaq və silah topladıqdan sonra, Şuşa qalasına doğru hücuma keçmək haqqında ordusuna əmr verdi. Şuşa qalasının başı üzərinə qara buludlar hərəkətə gəldi. Dəhşətli günlər qabaqda idi...**

**İbrahimxəlil xanın döyüşçüləri Qacar qoşunlarını ƏSGƏRAN qalasında qarşıladılar. Əsgəran qalasında sərbazlar gözləmədikləri çətinliklə qarşılaşdılar. Onlar qarabağlıların müdafiəsini çətinliklə yararaq ŞUŞAYA-QARABAĞIN Kəbəsi olan müqəddəs şəhərə yaxınlaşdılar. Lakin çox irəli gedə bilmədilər.**

**Ağa Məhəmməd şah Qacarın Şuşaya ikinci hücumu zamanı, yəni 1797-ci ildə də şəhərin müdafiəsinə İbrahim-**

**xəlil xanla yanaşı baş vəzir Molla Pənah Vaqif və başqaları rəhbərlik edirdilər. Şəhərin müdafiəsi etibarlı əllərdə idi. Qacar şahı Şuşa qalasının cənub–şərq ərazisində, uca dağ ərazisində, geniş düzəngahda, TOPXANA kimi tarixə daxil olan yerdə hərbi düşərgə saldı.**

**Ağa Məhəmməd Şah Qacar Şuşa qalasının ətrafında hərbi düşrgə saldıqdan sonra, ona xəbər verdilər ki, şəhərin müdafiəsi olduqca etibarlıdır. O, topçulara göstəriş verdi ki, qala divarlarını fasiləsiz atəşə tutsunlar. Topçular 150-200 metr məsafədən divarları toplardan atəşə tutdular. Amma divarlar çox möhkəm idi. Qacar şahı əmr etdi ki, qala divarlarını yuxarıdan aşağıya atəşə tutsunlar. Bu zaman yuxarı hissə uçub yerə tökülər, sərbazlar oradan şəhərə girə bilərlər. Topçular arasında Həmd Ulteyn adlı mahir bir topçu var idi. Əvvəllər o, Bağdad hakiminin yanında xidmət edirdi. Təbriz hakimi onu Təbrizə gətirmişdi. Ağa Məhəmməd şah Təbrizə gələndə, onu tərifləyib hərbi xidmət üçün Qacar şahına vermişdir.**

**Həmid Ulteyn sərbazlarla birlikdə Şuşaya gələrkən idarə etdiyi 4 ağır topu da özü ilə döyüş meydanına gətirmişdir. Toplardan atılan mərmilər qala divarlarına təsir etmirdi. Həmidin göstərişi ilə dəmirçilər və çilingərlər 2 top mərmisini bir-birinə bağlayaraq topların atəş nöqtəsinə qoydular. Bununla da toplardan atılan mərmilərin təsir gücü 2 dəfə artdı. Beləliklə də qala divarları dağıntıya məruz qaldı.**

**Şuşa döyüşçüləri gecələr dağılan divarları bərpa edirdilər. Həmid bu üslulu Osmanlı topçularından öyrənmişdir. Döyüşün gedişini diqqətlə izləyən İbrahimxəlil xan topları susdurmaq qərarına gəldi. Xan qətiyyətlə bildirdi ki, toplar və onları idarə edənlər məhv edilməsə, Şuşanın müdafiəsi sona qədər qorunub saxlanıla bilməz. Qacar şahı da başa düşürdü ki, İbrahimzəlil xan, topları susudurmaq üçün tədbir görə bilər.**

**O, yanılmamışdır. Bilirdi ki, Qarabağ xanı İbrahimxəlil xan qorxmaz və igid hərbiçidir. İbrahimxəlil xan qalanın müdafiəçilərinə tapşırıq və tövsiyyələrini verdikdən sonra, qaladan çıxmağı qərara aldı. Onun qaladan çıxmasını etirazla qarşılayanlar da oldu. Lakin o, inadından dönmədi... Torpaq, vətən, xalq onun üçün hər şeydən əzizi və qiymətli idi. Xan özü ilə brlikdə igid döyüşçülər dəstəsi götürərərk 1797-ci il iyun ayının sonunda Şuşadan çıxdı. 76 yaşlı xan müharibə meydanında misilsiz qəhrəmanlıq göstərdi. İbrahimxəlil xan və onun döyüşçüləri düşmənin toplarını, onları idarə edənləri məhv etdilər, xeyli sayda sərbazları öldürdülər və az itgi verərək geri qayıtdılar. Lakin qalaya gedən yollar, keçidlər Qacar qoşunları tərəfindən tutulduğundan onlar çıxılmaz vəziyyətə düşdülər. İranlılar xan başda olmaqla hamısını əsir tuta, ya da öldürə bilərdilər. Yalnız şimala tərəf yol açıq idi.**

**İbrahimxəlil xan döyüş yoldaşları ilə şimal istiqamətində hərəkət etmək məcburiyyətində qaldı. Başqa çıxış yolu yox idi. Ağa Məhəmməd şah Qacarın Şuşa qalasına ikinci hücumundan bir neçə gün əvvəl xan öz ailəsini qaladan çıxartmışdı. Bir çox əyanlar da belə hərəkət etmişdilər.**

**İbrahimxəlil xan şimal istiqamətinə gedərkən Qacar şahı onu izləmədi. Şaha Şuşa qalası lazım idi. Amma qala hələlik işğal olunmamışdır. Əgər Şuşa qalası sərbazlar tərəfindən işğal edilmiş olsaydı, bəlkə də Ağa Məhəmməd şah xanı ələ keçirmək üçün tədbirlər görərdi...**

**İbrahimxəlil xanın Dağıstana tərəf getməsi xəbəri qalaya çatdıqda əhali arasında narahatçılığa səbəb oldu. İbrahimxəlil xanın şimal istiqamətinə getməsi xəbərini Şuşa qalasının müdafiəçilərinə və əhaliyə Qacar şahın tapşırığı ilə çatdırdılar. Onun carçıları qala divarlarının arxasından var gücləri ilə çığırıb deyirdilər:**

**“İbrahimxəlil xan sizi qoyub qaçdı, müqavimət göstərməyinizin heç bir nəticəsi olmayacaqdır. Təslim olun”**

**deyirdilər. Şuşalılar bu çağırışa inanmadılar. Axı xanın döyüşə yararlı qohumları qalada idilər. M.P.Vaqif, xanın qardaşı oğlu Məhəmməd bəy Cavanşir və başaları Şuşanın müdafiəsinə rəhbərlik edirdilər. Əhali bilirdi xan topları və topçuları susdurmaq məqsədi ilə qaladan çıxıb. Doğrudan da Ağa Məhəmməd şah Qacarın topları susmuşdu, daha atəş açmırdılar.**

**Qacar şahı qalanı ələ keçrməyə tələsirdi. Qorxurdu ki, xan yeni qüvvə toplayaraq qacarlara zərbə vura bilər. Həyəcan içərisində olan qala camaatı ruhanilərin yanına gedib tədbirlər görülməsini onlardan tələb etdilər. Ruhanilərin başçısı Hacı Babək bildirdi ki, Ağa Məhəmməd şah Qacar qan içən və qəddar adamdır. Düşmənə qarşı mübarizəni də, təslim olmağı da özünüz həll edin. Bu zaman Ağa Məhəmməd şah Qacar Şuşa qalası camaatına xəbər göndərdi ki, "əgər təslim olsalar, cəzadan qurtulacaqlar, can, mal və namus amanda olacaq, əks təqdirdə hər şey tərsinə olacaq, Kerman faciəsi şuşalıları gözləyir...**

**Vəzifə sahibləri, baş ruhani Hacı Babəkin evinə toplaşıb yaranmış olan vəziyyəti müzakirə etmək qərarına gəldilər. Əsas məsələ qalanı təslim etməli, ya yox? Müşavirədə şəhər camaatının nümayəndələri də iştirak edirdilər. İbrahimxəlil xanın sərdarlarından biri olan İsmayıl Şamaxi çıxış edərək dedi:**

**"Mən təslim olmağın qəti əleyhinəyəm. Düşmənə qarşı apardığımız mübarizədə çox adam itirmişik. İbrahimxəlil xan azaddır. O, bizi heç vaxt darda qoymaz. Topları kim məhv etdi? Xanımız və onun igid döyüşçüləri. Ümidsizliyə qapılmaq lazım deyil. Şəhəri təslim etsək biz İbrahimxəlil xanın yanında başı aşağı olarıq. Mən inana bilmirəm ki, Ağa Məhəmməd şah bizi cəzasız buraxa. Ona qarşı vuruşmuşuq, sərbazlarını məhv etmişik. 1795-ci ildə Şuşa qalasına hücumunda şəhəri tuta bilmədi. Mən inanıram ki, İbrahimxəlil xan bizim köməyimizə gələcək. Buna heç kim şüb-**

**hə etməsin".**

**İsmayıl Şamaxinin çıxışı müşavirə iştirakçılarına mənəvi ruh verdi. Amma Hacı Babəkin çıxışı müşavirə iştirakçılarının böyük hissəsini qane etmədi. İsmayıl Şamaxi ona tutarlı cavab verdi. Müşavirədə gərginliyin yaranmasını hiss edən baş ruhani Hacı Babək dedi:**

**Mən, Ağa Məhəmməd şah Qacarın yanına gedib danışacam. Əgər söz versə ki, əhaliyə toxunmayacaqlarsa onda sərbazları şəhərə buraxarıq. Mən, Qacar şahın çadırına gedib, ondan müsbət cavab alaram. Belə də oldu. Hacı babək bildirdi ki, Ağa Məhəmməd şah dindardır. Həmişə yanında QURANİ-KƏRİM saxlayır. Hacı Babək Qacar şahın yanına daxil olarkən şah mirzəsinə nə isə diktə edib yazdırırdı. O, Hacı Babəki görüb diktəsini yarımçıq saxladı və dedi:**

**Mənimlə işin var? Bəli. O, eşitmişdi ki, Nadir şaha "Zillulah" deyirdilər. Ona görə Hacı Babək Ağa Məhəmməd şaha Zillullah deyə cavab verdi.**

**Ağa Məhəmməd şah Hacı Babəkə tərs-tərs baxaraq, mənə Şəhriyar deyə müraciət edə bilərsən... Xeyli söhbətdən sonra, Hacı Babək mətləb üstünə qayıtdı. Qalanın camaatı sizin qəzəbinizdən qorxurlar. Yoxsa, qalanın darvazalarını açıb hamınızı şəhərə buraxmağa hazırdılar. Bəs nə üçün açmırlar, deyə Qacar şahı dilləndi. Əgər iki günə qədər qala darvazaları açılıb şəhər təslim olsa, mənim camaatla işim olmayacaq.**

**Ey Şəhriyar, onlar təslim olmağa hazırdılar... Hacı Babək burada susdu. Araya sükut çökdü. Qacar şahı onun susduğunu görüb özü soruşdu:**

**Bəs nədən ötrü darvazaları açmırlar? Bəs nəyi gözləyirlər. Sən mənə nə deməyə gəlmisən?**

**Hacı Babək ürəyindən gələn sözləri deməliydi, mütləq danışmalı, şuşalıların şərtlərini şah Qacara çatdırmalıydı. Şah başa düşdü ki, Hacı Babək nə isə demək istəyir, amma qorxur. Ona görə qətiyyətlə soruşdu:**

**Bəlkə şəhər camaatı təslim olmaq üçün məndən zəmanət istəyir?**

**Hacı Babək özünü ələ alaraq dedi:**

**Onların cəsarəti çatmaz ki, sizdən zəmanət istəsinlər. Lakin arxayın olmaq naminə nə isə ortada bir arxayınçılıq olmalıdır. Qala camaatı şahzadələrinizdən birini qonaq kimi qalaya göndərməyinizi istəyirlər...**

**Qacar şahı başa düşdü ki, qala camaatı ondan şahzadələrdən birini girov kimi qalaya göndərilməsini istəyirlər. Qacar şahı buna razı olmadı. Hacı Babək Ağa Məhəmməd şah Qacarla olduqca məntiqi danışır və ondan mərhəmət diləyirdi. Qacar şahı bir qədər əsəbi halda dedi:**

**"Get şəhər əhalisinə de ki, mən şəhəri güc tətbiq etməklə işğal edəcəyəm, onları cəzalandıracağam".**

**Bu sözdən sonra Hacı Babəkin gümrah səsi titrədi:**

**Ey Şəhriyar! Allah Qurani-Kərimdə buyurmuşdur, qəzəblənən zaman öz səbrinə qalib gələn adamlara mərhəmətim var.**

**Mən hamını bağışlamağa hazıram, deyə Qacar şahı dilləndi. Şəhər əhalisi təslim olsa, onlara toxunmayacaqlar.**

**Hacı Babək xeyli söhbətdən sonra Şəhriyarı bir qədər yumşalda bildi. Qacar şahı bir daha bildirdi ki, "təslim olsanız, mən şəhər camaatına toxunmayacağam. Ancaq zərərimi ödəməlisiniz, İbrahimxəlil xanın bütün əmlakını, evini mən zəbt edəcəyəm. Ordu başçılarımın və əsgərlərimin də haqqı ödənilməlidir. Bu müharibədə mənim zərərim iki yüz min qızıl əşrəfidir. Şəhər əhalisi bac verməlidir ki, mən onları razı salım.**

**Hacı Babək Qacar şahından ayrılarkən bir daha xahiş etdi ki, əsgərlər və onların başçıları şəhərə daxil olarkən xalqın canına, malına və namusuna təcavüz etməsinlər. Bunu eşidən şah Qacar dedi:**

**"Sən hələ də mənim sözümə inanmırsan?"**

**Hacı Babək dedi ki, sizin sözünüz mənim üçün olduq-**

**ca etibarlıdır. Lakin qala əhalisi "avamdır" başa düşmürlər ki, sizin kimi böyük bir şahın sözündən etibarlı və mötəbər zəmanət ola bilməz.**

**Qacar şahı bu sözdən sonra bir qədər duruxaraq dedi:**

**"Hacı Babək! Mən bu gün elə bir iş görəcəyəm ki, sənin xatirin şad olsun. Bütün şahlığım dövründə mən bunu heç kəs üçün etməmişəm. Sonra xidmətçisini çağırıb –mənim xırda QURANIMI gətir- dedi. Xidmətçi Quranı gətirdi. Ağa Məhəmməd şah möhürünü cibindən çıxarıb onun üzərinə mürəkkəb vurdu, möhürü Quranın üzərinə vurub Hacı Babəkə verərək dedi:**

**Bu gün sənin bir sözün mənə təsir etdi. Sən dedin ki, əkinçi, sənətkar və kasıblar müharibə istəmirlər. Müharibənin günahını onların boynuna atmaq olmaz. Buna görə də bu Quranı möhürləyib sənə verirəm ki, qalanın camaatı əmin olsunlar ki, heç kəs onlara toxunmayacaq!**

**Hacı Babək qalaya qayıdıb Qacar şahın möhürlədiyi Quranı camaata göstərdi. Şahın əhalidən iki yüz min qızıl əşrəfi istədiyini də elan etdi. 1794-1796-cı illərdə Qarabağ xanlığında aclıq baş verdiyindən camaatın vəziyyəti ağır idi... Lakin qalanın imkanlı adamları Qacar şahın istədiyi xəracı ödədilər.**

**Qacar şahı 1797-ci il iyun ayının 27-də ŞUŞA QALASINA varid oldu. Deyirlər ki, o, qala darvazasından keçən zaman səmada iki topa bulud yan-yana dayanmışdı. Ağa Məhəmməd şah Qacar Şuşanın Gəncə qapısına yaxınlaşan zaman səmada olan qara bulud topası ağ buluddan ayrılıb Qacar şahın başı üzərində hərəkət edərək onu xeyli müşahidə etmişdi... Şuşa səmasında olan qara bulud şahın qara taleyindən xəbər verirdi...**

**Şuşa qalasına qədəm basan Qacar şahı İbrahimxəlil xanın böyük oğlu Məhəmmədhəsən ağanın imarətində yerləşdi.**

**Ağa Məhəmməd şah Qacar bir qədər istirahət etdik-**

dən sonra, müəyyən göstərişlər verərək, bildirdi ki, İbrahimxəlil xanın bütün var-dövləti, yəni tərpənən və tərpənməyən əmlakları bu gündən ona məxsusdur. Bu qərarı verərkən şah, Şuşaya hücum ərəfəsində gördüyü yuxunu və şəhərə daxil olarkən onun başı üzərində hərlənən qara buludu yada salmamışdır. Şuşaya hücum ərəfəsində gördüyü yuxunun mənası belə idi:

Aqil adamlar söyləyirdilər ki, Ağa Məhəmməd şah Qacar ömrünün son aylarında Qarabağ, Şuşa həsrəti ilə yatırdı, yuxuda olarkən Qarabağ, Şuşa deyə sayıqlayırdı... Yuxusunda şah görür ki, səmaya qalxır, o qədər qalxır ki, artıq yer görünmür. Bu zaman qulağına səs gəlir ki, Ağa Məhəmməd sən ölmüsən, bura ölümdən sonrakı dünyadır". Qacar şahı bu röyadan sonra hiss edir ki, dünyasını dəyişməsinə az qalıb...

Bu fikir son vaxtlar, xüsusilə də Ağa Məhəmməd şah Qacarın Şuşa qalasına ikinci hücumu ərəfəsində ona hakim kəsilmişdir...

Şuşaya hücum ərəfəsində qardaşı oğlu Xanbaba Cahanbaniyə (gələcək Qacar şahı olacaq Fətəli şah nəsərdə tutulur) bu barədə ətraflı danışmış və ölkənin idarə olunması barədə ona hərtərəfli msləhətlər vermişdir...

Şuşanı ələ keçirən Ağa Məhəmmd şah Qacar sərbazların qalada törətdikləri cinayətlərin qarşısını ala bilmədi. Şah başda olmaqla onun sərbazları (əsgərləri) və qoşun rəhbərləri əhalini təhqir edir, qiymətli əşyalarını zorla əllərindən alırdılar. Beləliklə də Qacar şahı QURANİ-KƏRİMƏ and içib öhdəsinə götürdüyü bütün vədləri pozdu. Müqəddəs kitab onu bağışlamadı...

Ağa Məhəmmd şah Qacar öz cəza tədbirləri ilə nəinki şuşalıların, hətta öz yaxın silahdaşları arasında da böyük nifrət qazandı. 1797-ci il iyul ayının 4-də o, öz sərbazları tərəfindən yuxuda olarkən qətlə yetirildi. Bu hadisə tezliklə Dağıstanda olan İbrahimxəlil xana çatdırıldı.

**Şuşa camaatı İbrahimxəlil xanı gözləyirdi. Şəhərdə özbaşnalıq baş alıb gedirdi. Qacar şahı öldürüldükdən sonra yaranmış olan vəziyyətdən istifadə edən, şöhrətpərəst, öz igidliyi ilə Qarabağda məşhur olan, xanın qardaşı oğlu Məhəmməd bəy Cavanşir Şuşada hakimiyyəti ələ keçirdi. Bununla da o, əmisinə xəyanət etdi. İbrahimxəlil xanın bir neçə silahdaşlarını, o cümlədən Qarabağ xanlığının baş vəziri Molla Pənah Vaqifi oğlu Əli ilə birlikdə öldürtdü.**

**İbrahimxəlil xan Şuşada baş verən hadisəni eşidən kimi dərhal Şuşaya gəlmədi. İlk növbədə Məhəmməd bəy Cavanşiri zərərsizləşdirmək lazım idi.**

**Mirzə Camal bəy Cavanşir yazır:**

**“... İbrahim xan Dağıstan qoşunu və sərkərdələri, habelə Şahsevən və Qarabağ camaatı ilə birlikdə Balakəndən Qarabağa tərəf hərəkət etdi. İlk növbədə Məhəmməd bəy Cavanşiri zərərsizləşdirmək lazım idi. Bu məqsədlə oğlu Mehdiqulu ağanı Qarabağ bəylərinin bir neçə övladı ilə ora göndərdi”.**

**Mehdiqulu ağanın Qarabağa gəlməsi vəziyyəti kökündən dəyişdirdi. Əmisi oğlu Məhəmməd bəy Cavanşiri zərərsizləşdirdi. Mehdiqulu ağa bu işi çox ehtiyatla görürdü. O, gördüyü işlər haqqında atasına fasiləsiz məlumatlar göndərirdi. Azərbaycanın Qarabağ bölgəsində sabitliyin bərqərar olduğunu nəzərə alan İbrahimxəlil xan vətənə qayıtmağa tələsdi.**

**Təxminən iki aylıq Qarabağ, Şuşa həsrəti İbrahimxəlil xanı çox sıxmışdı. Xan Kür çayının sahilinə çatanda böyük oğlu Məhəmmədhəsən ağa başda olmaqla beş yüz nəfər ləzgi qoşununu Qarabağ sərkərdələri ilə birlikdə Qarabağa göndərdi.**

**Məhəmmədhəsən ağanın Qarabağa gəlişi Məhəmməd bəy Cavanşirin bütün niyyətlərini alt-üst etdi. Qarabağ əhli, dəstə-dəstə Kirs dağının ətəyindəki düzəngahda yerləşən Məhəmmədhəsən ağanın görüşünə gəlir və ona böyük ehti-**

**ram göstərirdilər. Məmmədhəsən ağa oradan Şuşaya adam göndərib Məhəmməd bəyi öz yanına çağırdı. Deyirlər özünü əsl hakim kimi aparan Məhəmməd bəy Cavanşir, bu gəlişdə çox məzlum və pərişan vəziyyətində idi. Məhəmmədhəsən ağa Məhəmməd bəyin tərəfdarlarını onun gözü qabağında cəzalandırılmalarını əmr etdi.**

**Məhəmmədhəsən ağanın gəlişini eşidən Mehdiqulu ağa, Şuşada əmisi oğlunun tərəfdaşlarını həbs etdirdi. Məhəmmədhəsən ağa bütün Qarabağ əhalisinə dinclik həyat şəraiti yaratdıqdan sonra atası İbrahimxəlil xan, qoşun əhli, yaxın adamları, Nəsir xan və Əta xan Şahsevənlə birlikdə Şuşaya gəldi...**

**ŞUŞAYA gələn İBRAHİMXƏLİL xan yenidən hakimiyyət taxtında oturdu və xanlığı idarə etməyə başladı.**

**Bu zaman xanlıqda daxili sosial vəziyyət ağır idi. Qacar qoşunları Qarabağ xanlığının təsərrüfat həyatına ağır zərbə vurmuş, əhalini qarət etmiş, bir sözlə əhaliyə divan tutmuşdular. Qarabağ xanlığının beynəlxalq vəziyyəti də yaxşı deyildi. Şimaldan və Cənubdan xanlığı təhlükə gözləyirdi...**

**XVIII əsrin sonu – XIX əsrin başlanğıcında Cənubi Zaqafqaziyada beynəlxalq vəziyyət gərgin olaraq qalırdı. Rusiya imperiyası ilə Qacarlar məmləkətinin regionda mənafeləri toqquşurdu. Bu dövrdə Rusiyanın xarici siyasətinin əsas istiqamətlərindən biri Cənubi Zaqafqaziyanı işğal etmək və buranın zəngin xammal mənbələrini ələ keçirməkdən ibarət idi. Qacarların məqsədi Rusiyanı Cənubi Zaqafqaziyaya buraxmamaq idi. Hər iki dövlətin xarici siyasətində Şimali Azərbaycanın işğalı əsas yer tutrdu. Xüsusilə, Azərbaycanın Qarabağ bölgəsi Rusiya-İran siyasətində başlıca düyün nöqtəsi idi.**

**Qarabağ xanı İbrahimxəlil xan xanlığını qoruyub saxlamaq üçün bütün diplomatik üsullardan istifadə edirdi. O, Osmanlı Türkiyəsinə daha çox meyilli idi. Lakin Türkiyə**

Qarabağ xanlığına siyasi cəhətdən kömək göstərmək iqtidarında deyildi. Rusiya ilə aparılan müharibələrdə osmanlılar ağır məğlubiyyətə uğramışdır. Qarabağ xanı İbrahimxəlil xan XVIII əsrin 80-ci illərində Osmanlı Sultanına yazdığı məktublar bir daha sübut edir ki, o, türk olduğu üçün Türkiyəyə meyilli idi.

Beynəlxalq meydanda köməksiz qalan İbrahimxəlil xan hansısa bir dövlətə arxalanmalı idi. XIX əsrin əvvəllərində Rusiya imperiyası Cənubi Qafqazla daha çox maraqlanmağa başladı. Bu maraq müxtəlif hiyləgərliklə həyata keçirilirdi. 1801-ci il sentyabr ayının 12-də Kartili-Kaxetiya çarlığının Rusiya imperiyasına birləşdirilməsi haqqında çar MANİFESTİ elan olundu. Rus qoşunları baş komandanı və mülkü hakim tərəfindən idarə olunan Tiflis quberniyası yaradıldı. Azərbaycan ərazisinin də bir hissəsi Kartili-Kaxetiya çarlığının vassalı olan QAZAX, BORÇALI, ŞƏMŞƏDDİL sultanlıqları da Rusiya imperiyasına birləşdirildi. Həmin ərazilər Nadir şah tərəfindən idarə olunmaq üçün Kartili-Kaxetiya çarlığına verilmişdir. Gürcüstanın Rusiya imperiyasına birləşdirilməsi Azərbaycan torpaqlarının Rusiya tərəfindən işğalının başlanğıcı oldu. Rusiya imperiyası Gürcüstan ərazisindən Azərbaycana qarşı hücum əməliyyatı meydanı kimi istifadə edərək, Azərbaycan barəsindəki işğalçılıq niyyətlərini həyata keçirməyə başladı.

1803-cü il mart ayının 29–da rus qoşunları Carı işğal etdilər Balakən yandırıldı. Həmin ilin aprel ayının 12-də Car-Balakən Rusiya hakimiyyəti altına düşdü. Şimali Qafqazın Georgiyevski şəhərində 1802-ci ilin sentyabr- dekabr aylarında çağrılmış siyasi və iqtisadi danışıqlara həsr olunan müşavirədə iki Azərbaycan xanlığı – Quba və Talış xanlıqlarının nümayəndələri də iştirak edirdilər. Həmin danışıqlar Rusiya imperatorunun təşəbbüsü ilə çağrılmışdır. 1802-ci ilin sentyabr ayında general Knorrinqin yerinə Qafqazın baş komandanlığına P.D Sisianov təyin olundu. O,

gürcü zadəgan nəslinə mənsub idi. Sisianov Azərbaycan xalqının ən qəddar düşməni idi.

Sisianov Tiflisə gələn kimi Gəncə xanlığını işğal etməyi qərara aldı. Gəncə xanı Cavad xan Rusiyanın təbəəliyini qəbul etmək haqqında Sisianovun təklifini rədd etdi. O, Gəncə xanından ildə 20 min çervon məbləğində ödənc tələb edirdi. Göründüyü kimi çar generalı, sözün əsl mənasında Cənubi Zaqafqaziyaya həm işğalçı və həm də quldur kimi gəlmişdir.

Tarixi mənbələr Sisianovun qəddarlığı haqqında məlumatları bizə olduğu kimi çatdırmışdır. Gəncə xanı Cavad xana hədələyici məktublarının birində yazmışdır:

"Əgər mənim təklifimi qəbul etməsən, Gəncəyə atəş və qılıncla gələcəyəm". Bu ünsür 11 topu olan 6 piyada batalyonu, 3 süvari qoşun hissəsi və 200 nəfərdən çox kazakla Gəncəyə hücum edib onu mühasirəyə aldı.

Cavad xanın qoşunu düşmənə qəhrəmancasına müqavimət göstərdi. 1804-cü il yanvar, ayının 2-dən 3-nə keçən gecə düşmən iki dəstəyə bölünərək Gəncə qalasına qəti hücuma keçdi. Bir dəstə general S.A. Portnyakinin başçılığı ilə Qarabağ qapısı, digər dəstə isə TİFLİS qapısı tərəfdən Gəncəyə hücuma keçdilər. Cavad xanın qoşunu birinci dəstənin hücumunu iki dəfə dəf edə bildi. Üçüncü həmlədə düşmənlər şəhərə girə bildilər. Şəhərin daxilində qanlı mübarizə başlandı. Döyüşün ön sırasında Cavad xan və onun oğlu Hüseynqulu ağa mərdliklə vuruşurdular. Xan, onun oğlu və 1500 nəfərdən çox döyüşçü qəhrəmancasına həlak oldular... Cavad xan və onun oğlu Gəncənin Şah Abbas məscidinin həyətində dəfn olundular.

Gəncənin işğalı Şimali Azərbaycanın, o cümlədən də onun QARABAĞ xanlığının işğalına səbəb oldu. Gəncə xanlığı ləğv edildi. Şəhərin adı dəyişdirilərək çariça Yelizaveta Alekseyevanın şərəfinə Yelizavetpol adlandırıldı. Çar hökuməti Gəncənin alınması münasibəti ilə, öz qələbəsini

**yüksək qiymətləndirərək xüsusi medal da təsis etdi...**

**Gəncə xanlığının Rusiya imperiyası tərəfindən işğalı, rus qoşunlarının Şimali Azərbaycanın ərazilərinə irəliləməsi Cənubi Zaqafqaziyaya iddialı olan Qacarlar dövlətinin narazılığına səbəb oldu. XIX əsrin əvvəllərində beynəlxalq şərait də Qacarlar dövləti üçün əlverişli idi. 1804-cü il iyun ayının 10-da Qacarlar sarayı Rusiya ilə diplomatik əlaqələri kəsmək haqqında qərar qəbul etdi. Bu onunla əlaqədar idi ki, 1804-cü il iyun ayının 16-da Qacarlar sarayı Rusiyaya müharibə elan etməyi nəzərdə tutmuşdu. Elə həmin gün Şahin oğlu Abbas Mirzənin başçılıq etdiyi Qacar ordusu İRƏVAN xanlığına hücum edən rus ordusunu məğlub edib, onların geri çəkilməsinə nail oldu. Buna baxmayaraq rus ordusu Şimali Azərbaycan xanlıqlarının işğalını sürətləndirdi. Sisianov Qarabağ xanlığını Rusiyaya tabe etmək üçün bütün hərbi gücünü səfərbərliyə aldı.**

**General Sisianov Qarabağ xanı İbrahimxəlil xana qarşı hərbi təzyiqi gücləndirdi. Qacarlarla ruslar arasında qalan xan çıxış yolu axtarırdı. Sarayda iki qrup yaranmışdı. Onlardan biri Qacarlar dövlətinə, digəri isə Rusiyaya meyl göstərirdilər. Axırda son sözü İbrahimxəlil xan dedi. Xan bildirdi ki, çıxış yolunu Rusiya himayəsini qəbul etməkdə görür. Bu xəbər Qacarlar sarayında böyük narahatçılıqla qarşılandı. Fətəli şah Əbülfət ağanı 500 nəfərlik qızılbaş qoşunu ilə Qarabağa göndərdi. İbrahimxəlil xanın qızı Ağabəyim ağa Fətəli şahın baş hərəmi, oğlu Əbülfət ağa isə əmirlər əmiri və hörmət sahibi idi. İbrahimxəlil xan Əbülfət xanın silahlı dəstəsini Dizax yaxınlığında məğlub edib geri qaytardı. Qarabağ xanının bu qələbəsindən sonra, general Sisianov onun xahişini nəzərə alaraq Qarabağa mayor İ.Lisaneviç başda olmaqla silahlı quldur dəstə göndərdi. Eyni zamanda o, Rusiya təbəəliyini qəbul etmək barədə cavabı sürətləndirməyi tələb etdi.**

**İbrahimxəlil xan general Sisianovun yalançı və riya-**

kar vədlərinə inanaraq, xanlığın qorunub saxlanması məqsədilə onunla görüşmək arzusunda olduğunu bildirdi. General Sisianov Gəncə yaxınlığındakı Kürəkçayın sahilinə gəldi və burada düşərgə saldı. İbrahimxəlil xan da ŞUŞADAN öz adamları ilə həmin görüş yerinə gəldi.

1805-ci il may ayının 14-də Sisianov Qarabağ xanı İbrahimxəlil xanla ilk görüşü oldu. Qısa söhbətdən sonra, onların arasında 11 maddədən ibarət "ANDLI ÖHDƏLİK" adlanan müqavilə imzalandı. Bu müqaviləyə görə xan, onun varisləri və xanlığın bütün sosial təbəqələri Rusiya təbəəliyinə qəbul olunur və onların üzərinə rus çarına sadiq təəhüdlər qoyulurdu. Qarabağ xanı Rusiya imperiyasının vassalı olmağa razılıq verdi və müstəqil siyasət hüququndan imtina etdi... Hər il Rusiya dövlət xəzinəsinə 8000 çervon verməyi öhdəsinə götürdü. Xanlığın daxili idarəetmədə "müstəqilliyi" saxlanıldı. Qacarlar qoşunundan Qarabağ xanlığının ərazisini qorumaq üçün mayor İ. Lisaneviçin başçılığı ilə Şuşa qalasında rus hərbi hissəsi yerləşdirildi. Sisianovun əsas məqsədi bu idi.

XIX əsrin əvvəllərində Napoleon Bonapartın apardığı müharibələrdə Rusiya əsas hədəf idi. O, Qacarlara kömək vəd edərək Rusiyaya qarşı müharibə əməliyyatını gücləndirməyi tələb etdi. Qacarların qızılbaş silahlı qüvvələri 1806-cı ilin yazında Araz çayını keçib Qarabağa doğru hərəkət etdi. 1806-cı il iyun ayının 8-də qızılbaşlarla rus ordusu arasında döyüş Şahbulağı və Əsgəran arasında, Ağdamda rus qoşunları 4000 Qacarlar ordusu ilə qarşılaşdı. Rus ordusu qızılbaşları məğlub edərək Şuşa qalasına doğru hərəkətə başladı. Lakin Abbas Mirzənin qızılbaşları hücum əməliyyatını öz xeyirlərinə dəyişərək Şuşa üzərinə hücuma keçdilər. Onlar rus ordusunu mühasirəyə aldılar. Mühasirə 10 gün davam etdi. Şuşa qalasında yerləşən rus qoşununun başçısı Lisanaeviç və İbrahimxəlil xan Şuşada baş verən hadisələr barədə Sisianova müntəzəm məlumat-

**lar verirdilər. Qalanın əhalisi Lisaneviçin özbaşınalığından olduqca narazı idilər. Rusların qalada vəziyyətinin ağır olmasından istifadə edən Abbas Mirzə İbrahimxəlil xanı öz tərəfinə çəkməyə cəhd göstərirdi.**

**İbrahimxəlil xan Lisaneviçlə razılaşaraq belə qərar gəldi ki, Şuşaya rusların yeni qüvvələri gələnə kimi, QIZILBAŞLARLA mülayim dolansın. Rus qoşunlarınının qalaya köməyə gəlmələri ləngiyirdi. Bundan istifadə edən qızılbaşlar qalaya xeyli yaxınlaşdılar. Belə bir məlumat var ki, İbrahimxəlil xan öz ailəsinin təhlükəsizliyini təmin etmək üçün onları ŞUŞA qalasının yaxınlığında yerləşən QARA KAHA deyilən əraziyə köçürdü.**

**Bu ərazi sağ və sol tərəfdən 5-8 metr hündürlüyündə qara qayalarla əhatə olunmuşdu. Xanın adamları həmin ərazini səliqəyə salıb sığınacaq düzəltdilər. Xan buradan tez-tez qalaya gələrək qohumlarına baş çəkirdi. "QARABAĞNAMƏ"LƏRİN müəlliflərinin yazdıqları kimi "Bəzi bədniyyətli adamlar xanı mayora (Lisaneviç nəzərdə tutulur) elə şərləmişdilər ki, mayor gecə bir dəstə döyüşçü ilə onun məskəninə yollandı, burada fələyin hökmü ilə İbrahimxəlil xan bəzi ailə üzvüləri və yaxın adamları ilə birlikdə öldürüldü".**

**Lisaneviç və Corayev quldur dəstə ilə İbrahimxəlil xana və onun yanında olan silahsız adamlara divan tutdular. 100 nəfərlik silahlı dəstə İbrahimxəlil xanı, arvadını, oğlunu, qızını və 30 nəfər yaxın adamlarını, ümumiyyətlə 35 nəfər adamı vəhşicəsinə güllələdilər. 1806-cı il iyun ayının 12-də baş verən bu faciə İBRAHİMXƏLİL xanın və onun yanında olan dinc adamların faicəsi yox, bütün qala camaatının və bütövlükdə QARABAĞ əhalisinin faciəsi idi...**

**Bu hadisə Şuşa qalasında camaatı ayağa qaldırdı. Onlar Lisaneviç başda olmaqla bütün rus hərbiçilərini qırmağa hazır idilər. Mehdiqulu xan və Cəfərqulu ağa buna yol vermədilər...**

**Qətlin təşkilatçıları Şuşadan uzaqlaşdırıldılar.**

**İBRAHİMXƏLİL xanın və onun 34 nəfər adamının qətlə yetirildiyi düşərgə Azərbaycanın QARABAĞ bölgəsinin tarixinə XAN ÖLƏN SƏNGƏR adı ilə həkk olundu...**

**1825-ci il iyul ayının 18-də Lisaneviç DAĞISTANDA Aksaym yaxınlığında Cersel aulunun yanında əsir götürülmüş kumuklara cəza verərkən bir nəfər kumuklu tərəfindən qılıncla doğranmışdır. Layiqli cəzadır!..**

**P.D.Sisianovun öldürülməsindən (1802-1806-cı illər) sonra Cənubi Zaqafqaziya canişin təyin edilmiş İ.V.Qudoviç 1806-1809-cu illər) 1806-cı ilin sentyabr ayında İbrahimxəlil xanın oğlu Mehdiqulu ağanı Qarabağ xanı təyin etmək haqqında Rusiya imperatorunun fərmanını ona təqdim etdi. Mehdiqulu xan 1806-cı ildə xan elan olundu. O, 1805-ci il may ayının 14-də Qarabağ xanlığınn Rusiya imperiyasının himayəsinə qəbul olunması haqqında Kürəkçayda keçirilən mərasimdə atası, İbrahimxəlil xanla birlikdə olmuşdur. Rusiya imperiyasının hakim dairələri, yuxarıda qeyd edildiyi kimi, Azərbaycanı işğal edərkən, incə üsullardan istifadə edirdilər. Onlar işğalçılıq əməllərini təbəəlik kimi qələmə verirdilər. Xanlıqların ləğv edilməsi və onların Rusiya imperiyasının tərkibinə daxil olunmaları dediklərimizi bir daha sübut edir.**

**Birinci Rusiya- Qacarlar məmləkəti arasında başlanan 1804-1813-cü illəri əhatə edən müharibə Qacarların məğlubiyyəti ilə başa çatdı. Fətəli şah Qacarın 1813-cü ilin yayı üçün tərtib etdiyi hərbi plan özünü doğrultmadı. Rusiya qoşunlarının qələbələri Qacarlar sarayında vahiməyə səbəb oldu. Cənubi Zaqafqaziyada Rusiyanın möhkəmlənməsi Fətəli şah Qacarı sülh danışıqlarına başlamağa məcbur etdi.**

**Qacarlarla ruslar arasında ilkin sülh danışıqları 1813-cü il sentyabr ayının 27-də Azərbaycanın Qarabağ bölgəsinin GÜLÜSTAN kəndində başlandı. 1813-cü il oktyabr ayının 12-də hər iki dövlət arasında sülh müqaviləsi-**

nin imzalanması ilə başa çatdı.

Gülüstan sülh müqaviləsinin şərtlərinə görə Qarabağ, Şəki, Şirvan, Quba Bakı və Lənkəran xanlıqlarının əraziləri, Şərqi Gürcüstan və Dağıstan Rusiyaya verildi. İrəvan və Naxçıvan xanlıqları Qacarların ixtiyarında saxlanıldı.

Gülüstan sülhü bu kəndin tarixinə qara ləkə kimi həkk olundu...

Qacarlar sülaləsinin hakim dairələri Rusiyaya qarşı yenə hərbi planlar hazırlamaqla məşğul idilər. Onlar itirdikləri əraziləri geri qaytarmaq arzusu ilə yaşayırdılar. Qacarlar sarayının Rusiyaya qarşı hazırladığı yeni müharibə planlarında Dağıstanın və Şimali Azərbaycanın müsəlman xalqlarının köməyinə böyük ümidlər bəslənilirdi.

1826-cı il may ayının 26-da Qacarlar ordusu sərhəd dəstələrinə hücum etdi. 2 aydan sonra, iyulun 19-da vəliəhd Abbas Mirzənin başçılığı ilə 60 minlik qızılbaş qoşunu Şimali Azərbaycan ərazisinə hücum etdi. Beləliklə də, Qacarlarla ruslar arasında ikinci işğalçılıq müharibəsi başlandı.

Abbas Mirzənin planı Azərbaycanın Qarabağ bölgəsinə sürətlə daxil olmaq, Şuşanı tutmaq, Gəncəni ələ keçirib Tiflisə hücum etməkdən ibarət idi. Qacarlar ordusu bütün Qarabağ mahallarını ələ keçirərək, Şuşa qalasını mühasirəyə aldı. Şuşa döyüşçüləri olduqca az idi. Belə ki, qalada 6 top, 1500 nəfər döyüşçü var idi. Şuşanın mühasirəsi 48 gün davam etdi. Mühasirədə Qacarlar tərəfindən ingilis, fransız və italyan mühəndisləri fəal iştirak edirdilər.

Abbas Mirzənin Şuşanı təslim etmək haqqında dəfələrlə verdiyi tələbləri Şuşa qarnizonun rəisi polkovnik Reut rədd edirdi.

Qacarların Azərbaycana, onun Qarabağ bölgəsinə ikinci hücumu da, onların məğlubiyyəti ilə başa çatdı. Demək olar ki, Rusiya imperiyasının qoşunları Cənubi Azərbaycanda da bir sıra şəhər və digər yaşayış məntəqələrini ələ keçirə bildilər. Vahiməyə düşən Qacarlar yenidən sülh

**danışıqlarına başlamağa məcbur oldular. 1827-ci il oktyabr ayının 13-də Təbrizə daxil olan rus qoşunları çoxlu qənimət ələ keçirərək Tehrana doğru hücuma keçmək imkanı əldə etdilər. Lakin Rusiyanın özü də sülh imzalamaq məcburiyyətində idi. Ona görə ki, Osmanlı Türkiyəsi Rusiyaya müharibə elan etməyə hazırlaşırdı.**

**Qacarlarla ruslar arasında sülh danışıqlarının başlanmasında vasitəçilik etməyi İngiltərənin Tehrandakı səfiri Makdonald öz üzərinə götürdü. Sülh danışıqları 1828-ci il fevral ayının 6-da başladı. Danışıqlarda qalib tərəf kimi Rusiya iddialı idi.**

**Rusiya qoşunlarının baş komandanı İ.F.Paskeviç bütün Cənubi Azərbaycan ərazisinin də Rusiyaya birləşdirilməsi tələbini Qacar şahının qarşısında əsas tələb kimi qoymuşdu. Bu tələb Qacarlar məmləkətinin məhv olması demək idi. İngiltərə hökumətinin təzyiqi və Osmanlı Türkiyəsi ilə yaxınlaşan müharibə təhlükəsi, Rusiyanı bu iddiadan əl çəkməyə məcbur etdi.**

**Qacarlarla Rusiya arasında Türkmənçay sülh müqaviləsi 1828-ci il fevral ayının 10-da imzalandı. Sülhə görə Şimali Azərbaycan ərazisi Rusiyaya verildi. Araz çayı sərhəd oldu. Araz çayını bu və o biri tərəfindəki İRƏVAN və NAXÇIVAN xanlıqları da Rusiyayanın mülkü oldu.**

**1822-ci il noyabr ayının 21-də məcbur olub Qacarlar məmləkətinə gedən, axırıncı Qarabağ xanı Mehdiqulu xan 1827-ci ildə Şuşaya qayıtdı. Artıq Qarabağ xanlığı ləğv edilmiş (1822-ci ildə) və Rusiyanın əyalətinə çevrilmişdir. O, dövlət işlərindən uzaqlaşdırılmışdır. Yenidən Qacarlar məmləkətinə qayıtmaq istəsə də bu mümkün olmadı...**

**Mehdiqulu xan 1845-ci il may ayının 15-də ŞUŞADA dünyasını dəyişdi. O, AĞDAM şəhərində İMARƏT adlanan məkanda dəfn olunmuşdur.**

# QARABAĞ XANLIĞININ TARİXİNİ AŞAĞIDAKI MƏRHƏLƏLƏRƏ BÖLMƏK OLAR:

**1. 1747-1763-cü illər. Xanlığın yaranması və inkişaf dövrü;**

**2. 1763-1797-ci illər. Xanlığın hərtərəfli inkişaf dövrü;**

**3. 1797-1805-ci illər. Xanlığın siyasi, iqtisadi həyatının tənəzzül dövrü. Bu beynəlxalq şəraitlə bağlı idi.**

**4. 1805-1822-ci illər. Xanlığın Rusiya imperiyası təbəəliyinə keçməsi və onun müstəmləkəsinə çevrilməsi dövrü.**

**Beləliklə, Rusiya imperiyası qan tökməklə Azərbaycanın Şimal ərazisini özünün müstəmləkəsinə çevirdi. Azərbaycan iki hissəyə - Şimali Azərbaycana və Cənubi Azərbaycana bölündü. Digər tərəfdən, Şimali Azərbaycana vurulan ən ağır zərbə o oldu ki, Qacarlar məmləkətində və Osmanlı Türkiyəsinin ərazisində səfil həyat keçirən erməni ünsürləri Şimali Azərbaycanın müxtəlif ərazilərinə gətirilib yerləşdirildi. Rusiya imperiyası erməni ünsürlərinə öz sədaqətini azərbaycanlıların hesabına həyata keçirdi. Bu ona lazım idi...**

**Qacarlarla Rusiya imperiyası arasında aparılan müharibələr (1804-1813 və 1826-1828 illər) zamanı Qarabağ xanlığında yaşayan əhali öz ata-baba torpaqlarından didərgin düşdülər. Azərbaycanın Qarabağ bölgəsi həmin müharibələrin meydanı olmuşdur. 1806-1812-ci illər ərzində Qarabağ xanlığının ərazisindən qaçan və Qacarlar ordusu tərəfindən Araz çayından cənuba aparılan əhalinin sayı çoxdur.**

**Yuxarıda göstərilən dövr ərzində, yəni 6 ildə Azərbaycanın Qarabağ bölgəsindən 2628 ailə qaçmışdır. Həmin ailələrin say tərkibi 13140 nəfər olmuşdur. Qacarlar məmləkətinə məcburi surətdə aparılan ailələrin sayı 2217, onların say tərkibi isə 11085 nəfər olmuşdur. Qarabağ xanlığının ərazisini 4845 ailə və 24225 nəfər tərk etmişdir.**

**1823-cü ildən başlayaraq erməni ünsürlərinin Azərbaycanın Qarabağ xanlığı bölgəsinə köçürülməsi mərhələsi**

**başlandı. Onların bu diyara gətirilməsi siyasi məna daşıyırdı. Rusiya imperiyası özü üçün erməni ünsürlərindən gələcəkdə Azərbaycan ərazisində forpost (dayaq, məntəqə) yaratmaq istəyirdi.**

**1828-ci il fevral ayının 10-da Qacar sarayı ilə Rusiya imperiyası arasında bağlanan Türkmənçay sülh müqaviləsindən sonra erməni ünsürlərinin Qarabağ bölgəsinə və digər ərazilərimizə gətirilib məskunlaşdırılması geniş miqyas aldı. Erməni ünsürlərinin Qacarlar məmləkətindən Qarabağa və başqa ərazilərimizə köçürülməsi işinə erməni ünsürü X.E. Lazarev rəhbərlik edirdi.**

**1823-cü ildə Qarabağda yaşayan əhalinin böyük hissəsini Azərbaycan türkləri təşkil edirdi. 1823-cü ildə Azərbaycanın Qarabağ əyalətində 20095 ailənin yaşadığı qeyd olunur. Həmin ilin kameral təsvirində göstərilir ki, Qarabağda yaşayan 20095 ailənin 15729-u (78, 3 faizi) azərbaycanlı, 4366 ailə isə müxtəlif xalqlara (21, 7 faiz) məxsus olmuşdur.**

**1829-cu il dekabr ayının 24-də Lazarev Paskeviçə yazdığı məktubunda göstərirdi ki, ermənilərin qacarlar məmləkətindən köçürülməsi işlərinə 1828-ci ilin fevral ayının 26-dan başlanmışdır. 3 ay 15 gün ərzində bu iş uğurla başa çatdırılmışdır. Bu dövr ərzində 8149 erməni ailəsi, bunlardan əlavə, 100 aysor ailəsi də İRƏVAN, NAXÇIVAN və QARABAĞ əyalətinə köçürülmüşdür.**

**Paskeviç göstəriş vermişdir ki, Qacarlar məmləkətinə gətirilən erməni ünsürləri üçün yeni kəndlər salınsın. Bu iş həyata keçirilərkən azərbaycanlıların sıx yaşadıqları kəndlər nəzərə alınsın. Qacarlar məmləkətindən köçürülən 40 min erməni ünsürünün böyük hissəsi Qarabağ bölgəsində və İrəvan xanlığı ərazilərində yerləşdirildi. Göründüyü kimi Rusiya imperiyası ilə Qacar məmləkəti və Osmanlı Türkiyəsi arasında müharibələr olmasaydı Azərbaycan ərazisində və o cümlədən də Qarabağ bölgəsində erməni ünüsürü də olmazdı.**

**Erməni ünsürləri bizim üçün yaddır, torpaqlarımız onları qəbul etmir. Müqəddəs Azərbaycan torpaqları mundar, natəmiz, paxıl və vəhşi təbiətli erməni ünsürlərini qəbul etmir...**

**Azərbaycanın qərb ərazisində özünə yuva salan erməni ünsürləri yaxşı bilirlər ki, bu torpaq azərbaycanlılarındır. Onlar bu əraziyə gətiriliblər... Tarixi saxtalaşdırmaq olmaz. Tarix yalanı sevmir. Erməni ünsürünə məxsus olan, tarixçi Zaven Korkodyan "Sovet Ermənistanının əhalisi 1831-1931-ci illərdə" adlı elmi əsərində yazır:**

**"1883-cü ildə İrəvan şəhərində yaşayan 18.766 nəfər əhalinin 15.992 nəfəri, 1886-cı ildə yaşayan 27.246 nəfərdən isə 23.626 nəfəri, yəni, 85,2 faizi azərbaycanlılar olmuşdur". Bunu erməni ünsürü deyir. Yəni erməni ünsürü torpaqlarımıza gəlmədir. 1828-1830-cu illərdə Azərbaycanın Qarabağ bölgəsinin dağlıq ərazisində və GÖYÇƏ gölü ətrafına daha çox erməni ünsürü gətirilib məskunlaşdırılmışdır. Rəsmi məlumata görə, həmin illərdə köçürülmüş ermənilərin sayı 124 min deyil, 200 min nəfərdən çox olmuşdur.**

**Ermənilər zaman-zaman məskunlaşdıqları ərazilərimizdə yer adlarını dəyişir və onları erməni mənşəli adlarla əvəz edirdilər. Sovet imperiyası dövründə bu iş daha geniş miqyas almışdır.**

**Qarabağ birdir. Onun aranı da var, dağı da. Təbiət bu diyarı belə yaratmışdır. Qarabağ tarixi-etnoqrafik bölgə kimi Azərbaycanın şanlı tarixində özünəməxsus xüsusi yer tutur. Azərbaycanın Qarabağ bölgəsi Azərbaycanın məişətinin, mədəniyyətinin inkişafında, iqtisadiyyatında xüsusi yer tutur. Bütün bunları Qarabağ xanlığının tarixi varlığında aydın görürük.**

**Azərbaycanın QARABAĞ bölgəsinin iqtisadiyyatı QARABAĞ xanlığı dövründə daha çox inkişaf etmişdir. Bu inkişaf dövrü 1763-1797-ci illər arasındakı zaman kəsiyini əhatə edir.**

# AZƏRBAYCANIN QARABAĞ BÖLGƏSİ XANLIĞININ TƏBİİ-COĞRAFİ ŞƏRAİTİ

Kiçik Qafqaz sıra dağlarının cənub-şərq çıxıntısında yerləşən Qarabağ xanlığı AZƏRBAYCAN ərazisinin mühüm sahəsini təşkil edirdi. Şimali Azərbaycan xanlıqları içərisində Qarabağ və bu ərazidə yaranan xanlıq Kürəkçay və Qaraçay boyunca şimal-qərbdə Gəncə, Cənub-Qərbdə Naxçıvan, Gəncə və Naxçıvan xanlıqları arasında qərbdən İrəvan, şimal-qərbdə Şəki (Kür çayı boyunca) eyni zamanda Kür çayı boyunca Şirvan xanlıqları ilə həmsərhəd idi.

Qarabağ xanlığının cənub-şərqində Təbriz və Ərdəbil xanlıqları yerləşirdi.

Azərbaycanın Qarabağ bölgəsində yaranan Qarabağ xanlığı ərazisində lap qədim dövrlərdən türkdilli tayfalar yaşamışlar. 1822-ci ildə xanlığın Rusiya imperiyası tərəfindən ləğv edilməsi və onun əyalətinə çevrilməsi, habelə 1828-ci il fevral ayının 10-da Qacarlar məmləkəti ilə Rusiya imperiyası arasında bağlanmış ədalətsiz və müstəmləkəçi xarakterli Türkmənçay sülhündən sonra, Qarabağa qeyri millətlərin, xüsusilə erməni ünsürlərinin axını da baş verdi... Bu barədə əvvəlki materiallarda söhbət aparmışıq.

Qarabağ dağlarla zəngindir. Dağlar bu diyarın baş tacıdır, şərəfi və şöhrətidir. Böyük Kirs, Kiçik Kirs, Saxsağan, Ziyarət, Ala qaya, Qızıl qaya, Qara qaya, Bağrıqan, Aşıq Qurbaninin dəfn olunduğu Diridağ (Cəbrayıl rayonu), Şükür Ataz (Zəngilan rayonu) dağları və qayaları Qarabağın təbii bəzəyidir. Qarabağın şimal-şərq ərazisində dağların hündürlük səviyyəsi aşağı düşür və bəzi yerlərdə Aran sahəsinə keçir. Qarabağın dağlıq ərazisini iki təbii zonaya bölmək olar: -yüksək dağlıq və dağlıq. Ərazinin meşə sahəsindən yuxarıda dəniz səviyyəsindən 1800-3000 metr yüksəklikdə yerləşən birinci təbii zona otlaq və çəmənliklərlə örtülüdür. Mal-qara üçün bura olduqca əlverişlidir.

İkinci təbii ərazi dəniz səviyyəsindən 950-160 metr yüksəklikdə yerləşir. Burada iqlim mülayim və soyuqdur, yaz və payız fəsillərində bol yağışlar yağır. Dağətəyi ərazilərdə iqlim istidir.

Qarabağ xanlığı cənub-qərbdən şimal-şərqdə çoxlu kiçik və böyük dərələrlə əhatə olunmuşdur. Əlverişli iqlimə və münbit torpağa malik olan dağətəyi ərazi kənd təsərrüfatının bütün sahələrinin inkişafı üçün yararlıdır.

Xanlığın üçüncü təbii ərazisi (Mil düzü) dəniz səviyyəsindən 150-300 metr yüksəklikdə yerləşir. Burada iqlim isti və qurudur. Taxılçılıq, ipəkçilik, baramaçılıq və təsərrüfatın başqa sahələri burada inkişaf etmişdir.

Qarabağın iqlim şəraiti dağlıq ərazidə yay mülayim, Aran ərazidə, xüsusilə, Kür çayının, Bazarçayın və Bəsitçayın sahillərində yay olduqca isti keçir.

Dağlıq ərazilərdə qış fəsli oktyabr ayının əvvəllərində, Aran ərazilərdə isə dekabr ayının sonunda başlayır. Qarabağın dağlıq ərazisi böyük və kiçik çaylarla, təbii bulaqlarla və kəhrizlərlə zəngindir. Kür və Tərtər çayları təsərrüfat əhəmiyyətli çaylardır.

Kür, Araz, Laçın, Bazarçay çayları balıqçılıq üçün əlverişlidir. Xanlıq dövründə və sonralar çaylardan dən üyütmək üçün dəyirmanlar hərəkətə gətirilirdi. Xanlıq dövründə Şuşa ətrafında, Daşaltı çayı sahilində azərbaycanlılarar məxsus səkkiz aşağıdan hərəkət gətirilən su dəyirmanı mövcud olmuşdur. Ümumilikdə bölgədə 470-dən çox su dəyirmanı var idi. Bu dəyirmanlar Şuşa qalasının və onun ətraf kəndlərinin əhalisinin una olan ehtiyaclarını ödəyirdi. Şuşanın kəndlərində də dən üyüdən su dəyirmanları var idi. Dünya şöhrətli Turşsu və İstisu yataqları da Qarabağdadır.

Qarabağın yerləşdiyi ərazi torpaq və iqlim müxtəlifliyi onun flora və faunasının rəngarəngliyinə böyük təsir göstərmişdir. Qarabağın Aran ərazisində torpaq gillidir. Təsərrüfatda süni suvarmadan geniş istifadə olunurdu. Hazırda da bu üsul davam etdirilir. Qarabağ sıx meşə və bağlarla zəngindir. Meşə-

lər qiymətli ağaclarla diqqəti cəlb edir.

Meşələrdə palıd, vələs, fıstıq, çinar, fındıq, qovaq, sərv, göçə, ağcaqayın, qarağaç cır alma, cır armud ağacları, zoğal və başqa növ ağaclar var. Meşələr tikinti materiallarının mənbəyidir.

Qarabağın heyvanlar aləmindən söhbət açarkən qeyd etmək lazımdır ki, təbiət bölgədə heyvanların və quşların yaşaması üçün istənilən qədər yem ehtiyatı və sığınacaq yerləri yaratmışdır. Qarabağın meşələrində, dağlarında, dərələrində maral, sığın, cüyür, dağkeçisi, ayı, canavar, meşə qabanı, çaqqal, tülkü, bəbir, dovşan, kirpi, mişovul, dələ yaşayır. Quşlardan qartal, tərlan, çalağan, bülbül, qarğa, sərçə və digər quş növləri vardır.

Xanlıq dövründə Azərbaycanın Qarabağ bölgəsinin yeraltı sərvətləri demək olar ki, öyrənilməmişdir. Əhali təbiətin hazır məhsullarından istifadə edirdi. Halbu ki, Qarabağın torpağı altında mis, mürəkkəb mineralllar, əhəng daşı, dəyirman daşları düzəltmək üçün daş ehtiyat mənbələri, dulusçuluq üçün xamgil, qılınc və xəncər düzəltmək üçün işlədilən zəy burada çoxdan məlum idi.

Abad yolların olması iqtisadiyyatın inkişafı üçün əsas şərtdir. Qarabağın xanlıq dövründə rahat yolların mövcudluğundan danışmaq olmaz. Səthin qurluşu da yolların rahatlığına maneçilik törədirdi. Qarabağda Orta əsrlər dövründə üç rahat yol mövcud idi. Bu yollardan biri –Gəncədən Şuşaya, ikincisi –Şuşadan Kür çayı vasitəsilə Nixaya (Şəkiyə), üçüncüsü isə Şuşadan Araz çayı vasitəsi ilə Qacarlar məmləkətinə gedirdi. Bunlardan başqa digər ara yolları da vardı.

Xanlıq dövründə əsas nəqliyyat vasitələri arabalar –bunlar əsasən dörd təkərli və ya iki təkərli idi, faytonlar, eşşək, qatır, at, dəvə və sairə idi.

Xanlıqda ticarət əlaqələri də inkişaf etmişdir. Ticarət xarici ölkələrlə karvanlar vasitəsilə həyata keçirilirdi. Ticarətdə kənd təsərrüfatı məhsulları və sənətkarlar tərəfindən istehsal olunan məhsullar əsas yer tuturdu.

# AZƏRBAYCANIN QARABAĞ XANLIĞI BÖLGƏSİNİN KƏND TƏSƏRRÜFATI

Azərbaycanın Qarabağ xanlığının iqtisadi həyatında başlıca yeri kənd təsərrüfatı tuturdu. Onun aparıcı sahələri əkinçilik və heyvandarlıq təşkil edirdi. XIX əsrin əvvəllərində xanlığın torpaq fondu 1.354.000 desaytin idi. Əkin üçün yararlı torpaq fondu isə 100.000 desyatin təşkil edirdi. Bölgədə hər adambaşına orta hesabla 1, 1 desyatin yararlı torpaq düşürdü. Sosial tərkibi müqayisə etsək məlum olur ki, xanlıqda aztorpaqlılar və çoxtorpaqlılar mövcud idilər. Torpağın əkin üçün yararlı sahələri feodallara məxsus idi. Aztorpaqlı kəndli dolanmaq üçün iri torpaq sahiblərindən torpağı icarəyə götürür, onun təsərrüfatında əvəzi ödənilməyən işlər icra edirdi.

Kənddə istehsal vasitələri – bel, xış, yaba, şana, vəl, oraq, dəryaz, dırmıx, çin və digərləri idi. Torpağı şumlamaq üçün dəmir kotan iri torpaq sahiblərində var idi. Xış və kotana at, öküz və erkək camış qoşurdular. 1832-ci il məlumatına görə bir iş günü ərzində kotanla düzəngah ərazilərdə 0,5 -1 çərək (çərək dörddə bir deməkdir), dağlıq ərazidə isə 0,5 çərəkdən az torpaq şumlamaq mümkün idi. Bir desyatın (1, 092 hektara bərabər yer ölşüsü) becərilən torpağı xışla 3-7 günə şumlamaq olurdu. Şumlamadan sonra əkin sahəsi xüsusi alətlərlə malalanırdı (hamarlanırdı). Taxıl vəllə döyülürdü. Vələ at və ya öküz qoşulurdu. Onları bir nəfər idarə edirdi.

Xanlıq dövründə Qarabağda 4000 xış və kotan var idi. Bunların yarıdan çoxu İbrahimxəlil xana məxsus idi. Qarabağda taxıl əkilən sahələrə kül və peyin kübrə kimi verilirdi. Növbəli əkin sistemi geniş tətbiq olunurdu. Hər təsərrüfat ilində şumluq ərazinin üçdə iki hissəsi dincə qoyulurdu. Dincə qoyulan torpaq sahəsindən otlaq, biçənək və digər məqsədlər üçün istifadə olunurdu. Kəndli bəzən yetişdirdiyi bol məhsulu tamamilə toplaya bilmirdi. Bunun səbəbləri müharibələr və təbii fəlakətlər idi...

Qarabağ xanlığında buğda, arpa, çəltik, darı, pərinc, kətan, küncüt, gənəgərçək əsas əkinçilik bitgiləri idi. Eyni zamanda da xanlıqda pambıq və tütün də becərilirdi. Həmin bitgilər xanlığın iqlim şəraitinə uyğun olaraq əkilib becərilirdi. Dünyanının 11 iqlim qurşağının 6-ı Qarabağın payına düşür.

1832-ci ilin məlumatına görə Azərbaycanın Qarabağ xanlığında hər il orta hesabla təxminən 22000 çətvər buğda, 11000 çətvər darı, 250 çətvər, pərinc, 550 çətvər pambıq, 50 çətvər kətan, 5 çətvər küncüt əkirdilər. Gənəgərçək 7 batman idi. Təxmini hesablamalara görə xanlığın orta illik məhsulunu 220000 çətvər buğda, 143000 çətvər arpa, 33750 çətvər çəltik, 26000 çətvər darı, 1750 çətvər pərinc, 400 çətvər kətan, 1100 çətvər çiyidli pambıq, 50 çətvər küncüt, 3200 pud pambıq, 450 pud tütün və 56 pud gənəgərçək təşkil edirdi.

Qarabağ xanlığının iqtisadiyyatında çəkilliklərin, meyvə, üzüm bağlarının, bostançılığın xüsusi yeri var idi.

Qarabağ xanlığında barama qurdlarını bəsləmək məqsədi ilə, 1832-ci il məlumatına görə 1600 çəkillik bağları var idi. İbrahimxəlil xana Hindarxında 26, Cəfərqulu ağaya Doryan kəndində 12 çəkillik bağları məxsus idi. Qarabağ xanlığında illik barama məhsulunun miqdarı 1700 pud təşkil edirdi.

Qarabağ xanlığının ərazisinin böyük hissəsi Aran sahəsində yerləşirdi. Burada salınan bağlarda tut, armud, şaftalı, müxtəlif növ nar, heyva, əncir, gilənar, alma, zoğal, gavalı, alça, qoz, fındıq, gilas yetişdirilirdi.

Qarabağ bölgəsində qarpız, qovun (yemiş), xiyar, balqabaq (boranı), günəbaxan, noxud, istiot, soğan, sarmısaq və digər bostan məhsulları becərilirdi. Bostanlara ildə 200-220 desyatin torpaq sahəsi ayrılırdı. Sahəsi geniş olan bağlar xana və onun ailəsinə məxsus idi. Onlar bu sahəyə böyük qayğı ilə yanaşırdılar.

İbrahimxəlil xana, onun ailə üzvülərinə, yaxın silahdaşlarına hər il Hindarxında yerləşən bostanlardan 50 tay əla növ qarpız gətirilirdi.

Qarabağ xanlığının iqtisadi həyatında üzümçülük təsərrüfatı da mühüm yer tuturdu. Üzümdən müxtəlif məhsullar

alınırdı. Bölgədə üzümdən kişmiş, mövuc, doşab, (bəhməz) riçal, sirkə, abqora və digər məhsullar hazırlayırdılar. 1832-ci ildə Qarabağda 3080 üzüm bağı var idi.

Qarabağ xanlığının iqtisadi həyatında maldarlıq da mühüm yer tuturdu. Bölgənin əlverişli iqlim və təbii şəraiti, geniş dağ və Aran otlaqlarının mövcudluğu heyvandarlığın inkişafı üçün geniş imkanlar yaradırdı. Maldarlıqla yarımköçəri maldarlar məşğul olurdular. Onlar yaz və yay fəsillərində dağətəyi, payız və qış fəsillərində Aran ərazilərdə heyvanları bəsləyirdilər. Maldarlar Qarabağ əhalisini heyvandarlıq məhsulları ilə istənilən səviyyədə təchiz edirdilər. Mal-qara məhsullarının bolluğu üçün bütün imkanlar var idi və bu imkanlardan səmərəli istifadə olunurdu.

1832-ci ildə Qarabağ bölgəsində iribuynuzlu mal-qaranın sayı 100 min, xırda buynuzlu (qoyun və keçi) mal-qaranın sayı isə 300 min baş idi. Həmin dövrdə Azərbaycanın bu bölgəsində 20 min at, 2200 eşşək, 100 dəvə var idi.

Onu da qeyd edək ki, oturaq əhalinin də əksəriyyəti (kəndlərdə) heyvandarlıqla məşğul olurdular. Bu da heyvandarlıq məhsullarının bolluğuna əhəmiyyətli dərəcədə təsir göstərirdi.

Məhsuldar qüvvə kimi atçılıq iqtisadiyyatda əsas yer tuturdu. At nəqliyyatda geniş istifadə olunurdu. Qarabağ atları Nadir şahın atlarının cinsindən idilər. Atlardan əkin işlərində, taxılın xırmanda döyülməsində, yük daşınmalarında istifadə olunurdu. 1832-ci ildə Qarabağda 250 ayğır, 1400 madyanı olan 11 atçılıq zavodu var idi.

Təsərrüfat işlərində eşşəklərdən də geniş istifadə olunurdu. Ağır işlər eşşəklər (ulaqlar) vasitəsi ilə görülürdü.

Dəvələrin təsərrüfatda mövqeyi az idi. Köçmə maldarların yaylaq və qışlaqda istifadə etdikləri müvəqqəti yaşayış evlərinin tədqiqi xalqımızın maddi mədəniyyətinin öyrənilməsi üçün xüsusi əhəmiyyətə malikdir. Azərbaycanın Qarabağ bölgəsində yaylaq və qışlaqlarda muxru və qara keçə adlanan iki alaçıq növü mövcud idi.

Qara ev, qara keçə iki mənada işlənmişdir. Birinci "BÖ-

YÜK EV" mənasında, ikincisi isə alaçıqların içərisində qalanan ocaq keçəni qaraldır və qəlibinin rənginə görə "QARA EV" adlandırılmışdır. Alaçıqları mahir adamlar tikirdilər. Daha doğrusu bu işi bilənlər quraşdırırdılar. Mükəmməl alaçıq adlandırılan yaylaq ev növü MUXRU alaçıq idi. Bu alaçıqlar yaşayış üçün istifadə olunurdu. İçərisi nəmənd (keçə), və kilimlə döşənirdi. Divarlarına xalça asılırdı. Alaçığın arxa tərəfindən yastıq, yorğan-döşək yığmaq üçün xüsusi yer düzəldilirdi. Yatacaq paltarları, geyim əşyaları, səliqə ilə məfrəşə (böyük mələfə) yığılır və üstü xüsusi hazırlanan parça ilə örtülürdü. Yük yığılan yer pərdə ilə ayrılırdı.

Qara keçə isə orta təbəqə və yoxsullara aid idi. Bu ev növündən həm yaşayış, həm də təsərrüfat işləri üçün istifadə olunurdu. Qarabağda maldarlar süddən 13-dən çox müxtəlif süd məhsulları hazırlayırdılar.

Rusiya imperiyasının işğalına kimi və ondan sonrakı dövrlrədə də Qarabağda quşçuluq və arıçılıq inkişaf etmişdir. İqtisadi inkişafda bu sahənin də əhəmiyyəti böyük idi. Quşçuluq istehlak xarakterli idi. Şuşa şəhəri inşa edildikdən və xanlığın mərkəzinə (1753-cü ildə) çevrildikdən sonra, qalaya yaxın olan kəndlərin sakinləri şəhərə toyuq və toyuq məhsulları satmağa gəlirdilər.

Arıçılıq təsərrüfatının inkişafı üçün Qarabağ xanlığında olduqca hərtərəfli təbii şərait mövcud idi. Müxtəlif bitgi aləmi arıçılığın inkişafı üçün təbii mənbə idi. 1832-ci ildə Qarabağda 2500-ə qədər arı pətəyi var idi. Hər il Azərbaycanlı arıçılar 600 pud bal, 200 pud mum və başqa arı məhsulları istehsal edirdilər.

Təsərrüfat həyatında ovçuluq və balıqçılıq da müəyyən yer tuturdu. Balıq Kür, Araz, Xaçın çaylarında və Bazarçayın yuxarı ərazisində daha çox idi. Balıq ovu da istehlak xarakteri daşıyırdı.

# QARABAĞ XANLIĞININ KUSTAR SƏNƏTKARLIQ SƏNAYESİ

Azərbaycanın Qarabağ bölgəsində xanlıq dövründə kənd təsərrüfatı ilə müqayisədə kustar sənayesi əhəmiyyətli yer tutmurdu. İqtisadi həyatda sənətkar-kustar sənayesi əkinçiliklə sıx bağı idi. Bölgədə xammal ehtiyatlarının zənginliyi sənətkarlığın inkişafına mühüm təsir göstərirdi. Kənd təsərrüfatı məhsulları tədarük edildikdən sonra, kəndlinin asudə vaxtı çox olurdu. Bu vaxtdan kəndli kustar ev sənayesi ilə məşğul olurdu.

Qış mövsümündə kəndli asudə vaxtını ev peşələrinə həsr edirdi. Evdə istehsal olunan müxtəlif kustar sənayesi, kəndlinin özünün və ailəsinin şəxsi tələbatının ödənilməsinə xidmət edirdi. Kəndli çörək bişirir, ipək sarıyır, yun darayır, kətan və yun parça toxuyur, müxtəlif geyim əşyaları toxuyur, kətan və yundan hazırladığı materiallardan paltar toxuyur, inşaat işləri ilə məğul olur, xalça, kilim, məfrəs, xurcun, çuval toxuyur, dəmir və poladdan müxtəlif əşyalar hazırlayırdı. Kəndli dulusçuluqla da məşğul olurdu. Həmin kustar istehsalı ilə məşğul olanlar getdikcə ixtisaslaşırdılar.

Qarabağ xanlığında toxuculuq geniş və çoxsahəli idi. Qarabağ kəndində hər bir ailənin toxuculuq dəzgahı var idi. Əyriçilik və toxuculuq işləri ilə qadınlar məşğul olurdu. 1832-ci ildə kəndlərdə 1200 adam toxuculuqla məşğul olurdu. Istehsal olunan məhsulların bir hissəsi əmtəəlik idi. Yəni bazar üçün istehsal olunurdu.

Ev və kustar sənətkarlıq sənayesinin ən mühüm sahəsi xalçaçılıq idi. Toxunan xalçalar Qarabağ xanlığının sərhədlərindən kənara daşınırdı. Cənubi Zaqafqaziyada Qarabağ xalçaları birinci yer tutur, əldən-ələ keçirdi. Qarabağda toxunan xalçalar DÜNYA bazarlarında da şöhrət qazanmışdır. Xalçalar

həm bazar, həm şəxsi ehtiyac və həm də qızlar üçün cehiz toxunurdu. Xalça toxuyanlar ən qabliyyətli azərbaycanlı qadınlar idilər.

Yeri gəlmişkən onu da qeyd edim ki, erməni ünsürləri xalça sözünü dillərinə gətirirlər. Onların bu işdə qətiyyən təcürbəsi olmamışdır və olmayacaqdır...

Qarabağda boyağçılıq da inkişaf etmişdir. Yundan əyrilən iplərin və onlardan hazırlanan geyim paltarlarının boyanması yüksək səviyyədə həyata keçirilirdi. Boyaq maddələri müxtəlif bitgilərdən alınırdı. Məsələn qoz ağacının yarpaqlarından, onun yetişməmiş meyvələrindən, palıd ağacının qabığından, gicitgən yarpaqlarının həlimindən qara rəng, çəyirtkə kolundan sarı rəng, nar qabığından tünd qəhvəyi rəng, alma ağacının təzə budaqlarının qabığından narıncı, fındıq ağacının qabığından qəhvəyi rənglər alınırdı. Boyaqçılar bu rənglərin alınma üsulunu gizli saxlayırdılar.

Qarabağ xanlığında kənd sakinləri misgərliklə, daşyonmaqla, odlu və soyuq silahlar hazırlamaqla məşğul olurdular. Bunlardan başqa kəndlərdə sənətkarlar təsərrüfat üçün alətlər – ot biçmək üçün dəryaz, oraq, torpağı şumlamaq üçün bel, kəsici alətlər – balta, dəhrə bıçaq, at, eşşək üçün nal, mıx hazırlayırdılar.

Qarabağ xanlığında dabbaqçılığın da təsərrüfat həyatında əhəmiyyəti böyük idi.

At dərisindən başqa camış, öküz, inək, keçi, qoyun dərilərindən ayaqqabı hazırlamaq üçün dabbaqlar dəri aşılayırdılar. Xüsusi cins quzuların dərisindən papaq hazırlanırdı. Sənətkarlar dərilərdən müxtlif geyim növləri də hazırlayırdılar.

Dulusçuluq Qarabağ xanlığında sənətkarlığın qədim sahəsi idi. Sənətkarlar yerli xammal olan gildən bal, yağ, süd, su və başqa məhsullar saxlamaq üçün bardaq, müxtəlif qablar hazırlayırdılar. Bu sahədə iri həcmli küplər də sərfəli idi.

Ağac emalı sənəti də xanlıqda geniş inkişaf etmişdir. Sənətkarlar ağacların odunlarından –yaba, cəhrə, bel sapı, qa-

şıq, səbətlər düzəldirdilər. Evlərin inşasında ağac materialları əsas yer tuturdu. Evlərin qızdırılmasında da ağaclardan istifadə olunurdu. Bəzi ağacların yanacaqlarından xüsusi kömür hazırlanırdı.

Daş karxanaları da bölgədə əhəmiyyətli yer tuturdu. Daşlardan müxtəlif məqsədlər üçün istifadə olunurdu. Dəyirmanlarda dən üyütmək üçün dəyirmi daşlar, kirkirə daşları da düzəldirdilər.

Qarabağ xanlığında 10 yağ emalı zavodu var idi. Qarabağda yağ zavoduna bəzirxana deyirdilər.

Qarabağ xanlığında şərabçılıq da əhəmiyyətli təsərrüfat sahəsi idi. Bu sahə ilə qarabağlı xristian albanlar məşğul olurdular. 1832-ci ildə Qarabağda illik şərab istehsalı 70.000 vedrə, 3400 vedrə araq, 4800 pud bəhməz təşkil edirdi.

Sabunbişirmə də Qarabağ əhalisinin təsərrüfat fəaliyyət sahəsi idi. Bu sahə natural xarakterli idi. Yəni daxili ehtiyacları ödəyirdi. Bu istehsalla kəndlərdə qadınlar məşğul olurdular.

Qarabağ xanlığında ən böyük sənətkarlıq kustar sənayesi mərkəzi, xanlığın şöhrəti olan ŞUŞA qalası idi. Şəhərdə xalçaçılıq yüksək səviyyədə inkişaf etmişdir. Şuşa xalçaları öz yüksək keyfiyyəti və incə naxışları ilə dünyada ad qazanmışdır. Şuşa xalçaları əsasən satış üçün toxunurdu.

1753-cü ildən Şuşada ipək parçalar da toxunmağa başlandı. 1832-ci ildə Şuşa qalasında 132 dəzgahı olan 42 ipək parça toxuyan müəssisə var idi. Göstərilən müəssisələrdə 324 nəfər toxucu işləyirdi. 1829-cu ildə Şuşada 740 ədəd dəsmal, 6100 qırmızı parça və 360 ədəd müxtəlif materialllar istehsal olunmuşdur.

Şuşada ipək açmaq və sarınma işləri ilə 16 nəfərin işlədiyi 7 kələfaçan sənətkar emalatxanası var idi. Şuşa şəhərində yun saplar və onlardan toxunan corablar nəinki daxili ehtiyacı ödəyirdi, eyni zamanda həmin məhsullar Tiflis şəhərinə aparılırdı. Şuşa şəhərində papaqçılar Buxara, Şiraz və yerli

qoyunların dərisindən əla kişi papaqları tikirdilər.

Pambıq parçalardan Şuşada ancaq bez hazırlanırdı. Bu məqsədlə Şuşada 80 dəzgahı olan 28 müəssisə fəaliyyət göstərirdi.

Şuşada 6 nəfər adamın işlədiyi 3 boyaqxana var idi.

Şuşada 40 nəfər adamın işlədiyi 19 dəri zavodu var idi.

Şuşada yəhər- sərraclıq işləri ilə məşğul olan 10 nəfər sənətkar var idi.

Şuşada 2 kərpic zavodunda 22 nəfər adam işləyirdi.

Şuşada barıt da istehsal olunurdu. Şuşa şəhəri böyüyüb inkişaf etdikcə daxili ticarət də formalaşırdı, tacir dükanlarının sayı artırdı.

Şuşada istehsal sahələrinin artması əmtəə-pul münasibətlərinin inkişafını sürətləndirirdi. Müxtəlif peşə sahələrinin təkmilləşməsinə təsir göstərirdi.

# AZƏRBAYCANIN QARABAĞ XANLIĞININ TİCARƏT HƏYATI

Ticarət kapitalı Qarabağ xanlığında da dövriyədə olmuşdur. Məlum olduğu kimi bölgədə daxili ticarət istənilən qədər inkişaf etməmişdir. Bunun bir neçə səbəbi var idi.

**BİRİNCİSİ.** Azərbaycanın Qarabağ bölgəsində yerləşən Qarabağ xanlığının əhalisi əkinçilik və maldarlıqla yanaşı, kustar ev istehsalı ilə də məşğul olurdular. Qarabağ kəndlərində yerli kustar sənətkarlıq istehsalı inkişaf etdikcə bazar pərakəndəliyini aradan qaldırır, onun ərazilərinin bir-birinə qovuşmasına, vahid ticarət bazarının formalaşmasına təsir göstərirdi. İqtisadi yüksəliş eyni zamanda da mövcud xanlıqlar arasında iqtisadi əlaqələrin qovuşmasına təsir göstərirdi.

**İKİNCİSİ.** Daxili ticarətin zəif inkişafına daxildə yolların əlverişli olmaması idi. Dağlıq ərazilərdə yerləşən kəndlərlə payız və qış fəsillərində müntəzəm əlaqə saxlamaq olmurdu. Nəqliyyat vasitələri tələbatı ödəmirdi. Kəndli sənətkar evdə hazırladığı məhsulları vaxtlı-vaxtında alıcıya çatdıra bilmirdi. Kəndlərdə mübadilə ticarəti üstünlük təşkil edirdi. Mübadilədə əsas yeri əkinçilik, heyvandarlıq, bağçılıq və sənətkarlıq məhsulları tuturdu.

Daxili və xarici ticarətin mərkəzi Şuşa şəhəri idi. Şəhərin ətraf kəndlərində yaşayan kəndlilər istehsal etdikləri məhsulları şəhərə gətirir, onları satdıqdan sonra, özlərinə lazım olan malları alırdılar. Bu iş əsasən həftənin BAZAR günlərində olurdu. Ticarət günləri Şuşa şəhəri daha izdihamlı olurdu.

Şəhər ticarətində sənətkarlar, tacirlər, torpaq sahibləri kəndlilər və eyni zamanda da kənardan gələnlər iştirak edirdilər. Çobanlar da satmaq üçün artıq mal-qaranı bazara gətirirdilər. Atlar bazarda baha qiymətə satılırdı. Ümumiyyətlə, Şuşa şəhərində bazarda istənilən malı tapmaq olardı.

Şəhər ticarətinə vergi və rüsum qoyulurdu. Bazarda çalışan bütün xidmətçilərin zəhmət haqqı ticarətlə məşğul olanların hesabına ödənilirdi. Məhsulların qiymətləri belə idi:

1823-cü ildə bir çətvər buğda 18 manat 90 qəpik, bir çuval arpa 6 manat 30 qəpik, bir çuval darı 5 manat, bir batman yağ 15 manat, quzu dərisi (qaragül) 10 manat, bir girvənkə ipək 4 manat, bir batman yun sap 15 manat, kilim 10 manat, öküz 40-70 manat idi.

9 ildən sonra, yəni 1832-ci ildə Qarabağ xanlığında rus pulu ilə məzənnə belə idi:

Rus gümüş pulu ilə bir çəvtər buğda 3-4 manat, arpa 2,5 manat, darı 1,4 manat, pərinc 2 manat, çəltik 1,5-2 manat, darı yarması 4-5 manat, bir pud pambıq 3-4 manat, kətan yağı 4-5 manat, Naxçıvanda 10 qəpiyə alınan bir batman duz Qarabağda 40 qəpik idi. Qarabağ xanlığından Gürcüstana aparılan atlar daha baha qiymətə satılırdı.

Rus işğalından sonra, Qarabağda daxili ticarətlə müqayisədə, xarici ticarət əhəmiyyətli dərəcədə artmışdır. Beləliklə, Şuşa şəhəri Cənubi Zaqafqaziyada Tiflisdən sonra ikinci böyük ticarət mərkəzinə çevrildi. Şuşa tacirləri öz məhsullarını xarici ölkələrə satmağa aparırdılar. Xarici ticarət getdikcə peşəkar tacirlərin əlində cəmləşirdi. Qarabağ bölgəsinin xarici ticarətində qonşu xanların paytaxtları, Rusiya və İran başlıca yer tuturdular.

Tiflisdən Şuşaya çit, güllü, naxışlı paltarlar, mahud, müxtəlif rəngli kolenkor- (pambıq parça növü), nankalar (sarı rəngli pambıq parçalar), qırmızı boyaq, rənglər, çay, müxtəlif içki növləri gətirilirdi. Bakı xanlığından dəmir, yazı kağızı, saxsı qablar, zəfəran və mazut gətirilirdi. Mazut dəvələrlə gətirilirdi. Qarabağda mazutdan otaqları işıqlandırmaq üçün istifadə olunurdu.

Dərbənddən Azərbaycanın Qarabağ bölgəsinə qızılı boya, Şəki xanlığından tüfəng, evdə toxunan mahud şal, yapıncı, xalça, Gəncə xanlığından zəy, Naxçıvan xanlığından naxışlı məxmər parçalar, Təbrizdən müxtəlif çeşidli parçalar, istiot, darçın, mixək, badam, meyvə qaxları, İran qəndi, tumac, Şiraz tütünü, Xoydan və Urmiyadan gumaş, bez, müxtəlif çit və başqa məhsullar, Ərdəbildən isə qalın pambıq parçalar gətirilirdi.

Şəki, Şirvan, Bakı, Gəncə, Naxçıvan və İrəvan xanlıqlarından, eyni zamanda da Tiflis və Dərbənddən Qarabağ bölgəsi rus pulu ilə 90000 manat dəyərində mal alırdısa, Təbriz, Ərdəbil, Xoy, Urmiya xanlıqlarından, habelə, Qacarlar məmləkətindən buraya gümüş rus pulu ilə 140000 manatlıq mal ixrac edirdi. Onu da qeyd edək ki, Azərbaycanın Qarabağ bölgəsinin xarici ticarətində başlıca yeri TƏBRİZ şəhəri tuturdu.

Qarabağ xanlığına Osmanlı imperiyasından meyvə, qax, müxtəlif örtüklər, ipək parçalar, kofe və başqa məhsullar gətirilirdi.

1828-ci il Türkmənçay sülhündən sonra Qarabağ bölgəsi ilə Rusiya arasında iqtisadi əlaqələr daha da gücləndi. Şuşa tacirləri pambıq parçalardan hazırlanan müxtəlif geyim əşyalarını, dəmirdən, poladdan hazırlanan müxtəlif əşyaları almaq üçün Moskvaya və Nijni-Novqorod şəhərlərinə gedirdilər. Azərbaycanlı tacirlər özlərinin mənəviyyatları ilə hara gedirdilərsə böyük hörmətlə qarşılanırdılar.

Rus işğaldan sonra Azərbaycanın Qarabağ bölgəsinin, Osmanlı Türkiyəsi ilə ticarət əlaqələri yolunda ciddi maneələr yarandı. Bundan sonra, Türkiyə məhsullarını Ərəbistanın MƏKKƏ şəhərinə HƏCCƏ (ziyarətə) gedən Şuşa tacirləri alıb gətirirdilər. Buna görə də Qarabağ bölgəsinin Osmanlı Türkiyəsi ilə illik ticarətin dəyəri rus pulu ilə 3 min manat həcmində idi.

Azərbaycanın Qarabağ bölgəsinin xarici ticarətində ipək başlıca yer tuturdu. Şuşalı azərbaycanlı tacirlər Rusiyaya göndərilən ipək ticarətinin əsas mövqelərini öz əllərinə almışdılar. Qarabağ xanlığının xarici ticarətində Qarabağ xalçaları, müxtəlif növ parçalar, iri və xırda buynuzlu mal-qara, kənd təsərrüfatı məhsulları, Qarabağ atları böyük əhəmiyyət kəsb edirdi. Bölgənin xarici ticarəti bir çox maniələrlə qarşılaşırdı. Bu kömrük haqqı idi. Başqa xanlığın ərazisindən keçən ticarət karvanı yüksək kömrük haqqı verməli idi. Orta əsrlərdə bu vergi RAHDAR adlanırdı. Təbrizdə, Xoyda, Urmiyada və Ərdəbil şəhərlərində şuşalı azərbaycanlı tacirlərdən

ticarət işləri apararkən 1 manat vergi alınırdı. Türkiyədə Şuşa tacirlərindən heç bir ticarət haqqı alınmırdı.

Xanlıqda vahid çəki və ölçü vahidlərinin olmaması, daxili və xarici ticarətin inkişafını ləngidirdi. Xanlıqda müxtəlif çanaq ölçüləri mövcud idi. Dənli və paxlalı məhsullar çanaqla ölçülürdü. Şuşa qalasında üç çanaq növü mövcud idi.

Birinci növ çanaq 31 girvənkə, ikinci növ çanaq 12 girvənkə 31 misqal, üçüncü növ çanaq 11 girvənkə 88 misqal buğda tuturdu. Maraqlı bu idi ki, Qarabağ kəndlərində bəzən çəki miqdarı gözəyarı müəyyən olunurdu.

Məlum məsələdir ki, ticarətdə əsas meyar puldur. Bütün əmtəələrin qiyməti pulla ölçülür. Qarabağ xanlığı yaranmamışdan əvvəl burada Şirvan, Şamaxı, Gəncə və Gürcüstan abbasılarından istifadə olunurdu.

Şuşa qalası bina olunduqdan az sonra, Pənahəli xan 1751-ci ildə 15 qəpik dəyərində olan “Pənahabadi” adlı gümüş pul kəsdirdi.

Ağa Məhəmməd şah Qacar Şuşada öldürüldükdən sonra, İbrahimxəlil xan Qacar sarayı ilə münasibətləri normal halda saxlamaq üçün “sahibqıran” adlı 35, 5 qəpik dəyərində gümüş pul kəsdirdi.

Qarabağ xanlığında xan pulları ilə yanaşı Qacarlar məmləkətinin tüməni və rialı da dövrüyyədə idi. Tümən, gümüş pulla 4 mnat, rial isə 45, 5 qəpik dəyərində idi.

# AZƏRBAYCANIN QARABAĞ XANLIĞI BÖLGƏSİNDƏ VERGİ VƏ MÜKƏLLƏFİYYƏTLƏR

Azərbayacnın Qarabağ bölgəsində yerləşən Qarabağ xanlığı dövründə şəhər və kənd əhalisindən toplanan vergilər Azərbaycanın əksər xanlıqları üçün nümunə olub, əsasən aşağıdakılardan ibarət idi:

1. **Malcəhət və yaxud bəhrə.** Hərfi mənası məhsuldan pay deməkdir. Kəndli istifadəsində olan pay torpağından istifadə müqabilində məhsulun yarısı və ya dörddə birini torpaq sahibinə, mülkədara və yaxud tiyuldara verirdi.
2. **Salyana adlanırdı**. Farsca illik deməkdir. Salyana Qarabağ xanlığında müstəqil vergi növü idi.
3. **Çopbaşı**. Mal-qara sahiblərinin yaylaqlardan, qışlaqlardan istifadəyə görə ödədikləri vergi idi. Əsasən pulla ödənilirdi. Otlaq ərazisinə görə alınırdı.
4. **Cütbaşı.** Qarabağ xanlığında mövsüm ərzində bir cüt öküzlə şumlanmış əkin sahəsinin məhsuluna görə alınırdı. Məhsulla və ya pulla ödənilirdi.
5. **Saman.** Hər il kəndlilər öz taxlını xırmanlarda döydükdən sonra ağalarına müəyyən edilmiş miqdarda saman verirdilər.
6. **Bağbaşı.** Bağlardan toplanan meyvələrin onda birini təşkil edirdi. Məhsulla və ya pulla ödənilirdi. Bağın ərazisi və ağacların sayı da nəzərə alınırdı.
7. **Karxana xərci.** İpək əyirən və digər emalatxanalardan toplanan vergi idi.
8. **Dırnaqlıq.** Otlaq sahiblərinin heyvanların otarılmasına görə maldarlardan aldıqları pulla ödənilən vergi idi.
9. **Darğalıq.** Bu vergi kəndlilərdən vergi toplayan kəndxudaların və darğaların xeyrinə toplanırdı.
10. **At arpası.** Qarabağ xanlığında suvari qoşun üçün əhalidən alınan vergi növü idi.
11. **Vəzirlik.** Qarabağ xanlığında maliyyə və divan işlə-

rinə baxan vəzirin xeyrinə toplanan vergi idi. Pul və məhsulla alınırdı.

12. **Ələfə** (Ələf). Xanlıqda məmurların, qoşunların minik və yük heyvanları üçün toplanan quru ot və saman belə adlanırdı.

13. **Diş haqqı** (Dişkirəsi). Qeyri-rəsmi vergi idi. Xanın əsgərləri, naib və nökərləri səfərə çıxanda yerli əhali onları qonaq saxlamalı, gedəndə isə, onlara kəndlinin çörəyini yeyərkən "ƏMƏK" sərf etdiyinə görə dişkirəsi verməli idi. Miqdarı məlum deyil.

14. **İxracat.** Fövqaladə hallar zamanı toplanan vergi idi.

15. **Kələntərlik** (şəhər başçısı). Əhalinin hesabına, şəhərlilərdən onların xeyrinə toplanan vergi kələntərlik adlanırdı. Xan tərəfindən təyin olunan vəzifə idi. İnzibati və mülki idarələrə başçılıq edirdi.

16. **Gözətçi pulu**. Xanın gözətçilərinin saxlanılması üçün toplanan pul vergisi idi.

17. **Mirzəyana.** Qarabağ xanlığında geniş yayılan vergi idi. Xan dəftərxanası və inzibati idarə məmurlarının xeyrinə toplanan vergi belə adlanırdı.

18. **Rüsum.** Xanlıqda vergi yığanların, yüzbaşıların, darğaların və başqa xırda işləri icra edənlərin xeyrinə toplanan vergi növü idi.

19. **Xidmət vergisi**. Xan aşbazları, çörək bişirənləri və digər xidmətçiləri üçün hər evdən toplanan bir manat miqdarında vergi idi.

20. **Şərbətçi pulu.** Xan sarayında şərbət və başqa içkilər hazırlamaq işlərinə nəzarət edən məmurun xeyrinə toplanan vergi növü idi. Miqdarı məlum deyil.

21. **Poçt vergisi**. Bir sıra kəndlərin sakinləri xana çapar kimi bir nəfər atlı xidmətçi ayırır və ya da 3-4 manat pul toplamağı bütün kənd əhalisi öz öhdəsinə götürürdü.

22. **Qırxana xərci**. Xanın yemək süfrəsi üçün məhsulla yığılan vergisi belə adlanırdı.

23. **Toy pulu**. Qeyri-qanuni vergi növü idi. Xanın, bəy-

lərin və digər məmurların ailəsində toy olarkən kəndlilərdən "hədiyyə" adlı ilə toplanırdı.

24. **Bayramlıq**. Milli bayramlarda – Qurban və Bahar bayramlarında aparılan "hədiyyə" belə adlanırdı. Xana və məmurlara məxsus olan bu "hədiyyə" məhsulla və pulla ödənilirdi.

25. **Peşkəş** (hədiyyə). Xana, bəylərə və digər məmurlara verilən qeyri-qanuni vergi belə adlanırdı.

26. **Xüms.** Gəlirin beşdə biri miqdarında olub seyidlərə və ruhanilərə verilən dini vergi.

27. **Zəkat**. İslam dininin qanunlarına əsasən pul və ya əmlakın onda birinə bərabər olub kasıblara verilən dini vergi belə adlanırdı.

28. **Fitrə**. Orucluq bayramında ailədə olan adamların sayına görə hər müsəlman ailəsinin ehtiyacı olanlara verdiyi sədəqə. Bu vergi İslam şəriətinə əsasən məcburi sayılır.

29. **Otaq xərci**. Qarabağ xanlığında ildə bir dəfə hər evdən adambaşına toplanan vergi növü idi.

30. **Başpulu.** Bu vergi hər evdə kişilərin say tərkibinə əsasən alınırdı. Xanlıqlarda yaş həddi müxtəlif idi. Qarabağda 15 yaşı olan kişilər başpulu ödəməli idilər. Məbləği məlum deyil.

**Qarabağ xanlığında əsas mükəllifiyyətlər aşağıdakılar idi:**

1. **Biyar**. Orta əsrlərdə hər yerdə olduğu kimi Azərbaycanda, onun Qarabağ bölgəsində yerləşən Qarabağ xanlığında da ağır mükəlləfiyyət formaları var idi. Adətə görə, hər bir ailə torpaq sahibinin təsərrüfatında müftə işləməli idi. Həftənin müəyyən günlərində kəndli özünün əmək alətləri və iş heyvanları ilə ağanın və bəyin torpağını şumlamalı, malalamalı, şumlanmış sahələrə toxum səpməli, müxtəlif məişət işləri görməli idi. Zəmilərdə taxıl yetişdikdən sonra kəndli onu biçməli, xırmanda döyməli və hazır məhsulu müəyyən edilmiş anbarlara daşımalı idi. Kəndli ağanın, bəyin torpaq sahəsində ot biçməli, onu qurutmalı və tayaya vurmalı idi. Kəndli xan təsərrüfatında da həftənin müəyyən günlərində də həmin işləri

icra etməli idi. Bunlar biyar adlanır. Biyar- əvəzi ödənilməyən məcburi əmək mükəlləfiyyəti idi.

2. **Xüsusi.** Bütün kənd camaatı kənd sahibinin tələbi ilə onun tsərrüfatında ildə iki gündən çox olmamaq şərti ilə müftə işlər görməli idilər. Bu üsul xüsusi və ya fərdi xarakter daşıyırdı...

3. **Qulluqçu.** Kənd əhalisi ağanın və ya bəyin ev və çöl işlərində işləmək məqsədilə hər on ailə növbə ilə bir nəfər adam ayırmalı idi. Qulluqçu verən ailənin həmin üzvü sahibkar tərəfindən hərtərəfli təmin olunurdu. Nökər verən ailə sahibkar qarşısında heç bir əlavə mükəlləfiyyət daşımırdı. Sahibkar həmin ailənin əvəzinə xan zəzinəsinə 5 manat məbləğində vergi verirdi. Sahibkarın ev işlərini səliqəyə salmaq üçün bir nəfər qadın qulluqçu da verilməli idi. Əgər qulluqçu qadın onun üçün müəyyən olunmuş müddəti başa vurduqdan sonra, işini davam etdirmək istəmədikdə, onu başqası ilə əvəz edirdilər. Qulluqçu qadın da ağa və ya bəy tərəfindən hərtərəfli təmin olunurdu.

4. **İlxıçı.** Xana məxsus olan rəiyyətlər onun ilxısına, mal-qarasına baxmaq üçün xüsusi adamlar ayrırdılar. Kəndlilər bu mükələləfiyyətin əvəzini pulla da ödəyə bilirdilər.

Mirzə Camal Qarabağı yazırdı:

**“İbrahimxəlil xanın atları, heyvanları və saysız-hesabsız ilxısı var idi. Xanın ilxısı İRAN və RUM vilayətlərində şöhrət tapmışdı. Xanın atlarının çoxu Nadir şahın atları ilxısının cinsindən idi...**

**Təqribən 3-4-min və bəlkə də daha çox balalayan madyanı, xüsusi cins ayğırları var idi. Xüsusi qoyun sürüləri, malı, camışı o qdər çox idi ki, saymaqla qurtarmazdı”.** Onların saxlanılmasına xanın rəiyyətləri məsuliyyət daşıyırdılar.

Onu da qeyd etmək lazımdır ki, İbrahim xan təbəələrinə qayğı ilə yanaşırdı.

# QARABAĞ XANLIĞININ SİYASİ QURLUŞU

Qarabağ xanlığında bütün hakimiyyət Pənahəli xana və İbrahimxəlil xana məxsus olmuşdur. Onlar hakimiyyətləri dövründə bütün icra, məhkəmə işlərinə sahib idilər. Hərbi sistem də onlara məxsus idi. Bir sözlə Qarabağ xanları qeyri-məhdud hakimiyyətə malik idilər. Xan hakimiyyəti irsi idi. Atadan oğula keçirdi. Xan tam müstəqil idi.

Qarabağ xanları müstəqil siyasi hakimiyyətə malik olmalarına baxmayaraq İslam şəriətinin qanunlarından kənara çıxmır və xalqın adət-ənənələrinə hörmətlə yanaşırdılar.

Mirzə Camal bəy İbrahimxəlil xan haqqında yazırdı:

**"... İbrahimxəlil xan qərib sevən, qonaqpərəst, yetimlərə qayğı göstərən, rəiyyətpərvər, qeyrətli, çörəkli, ehsan sahibi və ənam paylayan bir adam idi. Böyük seyidlərə və fağırlara çoxlu sədəqə və nəzir verərdi. Alimlərə, seyidlərə hörmət edərdi. Ətraf mahalların Azərbaycan, Şirvan və başqa vilayətlərin xanları, bəyzadələri ona pənah gətirib kömək istədikləri zaman onlara hörmət edər və arzularına çatmaqda əlindən gələn köməyi əsirgəməzdi".**

**Qarabağ xanının ən yaxın köməkçisi VƏZİR idi. 1767-ci ildən Qarabağ xanlığının vəziri Molla Pənah Vaqif olmuşdur. O, bu vəzifəni 1797-ci ilin iyul ayına kimi icra etmişdir.**

**Qarabağda mahalları minbaşılar, kəndləri darğalar, yüzbaşılar, kovxalar və kəndxudalar idarə edirdilər.**

**Qarabağ xanlığında naiblər inzibati və məhkəmə işlərinə baxırdılar.**

**Kəndxudalar və kovxalar kənd icması tərəfindən seçki yolu ilə təyin olunurdular. Onlar xan xəzinəsinə vergi toplayır və kəndlərdə ictimai qayda-qanunların qorunmasına nəzarət edirdilər.**

**Darğalar bazarlara nəzarət edirdi, məhsulların qiymətlərini təyin edir, baş verən mübahisələri həll edirdilər.**

***

**Azərbaycan Respublikasının Qarabağ bölgəsi Kür və Araz çayları arasında yerləşir. Qarabağ tarixi- etnoqrafik əyalət kimi Alban dövlətinin tərkibinə daxil olmuş, sonra bütün Azərbaycan ərazisi ilə birlikdə Ərəb xilafətinin əsarəti altına düşmüş, onun squtundan sonra IX- X əsrlərdə Sacilər dövlətinin, X əsrdə Səlairlər, XI-XII əsrlərdə Şəddadilər, XII-XIII əsrlərdə Atabəy- Eldəgizlər, XIII əsrin ikinci yarısından XIV əsrə qədər Hülakilər (Elxanilər) dövlətlərinin, XV əsrdə Qaraqoyunlu və Ağqoyunlu dövlətlərinin tərkibinə daxil olmuşdur.**

**Qarabağ 1501-ci ildən 1736-cı ilə qədər Azərbaycan Səfəvilər dövlətinin tərkibində olmuşdur.**

**Qarabağ Azərbaycan mədəniyyətinin beşiyidir. Qarabağ bəşər tarixində yalnız bir millətə Azərbaycan türklərinə mənsub olmuş və indi də belədir. Qarabağ mədəniyyəti vahid mədəniyyət olub yalnız Azərbaycan xalqına məxsusdur.**

**Qarabağ Azərbaycanın cənnət məkanıdır. Qarabağ Azərbaycanın şah tacıdır.**

**Coxcəhətli və rəngarəng yaradıcılıq yolu keçən, neçə-neçə fəlsəfi və lirik şerlərin, könüloxşayan kitabların müəllifi, dövlət təltiflərinə layiq görülən, dostum şair ƏYYUB ŞIRLANLI “QALIBDIR” şerində deyir:**

Dedim ki, siz məndən soruşun, dostlar,
Deyim Qarabağda nələr qalıbdı.
Nuhdan üzü bəri daş kitabələr,
Minillik tarixli ellər qalıbdı.

Torpağın köksündə tarix izləri,
Oğuz bəylərinin ocaq közləri.
Dədəmiz Qorqudun müdrik sözləri,
Qopuzda dil açan tellər qalıbdı.

Orda qədim Bayat, Şahbulaq, Şuşa,
Əsgəran, Topxana, Turşsu tək yaylaq,
Xəzinə qayası, neçə min oylaq,
Nəğməkar bülbüllər, güllər qalıbdı.

Orda atlas donlu zümrüd meşələr,
Çölləri bəzəyən qan bənövşələr,
Göydən "ilham" alan qarlı zirvələr,
Buzdan köynək geyən sular qalıbdı.

Orda Natəvanın min bir nəğməsi,
Orda Üzeyirin Uverturası.
Orda neçə-neçə dağ şəlaləsi,
Xarı bülbül, kimi güllər qalıbdı.

Qırxqızın qoynundan axan bulaqlar,
Qoyunlu-quzulu yurdlar, yaylaqlar,
Ceyranlı, cüyürlü gözəl oylaqlar,
Kəklikli, turaclı çöllər qalıbdı.

"Fatma nənəmizin sirli havası".
Şırlan şəlaləsi - dağlar sonası,
Qarabağ xanlığı - Şuşa qalası,
Şirin xatirəli illər qalıbdı.

# AZƏRBAYCANLILARIN MART SOYQIRIMI – 100

## QANLI CİNAYƏTLƏR

Ermənilərin Azərbaycan xalqına qarşı törətdikləri soyqırımın 100 illiyı 2019-cu ilin martında tamam olur. Bu soyqırım uzun illər araşdırılmamış, səbəb və nəticələri xalqdan gizli saxlanılmışdır. Sovet hakimiyyəti bu barədə danışmağı yasaq etmişdi. Hətta ermənilərin qanlı cinayətlərinin canlı şahidləri olan minlərlə insana haqsız olaraq divan tutulmuşdur.

Azərbaycan Respublikası müstləqillik əldə etdikdən sonra xalqımıza tutulan haqsız divanların olduğu kimi dünya ictimaiyyətinə çatdırılması sahəsində olduqca böyük işlər görülmüşdür. Bu iş indi də davam etdirilir.

Soyqırım haqqında Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev 26 mart 1998-ci il tarixli fərman vermis və fərmanda baş verən soyqırımlarının səbəb və nəticələri hərtərəfli şərh olunmuşdur. Ulu öndər həmin fərmanda martin 31-ni azərbaycanlıların soyqırım günü elan etmişdir.

Azərbaycanda milli-demokratik hərəkatın başlanması, Müsavat partiyasının xalq arasında nüfüzunun artması erməniləri qorxuya salmışdı. Ona görə də onlar "Müsavat" partiyasına qarşı düşmən mövqedə dayanmışdılar. Əsas məqsəd "Müsavat"ın sosial bazasını və Bakı şəhərinin müsəlman əhalisini məhv etməkdən ibarət idi. Əlbəttə, ermənilərin məqsədi "Böyük Ermənistan" yaratmaq idi. Daşnaklar bu sahədə Aərbaycanın tarixi-etnik torpaqlarını hədəf seçmişdilər.

Daşnaklar məkrli niyyətlərini həyata keçirmək üçün Birinci Dünya müharibəsinin müxtəlif cəbhələrindən beş min erməni əsgərini Bakıya gətirmişdilər. Bakıda **"Qırmızı qvardiya" adı ilə yaradılan 10-12 min nəfərlik ordunun 70 faizi ermənilərdən ibarət idi**. Tərkibi, əsasən, ruslardan ibarət

olan Xəzər dəniz donanmasının matroslar arasında da azərbaycanlıların əleyhinə təbliğat aparılmışdı. **Şamaxıda və Muğanda** da ehtiyat hərbi hissələr yaradılmışdı.

Bu işlərin fəal iştirakçısı olan H.Əsriyants sonralar qeyd edirdi ki, 1918-ci ilin fevralında T.Əmirov bizi çağırıb bildirdi ki, S.Şaumyan və A.Caparidzenin tapşırıqlarını yerinə yetirməliyik. S.Şaumyan əvvəlcədən bizə xəbər vermişdi ki, gecə saat 1-də siqnal olacaq, bu xəbərdarlıq siqnalından sonra biz hücum edib, "Müsavat"ın qərargahını tutmalı idik və belə də oldu.

Təxribat törətmək məqsədi ilə martin **30-da Bakıda İnqilabi Müdafiə Komitəsi** yaradıldı. Bu komitəyə S.Şaumyan başçılıq edirdi. Martın 30-da axşam saat 5-də onun şəxsi göstərişi ilə atəş səsləri eşidildi. "Daşnaksütyun" partiyası və **Erməni Milli Şurası** ilk atəşdən sonra Bakı Sovetini müdafiə etməyə başladılar.

**1918-cı il mart** faciəsi belə başlandı və üç gün davam etdi. Bu milli qırğın günlərində bir-birinə nifrət edən siyasi partiyalar vahid cəbhədə birləşdilər. Sənədlərdə qeyd edilir ki, **martın 30-da** axşam Bakı Soveti hərbi dəstələri başçılarının təcili iclası keçirildi. İclas vaxt itirmədən əhalini qırmaq haqqında qərar qəbul etdi. Bu hərbi silahlı quldurlara A.Mikoyan başçılıq edirdi. O Mikoyan ki şərəfsiz ölümünə kimi Kremldə yüksək vəzifələrdə olmuşdu... Erməni silahlı qüvvələri xüsusi tapşırıqlarla Bakının məhəllələrinə göndərilir və Azərbaycan əhalisini kütləvi surətdə qırmaq əmri aldılar. Əhalini qorxutmaq üçün qadınlara, qocalara, cavanlara qarşı ən ağır cinayətlərə əl atırdılar... **1918-ci ilin martın 31-**də İçərişəhərin alınması hərbi əməliyyatı başlandı. **Əməliyyata ermənilər başçılıq edirdilər. Üc gün ərzində (30 mart - 1 aprel) qətl və qaratlərdən sonra 15 mindən çox azərbaycanlı öldürüldü.**

Azərbaycanlı əhaliyə qarşı soyqırım torədən erməni qüvvələrinin formalaşdırılması, silahlandırılması Erməni Milli Şurasının sədri A.Çulxəndyanın adı ilə bağlıdır. Onun təşəbbü-

sü ilə Rusiyanın tərxis olunmus əsgərlərindən silahlar dəyərdəyməzinə alınıb, daşnaklara verilirdi. 1918-ci ilin ilk aylarında erməni hərbi dəstələri özlərini sərbəst aparır və istədikləri nalayiq hərəkətlər edirdilər. Bü isə gələcək soyqırıma hazırlıq idi. Azərbaycanın müstəqilliyi uğrunda ilk qan məhz Bakı şəhərində töküldü. Tarixi sənədlər araşdırılarkən aydın olur ki, daşnak qüvvələri mart soyqırımını, törətməkdə məqsədləri o idi ki, Azərbaycan əhalisini fiziki cəhətdən məhv etsinlər, onun mənəviyyatına son qoysunlar.

Azərbaycanlıların soyqırımı Bakı ilə məhdudlaşmadı. Daşnak quvvələri **Şamaxıda, Qubada, Xaçmazda, Lənkəranda, Kürdəmirdə, Salyanda, Qarabağda** va başqa qəzalarda da soyqırım törətdilər. Aprel ayında Şamaxı əhalisinə qanlı divan tutuldu. Mart ayının birinci yarısında Şamaxıya məlumat gəldi ki, Bakıdan bura qoşun, toplar, pulemyotlar və çoxlu sayda hərbi sursat gətirilir. Canlı qüvvənin əksəriyyəti ermənilərdən ibarət idi. Bu cinayətkar hissəyə S.Şaumyandan göstəriş alan S.Lalayan başçılıq edirdi.

S.Lalayanın quldur daşnak dəstələri martın **15-də** səhər tezdən Şamaxıya hücum edərək azərbaycanlıların yaşadıqları əraziləri şiddətli top atəşinə tutdular. Onu da xüsusilə deməliyəm ki, mart soyqırımında Şamaxı qədər dəhşətli zərbələrə məruz qalan ikinci bir bölgə təsəvvürə gəlsin. Şamaxı torpağında törədilən qətl və talanların bir çox sahələri hələ də tam açılmamış qalır.

**HAŞİYƏ. Aprel ayının 2-də** Şamaxıda baş verən qanlı hadisələri öz gözü ila görmüş ərəb taciri ve səyyahı **Ləl Üzeyir** qeydlərində yazmışdı: **"Burda insanları dilsiz-ağızsız və köməksiz gördüm. Şamaxı tənhalıqda alışıb-yanırdı. Ermənilər az güllə atırdılar. Onlar qorxu və hay-küylə insanları bir yerə toplayır və sonra onlardan ocaq qalayırdılar. Müəllif sözünə davam edərək qeyd edir: "Mən ilk dəfə idi ki, insanların, uşaq və qocaların, hamilə qadınların diri-diri yandırdıqlarını gördüm".**

Şamaxı soyqırımı haqqında xarici ölkələrin o cümlədən də, Azərbaycan Respublikasının Dövlət Arxivində çoxlu sənədlər var. Həmin sənədlər ermənilərin vəhşiliklərini özündə əks etdirir. Ermənilərin Şamaxıda törətdikləri əməllər onların mənəviyyatlarını, əxlaqsızlıqlarını, ləyaqətsizliklərini və alçaq ünsür olduqlarını sübut edir.

**Şamaxı soyqırımını özündə əks etdirən tarixi sənədlərin birində göstərir. "Şamaxıda 1918-ci il martın 21-də Cümə məscidində fəaliyyət göstərən "Quran məktəbi" adlı müsəlman dini qrupuna divan tutuldu. Dini qrupun başçısının iki ayağı kəsildi. Dilini ağzından çıxardıb doğradılar". Bu vəhşilik S.Lalayanın göstərişi ilə törədilmişdi. O, Şamaxıda çox qanlar tökülmüşdür.Azərbaycanın ziyalılarını təhqir etdikdən sonra onları qətlə yetirilmişdi.**

**HAŞİYƏ. Bir erməni S.Lalayanın qanlı əməllərinin birini belə qələmə almışdı: "Şamaxıda qırğın tərədən S.Lalayanın quldur silahlı dəstələri duma deputatı Məhəmməd Əliyevi ələ keçirdilər. Ona əmr edildi ki, diz çöksün. Lakin Məhəmməd Əliyev diz çökmədi. S.Lalayanın əmri ilə ilk gülləni onun ayağına vurdular. Deputatın ikinci oğlunu tuta bilmədilər. S.Lalayanın əsgərləri Rusiyanın Dövlət Dumasına seçilən azərbaycanlı deputatı döyə-döyə, təhqir edə-edə güllələdilər".**

**S.Lalayan Şamaxı şəhərində azərbaycanlıların qiymətli əşyalarını da qarət etmişdi. Şamaxılıların 124 kıloqram zərgərlik məmulatını, 2500 qədim xalçanı və digər qiymətli əşyaları ələ keçirib satmışdır. Quldur S.Lalayan 1918-ci il noyabr ayının 21-də ingilis generalı Tomsonun əmri ilə həbs edilib, Gəncə həbsxanasına göndərildi və noyabr ayının 23-də it kimi orda öldü.**

Şamaxı soyqırımı zamanı Bakı Sovetinin qoşunları **72** kəndi dağıtdılar. 10341 nəfər azərbaycanlını öldürdülər. Əhaliyə o dövrün qiyməti ilə bir milyard manatdan çox maddi zi-

yan dəydi.

**Mart qırğınından sonra Şamaxı şəhəri uzun müddət özünə gələ bilmədi. Hadisələrdən sonra Şamaxıda 15 min nəfər əhalinin 80 faizindən çoxunu azərbaycanlılar təşkil edirdisə, 1921-ci ildə onların sayı 1700 nəfərə enmişdi.**

**Quba qəzasında soyqırımı törədən quldurlar S.Şaumyan tərəfindən geniş səlahiyyətlər almışdılar. Onlara S.Şaumyanın sag əli olan Hamazasp başçılıq edirdi. Ermənilər aprel ayında Quba qəzasında 122 müsəlman kəndini dağıtdılar,16672 nəfəri qətlə yetirdilər. Onlardan 387 nəfəri yəhudi idi. Göyçay, Kürdəmir, Salyan və Lənkəran bölgələrinin əhalisi də erməni daşnak dəstələrindən böyük ziyan çəkmişdilər. Daşnak birləşmələri mart qırğını zamanı Bakı quberniyasından sonra Azərbaycanın başqa ərazilərini də ələ keçirmək istəyirdilər. Ermənilər Lənkəran qəzasında 40 kəndi dağıdaraq 13 mindən çox insanı öldürürdülər.**

**Mart qırğını ərəfəsində İrəvan quberniyasında Andronikin və Dronun quldur erməni dəstələri 300-dən çox azərbaycanlının yaşadığı kəndi yandırıb, 100 minlərlə azərbaycanlını öldürdülər və əmlakınını qarət etdilər.**

**Mart-aprel aylarında daşnakların rus bolşevikləri ilə birlikdə azərbaycanlılara qarşı törətdikləri kütləvi soyqırımın 101 illiyı 2019-cu ilin mart ayında tamam olur. Bu siyasi akt indi də davam edir. Xocalı soyqırımı erməni ünsürlərinin öz himayədarları ilə birlikdə törətdikləri vəhşiliyin parlaq nümunəsidir. Ermənilər həmişə xalqımıza qarşı soyqırım aktını "böyük qardaşları"nın fəal köməyi ilə törətmişlər. Bununla da ermənilər Sədi Şirazinin dediyi kimi:**

**"Erməni yer üzünün əhrəməni,**
**Ermənidir insanlığın düşməni".**

Erməni fırıldaqçıları hər il aprel ayını 24-nü özlərinin "genosid" günü kimi qeyd edirlər. Bu fırıldaq erməni rəhbərlərinin, erməni diasporunun uydurmasıdır. Tarixdə belə hadisə baş verməmişdir. Əgər erməni "genosidi" olsaydı, onda yer üzündə erməni qalmazdı.

**Tarixi faktlar sübut edir ki, Birinci Dünya müharibəsi ərəfəsində dünyada mövcud olan ermənilərin sayı təxminən 3 milyon olmuşdur. Onların 100 mini Cənubi Qafqazda, 100 mini İranda, 400 mini Türkiyədə yaşayırdı. Ermənilər deyirlər ki, 1,5 milyon erməni Türkiyədə soyqırımına məruz qalıb. 400 min hara, 1 milyon yarım hara? Erməni fırıldağı burdan aydın görünür.**

Erməni xisləti artıq dünyaya məlumdur. Qan tökmək, kiminsə torpağına, əmlakına göz dikmək onların qanlarına yerimişdir. Söz yox ki, ermənilər nə vaxtsa öz əməllərinə görə cavab verəcək və layiqli cəzalarını alacaqlar. Yaxşı bilirlər ki, onların dövlətçiliyi olmayıb. Bu, ünsürdə vətən hissi və siyasi əlaqələrlə bağlı deyil. Eməni vətənpərvərliyi yalnız yaşayış yeri ilə bağlıdır. Bu sözlər bir nəfər erməni tarixçisinin sözləridir. Mənə belə gəlir ki, bu fikrin izaha ehtiyacı yoxdur. Ermənilər yaltaq, ikiüzlü və qorxaqdırlar, azadlıq hissi onlara yaddır. Köləliyə daha çox meyl göstərirlər.

Ermənilər unutmasınlar ki, Azərbaycan xalqının qisası dəhşətli olacaq...

## BİRLƏŞMİŞ MİLLƏTLƏR TƏŞKİLATININ TƏHLÜKƏSİZLİK ŞURASI Qətnamə 822

*30 Aprel 1993-cü il*

Təhlükəsizlik Şurası, Dağlıq Qarabağ münaqişəsinə dair Təhlükəsizlik Şurası Sədrinin 29 yanvar və 6 aprel 1993-cü il tarixli bəyanatlarına əsaslanaraq.

Baş Katibin 14 aprel 1993-cü il tarixli məruzəsini nəzərə alaraq, Ermənistan Respublikası ilə Azərbaycan Respublikası arasında münasibətlərin pisləşməsi ilə əlaqədar ciddi narahatlığını ifadə edərək, silahlı hərbi əməliyyatların genişlənməsini, xüsusilə yerli erməni qüvvələrinin Azərbaycan Respublikasının Kəlbəcər rayonuna sonuncu hücumunu həyəcanla qeyd edərək, belə vəziyyətin regionda sülh və təhlükəsizliyi təhdid etməsindən narahat olaraq, çoxlu sayda mülki şəxslərin yerlərinin dəyişməsi və regionda, xüsusilə Kəlbəcər rayonunda fövqəladə humanitar vəziyyətlə bağlı ciddi narahatlığını ifadə edərək,

Regionda bütün dövlətlərin suverenliyinə və ərazi bütövlüyünə hörmət edilməsini bir daha təsdiq edərək,

Həmçinin beynəlxalq sərhədlərin toxunulmazlığını və ərazi əldə etmək məqsədilə gücdən istifadənin yolverilməzliyini bir daha təsdiq edərək,

Avropada Təhlükəsizlik və Əməkdaşlıq Müşavirəsi çərçivəsində həyata keçrilən sülh prosesini dəstəklədiyini bəyan edərək,

Silahlı hərbi əməliyyatların genişlənməsinin bu proses üçün dağıdıcı nəticə verə biləcəyindən dərindən narahat olaraq qeyd edir:

1. Möhkəm atəşkəsin əldə edilməsi məqsədilə bütün hərbi əməliyyatların və düşmənçilik aktlarının dərhal dayan-

dırılmasını, həmçinin bütün işğalçı qüvvələrin Kəlbəcər rayonundan və Azərbaycanın bu yaxınlarda işğal olunmuş digər rayonlarından dərhal çıxarılmasını tələb edir;

2. Münaqişənin Avropada Təhlükəsizlik və Əməkdaşlıq Müşavirəsinin Minsk qrupunun sülh prosesi çərçivəsində həll edilməsi məqsədilə maraqlı tərəfləri danışıqları dərhal bərpa etməyə və problemin sülh yolu ilə həllini çətinləşdirən hər hansı hərəkətlərdən çəkinməyə çağırır;

3. Mülki əhalinin əzablarını yüngülləşdirmək üçün regionda, xüsusilə münaqişəyə məruz qalmış rayonlarda humanitar yardımın göstərilməsi üzrə beynəlxalq fəaliyyətin maneəsiz həyata keçirilməsini təmin etməyə çağırır, bütün tərəflərin beynəlxalq humanitar hüququn prinsip və normalarına riayət etməyə borclu olduqlarını yenidən təsdiq edir;

4. Baş Katibdən Avropada Təhlükəsizlik və Əməkdaşlıq Müşavirəsinin Fəaliyyətdə olan Sədri, həmçinin Müşavirənin Minsk qrupunun Sədri ilə məsləhətləşməklə regionda, xüsusilə Azərbaycanın Kəlbəcər rayonunda vəziyyətin qiymətləndirilməsini aparmağı və Şuraya növbəti məruzəni təqdim etməyi xahiş edir;

5. Bu məsələ ilə fəal şəkildə məşğul olmağı davam etdirməyi qərara alır.

## BİRLƏŞMİŞ MİLLƏTLƏR TƏŞKİLATININ TƏHLÜKƏSİZLİK ŞURASI Qətnamə 853

*29 iyul 1993-cü il*

Təhlükəsizlik Şurası 30 aprel 1993-cü il tarixli 822 (1993) saylı qətnaməsini təsdiq edərək,

Avropada Təhlükəsizlik və Əməkdaşlıq Müşavirəsinin (ATƏM) Minsk qrupunun Sədrinin 27 iyul 1993-cü il tarixində dərc olunmuş məruzəsini nəzərdən keçirərək,

Ermənistan Respublikası və Azərbaycan Respublikası arasında münasibətlərin pisləşməsi və onlar arasındakı gərginliklə əlaqədar ciddi narahatlığını ifadə edərək,

Maraqlı tərəflərin 822 (1993) saylı qətnamənin həyata keçirilməsi üzrə təxirəsalınmaz tədbirlər planını qəbul etməsini alqışlayaraq,

Hərbi əməliyyatların genişlənməsini, xüsusilə Azərbaycan Respublikasının Ağdam rayonunun işğal edilməsini həyəcanla qeyd edilərək, Belə vəziyyətin regionda sülh və təhlükəsizliyi hələ də təhdid etməsini ilə əlaqədar narahat olaraq, Azərbaycan Respublikasında çoxlu sayda mülki şəxslərin yerlərinin dəyişməsi və regionda fövqəladə humanitar vəziyyətlə əlaqədar yenidən ciddi narahatlığını ifadə edərək,

Azərbaycan Respublikasının və regionda bütün digər dövlətlərinin suverenliyini və ərazi bütövlüyünü bir daha təsdiq edərək,

Həmçinin beynəlxalq sərhədlərin toxunulmazlığın və ərazi əldə etmək məqsədilə gücdən istifadənin yolverilməzliyini bir daha təsdiq edərək:

1. Ağdam rayonunun və Azərbaycan Respublikasının bu yaxınlarda işğal olunmuş digər rayonlarının işğalını pisləyir;

2. Bundan başqa regionda bütün düşmənçilik hərəkət-

lərini, xüsusilə mülki şəxslərə hücumları və məskunlaşmış rayonların bombardman edilməsini pisləyir;

3. Bütün hərbi əməliyyatların dərhal dayandırılmasını, münaqişədə iştirak edən işğalçı qüvvələrin Ağdam rayonundan və Azərbaycan Respublikasının bu yaxınlarda işğal edilmiş digər rayonlarından dərhal, tamamilə və qeyd-şərtsiz çıxarılmasını tələb edir;

4. Maraqlı tərəfləri atəşkəsə dair möhkəm razılaşmalar əldə etməyə və onlara riayət etməyə çağırır;

5. Yuxarıdakı 3-cü və 4-cü maddələr kontekstində regionda iqtisadi, nəqliyyat və enerji əlaqələrinin bərpa edilməsinə dair özünün əvvəlki çağırışlarını yenidən təsdiq edir;.

6. 822 saylı (1993) qətnaməni həyata keçirmək üçün səylər də daxil olmaqla ATƏM-in Minsk qrupunun münaqişənin sülh yolu ilə həllinə nail olmaq üçün davam edən səylərini bəyənir və hərbi əməliyyatların genişlənməsinin bu səylər üçün doğurmuş dağıdıcı nəticələri ilə bağlı ciddi narahatlığını ifadə edir;

7. Yerləşdirilməsi cədvəli də daxil olmaqla ATƏM-in müşahidə missiyasının hazırlanmasını, həmçinin ATƏM-in regionda iştirakının təmin edilməsi təklifinin ATƏM çərçivəsində nəzərdən keçirilməsini alqışlayır;

8. Maraqlı tərəfləri münaqişənin sülh yolu ilə həllinə mane olan hər cür hərəkətlərdən çəkinməyə və ATƏM-in Minsk qrupu çərçivəsində, həmçinin birbaşa təmaslar vasitəsilə məsələnin birdəfəlik həllinin əldə edilməsi məqsədilə onlar arasında danışıqları davam etdirməyə təkidlə çağırır;

9. Azərbaycan Respublikasının Dağlıq Qarabağ regionunun erməniləri tərəfindən 822 saylı (1993) qətnamənin və hazırki qətnamənin müddəalarına riayət edilməsi və bu tərəfin ATƏM-in Minsk qrupunun təkliflərini qəbul etməsi məqsədilə Ermənistan Respublikasının hökumətini öz təsirini göstərməkdə davam etməyə təkidlə çağırır;

10. Dövlətləri münaqişənin intensivləşməsinə və ya

ərazi işğalının davam etdirilməsinə apara biləcək hər hansı silahın və hərbi sursatın təchiz edilməsindən çəkinməyə təkidlə çağırır;

11. Mülki əhalinin artan əziyyətlərini yüngülləşdirmək məqsədilə, regionda, xüsusilə münaqişəyə məruz qalmış bütün rayonlarda humanitar yardımın göstərilməsi üzrə beynəlxalq fəaliyyətin maneəsiz təmin edilməsinə bir daha çağırır, bütün tərəflərin beynəlxalq humantar hüququn prinsip və normalarına riayət etməyə borclu olduqlarını bir daha təsdiq edir;

12. Baş Katibdən və müvafiq beynəlxalq qurumlardan zərər çəkmiş mülki əhaliyə təcili humanitar yardım göstərməyi və köçkün düşmüş şəxslərin öz evlərinə qayıtmasına kömək göstərməyi xahiş edir;

13. Baş Katibdən ATƏM-in Fəaliyyətdə olan Sədri, həmçinin Minsk qrupunun Sədri ilə məsləhətləşməklə vəziyyətin inkişafı barədə Şuraya məruzələr təqdim etməyi davam etdirməyi xahiş edir;

14. Məsələ ilə fəal şəkildə məşğul olmağı davam etdirməyi qərara alır.

# BİRLƏŞMİŞ MİLLƏTLƏR TƏŞKİLATININ TƏHLÜKƏSİZLİK ŞURASI Qətnamə 874

*14 oktyabr 1993-cü il*

Təhlükəsizlik Şurası 30 aprel 1993-cü il tarixli 822 saylı (1993) və 29 iyul 1993-cü il tarixli 853 saylı (1993) qətnamələrini təsdiq edərək və 18 avqust 1993-cü ildə Təhlükəsizlik Şurası Sədrinin Şuranın adından oxuduğu bəyanata əsaslanaraq,

Avropada Təhlükəsizlik və Əməkdaşlıq Müşavirəsinin (ATƏM) Dağlıq Qarabağ üzrə Minsk konfransının Sədrinin Təhlükəsizlik Şurası Sədrinin adına ünvanlanmış 1 oktyabr 1993-cü il tarixli məktubunu nəzərdən keçirərək, Azərbaycan Respublikasının Dağlıq Qarabağ regionunda və onun ətrafında münaqişənin davam etməsinin və Ermənistan Respublikası ilə Azərbaycan Respublikası arasında gərginliyin regionda sülh və təhlükəsizliyi təhdid edə biləcəyi ilə əlaqədar dərin narahatlığını ifadə edərək, 8 oktyabr 1993-cü ildə Moskvada yüksək səviyyədə keçirilmiş görüşləri qeyd edərək və bu görüşlərin vəziyyətin yaxşılaşmasına və münaqişənin sülh yolu ilə həllinə töhfə verəcəyinə ümidvar olduğunu ifadə edərək,

Azrəbaycan Respublikasının və regionda bütün digər dövlətlərin suverenliyini və ərazi bütövlüyünü bir daha təsdiq edərək,

Həmçinin beynəlxalq sərhədlərin toxunulmazlığını və ərazi əldə etmək məqsədilə gücdən istifadənin yolverilməzliyini bir daha təsdiq edərək,

Münaqişə üzündən insanların məruz qaldığı əzablar və regionda ciddi fövqəladə humanitar vəziyyətlə əlaqədar, xüsusilə Azərbaycan Respublikasında çoxlu sayda mülki şəxslə-

rin yerlərinin dəyişməsi ilə əlaqədar özünün ciddi narahatçılığını bir daha ifadə edərək:

1. Maraqlı tərəfləri ATƏM-in Minsk qrupuna dəstək məqsədilə Rusiya Federasiyası hökumətinin köməyi ilə həyata keçirilən birbaşa təmaslar nəticəsində əldə edilmiş atəşkəsi effektiv və daimi etməyə çağırır;

2. ATƏM çərçivəsində həyata keçirilən sülh prosesini və Minsk qrupunun yorulmaz səylərini tamamilə dəstəklədiyini yenidən bəyan edir;

3. 28 sentyabr 1993-cü ildə ATƏM-in Minsk qrupunun iclasında hazırlanmış və Minsk qrupunun doqquz digər üzvünün hərtərəfli dəstəyi ilə Qrupun Sədri tərəfindən maraqlı tərəflərə təqdim olunmuş «Təhlükəsizlik Şurasının 822 (1993) və 853 (1993) saylı qətnamələrinin həyata keçirilməsi üzrə təxirəsalınmaz tədbirlərin yeniləşdirilmiş cədvəli»ni alqışlayıb tərəflərin diqqətinə çatdırır və tərəfləri onu qəbul etməyə çağırır;

4. Münaqişədən irəli gələn və «Yeniləşdirilmiş cədvəl»də bilavasitə nəzərdən keçirilməyə bütün başqa həll olunmamış məsələlərin Minsk prosesi kontekstində sülh danışıqları vasitəsilə tezliklə həll edilməsinin vacibliyinə əmin olduğunu ifadə edir;

5. bu yaxınlarda işğal edilmiş ərazilərdən qoşunların çıxarılması, rabitə və nəqliyyat üçün bütün maneələrin aradan qaldırılması da daxil olmaqla ATƏM-in Minsk qrupunun «Yeniləşdirilmiş cədvəli»ndə nəzərdə tutulan qarşılıqlı və təcili tədbirləri dərhal həyata keçirməyə çağırır;

6. ATƏM-in Nazirlər Şurasının 24 mart 1992-ci il tarixli mandatına uyğun olaraq, «Yeniləşdirilmiş cədvəl»də nəzərdə tutulduğu kimi, münaqişənin danışıqlar yolu ilə həll edilməsinə nail olmaq məqsədilə tezliklə Minsk konfransını keçirməyə çağırır;

7. Baş Katibdən ATƏM-in Minsk konfransında iştirak etmək üçün nümayəndə göndərmək dəvətinə müsbət cavab

verməyi və Konfransın açılmasından sonra məsələnin mahiyyətinə dair danışıqlar aparmaq üçün bütüq mümkün köməyi göstərməyi xahiş edir;

8. ATƏM-in yaratdığı müşahidə missiyasını dəstəkləyir;

9. Bütün tərəfləri beynəlxalq humanitar hüququ pozmaqdan çəkinməyə çağırır və münaqişəyə məruz qalmış bütün rayonlarda humanitar yardımın göstərilməsi üzrə beynəlxalq fəaliyyətin maneəsiz həyata keçirilməsinin təmin edilməsinə dair 822 (1993) və 853 (1993) saylı qətnamələrdəki çağırışlarını təkrar edir;

10. Regiondakı bütün dövlətləri münaqişənin genişlənməsinə gətirib çıxaran, regionda sülh və təhlükəsizliyi pozan hər cür düşmənçilik hərəkətlərindən və hər cür müdaxilədən çəkinməyə təkidlə çağırır;

11. Baş Katibdən və müvafiq beynəlxalq qurumlardan zərər çəkmiş mülki əhaliyə təcili humanitar yardım göstərməyi, qaçqınlara və köçkünlərə təhlükəsiz şəraitdə və ləyaqətlə öz evlərinə qayıtmaqda kömək etməyi xahiş edir;

12. Baş Katibdən, ATƏM-in Fəaliyyətdə olan Sədrindən və ATƏM-in Minsk Konfransının Sədrindən Minsk prosesinin gedişi və yerdə vəziyyətin bütün aspektləri və bunlarla əlaqədar ATƏM ilə Birləşmiş Millətlər Təşkilatı arasında indiki və gələcək əməkdaşlıq haqqında Şuraya məruzələrin verilməsini davam etdirməyi xahiş edir;

13. Məsələ ilə fəal şəkildə məşğul olmağı davam etdirməyi qərara alır.

## BİRLƏŞMİŞ MİLLƏTLƏR TƏŞKİLATININ TƏHLÜKƏSİZLİK ŞURASI Qətnamə 884

*12 noyabr 1993-cü il*

Təhlükəsizlik Şurası,

30 aprel 1993-cü il tarixli 822 (1993), 29 iyul 1993-cü il tarixli 853 (1993) və 14 oktyabr 1993-cü il tarixli 874 (1993) saylı qətnamələrini təsdiq edərək,

Avropada Təhlükəsizlik və Əməkdaşlıq Müşavirəsi (ATƏM) çərçivəsində həyata keçirilən sülh prosesi və ATƏM-in Minsk qrupunun yorulmaz səylərini tamamilə dəstəklədiyini təsdiq edərək,

ATƏM-in Dağlıq Qarabağ üzrə Minsk konfransının Fəaliyyətdə olan Sədrinin Təhlükəsizlik Şurası Sədrinin adına ünvanlanan 9 noypbr 1993-cü il tarixli məktubunu və ona əlavələri nəzərə alaraq, Azərbaycan Respublikasının Dağlıq qarabağ regionunda və onun ətrafında münaqişənin davam etməsi və Ermənistan Respublikası ilə Azərbaycan Respublikası arasındakı gərginliyin regionda sülh və təhlükəsizliyi təhdid edə biləcəyi ilə əlaqədar ciddi narahatlığını ifadə edərək,

Atəşkəsin pozulması nəticəsində hərbi əməliyyatların genişlənməsini və buna cavab olaraq ifrat güc tətbiq edilməsini, xüsusilə Azərbaycan Respublikasında Zəngilan rayonunun və Horadiz şəhərinin işğalını həyəcanla qeyd edərək,

Azərbaycan Respublikasının və regiondakı digər dövlətlərinin suverenliyini və ərazi bütövlüyünü bir daha təsdiq edərək,

Həmçinin beynəlxalq sərhədlərin toxunulmazlığı və ərazi əldə etmək məqsədilə güc tətbiqinin yolverilməzliyini bir daha təsdiq edərək,

Son zamanda çoxlu sayda mülki şəxslərin yerlərinin də-

yişməsi və Zəngilan rayonunda, Horadiz şəhərində və Azərbaycanın cənub sərhəddində fövqəladə humanitar vəziyyətin yaranması ilə əlaqədar ciddi narahatlığını ifadə edərək:

1. Hərbi əməliyyatların yenidən başlanması ilə nəticələnən tərəflər arasında əldə edilmiş atəşkəsin pozulmasını, xüsusilə Zəngilan rayonunun və Horadiz şəhərinin işğal edilməsini, dinc əhaliyə hücumları və Azərbaycan Respublikasının ərazisinin bombardman edilməsini pisləyir;

2. Ermənistan hökumətini Azərbaycan Respublikasının Dağlıq Qarabağ regionunun erməniləri tərəfindən 822 (1993), 853 (1993) və 874 (1993) saylı qətnamələrə riayət edilməsinə nail olmaq məqsədilə öz nüfuzundan istifadə etməyə və hərbi kampaniyanı genişləndirmək üçün lazımi vasitələrin münaqişəyə cəlb olunmuş qüvvələrə verilməməsini təmin etməyə çağırır;

3. ATƏM-in Minsk qrupunun doqquz üzvünün 4 noyabr 1993-cü il tarixli Bəyannaməsini alqışlayır və atəşkəsin dayandırılması haqqında birtərəfli bəyanatlarla bağlı orada yer alan təklifləri yüksək qiymətləndirir;

4. Maraqlı tərəflərdən ATƏM-in Minsk qrupunun 2-8 noyabr 1993-cü ildə Vyanada keçirilmiş iclasında edilmiş düzəlişlərlə «Təhlükəsizlik Şurasının 822 (1993) və 853 (1993) saylı qətnamələrinin həyata keçirilməsi üzrə təxirəsalınmaz tədbirlərin Yeniləşdirilmiş cədvəli»nə uyğun olaraq hərbi əməliyyatları və düşmənçilik hərəkətlərini dərhal dayandırmağı, Zəngilan rayonundan və Horadiz şəhərindən işğalçı qüvvələri birtərəfli qaydada çıxarmağı və Azərbaycan Respublikasının bu yaxınlarda işğal edilmiş başqa rayonlarından işğalçı qüvvələri çıxarmağı tələb edir;

5. Maraqlı tərəfləri ATƏM-in Minsk qrupuna dəstək məqsədilə rusiya Federasiyası hökumətinini köməyi ilə həyata keçirilmiş birbaşa təmaslar nəticəsində əldə edilmiş atəşkəsi təcili bərpa. Onu effektiv və daimi etməyə, ATƏM-in Minsk prosesi və Minsk qrupunun 2-8 noyabr 1993-cü il ta-

rixli iclasında edilmiş düzəlişlərlə birlikdə «Yeniləşdirilmiş cədvəl» kontekstində münaqişənin danışıqlar vasitəsilə həllini axtarmağa təkidlə çağırır;

6. Regiondakı bütün dövlətləri münaqişənin genişlənməsinə, regionda sülh və təhlükəsizliyin sarsılmasına gətirib çıxara biləcək hər cür düşmənçilik hərəkətlərindən və hər cür müdaxilədən çəkinməyə bir daha çağırır;

7. Baş Katibdən və müvafiq beynəlxalq qurumlardan Zəngilan rayonunun, Horadiz şəhərinin və Azərbaycanın cənub sərhədinin əhalisi də daxil olmaqla zərər çəkmiş əhaliyə təcili humanitar yardım göstərməyi, qaçqın və məcburi köçkünlərə təhlükəsizlik və layiqli şəkildə öz evlərinə qayıtmaqda kömək etməyi xahiş edir;

8. Baş Katibə, ATƏM-in Fəaliyyətdə olan Sədrinə və ATƏM-in Minsk Konfransının Sədrinə Minsk prosesinin gedişi və yerlərdə vəziyyətin bütün aspektləri, xüsusilə Şuranın müvafiq qətnamələrinin həyata keçirilməsi və bununla əlaqədar ATƏM ilə Birləşmiş Millətlər Təşkilatı arasında indiki və gələcək əməkdaşlıq haqqında Şuraya məruzələrini davam etdirmək barədə xahişini təkrar edir;

9. Bu məsələ ilə fəal şəkildə məşğul olmağı davam etdirməyi qərara alır.

Yuxarıda qeyd olunan qətnamələrin heç biri Ermənistan tərəfindən yerinə yetirilməmişdir.

Hazırda Azərbaycanda güclü iqtisadiyyat, müasir hərbi texnika ilə silahlanmış, yüksək döyüş təcrübəsinə malik olan **Milli Ordu yaradılmışdır**. Silahlı qüvvələrimiz işğal altında olan torpaqlarımızı hər an azad etməyə qadirdir. **2016-cı il aprel döyüşləri bunu bir daha göstərdi. Erməni ünsürlərinin bel sütununu sındırıldı. Milli Ordumuz öz gücünü düşmənə göstərdi.**

**Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrimizin Ali Baş Komandanı Cənab İLHAM ƏLİYEV deyir:**

**«Dağlıq Qarabağ Azərbaycanın ayrılmaz tərkib hissəsidir. Azərbaycan öz sərhədləri daxilində tanınmışdır.**

**... Azərbaycanın ərazi bütövlüyü toxunulmazdır, üstəlik daha bir erməni dövlətinin mövcud olması mümkün deyildir. Ermənistanın irəli sürdüyü ideyalar bundan ibarətdir ki, guya Dağlıq Qarabağın əhalisi öz müstəqilliyini təyin etmək istəyir. Halbu ki, ermənilər öz müqəddəratını artıq müəyyən etmişlər, onların müstəqil dövləti var – Ermənistan Respublikası. Dünyada ikinci erməni dövləti ola bilməz, deməli, Dağlıq Qarabağın müstəqilliyi yolverilməzdir. Dağlıq Qarabağ tarixən Azərbaycan ərazisidir və o, ancaq yüksək muxtariyyət statusuna malik ola bilər»...**

# AZƏRBAYCANIN İTİRİLMİŞ TARİXİ-ETNİK TORPAQLARI

**AZƏRBAYCAN** tarixən geniş əraziyə malik olan dövlətlərdən biri olmuşdur. Bu müəyyən əsrlərdə hazırlanan siyasi və iqtisadi xəritələrdə də özünün əksini tapmışdır. Lakin tarixin müəyyən inkişaf mərhələrində, xüsusilə Şimali Azərbaycanda sovet hakimiyyəti qurulduqdan sonra bu tarixi-etnik torpaqlarımızın bir hissəsi **Azərbaycan SSR** sərhədlərindən kənarda qaldi. Həmin torpaqlar - **AMASİYA, BASARKEÇƏR, EÇMƏDZİN, GÖYÇƏ, GÜMRÜ, İRƏVAN, SÜRMƏLİ, ŞƏMSƏDDİL, DƏRƏLƏYƏZ, ŞORAGÖL, YENİ BƏYAZİD, VERDİBASAR, ZƏNGİBASAR VƏ ZƏNGƏZUR, indiki ERMƏNİSTAN deyilən ərazi, BORÇALININ bir hissəsi, QARAYAZI ilə birlikdə GÜRCÜSTAN RESPUBLİKASINA və qədim Azərbaycan şəhəri Dərbənd ətrafındakı torpaqlarla birlikdə RUSİYA FEDERASİYASINA verildi. Mehriyə bitişik olan ərazimizin 1920-ci ildə Ermənistan deyilən quruma verilməsi nəticəsində NAXÇIVAN diyarı süni olaraq Azərbaycandan ayrı düşdü.**

Sovet hakimiyyəti illərində doğma torpaqlarımızın itirilməsi **1969-cu ilə kimi davam etdi. 1969-cu il iyulun 14-də ULU ÖNDƏR HEYDƏR ƏLİYEVİN hakimiyyətə gəlməsi ilə torpaqlarımızın əldən çıxmasının qarşısı alındı.**

**Sovet İttifaqı** dövründə və başqa tarixi mərhələlərdə itirilmiş ərazilərimiz haqqında qısa tarixi məlumat vermək yerinə düşər.

**BORÇALI**. Borçalı tarixən azərbaycanlıların elliklə yaşadığı məkandır. Mahalın ərazisi əsasən dağlıqdır. Orta əsrlərdə burada türk dilli tayfalar, **XVI-XVII əsrlərdə** isə kütləvi surətdə Borçalıda azərbaycan türkləri məskunlaşmışdılar. Əlverişli iqlim və torpağa malik olan Borçalı mahalında əhali əkinçilik, maldarlıq, taxılçılıq, bostançılıq, bağçılıq və ipəkçiliklə məşğul olmuşlar.

Borçalı həmişə tarixi Azərbaycan dövlətinin tərkib hissəsi

olmuşdur. **1736-cı ildə Bəylərbəyi Ziyadoğlının Nadir xan Əfşarın Muğanda şah elan olunmasına qarşı çıxması mahalın tarixində qanlı nəticələrə səbəb olmuşdur.** Ziyadoğlunun bu hərəkətindən qəzəblənən Nadir şah (**1736-1747**) **Borçalı və Qazax mahallarının** Gəncə bəylərbəyindən alaraq **KARTİLİ-KAXETİYA** çarlığına verdi.

**1747-ci il iyun ayının 20-də Nadir şah Xorasan yaxınlığındakı Xanbuşan yaylağında öz qohumları tərəfindən öldürüldükdən sonra** Borçalı mahalında müstəqil **sultanlıq yarandı.**

**1832-ci il məlumatına görə** Borçalının **145 kəndində 4092 həyət, 13762 nəfər kişi var idi. 1880-ci ildə Borçalı ayrıca qəza hüququ almışdır.** Borçalının mərkəzi hissəsində **1917-ci ildə 36615 nəfər əhali yaşayırdı ki, bu da azərbaycanlı əhalinin 93 faizini təşkil edirdi.**

**1918-ci il may ayının 28-də Azərbaycan Xalq Cumhuriyyəti yarandıqdan sonra Borçalı əhalisi yenidən Azərbaycanla birləşmək haqqında məsələ qaldırdı.** Təəssüflər olsun ki, o zamankı Gürcüstan hökuməti **alman ordusunun köməyilə azərbaycanlıların xoş niyyətinin qarşısını aldı...**

**Gürcüstanda və Ermənistan deyilən respublikada sovet hakimiyyəti bərqərar olduqdan sonra, hər iki dövlət arasında sərhədlərin müəyyənləşməsi məsələsi irəli sürüldü.**

**1921-ci il noyabr ayının 6-da hər iki respublika arasında imzalanan bəyannaməyə əsasən Borçalının LORİ ərazisi Erməni ünsürlərinə verildi. Bununla da tarixi-etnik ərazimiz itirildi.**

Gürcüstana qatılan Borçalı torpaqları **qəza hüququ əsasında idarə olunurdu.** Onun ərazisi-**2655 kv.km idi. 1929-cu ildə Gürcüstan tərkibində olan Borçalı qəzası ləğv edildi.** Qəza ərazisində **Marneule, Bolnisi** rayonları təşkil olundu.

**1988-ci ildə** Ermənistan deyilən dövlətin tərkibində olan Borçalı torpaqlarından erməni faşist ünsürləri azərbaycanlıları tamamilə qovub çıxarmış və bütün əmlaklarını **- evlərini, varidatlarını, mal-qarasını mənimsəmişlər.**

**Beləliklə də qədim torpaqlarımızın bir hissəsi "İTİRİLMİŞ TORPAQLAR"** sırasına düşdü.

**DƏRBƏND** – Dərbənd Azərbaycanın ən qədim şəhərlərindən biridir. Bu şəhər haqqında xalqımızın **deyimləri, əfsanələri var. Əfsanələrin birində deyilir ki, Dərbəndin yeddi qala darvazası olmuşdur. Bunlar – Bayır qapı, Carcı qapı, Orta qapı, Yengicə qapı, Daş qapı, Qala qapı və Quba qapılarıdır. Həmin qapılar şəhərin ayrı-ayrı küçələrinə açılırmış. Dərbənd qapılarına gələn elçilər yeraltı yolun biri ilə içəri gözübağlı aparılar, başqa bir qapıdan yola salınarmışlar.**

Bu günə kimi Dərbəndin salınma tarixi müəyyən edilməmişdir. Ehtimal olunur ki, Dərbəndin yerləşdiyi ərazidə e.ə.**VIII-VI əsrlərdə yaşayış məskəni** mövcud olmuşdur. Qədim dövrlərdə Albaniyanın **COLA** vilayəti ərazisində eyni adlı şəhər inşa olunmuşdur. Eramızın əvvəllərində həmin yaşayış məntəqəsi Albaniyanın (**Azərbaycanın**) iri yaşayış yerlərindən birinə çevrilmişdir. Böyük Qafqaz dağ silsiləsi ilə Xəzər dənizi arasında yerləşən, mühüm əhəmiyyətə malik olan "**Alban qapıları**" adlanan keçid də burada yerləşirdi.

**Tarixi məlumatlara görə iskiflər, alanlar, hunlar, xəzərlər və başqa tayfalar Cənubi Qafqaza və Ön Asiyaya** hücum edərkən həmin keçiddən istifadə etmişlər. Xarici hücumlardan qorumaq məqsədilə Dərbəndin ətrafına möhkəm divar çəkilmişdir. Həmin divarların daş kitabələrində həkk olunmuş yazılardan məlum olur ki, hələ o dövrdə Azərbaycanın ərazisi cənubdan şimala qədər **Adurbadaqan adlanırdı.**

Erkən orta əsrlərdə sahəsinə görə Dərbənd **Cənubi Qafqaz, Ön və Orta Asiyanın böyük şəhərlərini bütün sahələr üzrə geridə qoyurdu.** Şəhər hakiminin iqamətgahı və silahlı qüvvələr şəhərdə yerləşirdi. Dərbənd inzibati-siyasi və mədəni mərkəz idi. **"Kitabi-Dədə Qorqud" dastanında da Dərbəndin adı çəkilir. XVII əsrdə alman səyyahı Adam Oleari və yenə həmin əsrdə yaşayan türk səyyahı Evliya Çələbi öz əsərlərində Dərbənddən söhbət açaraq göstərirlər ki, Dədə Qorqudun məzarı burada yerləşir. Bu məlumat "DƏRBƏNDNA-**

**MƏ" əsərində də qeyd olunmuşdur.**

Erkən orta əsrlərdə Dərbənd Şimal Qafqazı və Şərqi Avropa ölkələrini Orta və Yaxın Şərq ölkələri ilə birləşdirən ən mühüm ticarət mərkəzi idi. Artıq **V əsrdə Dərbənd Sasani canişinlərinin iqamətgahına çevrilmişdir.** Sasani hökmdarlarının müqavimətinə baxmayaraq **türkdilli tayfaların cənuba doğru hücumlarının qarşısı alınmaz oldu.**

**626-627-ci illərdə xəzərlər Cəbə xaqanının başçılığı ilə Dərbənd qalasını tutaraq, qala divarlarını və bürclərini dağıtdılar. Ərəblər Dərbəndi ələ keçirdikdən sonra burada 24 min silahlı qüvvə yerləşdirdilər. Dərbənddə pul da kəsilirdi.** Xarici ölkələrlə iqtisadi əlaqə saxlanılırdı.

Dərbənd **Sacilər, Səlairlər və Şirvanşahlar dövlətlərinin tərkibində olmuşdur.** Sonrakı dövrlərdə Dərbənd yenə də müharibə meydanına çevrildi.

**Əslən Dərbəndli olan I İbrahim 1382-ci ildə Şirvanda hakimiyyətə gəldikdən sonra** Dərbənd **Şirvanın ən mühüm siyasi və iqtisadi şəhərlərindən birinə çevrildi. 1509-cu ildə I Şah İsmaylı Dərbəndi tutaraq, İraqda yaşayan bayatlar tayfasının bir hissəsini buraya köçürdü.** Səfəvilər dövründə şəhərin müdafiəsi **Əfşar və ustaclı tayfalarına həvalə olunmuşdur.**

**XVIII əsrin ikinci yarısından başlayaraq Rusiyanın siyasi-iqtisadi cəhətdən inkişafı, onun işğalçılıq planlarını sürətləndirdi. 1722-ci il avqust ayının 23-də I Pyotr başda olmaqla rus qoşunları Dərbəndi tutdu.**

**1723-cü il sentyabr ayının 12-də Rusiya-İran, 1724-cü il iyun ayının 12-də Rusiya-Osmanlı Türkiyəsi arasında bağlanan müqavilələrə əsasən Dərbənd Rusiyaya birləşdirildi.**

**1735-ci il mart ayının 10-da İranla-Rusiya imperiyası arasında imzalanan Gəncə müqaviləsinə əsasən Dərbənd yenidən Səfəvilər dövlətinə qaytarıldı.**

**1747-ci ildə mərkəzi Dərbənd olmaqla Məhəmmədhüseyn xan Dərbənd** xanlığını yaratdı. Xanlıq **Quba xanlığı ilə həmsərhəd idi.** Bundan istifadə edən Quba xanı **Fətəli xan**

**1759-cu ildə Dərbənd xanlığını Quba xanlığı ilə birləşdirdi.**

**1796-cı ildə general V.A.Zubov başda olmaqla 30 min nəfərlik rus ordusu Azərbaycan ərazisinə çıxarıldı. Həmin ilin may ayının 2-də ruslar Dərbəndi tutdu. Lakin 1797-ci ildə rus qoşunları Azərbaycan ərazisindən çıxarıldı.**

**1806-cı il iyun ayının 22-də rus qoşunları Dərbəndi yenidən işğal etdilər.**

Rusiya imperiyası **1830-cu ildə Bakı və Quba əyalətlərini əhatə edən və mərkəzi Dərbənddə yerləşən Dağıstan hərbi dairəsi təşkil etdi. 1840-cı ildə Xəzər vilayəti tərkibinə keçən Dərbənd, Tabasaran və Qaraqaytaq əyalətlərini birləşdirən Dərbənd qəzası yaradıldı. 1846-cı il inzibati islahat nəticəsində Dərbənd quberniyası təşkil olundu. Lakin, 1860-cı ildə Dərbənd quberniyası ləğv edildi.**

**1920-ci il mart ayının 25-də Rusiyanın XI ordusu Dərbəndi işğal etdi. 1921-ci ildə Dərbənd Dağıstanın tərkibinə daxil edildi.** Beləliklə, Dərbənd Azərbaycandan ayrı düşdü.

Dərbəndin qara günləri başlandı. Azərbaycan məktəbləri bağlandı. Minlərlə soydaşlarımız şəhəri tərk etmək məcburiyyətində qaldı. Bu iş yenə də djavam etməkdədir.

Dərbəndi, qədim şəhərimizi qələmə alarkən əfsanələrlə başlmışdım və əfsanə ilə də qurtarmaq istərdim.

Əfsanənin məzmunu belədir:

Bir xan qoşunla Dərbəndə hücum edir. Dərbəndlilərə bir nəfər azərbaycanlı qadın başçılıq edirmiş. Həmin qadın xana belə deyir:

Dərbənd üstü barıdı,
Əlçatmaz, yuxarıdı.
Düşmən gəlsə basılar,
Tək deyil arxalıdır.

Bu sözlərdən sonra xan öz niyyətindən əl çəkir…

**ŞƏRUR-DƏRƏLƏYƏZ.** Dərələyəz ən qədim dövrlərdən **Naxçıvan mahalının** mədəniyyət mərkəzlərindən biridir. Onun ərazisi **2304 kv.km-dir.** Burada olan maddi-mədəniyyət abidə-

ləri sübut edir ki, Dərələyəzin əhalisi türkdilli tayfalar olmuşdur. Diyarda xristianlığa aid heç bir əlamət yoxdur.

Dərələyəz **1747-ci ildə yaranmış Naxçıvan xanlığının 14 nahiyyəsindən biri idi – 1747-ci ildə Nadir şahın öldürülməsindən istifadə edən Kəngərli tayfasının başçısı Heydərqulu xan yerli feodalların köməyi ilə şahın naibi Ağahəsəni Naxçıvandan qovaraq xan elan olunmuşdur.** Ərazi bölgüsünə görə Dərələyəz **üç** hissəyə ayrılırdı. Bunlar, **Şərqi Dərələyəz, Qərbi Dərələyəz və Dərələyəzin özü idi.** Mahalda **102 kənd yaşayış məskəni var idi.**

**1828-ci il fevral ayının 10-da Rusiya imperiyası ilə qacarlar arasında imzalanan Türkmənçay sülh müqaviləsindən sonra Qacarlar məmləkətindən** qovulan ermənilərin bir hissəsi Naxçıvan xanlığında yerləşdirildilər. Daha sonra, **1829-cu il sentyabr ayının 2-də Osmanlı Türkiyəsi ilə Rusiya tərəfindən imzalanan Ədirnə sülşünün şərtlərinə görə Türkiyədən qovulan erməni ünsürlərinin bir qismi də Naxçıvana gətirilib məskunlaşdırıldılar.**

Rusiya imperiyası tərəfindən **1870-ci ildə** yaradılmış və əhalisinin böyük əksəriyyətini **azərbaycanlılar təşkil edən Şərur-Dərələyəz və Naxçıvan qəzaları Irəvan quberniyasının tərkibinə verildi.** Rusiya zorla, süni surətdə erməni ünsürlərinə torpaq paylayırdı.

**1897-ci il məlumatına görə Şərur-Dərələyəz qəzasının ərazisi 2972,3 kv.km, əhalisi isə 76551 nəfər idi. Əhalinin 70 faizdən çoxunu azərbaycanlılar, qalan hissəsini azsaylı xalqlar təşkil edirdi.**

Sovet hakimiyyəti illərində torpaqlarımız kütləvi surətdə bölüşdürüldü. Ermənilərə **Günəş altında sanki yer axtarılırdı... Əsas hədəf əvvəllərdə olduğu kimi yenə də Şimali Azərbaycan torpaqları idi.**

**1929-cu il fevral ayının 18-də Zaqafqaziya Mərkəzi İcraiyyə Komitəsi (MİK) Sovet hökumətinin göstərişi ilə, heç bir əsas olmadan, qədim ərazimiz olan Şərur-Dərələyəz qəzasını Azərbaycandan alıb erməni ünsürlərinə verilməsi haqqında qara ləkəli ədalətsiz qərar qəbul etdi...**

Bütün **XX əsr** boyu azərbaycanlıları erməni faşist ünsürləri Şərur-Dərələyəz torpaqlarından tamamilə, vəhşicəsinə **deportasiya** etmişlər.

GÖYÇƏ Ermənistan deyilən ərazidə, **Göyçə (qondarma Sevan gölü) gölünün şimal və şimal-şərq ərazisində yerləşən Göyçə** azərbaycan türklərinin qədim dövrləridən yaşadıqları ərazidir. Göyçə mahalı **maldarlıq, əkinçilik, bağçılıq, balıqçılıq və digər kənd təsərrüfatı məhsulları üçün əlverişli şəraitə malikdir.**

**Göyçə mahalında toxunan xalçalar dünya da məşhurdur.**

**Xanlıqlar dövründə Göyçə mahalı İrəvan xanlığının tərkib hissəsi idi. Rusiya-İran müharibələri Göyçə mahalına da ağır təsir göstərmişdir... 1849-cu ildə İrəvan quberniyasının tərkibinə daxil edilmişdir.**

**Göyçə Aşıq Alının, Aşıq Ələsgərin, Aşıq Həsənin, Aşıq Məhərrəmin, Aşıq İmranın doğma** vətən ocağıdır. Azərbaycan torpağıdır.

**İRƏVAN. (RƏVAN, 1956-cı ildən etibarən Erivan adlanır). İRƏVAN** orta əsrlərdən **1918-ci il may ayının 29-na kimi Azərbaycan şəhəri olmuşdur.**

Qədim Azərbaycan şəhəri olan İrəvan **XVI əsrin əvvəllərində ZƏNGİ** çayı sahilində uca dağlarla əhatə olunmuş düzənlikdə inşa edilmişdir. Türk tarixçi səyyahı **Evliya Çələbi yazırdı:**

**"Hicri 810-cu ildə (1407-1408) Əmir Teymurun sevimli əmirlərindən biri, tacir Xoca xan Ləhicanlı RƏVAN torpağına qədəm qoyduqda çox münbit məhsuldar torpaq görür. Öz ailə üzvləri ilə burada sakin olur. Gündən-günə düyü əkini hesabına varlanaraq bu böyük kəndin əsasını qoyur. Sonra hicri 915-ci ildə (1509-1510) Şah İsmayıl (1501-1524-cü illərdə Azərbaycan Səfəvilər dövlətinin şahı olmuşdur) burada qala salınması haqqında vəziri RƏVANQULU xana göstəriş verir. O da 7 il ərzində böyük zəhmət hesabına burada qala inşa etdirərək adını RƏVAN qoyur. Zəngi çayının şərq sahilində yerləşən, daş və kərpicdən ti-**

**kilmiş möhkəm, gözəl bir qaladır, amma hasarı yoxdur".**

Akademik **V.V.Bartold da İrəvanın kənd kimi Əmir Teymurun dövründə (XIV əsrin sonunda) meydana gəldiyini, XVI əsrdə Şah İsmayıl Xətainin hakimiyyəti dövründə şəhərə çevrildiyini və elə o vaxtdan RƏVAN adını daşıdığını təsdiq edir.**

Qədim Azərbaycan şəhəri olan İrəvanın tarixinin öyrənilməsi sübut edir ki, **XIX əsrin I yarısında** şəhərin mərkəzi hissəsində **dördkünc bazar, üç karvansaray, irili-xırdalı 138 dükan, 8 məscid fəaliyyət göstərirdi. Şəhərdə yüzlərlə gözəl yaşayış və inzibati binalar var idi.**

İrəvan şəhərinin **üç darvazası – Təbriz, Şirvan və Körpü darvazaları var idi.** Ümumiyyətlə, **1912-ci ildə** Qərbi Azərbaycan ərazisində əldə olan məlumatlara görə **110 məscid olmuşdur.** Hər bir məscidin nəzdində **mədrəsə var idi.**

**Hüseynəli xan** məscidinin nəzdində olan mədrəsədə **200 şagird təhsil alırdı. İrəvan xanlığı 1827-ci ildə Rusiya tərəfindən işğal edildikdən sonra da İrəvan şəhərinin əhalisinin böyük əksəriyyətini Azərbaycan türkləri təşkil edirdi. İşğal** ərəfəsində şəhərdə **5 min nəfər əhali yaşayırdı. 1828-ci ilə kimi, yəni 438 il ərzində** İrəvan şəhərini azərbaycanlı hakimlər idarə etmişlər. Xanlıq dövründə də bütün xanlar azərbaycanlı idi. Şəhər Səfəvilərlə Osmanlılar arasında müharibə meydanına çevrilmişdir. **I Şah Abbas 1604-cü il iyun ayının 8-də İrəvan şəhərini osmanlılardan azad etdikdən sonra şəhər əhalisinin bir hissəsini İrana köçürmüşdür.**

**1747-ci ildə İrəvan xanlığı yaranandan sonra İrəvan şəhəri xanlığın mərkəzi olmuşdur.** Rusiya tərəfindən işğal olunan İrəvan şəhərinin qara günləri başladı. Yadelli erməni ünsürlərinin xanlığın ərazisinə gətirilib yerləşdirilməsi, Qərbi Azərbaycan əhalisinin say tərkibinə mənfi təsir göstərdi. **Qacarlar məmləkətindən və Türkiyədən qovulan erməni ünsürlərinin bir qismi İrəvan xanlığının ərazisinə yerləşdirildi.** Şəhər erməni vilayətinin, İrəvan quberniyasının mərkəzlərinə çevrildi. Erməni ünsürləri İrəvan şəhərində nə qədər çox yerləşdirilmələrinə baxmayaraq, azərbaycanlılarar yenə də

əhalinin əksəriyyətini təşkil edirdilər.

Erməni tarixçisi Zaven Korkodyan **1932-ci ildə yazdığı "Sovet Ermənistanının əhalisi 1831-1931-ci illərdə" adlı elmi əsərində göstərir:**

**"1883-cü ildə İrəvan şəhərinin 18.766 nəfər əhalisinin 15.992 nəfəri, 1886-cı ildə isə 27.246 nəfərindən 23.626 nəfəri, yəni 85,2 faizi azərbaycanlı olmuşdur."**

Buradan aydın olur ki, erməninin özü də İrəvan şəhərinin **Azərbaycan şəhəri olduğunu təsdiq edirlər.**

Tarixi mənbələrdə göstərilir ki, bütün maniələrə baxmayaraq **1916-cı ildə** İrəvan qəzasında **74200 nəfər əhalinin 50 faizə qədəri azərbaycanlılar idi.**

**Azərbaycan Xalq Cümhuriyyəti dövründə hər iki xalq arasında sülh yaratmaq məqsədilə, 1918-ci il may ayının 29-da qədim Azərbaycan şəhərini – İRƏVAN şəhərinin paytaxtı olmayan Ermənistan deyilən respublikaya verilmisi haqqında gərəksiz qərar qəbul olundu.**

Mənə belə gəlir ki, həmin qərarın əsl mahiyyəti araşdırılmalıdır...

**ZƏNGƏZUR.** Zəngəzur Azərbaycanın tarixi ərazisidir. Qədim dövrlərdə **Zəngəzur Atropatena və Alban (Azərbaycan) dövlətlərinin tərkibində olmuşdur.** Cənubi Qafqazda **Sasanilərə** qarşı **V-VI əsrlərdə** baş verən üsyanlar Zəngəzur mahalını da əhatə etmişdir.

**VII əsrin** birinci yarısında Albaniya dövlətinin tərkibində olan Zəngəzuru **Xəzər xanlığı işğal etdi. Babəkin başçılığı ilə Ərəb Xilafətinə qarşı baş verən** üsyan Zəngəzuru da əhatə etmişdir. Xilafət tərəfindən burada da **İslam dininin yayılması həyata keçirilmişdir. XI əsrdə Səlcuqlar** mahalı işğal etdi. Sonrakı dövrlərdə - **XII-XIII əsrlərdə** Azərbaycan **Atabəyləri, Hülakülər, XV-XVII əsrlərdə Qaraqoyunlu, Ağqoyunlu və Səfəvi dövlətlərinin tərkibində olmuşdur.**

Azərbaycanda xanlıqlar yaranan zaman Zəngəzur ayrı-ayrı vaxtlarda **İRƏVAN və QARABAĞ Xanlıqlarının tərkibində olmuşdur.**

**1828-ci il fevral ayının 10-da Rusiya ilə qacarlar ara-**

**sında imzalanan Türkmənçay sülh müqaviləsinin şərtlərinə görə** Zəngəzur mahalı da Rusiya imperiyası tərkibinə daxil oldu. **1829-cu ildə Zəngəzur Qarabağ əyalətinin tərkibinə qatıldı.** Nəhayət, **1861-ci ildə** Rusiya tərəfindən Zəngəzur **qəzası yaradıldı.**

**1917-ci ilin martından 1918-ci ilin may ayına kimi** erməni daşnak ünsürlərinin azərbaycanlı və qismən də kürd əhalisinə qarşı **soyqırım törətdilər. On minlərlə azərbaycanlı həlak oldu, evlər, kəndlər dağıdıldı, xeyli soydaşlarımız doğma ata-baba yurdlarından didərgin düşdü.**

Cənubi Qafqazda **1918-ci il may ayının sonlarında üç müstəqil dövlətlər yaranandan sonra da** daşnak ünsürləri azərbaycanlılara qarşı soyqırımını dövlət səviyyəsində davam etdirmişlər.

**1918-ci ilin yayında və payızında daşnak** quldur dəstləri Zəngəzurda **115 kəndi dağıtmış və yandırmışlar. Azərbaycanlılara məxsus mal-dövləti, xırda və iribuynuzlu mal-qaranı qarət etmiş, 7729 nəfər azərbaycanlını amansızcasına qətlə yetirmişlər.**

Ermənistan SSR **1921-ci ildə** daha bir qərzanı ələ keçirə bildi. Sovet hakimiyyətinin fəal köməyi sayəsində **Azərbaycanın tarixi 8 qəzaları hesabına** quldur, müasir dövrün faşist dövləti, Ermənistan SSR təşkil edildi. Bu sonuncu 8-ci qəza **ZƏNGƏZUR idi.**

***

**1988-ci ilin** əvvəllərindən başlayaraq Ermənistan deyilən dövlətdən **250 mindən çox azərbaycanlıların deportasiyası həyata keçirildi.**

**DEPORTASİYA – azlıq təşkil edən millətin, xalqın və ya azlıq təşkil edən icmanın zorla, kütləvi surətdə, dövlət səviyyəsində öz ata-baba torpaqlarından köçürülməsi deməkdir.**

**1991-ci il avqust ayının 8-də Azərbaycanın qədim kəndi olan Nüvədidən azərbaycanlıların çıxarılması nəticəsində,** Ermənistan deyilən ərazidən azərbaycanlıların etnik təmizlənməsi başa çatdı.

**1918-ci ildə daşnak ünsürlərinin** əlində olan Ermənistanın cəmi **9 kv.km ərazisi var idi.** Sovet hakimiyyəti illərində bu ərazi **29,8 min kv.km çatdırıldı.** Göründüyü kimi **20,8 min kv.km** ərazimiz zorla alınaraq erməni ünsürlərinə verilib. Bu həmin torpaqlardır ki, yuxarıda onlar haqqında qısa da olsa söhbət açdıq. Əsas vəzifə itirilmiş torpaqları geri qaytarmaqdan ibarətdir...

**Siyasi, iqtisadi cəhətdən sürətlə inkişaf edən, hərtərəfli hərbi texnika ilə silahlanan Azərbaycan Milli Ordusu buna hazırdır. Bu işıqlı gün uzaqda deyil.**

**Azərbaycan Milli Bayrağı tezliklə Qarabağın hər yerində dalğalanacaqdır.**

**MATERİAL HAZIRLANARKƏN 2007-Cİ İLDƏ AZƏRBAYCAN MİLLİ ENSİKLOPEDİYASI “ELMİ MƏRKƏZİ” TƏRƏFİNDƏN NƏŞR EDİLƏN AZƏRBAYCAN MİLLİ ENSİKLOPEDİYASININ 305, 306, 307, 308-Cİ SƏHİFƏLƏRİNDƏKİ MƏLUMATLARDAN, AZƏRBAYCAN SOVET VƏ COĞRAFİYA ENSİKOPEDİYALARINDAKI MATERİALLARDAN İSTİFADƏ EDİLMİŞDİR.**

# ŞANLI MİLLİ AZƏRBAYCAN ORDUSU İŞĞAL ALTINDA OLAN TORPAQLARIMIZIN BİR FAİZİNİ AZAD ETDİ

## ERMƏNİ PREZİDENTİ S.SƏRKİSYANIN QULAĞI KƏSİLDİ

**Əsrin dövrddə biri qədər torpaqlarımızın 20 faizini işğal altında saxlayan erməni quldurları mövcud danışıqların, xüsusilə Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurasının 30 aprel 1993-cü il 822, 29 iyul 1993-cü il 853, 14 oktyabr 1993-cü il 874 və 12 noyabr 1993-cü il tarixli 884 saylı qətnamələrinin qərarlarına məhəl qoymayaraq işğal etdikləri torpaqları azad etməkdən müxtəlif bəhanələrlə boyun qaçırırlar.**

Təmas xəttində dəfələrlə təxribat törədən erməni quldurları və onların rəhbərləri, xüsusilə də simasını itirmiş, oyuncaq Ermənistan prezidenti hesab edilən S.Sərkisyan belə hesab edirdi ki, onlar törətdikləri hərbi cinayətlərinə görə cəzasız qalacaqlar. Mən erməni prezidentinin adını çəkməyi özümə rəva bilmədiyim üçün, sadəcə olaraq bu qulduru **«erməni prezidenti» kimi** qeyd edəcəyəm.

**2016-cı il aprel ayının 2-si fəxr etdiyimiz, güvəndiyimiz, Azərbaycan MİLLİ ORDUSUNUN zəfər yürüşü günüdür. Ordumuz nəyə qadir olduğunu əzəmətli zərbələri ilə düşmənə tarixi dərs verdi. Hərbi gücünü parlaq surətdə düşmənə göstərdi.** Erməni quldarlarının yol göstərici rolunu öz üzərinə götürən erməni prezidentinin murdar qulağı kəsilib lağıma tullandı.

**Son vaxtlar erməni işğalçı qoşunları təmas xəttində dəfələrlə hərbi təxribatlara əl atmış, hər dəfə də şanlı Milli Ordumuz tərəfindən məhv edilərək geri oturulmuş-**

**dur. İyirmi ildən artıqdır ki, erməni dövləti havadarlarının fəal köməyi və yardımı ilə Azərbaycana qarşı elan olunmamış müharibə aparır. Müqəddəs torpaqlarımızın 20 faizini işğal etməklə erməni quldurları, 1 milyondan artıq soydaşlarımız doğma el-obasından, ev-eşiyindən didərgin düşmüş və qaçqın həyatı keçirməyə məcbur olmuşlar. Xalqımız bu hadisəni yağı düşmənə tarix boyu bağışlamayacaq.**

Ermənistanın siyasi rəhbərliyi süquta uğrayan nüfuzlarını **«bərpa»** etmək üçün **2016-cı il aprelin 2-də** təmas xəttində vəziyyəti gərginləşdirməyə və dinc əhalini pulemyotlardan, iri çarxlı silahlardan və toplardan atəşə tutmağa başlayan erməni quldurları ordumuz tərəfindən layiqincə cəzalandırıldılar.

**1994-cü il atəşkəs rejimindən sonra ermənilərə ən ağır və öldürücü zərbə vuruldu. Erməni quldur ordusunun günəşi söndü. Onların bel sütunu isə qarşıdakı döyüşlərdə sındırılacaqdır. Çox qısa müddət ərzində rəşadətli Azərbaycan Milli Ordusu müvəqqəti olaraq işğal edilmiş torpaqlarımızın bir faizini düşməndən azad etməsi onun gücünü bir daha nümayiş etdirdi.**

Azad edilmiş ərazilər olduqca əhəmiyyətlidir. Bu çoxdan gözlənilirdi. Xaltaya və zəncirə yatmayan ermənilərə **aprel ayının 2-də vurduğumuz ölümcül zərbə qələbəmizin əsas mənbəyidir. Ermənilər bundan nə qədər gec deyil ibrət dərsi almalıdırlar.**

**2016-cı il aprel ayının 2-də Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan, çox hörmətli, xalqımızın, dövlətimizin, vətənimizin fəxri olan CƏNAB İLHAM ƏLİYEV Azərbaycan Prezidenti yanında Təhlükəsizlik Şurasının iclasında demişdir:**

**«Ermənistan işğal edilmiş torpaqlardan çəkilmək istəmir və bütün səyləri ona yönəldib ki, status-kvonu maksimum saxlaya bilsin. Bu sözlərin kifayət qədər çox sübut-**

**ları var. Danışıqlar prosesi iyirmi ildən artıqdır ki, aparılır. Bu iyirmi il ərzində həlledici məqamlarda Ermənistan həmişə təxribatlara əl atırdı. Təmas xəttində Ermənistan tərəfindən daim gərginlik yaradılır. Eyni zamanda keçən əsrin sonlarında Ermənistan parlamentində terror aktının törədilməsi də məhz bu məqsədi güdürdü ki, münaqişə ilə bağlı mümkün olan razılaşmanı əngəlləsinlər və beləliklə, status-kvonu saxlaya bilsinlər».**

**XX əsrin** sonlarında Ermənistan deyilən ölkədə baş verən dövlət çevrilişi, **2014-cü ildən** başlayaraq erməni silahlı quldur ordusu tərəfindən cəbhə xəttində vəziyyətin getdikcə gərginləşdirilməsi və digər təxribatlar erməniləri ağır cəzalandırmağı tələb edirdi. Azərbaycan yenə də hadisələrə səbr və təkminliklə yanaşırdı. **ATƏT-in Minsk** qrupunun üzvləri də artıq dərk edirdilər ki, **Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli vaxtı artıq yetişib. Bu ideya onlarda 2015-ci ildən formalaşmışdır. Bu yaxınlarda** erməni prezidentinin **MOSKVAYA** görüşə gedərkən orada da ona **KREML** liderləri də bu erməni ünsürünə bildirmişdilər ki, münaqişənin həll olunma vaxtı çatmışdır və bu olduqca zəruridir. Minsk qrupunun həmsədrləri erməni ünsürlərinə açıq surətdə bildirmişdilər ki, **status-kvonu daha saxlamaq mümkün deyil. Lakin ermənilər bundan nəticə çıxarmadılar.**

Erməni quldurları **qeyri-konstruktiv mövqe** tutmaqla **beynəlxalq hüquq normalarını və beynəlxalq ictimaiyyətin rəylərini nəzərə almayaraq murdar əməllərini davam etdirirlər.** Onların bu hərəkət və davranışlarına baxmayaraq **Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev öz prinsipial mövqeyini qətiyyətlə davam etdirir.**

**Cənab Prezidentimiz İlham Əliyev dəfələrlə demişdir ki:**

**«Azərbaycanın prinsipial mövqeyi var. Bizim ərazi bütövlüyümüz danışıqlar mövzusu ola bilməz. Bu müna-**

**qişə ölkəmizin ərazi bütövlüyü çərçivəsində öz həllini tapmalıdır. Bunun başqa yolu yoxdur və ola da bilməz. O ki qaldı Dağlıq Qarabağda yaşayan erməni əhalisinə, onlar gələcəkdə Azərbaycan vətəndaşları kimi Azərbaycanda yaşaya bilərlər. Azərbaycan çoxmillətli, çox konfessiyalı ölkədir. Azərbaycan bu sahədə bir çox ölkələr üçün nümunədir, multikulturalizmin məkanıdır, tolerantlıq diyarıdır. Azərbaycan bütün beynəlxalq danışıqlarda təsiredici mövqe qazanmaqla işğalçı Ermənistanı çıxılmaz vəziyyətə saldı». Daha doğrusu onu baykot etməklə siyasi aləmdə simasız vəziyyətdə qoymağa nail oldu. Onun işğalçı, qarətçi olduğunu sübut etdi.**

**Azərbaycan işğal altında olan tarixi torpaqlarını tezliklə azad edəcəkdir.** Buna şübhə yoxdur. Yağı düşmən bunu yaxşı başa düşür. Azərbaycan olduqca güclü orduya, təkmilləşmiş hərbi gücə, inkişaf etmiş müdafiə sisteminə malikdir. Bu isə hər şey **– ölkənin və əhalimizin etibarlı təhlükəsizliyi deməkdir.**

**Düşmən, məlum olduğu kimi Tərtər rayonu** istiqamətindən mülki əhaliyə qarşı daha amansız mövqe nümayiş etdirirdi. **Aprelin 2-dən 4-ə kimi** erməni quldur ordusu tərəfindən **Tərtər** rayonunun yaşayış məntəqələrini atəşə tutmaqla **şəhərdə 10, Qapanlı kəndində 42, Yuxarı Qaradağlı kəndində 35, Qaraağacı kəndində 17, Seydimli kəndində 1, Şıarx kəndində 35, Azad Qaraqoyunlu kəndində 5, Dəmirçilər kəndində 2, Çaylı kəndində 8 evə, ümumilikdə cəmi 155 yaşayış evinə ziyan vurmuşlar. Onlardan 16 ev tamamilə dağıdılıb.**

Düşmənin bu cür yaramaz hərəkətlərinə son qoymaq üçün **şanlı ordumuz** mülki əhalinin təhlükəsizliyinin təmin etmək, düşmənə öz gücünü göstərmək məqsədilə hərbi əməliyyatı genişləndirməyə məcbur oldu. Bir neçə saat ərzində Silahlı Qüvvələrimiz düşmən tərəfindən müvəqqəti işğal edilən **strateji əhəmiyyətə malik bir neçə yüksəklik və yaşa-**

**yış məntəqələrini düşməndən tamamilə azad etdi. Dəqiq atəş nəticəsində düşmənin yüzlərlə əsgər və zabitini, hərbi qərargah sistemini və xeyli hərbi texnikası məhv edildi. Düşmənin qəddi büküldü.**

**Cənab Prezidentimiz və Ali Baş Komandan İLHAM ƏLİYEVİN dediyi kimi:**

**«2016-cı il aprelin 2-si Azərbaycan Ordusunun tarixində parlaq qələbə günü kimi qalacaqdır». Eşq olsun Azərbaycan Ordusuna.**

Azğın düşmənə vurulan tutarlı zərbələr Goranboy, Tərtər rayonlarına və eyni zamanda da Naftalan şəhərinə təhlükə törədən ən mühüm yüksəkliklərin ordumuz tərəfindən azad edilməsi ilə nəticələndi. Bu yüksəkliklərdə yuva salan düşmən buradan Talış və Tapqaraqoyunlu kəndlərini müntəzəm olaraq atəşə tuturdu.

Ağdam-Tərtər-Ağdam və Xocavənd–Füzuli istiqamətlərində qəddar düşmənə vurulan ölümcül zərbələr bütün xalqımızın ruh yüksəkliyinə, şanlı qələbəmizin çox yaxın vaxtlarda əldə edilməsinə inamı daha da möhkəmləndirmişdir. **Azərbaycan Silahlı Qüvvələri** düşmənin bu istiqamətdə 6 tankını, 15 artileriya qurğusunu və möhkəmləndirilmiş «MANNERHEYM» xəttini tamamilə sıradan çıxardı. Düşmən sarsıldı.

Biz çox yaxşı bilirik ki, Azərbaycanın qədim ərazisi olan Yuxarı Qarabağda vuruşan erməni ordusudur. Onlar yad torpaqda hərbi əməliyyatlar aparırlar. Azərbaycan Ordusu isə öz müqəddəs torpaqları uğrunda vuruşurlar. Erməni əsgəri ölmək istəmirsə, **rədd olub Azərbaycan torpağından getsin.**

**Qarabağda qısa müddət ərzində əldə etdiyimiz qələbələr xalqımızın dövlətimizə, rəşadətli Azərbaycan Silahlı Qüvvələrinə inamını daha da artırmışdır. Torpaq müqəddəsdir. Onu heç kimə, hətta dosta da vermək olmaz.**

Bütün Azərbaycan xalqı kimi, **Qarabağlılar, o cümlədən də şuşalılar, qazanılmış parlaq qələbə münasibətilə Prezidentimiz, Ali Baş Komandan Cənab İlham Əliyevi,**

**Ordumuzu səmimi qəlbdən təbrik edirik. Bu qələbə xalqımızla dövlətimizin sıx birliyinin bəhrəsidir. Xalqımızın çox hörmətli lideri, cənab İlham Əliyevin ətrafında möhtəşəm birliyinin nəticəsidir. Bu birlik bizi Şuşaya, Ağdama, Füzuliyə, Qubadlıya, Zəngilana, Laçına, Xankəndinə, Xocalıya, Əsgərana, Xocavəndə, Kəlbəcərə, Ağdərəyə, Cəbrayıla inamla aparır.**

Ordumuzun qarşısında duran əsas vəzifə düşməni bir nəfər kimi vurub torpaqlarımızdan çıxarmaqdır. Biz çox yaxşı bilirik ki, Azərbaycan **Silahlı Qüvvələri buna tamamilə qadirdir.** Onu da bilirik ki, Qarabağ məsələsini ordumuz **5-6 saata, bütün Ermənistanı tarmar etmək işini isə 5-6 günə həll etmək gücünə malikdir**. Bunu düşmənlərimiz də hiss edirlər. Erməni ünsürləri onu da bilirlər ki, nəinki Qarabağın Yuxarı ərazisi və eyni zamanda da yuva saldıqları, indi Ermənistan adlanan ərazi də Azərbaycanın qədim ərazisidir. **Qərbi Azərbaycan torpaqlarıdır. İrəvan xanlığının ərazisidir, İrəvan qədim Azərbaycan şəhəridir, İrəvan xanlığının mərkəzidir.**

Erməni ünsürləri bu əraziyə gətirilib yerləşdirilmişlər. Onlar arzuolunmaz ünsürlərdir. Azərbaycan torpaqlarında ermənilərin yaşaması böyük günahdır. Müqəddəs, təmiz, bir sözlə **KƏRBALA torpağı kimi** müqəddəs olan torpaqlarımızda erməni ünsürlərinin əli xalqımızın qanına bulaşıb.

Mən şuşalı kimi fəxr edirəm ki, **Azərbaycan Ordusu** erməni quldurlarına ağır və ölümcül zərbələr vurmuşlar. Qələbənin **yaşıl işıqları yanmaqdadır.** Torpaqlarımız tezliklə azad ediləcək. Erməni prezidentinin düşdüyü vəziyyət göz qarşısındadır. Hərəkəti, davranışı, danışığı, sifəti tamamilə dəyişib, daha doğrusu yaramaz vəziyyətə düşüb. Bu yaramaz xalqımıza qarşı törətdiyi qanlı cinayətlərinə, **XOCALIDA** törətdiyi **soyqırımına** görə cavab verməli olacaqdır. Buna şübhə yoxdur.

Haqq-ədalət bizim tərəfimizdədir. İşimiz haqq işidir.

Ona görə də biz qalib gələcəyik.

Mən sözümü **Prezidentimiz cənab İLHAM ƏLİYEVİN əzəmətlə** səslənən kəlamı ilə qurtarmaq istərdim:

**«Bundan sonra da düşmənin bütün təxribat hərəkətləri cavabsız qalmayacaq. Onlara layiqli cavab veriləcək. Azərbaycan Ordusu buna qadirdir. Azərbaycan övladları öz doğma torpaqlarını müdafiə edirlər. Vətən uğrunda vuruşurlar, şəhid olurlar. Bütün şəhidlərimizin xatirəsi bizim ürəyimizdə əbədi yaşayacaq».**

**Allah torpaqlarımızın azadlığı uğrunda döyüşlərdə canlarını qurban verən şəhidlərimizi rəhmət eləsin. AMİN!**

**Xocalı soyqırımının təşkilatçısı və Ermənistan xuntasının rəhbəri, cani S.Sarkisyan öz xalqı tərəfindən biabırcasına vəzifədən götürüldü... Bu belə də olmalı idi. Bu ünsür küçədən bir başa hakimiyyətə gələn yaramaz ünsürlə - N.Paşiyanla əvəz olunmuşdur. Onun hərəkətləri göz qabağındadır... Daha dəqiq desəm mənsub olduğu millətin simasını özündə əks etdirir...**

# AZƏRBAYCAN RESPUBLİKASININ ERMƏNİ FAŞİST ÜNSÜRLƏRİ TƏRƏFİNDƏN İŞĞAL EDİLMİŞ YURD YERLƏRİMİZİN QISA TƏHLİLİ

## ŞUŞA İNZİBATİ RAYONU

**ŞUŞA İNZİBATİ RAYONU may ayının 8-də erməni-rus birləşmiş qüvvələri tərəfindən işğal edilmişdir.**

Şuşa şəhərinin ərazisi **34 kv.km,** rayonun ərazisi isə **289 kv.km-dir**. **1840-cı ildən 1965-ci ilə kimi Şuşa rayonunun ərazisi 4911 kv.km olmuşdur.** Şuşa şəhəri dəniz səviyyəsindən **1500-1800 metr** yüksəklikdə yerləşir.

**2019-cu il yanvar ayının 1-ə olan məlumata əsasən Şuşa rayonunun əhalisi 34 min 120 nəfər olmuşdur. Əhalinin 24 min 794 nəfəri şəhər, 9 min 326 nəfəri kənd əhalisinin payına düşür.**

Inzibati rayon **Kiçik Qafqazda, Qarabağ dağ silsiləsinin** suayrıcısı boyu yerləşir. Rayonun mərkəzi **Şuşa** şəhəridir. Şəhərin əsası **1750-ci ilin avqust ayının sonunda və ya sentyabr ayının əvvəllərində CAVANŞIRLƏRIN** tayfa başçısı **PƏNAHƏLI xan tərəfindən qoyulmuşdur.**

Rayonda **1 şəhər, 1 şəhər tipli qəsəbə, 12 kənd ərazi dairəsi, 37 kənd yaşayış məntəqəsi vardır.**

**Şuşa ərazisi dağ üzərində yerləşir.** Şəhər **3 tərəfdən** hündür dağlarla əhatə olunmuşdur. Diqqətlə baxanda adama elə gəlir ki, Şuşa səmadan asılıdır. Dağ üzərində yerləşən şəhərdə orta istilik yanvar ayında **-4$^{0}$C-dən 1$^{0}$C-yə qədər, iyulda 16$^{0}$-19$^{0}$C arasında dəyişir. İl ərzində əraziyə orta hesabla 700-800 mm yağıntı düşür.** Rayonda əkinçilik, maldarlıq, tərəvəzçilik, bağçılıq, bostançılıq və quşçuluq təsərrüfatları inkişaf etdirilmişdir. Torpağın münbitliyi bol məhsul əldə etməyə geniş şərait yaradır. Rayonun zəngin fauna və florası vardır.

Şuşa Azərbaycanın **elm, mədəniyyət, incəsənət, ədəbiyyat mərkəzi olmuşdur. Memarlıq abidələri Şuşanın şöhrət tacı idi.** İşğala qədər **rayonda 250-dən çox tarixi abidə və muzeylər var idi. Şuşanın özündə 50-ə qədər tarixi abidə vardır.** Bütövlükdə götürdükdə Şuşa tarixi muzey idi.

Işğala qədər Şuşa rayonunda 7 məktəbəqədər uşaq tərbiyə müəsissəsi, 22 ümumtəhsil məktəbi var idi. Onlardan 1 ibtidai, 4 doqquzillik, 17 orta ümumtəhsil məktəbi idi. Bunlardan əlavə rayonda 2 musiqi məktəbi, 1 tibb məktəbi, 1 kənd təsərrüfatı texnikumu, 1 mədəni maarif texnikumu, 1 orta texniki peşə məktəbi, 6 mədəniyyət evi, 12 klub, 26 kitabxana, 22 kinoqurğu fəaliyyət göstərirdi.

**Şuşanın Qala divarları, bürcləri, məscid və müqəddəs dini ocaqları, dağ-daş arasında yerləşən İbrahimxəlil xanın istirahət düşərgəsi, xan sarayı, xan nəslinə mənsub olan imarətlər, yaşayış binaları** Şuşanın inciləri və şöhrəti idi.

**Şuşadan kənarda 300-dən artıq** tarixi memarlıq abidələri, yer adları vardı.

Erməni faşist ünsürləri Şuşanı işğal etdikdən sonra **yüzlərlə maddi-mədəni abidələri, məscid və müqəddəs ocaqları, bir sözlə nə vardısa hamısını məhv etmişdilər. Bu isə hərbi cinayətdir.** Şəhər ətrafında və rayonun kəndlərində yerləşən **qəbiristanlıqların dağıdılması** erməni ünsürlərinin quduzlaşmış xisilətinin bariz nümunəsidir.

Erməni faşistləri ilə ölüm-dirim mübarizəsində **195 nəfər soydaşımız şəhid olmuş, 165 nəfər yaralanmış, 58 nəfər əsir düşmüş və girov götürülmüşdü.**

**5 nəfər Azərbaycan Respublikası Milli Qəhrəmanı adına layiq görülmüşdür.**

Işğal nəticəsində erməni quldurları **17 sənaye və tikinti sahələrini, 103 mədəni-maarif müəssisələrimi və sairəni yerlə yeksan etmişlər.**

Erməni faşist ünsürləri Şuşa şəhərində əslində maddi-mədəni abidələrə qarşı vandalizm siyasəti həyata keçirmişlər. Bunun üçün onlar tezliklə dövlətimiz və xalqımız qarşısında cavab verəcəklər.

## XANKƏNDİ ŞƏHƏR ƏRAZİ DAİRƏSİ

**XANKƏNDİ ŞƏHƏR ƏRAZİ DAİRƏSİ** Qarqar çayının sahilində Qarabağ dağ silsiləsinin Şərq ətəklərində yerləşir. Şəhərin ərazisi **8 kv.km-dir.**

Xankəndi şəhər inzibati vahidinə daxildir. Qışı soyuq iqlim tipinə mənsubdur. Yayda havalar isti və nisbətən quraqlıq keçir.

Şəhərə il ərzində orta hesabla **536 mm yağıntı düşür.** Xankəndinin əsasını Qarabağ xanı Mehdiqulu xan qoymuşdur. Ona görə də Xankəndi adlanır. Sovet hakimiyyəti dövründə, yəni DQMV-i yaradılandan sonra, yaşayış məntəqəsinə daşnak S.Şaumyanın adı verilmişdir. **1923-cü il iyulun 7-dən 1991-ci il noyabr ayının 26-a** kimi həmin daşnakın adını daşıyan şəhərin adı bərpa olunaraq Xankəndi adlandırıldı.

Xankəndi şəhərinin ətrafında Dəmir dövrünə aid kurqan və orta əsrlərə məxsus küp qəbirlər müəyyən olunmuşdur. Bu tapıntılar o dövrün qədim türkdilli sakinlərinə məxsusdur.

Onu da deyim ki, **1923-cü il iyulun 7-dən şəhər daşnak quldurlarının yuvasına çevrilmişdir.**

## XOCALI İNZİBATİ RAYONU

Tarixi qaynaq və mənbələrdə **XOCALI** Azərbaycanın ən qədim yaşayış məntəqələrindən biri kimi qeyd olunur. Xocalı rayonu Kiçik Qafqazda Qarabağ dağ silsiləsinin şimal-şərq yamaclarında yerləşir. Rayonun ərazisi **936 kv.km-dir.**

**Xocalı rayonunda 1 şəhər, 1 qəsəbə, 17 kənd ərazi dairəsi, 50 kənd yaşayış məntəqəsi yerləşir. Mərkəzi Xocalı şəhəridir. Şəhər və kəndlərdə qış soyuq və quraqlıq, yay isə isti keçir.**

Rayonun torpaq qurşağı münbit və məhsuldardır. **Fauna və florası zəngindir. Əkinçilik və maldarlıq üçün əlve-**

**rişli şərait vardır. Qarqar və Badara çayları Xocalı rayonunun ərazisindən axır.**

**Xocalı rayonunun ərazisində 905-ci ilə aid Alban məbədi, 1356-1357-ci illərə aid dairəvi məbəd, XVIII əsrə aid Əsgərən qalası və divarlar, e.ə. XIII-VII əsrlərə aid mədəniyyət abidələri olan XOCALI-GƏDƏBƏY mədəniyyət nümunələri vardır. Bunlardan başqa rayonun ərazisində Azərbaycan - Alban dövlətinə məxsus olan kilsə (VIII əsr) və orta əsrlərdə inşa edilən Xocalı türbəsi (XVII əsr) son dövrlərə qədər qorunub saxlanılırdı.**

Ümumiyyətlə, Xocalının erməni faşistləri tərəfindən işğalına kimi rayonun ərazisində **28-dən çox** mədəni abidə var idi. **Bunların hamısı albanara və azərbaycanlı türklərinə məxsusdur.**

**1992-ci il fevral ayının 25-dən 26-na keçən gecə Ermənistanın quldur silahlı qüvvələri Xankəndində yerləşən keçmiş SSRI-nin 4-cü ordusunun 23-cü diviziyasına daxil olan 366-cı motoatıcı alayın 10 tankı, 16 zirehli transpartyoru (yerini tez-tez dəyişən hərbi qurğu), 9 piyadaların döyüş maşını, 180 nəfər hərbi mütəxəssisi və xüsusi canlı qüvvəsi ilə XOCALI şəhərini mühasirəyə aldılar. Erməni faşist ünsürləri müasir silahlarla şəhərə hücum edərək şəhəri yerləyeksan edib onu yandırdılar. Xocalı əhalisinə amansız divan tutdular.**

Bu vəhşi hadisədə Ermənistan deyilən qurumun «prezident»ləri **hərbi canı R.Köçəryan, S.Sərkisyan və digər erməni quldur ünsürləri fəal iştirak etmişlər.**

Ermənilər tərəfindən **XOCALI şəhərində soydaşlarımıza qarşı törədilən SOYQIRIMIN nəticəsi belədir:**

**613 nəfər həlak olmuşdur. Onlardan:**
**63 nəfər uşaq;**
**106 nəfər qadın;**
**70 nəfər qocalar;**
**8 ailə tamamilə məhv edilmişdir;**
**25 uşaq hər iki valideynini itirmişdir;**

**130 uşaq hər iki valideynindən birini itirmişdir;**
**487 nəfər yaralanmışdır, onlardan:**
**76 nəfər uşaqdır;**
**1275 nəfər əsir götürülmüşdür;**
**150 nəfər itgin düşmüşdür.**

**Ümumiyyətlə Xocalı soyqırımında həlak olanlar 1000 nəfərdən çoxdur.**

**10 nəfər Azərbaycan Respublikası Milli Qəhrəmanı adına layiq görülmüşdür.**

## XOCAVƏND İNZİBATİ RAYONU

**XOCAVƏND İNZİBATİ RAYONU 1991-ci il noyabr ayının 26-da Hadrut və Martuni rayonlarının birləşməsi nəticəsində yaradılmışdır.**

Inzibati rayon Kiçik Qafqazda Qarabağ dağ silsiləsinin cənub və cənab-şərq yamaclarında yerləşir. **Rayonun ərazisi 1458 kv.km-dir. Rayonda 1 şəhər, 2 qəsəbə, 38 kənd ərazi dairəsi, 81 kənd yaşayış məntəqəsi var.**

Xocavənd rayonu **1991-ci il fevral ayının 18-də erməni faşist ünsürləri tərəfindən işğal olunmuşdur.**

Qışı mülayim, yayı isti keçir. Illik yağıntının miqdarı **400-800 mm-dir. Torpaq örtüyü münbitdir. Rayonda əkinçilik, maldarlıq və digər sahələr inkişaf etmişdir.**

**Arxeoloji qazıntılar zamanı rayonun ərazisində qədim dövrlərə aid çoxlu maddi-mədəniyyət abidələri tapılmışdır. Xocavənd şəhərində XVII əsrə aid türbə də var.**

Erməni quldur ünsürləri Xocavənd şəhərini işğal edərkən dinc sakinlərə divan tutmuş, şəhər və kəndlərdə **mədəni-maarif müəssisələrini, qədim irsi yerlə-yeksan etmişlər.**

Erməni vəşhiləri Xocavənd rayonunda da yaşayış evlərini qarət etmiş və yandırmışlar.

## AĞDAM İNZİBATİ RAYONU

**AĞDAM İNZİBATİ RAYONU** Qarabağ dağ silsiləsinin şimal-şərq ətəkləri ilə Kür-Araz ovalığı arasında və qismən də Qarabağ düzündə yerləşir.

**Rayonun ərazisi 1150 kv.km təşkil edir. Rayonun mərkəzi AĞDAM şəhəridir.** Rayonda **1 şəhər, 14 qəsəbə, 34 kənd ərazi dairəsi, 123 kənd yaşayış məntəqəsi vardır.** Ağdam şəhəri erməni faşistləri tərəfindən işğal edilib dağıdılmışdır. Ona görə də rayonun mərkəzi müvəqqəti olaraq rayonun **QUZANLI kəndində yerləşir.**

Rayonun yer sətinin quruluşu əsas etibarilə düzənlikdir. Rayonun ərazisindən **Xaçın və Qarqar çayları axır.** Ərazidə tikinti üçün müxtəlif xammal ehtiyatları var. Iqlimi mülayimdir. Ən çox yağıntı dağətəyi sahələrə düşür. Rayonda əkinçilik, heyvandarlıq, pambıqçılıq, bağçılıq, tərəvəzçilik, üzümçülük və digər sahələr inkişaf etdirilmişdir. Işğala qədər Ağdam öz pambığı ilə də məşhur idi.

Rayonun ərazisində qədim dövrlərə aid çoxsaylı maddi-mədəniyyət abidələri var. Qarabağ xanlarının məzarları da Ağdamda **Imarət adlanan məkanda yerləşir...**

**1993-cü il iyul ayının 23-ə qədər, yəni işğal gününə kimi Ağdam rayonunda 34 uşaq bağçası və körpələr evi var idi. 89 ümumtəhsil məktəbi, o cümlədən 16 ibtidai, 36 doqquzillik və 37 orta məktəb fəaliyyət göstərirdi.**

Bunlardan başqa rayonda **4 fəhlə gənclər orta, 1 qiyabi orta, 2 kəndli gənclər orta, 3 texniki-peşə məktəbi, 71 kitabxana, 13 mədəniyyət evi, 27 klub, 24 kino qurğu, dram teatrı və ölkəşünaslıq muzeyi var idi.**

Erməni faşist quldurlarına qarşı aparılan qanlı mübarizədə **ağdamlılar 538 nəfər şəhid vermişdir. 587 nəfər isə müxtəlif dərəcədə əlil olmuşdur.**

**17 nəfər Azərbaycan Respublikası Milli Qəhrəmanı adına layiq görülmüşdü.**

Ağır döyüşlərdən sonra **1993-cü il iyul ayının 23-də**

**Ağdam rayonu havadarlarının köməyi ilə erməni ünsürləri tərəfindən işğal olundu.**

## CƏBRAYIL İNZİBATİ RAYONU

**CƏBRAYIL İNZİBATİ RAYONU** Qarabağ dağ silsiləsinin cənub ətəkləri ilə Araz çayı arasında yerləşir. Cənub ərazidə o Iran Islam Respublikası ilə həmsərhəddir.

**Rayonun ərazisi 1049,8 kv.km-dir. Mərkəzi Cəbrayıl şəhəridir. Rayonda 1 şəhər, 4 qəsəbə, 22 kənd ərazi dairəsi, 92 kənd yaşayış məntəqəsi var.**

**Cəbrayıl rayonu 1993-cü il avqust ayının 23-də erməni faşist ünsürləri tərəfindən işğal olunmuşdur.** Düşmənə qarşı aparılan döyüşlərdə **347 nəfər şəhid olmuş, 172 nəfər isə əlil olmuşdur.**

**4 nəfər Azərbaycan Respublikasının Milli Qəhrəmanı adına layiq görülmüşdür.**

Iqlimi mülayimdir, təsərrüfat üçün əlverişlidir. Meşələrdə müxtəlif heyvanlar yaşayır. Əkinçilik, maldarlıq, quşçuluq, baramaçılıq inkişaf etdirilmişdir. Rayonda üzüm emalı, çörək zavodu və xalçaçılıq emalatxanası var idi.

Rayonda **10 mədəniyyət evi, 49 klub, 28 kinoqurğu, 58 kitabxana fəaliyyət göstərirdi.** Işğala qədər rayonda **66 ümumtəhsil məktəbi mövcud idi. Onlardan 16 ibtidai, 25 doqquzillik, 25 orta məktəb idi.**

**Rayonun ərazisində qədim dövrlərə aid tarixi-memarlıq abidələri də var. Daş dövrünə aid Şıxlar mağarasını, XII əsrdə inşa olunmuş Qız qalasını, XI-XII əsrlərə məxsus Xudafərin körpüsünü, XIV əsr Şıxlar, XVII əsr Xubayarlı türbələrini, XIII-XIV əsrlərə aid Dağ Tuması mağarasını, Orta əsrlərə aid Ağoğlan qəbiristanlığını və XIX əsrdə inşa olunan Sultan Allahverdi hamamını misal göstərmək olar.**

**2016-cü ili naprel ayı Cəbrayıl rayonunun tarixində böyük əhəmiyyətə malikdir. Ümumiyyətlə, 2016-cı il 2-5**

**aprel günləri Azərbaycan tarixinə qızıl hərflərlə yazılmışdır.** Bu tarixi gündə **Şanlı Azərbaycan Milli Ordusu Cəbrayıl rayonunda ən mühüm əraziləri erməni faşist ünsürlərindən azad edərək onlara ağır zərbə vurdu. Beləliklə də erməni ünsürünün hərbi gücünün boş və əfsanə olduğu aşkar oldu.**

**Aprel döyüşlərində erməni ünsürlərinin bel sütunu sındırıldı və onların günəşi söndü. Milli Ordumuz döyüşlərin gedişinində erməni ünsürləri tərəfindən müvəqqəti olaraq işğal altında saxladıqları COCUQ MƏRCANLI kəndi tamamilə faşist erməni ünsürlərindən təmizləndi. Olduqca çox qısa müddətdə kənddə böyük quruculuq işləri həyata keçirildi.**

**Cocuq Mərcanlı da yaşayış binaları, məktəb, mədəni-maarif və səhiyyə müəssisələri tikilib istifadəyə verildi. Bu işi indi də sürətlə davam etdirilir.**

**Cocuq Mərcanlıda ŞUŞANIN Gövhər Ağa məscidinin tikilib istifadəyə verilməsi çox şeydən xəbər verir. Cocuq Mərcanlıda parlayan yaşıl işıq Şuşaya doğru uzanan yoldan xəbər verir. Bu isə o deməkdir ki, erməni ünsürləri tərəfindən müvəqqəti olaraq işğal olunmuş torpaqlarımız tezliklə azad olunacaq və hamımız öz ata-baba torpaqlarımıza qayıdacağıq.**

Erməni faşist ünsürləri yaxşı bilir ki, Azərbaycan torpağında onlara yer yoxdur.

## KƏLBƏCƏR İNZİBATİ RAYONU

**KƏLBƏCƏR İNZİBATİ RAYONU** Kiçik Qafqazın mərkəzi hissəsində yerləşir. **Ərazisi 1936 kv.km-dir. Mərkəzi Kəlbəcər şəhəridir. Rayonda 1 şəhər, 1 şəhər tipli qəsəbə, 53 kənd ərazi dairəsi 145 kənd yaşayış məntəqəsi var.**

**Kəlbəcər rayonunun səthi dağlıqdır. Ərazidə Mirovdağ, Şərqi Göyçə, Mıxtökən, Qarabağ dağ silsilələrinin və habelə Qarabağ yaylasının bir hissəsi yerləşir.**

**Rayonun iqlimi dağ-yaylaq iqlimidir. Qış soyuq, yay isə mülayim keçir. Kəlbəcər Azərbaycan Respublikasının ən qədim ərazisidir.**

**Kəlbəcər rayonu nadir faydalı qazıntılara malik olan yurd yerimizdir. Burada civə, qızıl, müxtəlif tərkibli metallar, mineral sular var. Kəlbəcər istisuyu böyük müalicə əhəmiyyətinə malikdir.**

**Rayonun ən böyük çayı Tərtər çayıdır. Bazarçay və Xaçınçay da rayonun ərazisindən axır.**

**Rayonun mərkəzi və şərq hissələrində enliyarpaqlı ağaclar – palıd, fıstıq, vələs var. Dağlarda və meşələrdə dağ keçisi, cüyür, qonur ayı, meşə donuzu, nadir quşlar yaşayır.**

Kəlbəcər əsasən kənd təsərrüfatı rayonudur. Təsərrüfatın başlıca sahələri heyvandarlıq və tütünçülükdür.

**Rayonda 2 məktəbəqədər tərbiyə müəssisə, 8 ibtidai, 43 doqquzillik, 26 orta məktəb, 9 mədəniyyət evi, 27 klub, 55 kitabxana, 17 kinoqurğu fəaliyyət göstərirdi.**

**Kəlbəcər rayonu qədim memarlıq abidələri ilə də zəngindir. İstisu ətrafında Tunc dövrünə aid yaşayış məskəni, Yayıcı (672-ci il), Çormanlı (X əsr), Çıldıran (XII əsr), Qozlu (Xatırvənk məbədi, 1204-cü il), Bazarkənd (1251-ci il), Həsənriz (1283-cü il) kəndlərində olan Alban məbədləri, 635-ci ilə aid Müqəddəs Yaqub kilsəsi, 1238-ci ilə aid Gəncəsər monastrı, 1668-ci ilə aid kilsə və XVII əsrə aid Uluxan qalası da Kəlbəcər ərazisindədir.**

**Kəlbəcər rayonu 1993-cü il aprel ayının 2-də faşist erməni quldur ünsürləri tərəfindən işğal olunmuşdur. Düşmənə qarşı döyüşlərdə 217 nəfər şəhid olmuş, 49 nəfər həlak olmuşdur.**

**2 nəfər Azərbaycan Respublikası Milli Qəhrəmanı adına layiq görülmüşdür.**

**Kəlbəcərdə 400-dən artıq insan üçün xüsusi əhəmiyyəti olan bulaq mənbələri var.**

## FÜZULİ İNZİBATİ RAYONU

**FÜZULI İNZİBATİ RAYONU** Qarabağ dağ silsiləsinin cənub-şərq ətəkləri ilə Araz çayı arasında yerləşir. Rayon cənubda Araz axarı boyu Iran Islam Respublikası ilə həmsərhəddir. Inzibati rayonun ərazisi **1390 kv.km-dir.**

**İnzibati rayonda 2 şəhər, 16 qəsəbə, 27 kənd ərazi dairəsi, 82 kənd yaşayış məntəqəsi var. Mərkəzi şəhəri Füzuli şəhəridir. Şəhər erməni faşist ünsürləri tərəfindən 1993-cü il avqust ayının 23-də işğal edildiyi üçün rayonun mərkəzi müvəqqəti olaraq Horadiz şəhərinə köçürülmüşdür.**

Füzuli rayonunun səthi Araz çayına tərəf alçalan maili düzənliklərdən ibarətdir və **Hərəmi** düzünə aiddir. Şimal-qərbdə ərazi Qarabağ dağ silsiləsinin cənub-şərq ətəkləri alçaq dağlıqdır. Rayonun şərq ərazisində isti quru, şimal-qərbdə isə quru mülayim hava şəraiti üstünlük təşkil edir.

**İllik orta yağıntının miqdarı 400-600 mm-dir. Rayonun torpağı münbütdür. Əkinçilik, maldarlıq, üzümçülük və digər kənd təsərrüfatı məhsulları üçün yaxşı şəraiti vardır.**

**Rayonda 22 bağça, 75 ümumtəhsil orta məktəb, 2 texniki peşə məktəbi, 69 kitabxana 20 mədəniyyət evi, 45 klub və 17 kinoqurğu fəaliyyət göstərirdi.**

**Füzuli rayonunun ərazisində Paleolit (qədim Daş dövrü) dövrünə aid tarixi memarlıq abidələri var. Azıx və Tağlar mağara yaşayış düşərgələri, Qarğabazarda 1684-cü ilə aid karvansaray, Aşağı Veysəlli kəndində XIV əsrə aid Mirəli türbəsi, şəhərdə Hacı Ələkbər məscidi və digər memarlıq abidələri var idi.**

Erməni faşist ünsürlərinə qarşı aparılan döyüşlərdə **Füzuli döyüşçülərindən 528 nəfər şəhid olmuş, 1309 nəfər döyüşçü və mülki əhali əlil olmuşdur.**

**Düşmənə qarşı aparılan döyüşlərdə əsgəri igidliyə görə 6 nəfər Azərbaycan Respublikası Milli Qəhrəmanı adına layiq görülmüşlər.**

## LAÇIN İNZİBATİ RAYONU

**LAÇIN İNZİBATİ RAYONU Azərbaycan Respublikasının cənub-qərbində, Kiçik Qafqaz sıra dağlarına məxsus olan Qarabağ dağ silsiləsinin suayrıcı ilə Qarabağ yaylası arasında yerləşir.**

**Rayonun ərazisi 1875 kv.km-dir. Mərkəzi Laçın şəharidir. Rayonda 1 şəhər, 1 şəhər tipli qəsəbə, 47 kənd ərazi dairəsi, 125 kənd yaşayış məntəqəsi var idi.**

Laçın rayonunun səthi dağlıq və dağlıq yayladır. **Dəlidağ, Qızılboğaz** dağları rayonun ən böyük dağlarıdır. Dağlarda **YURA-ANTROPOGEN** çöküntüləri geniş yayılmışdır.

**Civə, müxtəlif tərkibli metallar, tikinti materialları rayonun əsas faydalı qazıntılarıdır. Rayonun ərazisində mineral su mənbələri də var. Qış bir çox ərazidə quru və mülayim isti və soyuq keçir. Ərazidə illik yağıntının miqdarı 600-900 mm-dir. Həkəri çayı qolları ilə rayonun ərazisindən keçir. Torpaq məhsuldardır.**

**Rayonun bitgi örtüyü kollu və seyrək meşəli çəmənliklərdən, palıd, vələs, fıstıq və digər enliyarpaqlı ağaclardan ibarətdir.**

**Laçın rayonunun heyvanlar aləmini dağ keçisi, cüyür, meşə donuzu, sincab, süleysin və başqa vəhşi heyvanlar təşkil edir.**

**İqtisadiyyatın əsasını heyvandarlıq və əkinçilik təşkil edir.**

**İşğala qədər Laçın rayonunda 1 məktəbəqədər tərbiyə müəssisəsi, 17 ibtidai, 36 doqquzillik, 36 orta məktəb, 1 kənd peşə-texniki məktəb, 54 klub, 67 kitabxana, 34 kinoqurğu fəalyyət göstərirdi.**

**Rayonun Hocaz kəndində V əsrə aid mağara məbədi, Cicimli kəndində XIV əsrə aid Məlikəjdər türbəsi, Zeyvə kəndində XVII əsrə aid Kafir qalası, yenə orada XIX əsrə aid Sultan Baba türbəsi və Şeyx Əhməd türbələri, Hüsüllü kəndində XVIII əsrə aid Həmzə Sultan Sarayı, Həkə-**

**ri çayı üzərində XVIII əsrə aid körpü, Güləbird kəndində adsız türbə və digərləri memarlıq abidələrinin şanlı səhifələrini təşkil edirlər.**

**Laçın rayonu 1992-ci il may ayının 18-də faşist erməni silahlı qüvvələri tərəfindən işğal olunmuşdur.** Düşmənə qarşı aparılan silahlı mübarizədə **259 nəfər şəhid, 225 nəfər əlil olmuşdur.**

Düşmənə qarşı döyüşlərdə fərqləndiklərinə görə **6 nəfər Azərbaycan Respublikası Milli Qəhrəmanı adına layiq görülmüşlər.**

## QUBADLI İNZİBATİ RAYONU

**QUBADLI İNZİBATİ RAYONU Kiçik Qafqazın cənub-qərb ərazisində yerləşir.**

**Rayonun ərazisi 800 kv.km-dir. Ərazisi dağlığdır. Qarabağ yaylasının cənub-şərq kənarları olan Yazı düzü Bazar və Həkəri çayları arasında 450 metrə qədər alçalır. Qarabağ dağ silsiləsi cənubda maili İncə düzünə keçir.**

**Rayonun mərkəzi Qubadlı şəhəridir. Rayonda 1 şəhər, 30 kənd ərazi dairəsi və 94 kənd yaşayış məntəqəsi var.**

**Ərazidə qış quraq və əsasən mülayim, yay isə adətən isti keçir. İllik orta yağıntı 400-600 mm-dir.**

**Qubadlı rayonunda işığala qədər 1 məktəbəqədər tərbiyə müəssisəsi, 17 ibtidai, 31 doqquzillik , 15 orta ümumtəhsil və 1 texniki-peşə məktəbi fəaliyyət göstərirdi.**

Qubadlı əsasən kənd təsərrüfatı rayonudur. Əkinçilik, heyvandarlıq, taxılçılıq və tütünçülük sahəsində inkişaf etmişdir. Rayonun torpaq örtüyü dağ-meşə torpaq tipləridir. Meşələrdə **palıd, fıstıq, vələs ağacları bitir. Meşə və dağlarda canavar, tülkü, boz dovşan, süleysin, oxlu kirpi, kəklik, turac, qırqovul, göyərçin yaşayır.**

Qubadlı rayonunun ərazisindən **Həkəri və Bərgüşad çayları axır.**

**Qubadlı rayonunda 111 mədəni-maarif müəssisəsi, 60 kitabxana, 10 mədəniyyət evi, 28 klub, 6 səyyar klub, 23 kinoqurğu fəaliyyət göstərirdi.**

**Qubadlı rayonu 31 avqust 1992-ci ildə faşist erməni quldur ünsürləri tərəfindən işğal edilmişdir. Döyüşlərdə 232 nəfər şəhid olmuş, 146 nəfər isə müxtəlif dərəcələrdə əlil olmuşlar.**

**Rayonun ərazisində IV əsrə aid abidə və ibadətgah, V əsrə aid Göy qala, Xələc kəndində XV-XVI əsrlərə aid məscid, Gürcülü kəndində XVII əsrə aid türbə, Qubadlı şəhərində və Mirlər kəndində XVIII əsrə aid məscidlər, Mahmudlu kəndində Mədət bulağı, körpü və Bazar çayı üzərində 1867-ci ilə aid Laləzar körpüsü və başqa memarlıq abidələri vardır.**

## ZƏNGİLAN İNZİBATİ RAYONU

**ZƏNGİLAN İNZİBATİ RAYONU Araz çayının sol sahilində yerləşir. Ərazisi 707 kv. km-dir. Mərkəzi Zəngilan şəhəridir. Rayonda 1 şəhər, 5 qəsəbə, 20 kənd ərazi dairəsi, 79 kənd yaşayış məntəqəsi var.**

**Zəngilan rayonu 1993-cü il oktyabr ayının 29-da müasir dövrün əyani faşizmi olan erməni quldur ünsürləri tərəfindən işğal olunmuşdur.**

Rayonun səthi qərbdə dağlıq, şərq ərazidə isə düzənlikdir. Mülayim iqlim qurşağına malikdir. İllik yağıntının miqdarı **400-500 mm-dir**. Yağıntının əsas hissəsi yaz fəslinin sonunda düşür. Rayonun ərazisindən axan **Həkəri. Oxçu, Bəsit çayları Araz çayının hövzəsinə aiddir. Əlverişli çəmən torpaq örtüyü var. Ardıc və saqqızağacı meşə sahələri var. Dövlət Təbiət qoruğunda nadir Şərq çinarı mühafizə olunurdu.**

**Heyvanlardan cüyür, meşə donuzu, ayı, quşlardan turac, kəklik və digərləri meşə və dağlarda yaşayırlar.**

**Rayonun kənd təsərrüfatının əsas sahələrini üzümçülük, tütünçülük, heyvandarlıq təşkil edir.**

İşğala qədər **Zəngilan rayonunda 9 məktəbəqədər tərbiyə müəssisəsi. 19 ibtidai, 27 doqquzillik, 15 orta məktəb, 1 texniki-peşə, 1 musiqi məktəb, 35 kitabxana, 8 mədəniyyət evi, 23 klub və 22 kinoqurğu var idi.**

**Rayonun ərazisində Əminxanlı kəndində XII əsrə aid Qız qalası, 1304-1305-ci illərə aid Şərifan qülləsi, XIV əsrə aid Hacalı qülləsi, XIX əsrə aid rayon mərkəzində məscidlər var idi.**

**Erməni faşist ünsürlərinə qarşı aparılan silahlı mübarizədə Zəngilanlı döyüşçülər 191 nəfər şəhid vermiş, 110 nəfər əlil olmuşdur.**

**Düşmənə qarşı aparılan döyüşlərdə igidlik göstərdiklərinə görə 2 nəfər ən yüksək ada - Azərbaycan Respublikası Milli Qəhrəmanı adına layiq görülmüşdür.**

**MATERİAL AZƏRBAYCAN SOVET VƏ COĞRAFİYA ENSİKOPEDİYALARINDA OLAN MATERİALLAR ƏSASINDA HAZIRLANMIŞDIR**

# RUSİYA İMPERİYASI İLƏ QACARLAR ARASINDA AZƏRBAYCANIN İKİ HİSSƏYƏ BÖLÜNMƏSİNİ ÖZÜNDƏ ƏKS ETDİRƏN ƏDALƏTSİZ MÜQAVİLƏLƏR

# KÜRƏKÇAY MÜQAVİLƏSİ

**Biz, yəni Şuşalı və Qarabağlı İbrahim xan və Bütün Rusiya qoşunlarının infanteriya generalı, Qafqaz müfəttişliyinin infanteriya müfəttişi general Pavel Sisianov, olduqca mərhəmətli böyük İmperator əlahəzrətləri Aleksandr Pavloviçin verdiyi tam səlahiyyət və ixtiyarla Allahın köməyi ilə Şuşalı və Qarabağlı İbrahim xanın bütün ailəsi, nəsli və ölkəsi ilə Bütün Rusiya imperiyasının və indi bəxtiyarlıqla hökmranlıq edən böyük imperator əlahəzrətləri Aleksandr Pavloviç və onun yüksək varislərinin əbədi təbəəliyini qəbul etməsi məsələsinə başlayaraq aşağıdakı şərtləri bağladıq, qərara aldıq və imzaladıq:**

**I MADDƏ**

**Mən, Şuşalı və Qarabağlı İbrahim xan öz adımdan, varislərim və vəliəhdlərim adından İran və ya hər hansı bir dövlətin hər cür vassallığından və ya hər hansı ad altında olsa da, hər cür asılılığından təntənəli surətdə həmişəlik imtina edirəm və bütün dünya qarşısında bununla bildirirəm ki, mən özüm və varislərim üzərində Bütün Rusiyanın böyük İmperator əlahəzrətlərinin və onun yüksək varislərinin və vəliəhdlərinin ali hakimiyyətindən başqa heç bir dövlətin hakimiyyətini tanımıram, həmin taxt-taca sədaqət vəd edirəm, çünki onun sadiq quluyam və bu haqda, adətə görə, müqəddəs Qurana and içməliyəm.**

**II MADDƏ**

**İmperator əlahəzrətləri zati-aliləri (xan) həzrətlərinin belə səmimi söz verməsini qəbul edərək, özünün və vəliəhdlərinin adından İmperator sözü ilə vəd edir və söz verir ki, onlar zati-aliləri Şuşalı və Qarabağlı İbrahim xandan və onun varislərindən öz sadiq təbəələri kimi mərhəmət və nəcib havadarlığını heç vaxt əsirgəməyəcəklər, bu-**

**na sübut olaraq İmperator əlahəzrətləri zati-alilərinin (xanın) və onun varislərinin ölkəsinin bütövlüyünün saxlanılmasına öz imperator zəmanətini verir.**

**III MADDƏ**

**Zati-aliləri Şuşalı və Qarabağlı İbrahim xanın Bütün Rusiya imperatorlarının və onların vəliəhdlərinin öz üzərində ali və yeganə hakimiyyətini belə səmimiyyətlə qəbul etməsi müqabilində qərara alınır ki, adı çəkilən xan, ondan sonra isə böyük oğlunun və bu qayda ilə nəslin yaşca sonrakı böyüyü irsən xanlığa keçərkən Gürcüstan Baş hakimi tərəfindən xanlıqda bərqərar olmaq haqqında dövlət möhürü ilə təsdiq edilmiş imperator fərmanından ibarət investitura aldıqdan sonra Bütün Rusiya imperiyasının təbəəliyinə sadiq olmasına, özü və varisləri üzərində Bütün Rusiya imperatorlarının ali və yeganə hakimiyyətinin tanınmasına təntənəli surətdə and içməlidirlər. Andın forması traktata əlavə olunur ki, indi hakim olan Şuşalı və Qarabağlı İbrahim xan bu mərasim Gürcüstan Baş hakiminin və bu qətnaməni başa çatdıran infgen. knyaz Sisianovun iştirakı ilə yerinə yetirsin.**

**IV MADDƏ**

**Mən, Şuşalı və Qarabağlı İbrahim xan, mənim və varislərimin Bütün Rusiya imperiyasına sadiq təbəəliyimiz və həmin imperiyanın işıqlı ali və yeganə hakimiyyətini qəbul etməyimiz haqda mənim mövqeyimin təmizliyini göstərmək üçün Gürcüstan Baş hakimi ilə qabaqcadan qarşılıqlı razılıq olmadan qonşu hakimlərlə əlaqə saxlamağa, onlardan elçilər gələrsə və ya məktub göndərilərsə, onlardan məzmunca tutarlı olanları Baş hakimə göndərməyə və ondan icazə istəməyə, dəyəri az olanları haqda isə məlumat verməyə və Gürcüstan Baş hakimi tərəfindən mənim yanıma təyin edilmiş şəxsə məlumat verməyə və onunla məsləhətləşməyə söz verirəm.**

**V MADDƏ**

**İmperator əlahəzrətləri Şuşalı və Qarabağlı İbrahim xanın ölkəsi üzərində özünün ali və yeganə hakimiyyətinin tanınmasını razılıqla qəbul edərək, özünün və varislərinin adından söz verir: 1) həmin ölkənin xalqlarını böyük Rusiya imperiyasının sakinlərindən az da olsa ayırmayaraq öz təbəələri sayacaqdır. 2) İbrahim xan zati-alilərinin və onun ocağından olan varislərin və arxasının Qarabağ xanlığı üzərində hakimiyyəti dəyişilməz saxlanılacaqdır. 3) Daxili idarə etmə ilə bağlı hakimiyyət işləri, məhkəmə və divanxana işləri, bununla yanaşı ölkədən yığılan gəlir zati-alilərin (xanın) səlahiyyətində qalacaqdır. 4) Zati-alilərinin və onun sülaləsinin, eləcədə onun ölkəsinin qorunması üçün Şuşa qalasına 500 nəfərlik Rusiya qoşunu qərərgah və baş zabitləri ilə, (habelə) toplarla birlikdə yeridiləcək, ciddi müdafiə üçün isə Gürcüstan Baş hakimi şərait və ehtiyaca görə bu dəstəni gücləndirəcək və zati-alilərinin ölkəsinin Bütün Rusiya imperiyasına məxsus olan bir ölkə kimi hərbi qüvvə ilə müdafiə edəcəkdir.**

**VI MADDƏ**

**Mən, Şuşalı və Qarabağlı İbrahim xan, mənim sadiq təbəəlik istəyimin əlaməti olaraq söz verirəm: 1) istər indi, istərsə də sonralar yuxarıda adı çəkilən qoşuna lazım olan buğda və darı yarmasını (Gürcüstan) Baş hakiminin müəyyən etdiyi qiymətlə tədarük edəcəyəm, çünki onların Yelizavetpoldan (Gəncə) gətirilməsi ya çox çətindir, ya da tamamilə qeyri-mümkündür. 2) Qoşunların Şuşa qalasında yerləşməsi üçün qoşun rəisinin bəyəndiyi evləri ayıracaq və lazımi qədər odunla təmin edəcəyəm. 3) Şuşa qalasına Yelizavetpol tərəfdən yoxuşu sahmana salacaq və yolu arabaların gedişi üçün yararlı edəcəyəm. 4) Hökumət Şuşa qalasından Cavada gedən yolu qaydaya salmaq istəsə, onda bu iş üçün lazımi olan işçilər hökumətin müəyyən etdiyi məzənnə ilə mənə verilməlidir.**

**VII MADDƏ**

**İmperator əlahəzrətlərinin zati-aliləri, Şuşalı və Qarabağlı İbrahim xana və onun varislərinə böyük ehtiram və mərhəmət əlaməti olaraq onu və varislərini üzərində Bütün Rusiya imperiyasının gerbi olan bayraqla təltif edir, onun yanında saxlanmalı və bu ölkə üzərində əlahəzrət tərəfindən bəxş edilmiş xanlıq və hakimiyyət rəmzi kimi müharibəyə gedəndə özü ilə aparılmalıdır.**

**VIII MADDƏ**

**Mən, Şuşalı və Qarabağlı İbrahim xan, İmperator əlahəzrətlərinin yüksək razılığı ilə özümün gəlirimdən həmişəki kimi istifadə etməyə icazəm olduğundan İmperator əlahəzrətlərinin Tiflisdə yerləşən xəzinəsinə ildə 8000 çervon bac verməyi öhdəmə alıram, bac iki müddətə, yeni bir hissəsi fevralın 1-də, o biri hissəsi isə sentyabrın 1-də, özü də bu traktatın İmperator əlahəzrətləri tərəfindən təsdiqi zamanı birinci hissəsinin, yəni 4000 çervonun ödənişi ilə başlanır. Bundan başqa Asiya qayda-qanunu ilə and içməklə yanaşı, mən böyük oğlum Məhəmmədhəsən Ağanın ikinci oğlu Şükürallahı həmişəlik Tiflisdə yaşamaq üçün girov verməliyəm.**

**IX MADDƏ**

**İmperator əlahəzrətləri özünün xüsusi mərhəməti ilə, Tiflisdə sədaqət bildirmək üçün saxlanılması olan zatialiləri (xanın) nəvəsinin dolanışığı üçün Rusiya pul vahidi ilə gündə 10 gümüş manat iltifatla bəxş edir.**

**X MADDƏ**

**Bu müqavilə əbədi müddətə bağlanır və bundan belə həmişəlik heç bir dəyişikliyə uğramamalıdır.**

## XI MADDƏ

Bu müqavilənin İmperator əlahəzrətləri tərəfindən onun dövlət möhürü vurulmuş Ali Fərmanı ilə təsdiqi bu sənədin imzalanmasından 6 ay keçənədək və ya mümkün olsa, daha tez olmalıdır.

Yuxarıdakıların həqiqətə uyğun olduğunu (bildirmək) üçün aşağıda imza edənlər Yelizavetpol dairəsinin düşərgəsində, Kürək çayı yaxınlığında, miladın 1805-ci ilinin yayında, mayın 14-də (müsəlman təqvimi ilə 1220-ci il səfər ayında) bu maddələrə qol çəkərək öz möhürlərini vurdular.

# GÜLÜSTAN MÜQAVİLƏSİ

**İMPERATOR ƏLAHƏZRƏTLƏRİ, Bütün Rusiyanın Ən Şöhrətli və ƏZƏMƏTLİ BÖYÜK HÖKMDARI və İMPERATORU və İran Dövlətinin Sahibi, hökmdarı ƏLAHƏZRƏTLƏRİ Padşahın ÖZ təbəələrinə yüksək hökmdar məhəbbətinə görə, ONLARIN ürəklərinə zidd olan müharibənin fəlakətlərinə son qoymağı və qədimdən Bütün Rusiya İMPERİYASI və İran Dövləti arasında mövcud olmuş səbatlı sülh və xeyirxah qonşu dostluğunu möhkəm əsas üzərində bərpa etməyi səmimi qəlbdən, qarşılıqlı surətdə arzulayaraq bu ədaləti və nicatverici iş üçün aşağıdakıları öz səlahiyyətli Müvəkkilləri təyin etməyi faydalı bilmişlər:**

**ƏLAHƏZRƏT Bütün Rusiya İmperatoru - ÖZ General leytenantı, Gürcüstandakı və Qafqaz xəttindəki qoşunların Baş komandanı, Həştərxan və Qafqaz quberniyalarında, Gürcüstanda Mülki hissə, həmçinin bu ölkənin bütün sərhəd işləri üzrə Baş Müdiri, Xəzər Hərbi Donanmasının Komandanı, Müqəddəs Aleksandr Nevski, birinci Müqəddəs Anna, dördüncü dərəcəli Müqəddəs Əzabkeş və Qalibiyyətli Georgi ordenləri, habelə üzərində igidliyə görə yazısı olan qızıl qılıncla təltif edilmiş zati-aliləri Nikolay Rtişşevi, Əlahəzrət İran şahı isə özünün, Türkiyə və İngiltərə Saraylarında fövqaladə elçisi olmuş, İran Rəisləri arasında seçilmiş, öz padşahından brilyantlarla bəzədilmiş xəncər və qılıncdan, şal paltardan və brilyantlarla zinnətləndirilmiş at bəzəkləri dəstindən ibarət fərqləndirici lütf görmüş, öz Padşahının ən yaxın Məmuru, Ali İran Sarayının Gizli İşlər Müşaviri, Vəzir nəslinə mənsub olan, İran Sarayında ikinci dərəcəli Xan, Yüksəkrütbəli və çox hörmətli Mirzə Həsən Xanı: bu səbəbdən də BİZ, yuxarıda adları çəkilmiş səlahiyyətli Müvəkkillər Qarabağ mülkündə, Zeyvə çayı yaxınlığındakı Gülüstan kəndində toplaşaraq, vəkalətnamələri-**

**mizi bir-birimizə təqdim etdikdən sonra, hər birimizə öz tərəfindən bizim BÖYÜK HÖKMDARLARIMIZ adından bərqərar edəcəyimiz sülh və dostluğa aid olan hər bir şeyi nəzərdən keçirib, bizə verilmiş hakimiyyət və Ali səlahiyyətlərə görə aşağıdakı maddələri qərara aldıq və əbədiyyət üçün təsdiq etdik:**

**I MADDƏ**

**İndiyədək Rusiya İmperiyası və İran Dövləti arasında mövcud olmuş düşmənçilik və narazılığa həmin Müqavilə ilə bu gündən etibarən və gələcəkdə son qoyulur və qoy İMPERATOR ƏLAHƏZRƏTLƏRİ Bütün Rusiya hökmdarı ilə Əlahəzrət İran şahı, onların vəliəhdləri, Taxtlarının Varisləri və ONLARIN, qarşılıqlı surətdə, Ali Dövlətləri arasında əbədi sülh, dostluq və xeyirxah razılıq olsun.**

**II MADDƏ**

**Bir halda ki, həq iki Ali Dövlət arasında ilkin əlaqələr vasitəsilə (............) yəni hər bir tərəfin hazırda tam malik olduğu torpaqlara, xanlıqlara, mülklərə sahib qalması əsasında sülhün bərqərar edilməsi artıq qarşılıqlı surətdə razılaşdırılmışdır, onda indiki zamandan etibarən və gələcəkdə Bütün Rusiya İmperiyası və İran Dövləti arasında sərhəd aşağıdakı xətt olsun: Adınabazar adlanan yerdən başlayaraq, düz xətlə Muğan düzü, Araz çayındakı Yeddibulaq keçidinədək, oradan da üzü yuxarı Kəpənək çayının Arazla qovuşduğu yerə, sonra da Kəpənək çayının sağ tərəfi ilə Mehri dağları silsiləsinə və oradan da xətti Qarabağ və Naxçıvan xanlıqlarının mərzləri ilə davam etdirərərək, Alagöz dağları silsiləsi ilə Qarabağ, Naxçıvan, İrəvan xanlıqlarının və Yelizavetpol dairəsinin (keçmiş Gəncə xanlığının) bir hissəsinin mərzləri birləşən Dərələyəz mərzinədək, buradan İrəvan xanlığını Yelizavetpol dairəsindən, həmçinin Qazax va Şəmşəddil torpaqlarından ayıran mərzlə Eşşəkmeydan mərzinə, oradan da dağlar silsiləsi ilə, ça-**

**yın sağ tərəfi ilə, onun axarı istiqamətində, Həmzəçimən yolu ilə, Pəmbək dağları silsiləsi ilə Şuragöl mərzi ilə, dağlar silsiləsi ilə, Mastaras və Artikin arası ilə Arpaçayadək. Bununla belə, Talış mülkü müharibə vaxtı əldən-ələ keçdiyinə görə, həmin Xanlığın Zinzeley və Ərdəbil tərəfdən olan sərhədləri, daha artıq dürüstlük üçün, hər iki tərəfdən qarşılıqlı razılıqla seçilmiş Komissarlar (onlar Baş komandanlarının rəhbərliyi ilə indiyədək hər bir tərəfin həqiqi hakimiyyəti altında olmuş torpaqların, kəndlərin, dərələrin, həmçinin çayların, dağların, göllərin, təbii mərzlərin dəqiq va təfsilatlı təsvirini verəcəklər) tərəfindən, bu Müqavilə bağlanıb təsdiq olunduqdan sonra müəyyən ediləcək, onda (............) əsasında Talış xanlığının sərhəd xətti elə müəyyənləşdiriləcək ki, hər bir tərəf malik olduğu torpaqların sahibi qalsın. Eləcə də, yuxarıda xatırlanmış sərhədlərdə, bu və ya başqa tərəfin xəttindən kanara nə isə çıxarsa, hər iki Ali Dövlətin Komissarlarının təhlilindən sonra hər bir tərəf (............) əsasında təminat verəcək.**

**III MADDƏ**

**Şah Əlahəzrətləri ƏLAHƏZRƏT bütün Rusiya İMPERATORUNA səmimi dostluq hislərinin sübutu üçün təntənəli surətdə həm öz adından, həm də İran Taxtının Ali Vəliəhdləri adından Qarabağ və indi Yelizavetpol adı altında əyalətə çevrilmiş Gəncə xanlığının, həmçinin Şəki, Şirvan, Dərbənd, Quba, Bakı və Talış (bu xanlıqların Rusiya İmperiyasının hakimiyyəti altında olan torpaqları) xanlıqlarının, bununla bərabər Dağıstan, Gürcüstan (Şuragölə əyaləti ilə birlikdə) İmperiya, Quriya, Minqreliya və Abxaziya, eyni dərəcədə, hazırda bərqərar edilmiş sərhəd Qafqaz xətti (bu sonuncuya və Xəzər dənizinə aid olan torpaqlar və xalqlarla birlikdə) arasındakı bütün mülk və torpaqların Rusiya İmperiyasının mülkiyyətinə mənsub olduğunu qəbul edir.**

**IV MADDƏ**

ƏLAHƏZRƏT Bütün Rusiya İMPERATORU, ƏLAHƏZRƏT İran Şahına Öz qarşılıqlı dostluq hisslərini ifadə etmək və İranda ona qonşu olan bu Dövlətdə, möhkəm əsas üzərində mütləqiyyət və hökmran hakimiyyət görmək arzusunu səmimi qəlbdən təsdiq etmək üçün, bununla, ÖZ adından və ÖZ Vəliəhdləri adından İran Şahı tərəfindən İran Dövlətinin Varisi təyin ediləcək Vəliəhdə, lazım gəldikdə, kömək göstərməyi vəd edir ki, heç bir xarici düşmən İran Dövlətinin işinə qarışa bilməsin və Ali Rusiya Sarayının köməyi ilə İran Sarayı möhkəmlənsin. Bununla belə, əgər İran Dövəti işləri üzrə Şah oğulları arasında münaqişələr baş verərsə, Rusiya İmperiyası hakimiyyətdə olan Şah xahiş etməyincə bunlara qarışmayacaq.

**V MADDƏ**

Rus ticarət gəmilərinə əvvəlki qayda üzrə Xəzər sahilləri yaxınlığında üzmək və onları yan almaq hüququ verilir; həm də gəmi qəzası zamanı iranlılar tərəfindən dostluq köməyi edilməlidir. İran ticarət gəmilərinə də həmin bu hüquq əvvəlki qayda üzrə Xəzər dənizində üzmək və Rusiya sahillərinə yan almaq ixtiyarı verilir, burada da gəmi qəzası zamanı, qarşılıqlı surətdə, iranlılara hər cür yardım göstəriməlidir. Hərbi gəmilərə gəldikdə isə, müharibədən əvvəl, habelə sülh vaxtı və həmişə Rusiya hərbi bayrağı Xəzər dənizində tək mövcud olmuşdur. Həmin ehtiram daxilində, əvvəlki ixtiyar indi də yalnız Rusiya Dövlətinə verilir ki, ondan başqa heç bir Dövlətin hərbi Bayrağı Xəzər dənizində ola bilməz.

**VI MADDƏ**

**Hər iki tərəfdən döyüsdə əsir alınmışları, Xristian dininə və s. dinlərə mənsub ələ keçirilmiş sakinləri Müqavilə bağlanıb imzalandıqdan sonra, üç ay ərzində, hər bir tərəfdən Qarakilsəyədək (burada sərhəd rəisləri əsirləri qəbul etmək üçün öz aralarında qarşılıqlı əlaqə yaradırlar) azuqə və yol xərcləri ilə təmin edilərək, buraxılsınlar. Özbaşına, yaxud qanunu pozaraq, qaçanlardan hər birinə, milliyətindən asılı olmayaraq, öz könüllü istəyinə görə öz Vətəninə qayıtmaq azadlığı verilir, qayıtmaq istəməyənlər isə məcbur edilməsin. Bununla bərabər hər iki tərəfdən qaçmışlara amnistiya, yaxud bağışlanma verilir.**

**VII MADDƏ**

**Bütün yuxarıda deyilənlərə əlavə olaraq ƏLAHƏZRƏT Bütün Rusiya İMPERATORU və Əlahəzrət İran Şahı buyururlar ki, lazım olduqda, Əlahəzrətlərin İqamətgahlarına göndərilən, ONLARIN Ali Saraylarının qarşılıqlı Nazirlər və ya Elçiləri rütbələrinə və onlara tapşırılmış işlərin mühümlüyünə müvafiq qəbul olunsunlar; şəhərlərdə ticarətə himayəçilik üçün təyin olunmuş Müvəkkillərin və ya Konsulların yanında on nəfərdən artıq olmasın, onlar vəkil edilmiş məmurlar kimi vəzifələrinə layiq hörmət və şərəfə malik olmalıdırlar, həmçinin, Əmrnaməyə əsasən, bundan sonra onları nəinki incitmək olmaz, hətta inciklik olarsa, təqdim edildikdən sonra, hər iki tərəfin təbəələrini ədalətlə mühakimə etmək, incidilmişləri mürbətlə razı salmaq gərəkdir.**

**VIII MADDƏ**

**Əlahəzrətlərin, öz hökumətlərindən, yaxud hökumətləri tərəfindən təyin edilmiş sərhəd rəislərindən alınmış, onların həqiqətən tacirlər, Rusiya və ya İran təbəələri olduğunu təsdiq edən yazılı sənədlərə malik təbəələri**

**arasındakı ticarət əlaqələrinə gəldikdə, saziş bağlayan hər iki Ali Dövlətə quru yolla və dənizlə sərbəst gəlməyə, orada kim nə qədər istəyirsə yaşamağa, tacirlər göndərməyə, həmçinin heç cür ləngidilmədən oradan çıxıb getməyə, Rusiya İmperiyasına mənsub olan yerlərdən İran Dövlətinə gətirilən və qarşılıqlı olaraq, İrandan ora aparılan malların satılmasına və başqa mallarla dəyişdirilməsinə icazə veriləcək. Hər iki Ali Dövlətin tacirləri arasında baş verə biləcək mübahisələrə, onların vəzifələri və s. ilə əlaqədar şikayətlərinə adi qayda üzrə baxılması Konsula, yaxud Müvəkkilə, onlar olmadıqda isə yerli Rəisə həvalə edilir. Onlar xahişlərə tam ədalətlə baxmalı, özləri haqq təminatı verməli, yaxud bunu başqa lazımi şəxslərin vasitəsilə tələb etməli və onların incidilməsinə və sıxışdırılmasına qətiyyən yol verməməlidirlər.**

**İrana gəlmiş, Rusiya təbəəliyindən olan tacirlər, istəsələr, oradan öz malları ilə birlikdə İranla dostluq edən başqa dövlətlərə də sərbəst gedəcəklər; bundan ötrü İran Hökuməti bu tacirlərin sərbəst keçməsi üçün onları lazımi pasportlarla təmin edəcəkdir; buna ticarət işləri ilə əlaqədar Rusiyadan Rusiya ilə dostluq edən başqa dövlətlərə getmək istəyən İran tacirləri üçün də qarşılıqlı surətdə riayət ediləcəkdir.**

**İrana gəlmiş Rusiya təbəələrindən kimlərinsə ölüm hadisəsi baş verərsə, onların müxəlləfatları, həmçinin başqa daşla və mülkləri, dost Dövlətin təbəələrinə məxsus olduğu üçün, ilk növbədə, saxlanılmadan və xəlvəti mənimsənilmədən, Rusiya İmperiyasında və bütün mədəni Dövlətlərdə icra edildiyi kimi, kimin hansı Dövlətə, mənsubiyyətindən asılı olmayaraq, qanuni əsasdan, qəbzlə, onların yoldaşlarına yaxud qohumlarına verilməli, həmin qohumlara öz arzuları ilə və öz xeyirləri üçün bu əmlakları istədikləri adamlara satmağa icazə verilməlidir.**

### IX MADDƏ

**Rus tacirlərindən İran şəhərlərinə və ya limanlarına gətirdikləri mallara görə yüzə beş faizdən çox gömrük alınmasın və həmin tacirlər bu mallar ilə hara gedirlərsə getsinlər, onlardan ikinci dəfə gömrük tələb olunmasın, oradan apardıqları İran mallarına görə də eyni gömrük alınsın, bundan başqa heç bir bəhanə və uydurma ilə heç bir rüsum, vergi, gömrük tələb edilməsin. İran təbəələrin Rusiya şəhərlərinə və limanlarına gətirdikləri və buradan ixrac etdikləri mallara görə və qarşılıqlı surətdə eyni gömrüklər, eyni əsasda bir dəfə alınsın.**

### X MADDƏ

**Malları Müqavilə bağlamış hər iki Dövlətin sahillərin və ya limanlarına, yaxud da quru yolla sərhəd şəhərlərin gətirdikdən sonra, qarşılıqlı surətdə, tacirlərə, nəzarəti altında olduqları gömrük hakimlərindən və ya iltizamçılardan icazə almadan öz mallarını satmaq, başqa malları satın, yaxud dəyişmə yolları ilə almaq azadlığı verilir ki, ticarət maneəsiz dövriyyədə olsun, həmçinin satıcıdan və alıcıdan dövlət xəzinəsi üçün müntəzəm olaraq və könüllülük şərti ilə qanuni rüsumlar yığılsın.**

### XI MADDƏ

**Bu müqavilə imzalandıqdan sonra hər iki Ali Dövlətin müvəkkilləri, qarşılıqlı surətdə və təxirə salınmadan bütün yerlərə onun haqqında lazımı xəbər və hər yerdə hərbi əməliyyatların dərhal dayandırılması barəsində əmrlər göndərsinlər. İki bərabərhüquqlu nüsxədə (fars dilinə tərcüməsi ilə birlikdə) yazılmış və saziş bağlayan Ali tərəflərin yuxarıda göstərilmiş Müvəkkilləri tərəfindən imzalanaraq, onların möhürləri ilə təsdiq edilmiş və qarşılıqlı surətdə dəyişdirilmiş bu əbədi sülh Müqaviləsi ƏLAHƏZRƏT Bütün Rusiya İMPERATORU və Əlahəzrət İran Şahı tərəfindən bərqərar ediləcək və Əlahəzrətlərin**

**öz əlləri ilə imzalanmış təntənəli Ratifikasiyalarla təsdiq olunacaqdır.**

**Bu Müqavilənin həmin təsdiq olunmuş nüsxələri bu Ali Saraylardan, qarşılıqlı surətdə göndərilməklə onların yuxarıda adları çəkilmiş Müvəkkillərinə üç ay müddətindən sonra çadırılacaq.**

**Müqavilə min səkkiz yüz on üçüncü il oktyabr ayının on ikinci günü. İran hesablaması ilə min ikiyüz iyirmi səkkizinci il Şəvval ayının iyirmi doqquzuncu günü Qarabağ mülkündə Zeyvə çayı yaxınlığındakı Gülüstan kəndində Rus ordugahında bağlanmışdır.**

**İMZALAMIŞLAR:**

Müvəkkil və Gürcüstanda Baş Komandan
**Nikolay Rtişşev (M:Y:)**

Alişöhrətli İran Dövlətindən Müvəkkil
**Mirzə Əbül Həsən Xan**

# TÜRKMƏNÇAY MÜQAVİLƏSİ

## I MADDƏ

**Bütün Rusiya imperatoru həzrətləri və İran şahı həzrətləri arasında, onların vərəsələri və taxt-tacın varisləri, onların dövlətləri və qarşılıqlı surətdə təbəələri arasında bundan sonra əbədi sülh, dostluq və tam razılıq olacaqdır.**

## II MADDƏ

**Bütün Rusiya imperatoru həzrətləri və İran şahı həzrətləri hörmətlə qəbul edirlər ki, razılığa gələn yüksək tərəflər arasında baş vermiş və indi xoşbəxtlikdən qurtarmış müharibə ilə Gülüstan traktatının qüvvəsi üzrə qarşılıqlı təəhhüdlər də başa çatmışdır; onlar göstərilən Gülüstan traktatını Rusiya və İran arasında yaxın və uzaq gələcəyə sülh və dostluq münasibətləri qurmalı və təsdiq etməli olan indiki şərtlər və qərarlarla əvəz etməyi zəruri hesab etdilər.**

## III MADDƏ

**İran şahı həzrətləri öz adından və öz vərəsələri və varisləri adından Arazın o tayı və bu tayı üzrə Erivan xanlığnı və Naxçıvan xanlığını Rusiya İmperiyasının tam mülkiyyətinə güzəştə gedir. Şah həzrətləri bu güzəşt nəticəsində, hazırki müqavilənin imzalanmasından sayılmaqla altı aydan gec olmayaraq, yuxarıda adları çəkilən hər iki xanların idarə edilməsinə aid olan bütün arxivləri və ictimai sənədləri Rusiya rəisliyinə verməyi vəd edir.**

## IV MADDƏ

**Müqaviləyə qoşulan yüksək tərəflərin razılığı ilə hər iki dövlət arasında sərhədlər aşağıdakı hüdudda qərara alınır: sərhəd xətti Türkiyə torpaqlarının ucundakı kiçik Araratanın zirvəsindən aralıda düz istiqamətdə ən yaxın nöqtədən başlayaraq o dağların zirvəsindən keçir; buradan maillik üzrə Araratanın cənub tərəfindən axan Aşağı Qarasu çayının yuxa-**

**rılarına düşür, sonra sərhəd xətti o çayın axarı üzrə Şərur qarşısında onun Araza töküldüyü yerədək davam edir; bu məntəqədən Abbasabad qalasınadək Araz çayının yatağı üzrə gedir; burada qalanın Arazın sağ sahilində yerləşən xarici istehkamları yanında yarım ağac, yəni 3 1/2 Rusiya versti enində bütün istiqamətlərdə dövrə haşiyələnəcək və o ətrafda olan torpaq sahəsi büsbütün məhz Rusiyaya məxsus olacaqdır və bu gündən sayılmaqla iki ay ərzində ən yüksək dəqiqliklə ayrılacaqdır. Sərhəd xətti o yerdən, göstərilən dövrənin şərq tərəfdən Arazın sahilinə birləşdiyi yerdən başlayaraq bir daha o çayın yatağı ilə Yeddibulaq bərəsinədək gedir; burada İran torpaqları Araz çayının yatağı üzrə üç ağaca, yəni 21 Rusiya versti uzanacaqdır: sonra sərhəd Muğan düzü vasitəsilə Bolqarçayadək, iki kiçicik Adınabazar və Sarıqamış çaylarının birləşməsində üç ağac yəni 21 rus versti aşağıda olan torpaqlara gedir; sərhəd buradan Bolqarçayın sol sahili ilə yuxarı; adları çəkilən kiçik Adınabazar və Sarıqamış çaylarının birləşməsinədək, sonra Şərqi Adınabazar çayının sağ sahili üzrə onun yuxarılarınadək davam edir, buradan isə Cikoir yüksəkliyinin zirvəsinədək elə davam edir ki, o yüksəklikdən Xəzər dənizinə tökülən bütün sular Rusiyaya məxsus olacaqdır, İran tərəfə axan bütün sular isə İrana məxsus olacaqdır. Burada iki dövlət arasındakı sərhəd dağ zirvələrilə müəyyən edilir; qərarlaşdırılmışdır ki, onların Xəzər dənizinə doğru enişi Rusiyaya məxsus olmalıdır, o biri yandakı enişi isə İrana məxsusdur. Sərhəd Cikoir yüksəkliyi zirvəsindən, Talışı Ərş dairəsindən ayıran dağlar üzrə Qəmərkühüm zirvəsinədək keçir. Suların axarını iki yerə bölən dağların başı, yuxarıda Adınabazarın yuxarı axarı və Cikoir zirvəsi arasındakı sahə haqqında deyilən kimi, burada da eləcə sərhəd hüdudunu təşkil edəcəkdir. Sonra sərhəd xətti suların axarına aid yuxarıda şərh olunan qaydalara aramsız əməl etməklə Qəmərkuhun zirvəsindən Züvand və Ərş dairələrini ayıran dağ silsiləsi üzrə Velgic dairəsinin sərhədlərinədək uzana-**

**caqdır. Beləliklə, adı çəkilən dağın zirvəsindən əks tərəfdə yerləşən hissəsi istisna olmaqla Züvand dairəsi Rusiyaya birləşir. Hər iki dövlət arasındakı sərhəd xətti su axınının yuxarıda qeyd olunan qaydalarına daima uyğun olaraq, Velkic dairəsi sərhəddindən Kloputanın zirvəsi və Velkic dairəsindəki dağların baş silsiləsi üzrə Astara çayının şimal mənbəyinədək, buradan o çayın yatağı boyu onun Xəzər dənizinə töküldüyü yerədək davam edəcək ki, burada da Rusiya torpaqlarını İrandan ayırmalı olan sərhəd xətti qurtarır.**

**V MADDƏ**

**İran şahı həzrətləri bütün Rusiya imperatoru həzrətlərinə öz səmimi dostluğuna sübut olaraq, bu maddə ilə həm öz vərəsələri və İran taxt-tacının varisləri adından, yuxarıda göstərilən sərhəd xətti arasında və Qafqaz sıra dağları və Xəzər dənizi arasında yerləşən bütün torpaqların və bütün adaların, bununla bərabər həmin məmləkətlərdə yaşayan bütün köçəri və başqa xalqların əbədi zamanədək Rusiya imperiyasına məxsus olduğunu təntənə ilə tanıyır.**

**VI MADDƏ**

**İran şahı həzrətləri hər iki dövlət arasında baş vermiş müharibə ilə Rusiya imperiyasına vurulmuş xeyli ziyana, həmçinin Rusiya təbəələrinin düçar olduğu qurbanlara və itkiyə hörmət əlaməti olaraq, onların əvəzini pul təzminatı ilə ödəməyi öhdəsinə götürür. Müqaviləyə qoşulan hər iki yüksək tərəf o mükafatın məbləğini on kurur tümən raicə və ya iyirmi milyon gümüş manat qərarlaşdırmışdır, onun vaxtı, ödəniş qaydası və təminatı sözbəsöz hazırkı traktata daxil edilə biləcək qüvvəyə malik olan xüsusi müqavilədə qərarlaşdırılmışdır.**

**VII MADDƏ**

**İran şahı həzrətləri öz əlahəzrət oğlu şahzadə Abbas Mirzənin öz vərəsəsi və taxt-tacın varisi təyin etmək iltifatında bulunan kimi, Bütün Rusiya imperatoru həzrətləri**

**öz dostluq münasibətlərini və bu varislik qaydasının təsdiqinə kömək etmək arzusunu açıq-aşkar sübut etməkdən ötrü bundan sonra şahzadə Abbas Mirzə həzrətlərinin simasında İran taxt-tacının vərəsəsi və varisini, onun taxta çıxmasından sonra isə onu o dövlətin qanuni hökmdarı hesab etməyi öhdəsinə götürür.**

**VIII MADDƏ**

**Rusiyanın ticarət gəmiləri, əvvəlki qayda üzrə, Xəzər dənizində və onun sahilləri boyunca azad üzmək və bununla bərabər onlara yaxınlaşmaq hüququna malikdir; gəmi qəzası hallarında Iranda onlara hər cür kömək edilməlidir. Bu üsulla Iran ticarət gəmilərində də Xəzər dənizində əvvəlki qayda ilə üzmək və Rusiya sahillərinə yan almaq hüququ verilir ki, orada gəmi qəzası hallarında onlara qarşılıqlı surətdə hər cür kömək göstərilməlidir. Hərbi gəmilərə gəldikdə isə, qədimdə olduğu kimi, yalnız Rusiya hərbi bayrağı altında olan hərbi gəmilər Xəzər dənizində üzə bilərlər; bu səbəbdən də əvvəlki müstəsna hüquq indi də onlara verilir və təsdiq edilir ki, Rusiyadan başqa heç bir dövlətin Xəzər dənizində hərbi gəmiləri ola bilməz.**

**IX MADDƏ**

**Bütün Rusiya imperatoru həzrətləri və Iran şahı həzrətləri hər vasitə ilə onlar arasında bu qədər xoşbəxtliklə bərpa olunmuş sülh və dostluğu bərqərar etməyi arzulayaraq, müvəqqəti tapşırıqların icrası və ya daimi qalmaq üçün bu və ya o biri dövlətə göndərilən yüksək sarayların (hökumətlərin) səfirlərinin, nazirlərinin və işlər müvəkillərinin, onların dərəcəsinə, razılığa gələn yüksək tərəflərin şərəfinə, onları birləşdirən səmimi dostluğa və yerli adətlərə uyğun olaraq, ehtiramla və (hər birinin) ayrılıqda qəbul edilməsini qarşılıqlı surətdə rəva bilirlər. Xüsusi protokol ilə bu və ya o biri tərəfin əməl etməsi üçün bu məzmunda mərasim qərarlaşdırılacaqdır.**

## X MADDƏ

**Bütün Rusiya həzrətləri və İran şahı həzrətləri hər iki dövlət arasında ticarət əlaqələrinin bərpa olunmasını və genişlənməsini sülhün bərqərar olmasının ən başlıca xeyirxah nəticələrindən biri saydıqları üçün, tam qarşılıqlı razılıq əsasında hökm verdilər ki, ticarətə hakimlik edilməsinə və qarşılıqlı surətdə təbəələrin təhlükəsizliyinə aid olan bütün sərəncamlar səadətlə yoluna qoyulsun və onlar onu qarşılıqlı surətdə müvəkkillər tərəfindən bağlanacaq bu sülh müqaviləsinin eyni güclü hissəsi sayılmalı olan və ona əlavə edilən ayrıca Akt ilə izah etsinlər. İran şahı həzrətləri, qabaqlar olduğu kimi, Rusiyaya ticarətin xeyrinə tələb olunan hər yerə konsullar və ticarət agentləri təyin etmək hüququ verir və öhdəsinə götürür ki, hər ikisinin yanında on nəfərdən çox olmayacaq konsul və agentlərə hamilik göstərsin ki, onlar öz rütbələrinə verilmiş şan-şövkət və üstünlüklərdən istifadə etsinlər. Bütün Rusiya imperatoru həzrətləri öz tərəfindən İran şahı həzrətlərinin konsul və ya ticarət agentlərinə münasibətdə buna tam müvafiq əməl edilməsinə vəd verir. İran hökumətinin Rusiya agentinə və ya konsuluna əsaslı şikayəti olarsa, Rusiya naziri (səfiri) və ya onun şah həzrətləri sarayı yanında işlər müvəkkili, ya da onların bilavasitə rəisi öz mülahizəsinə əsasən günahkarı vəzifəsindən uzaqlaşdıra və onu müvəqqəti olaraq digər şəxsə həvalə edə bilər.**

## XI MADDƏ

**Qarşılıqlı surətdə təbəələrin bütün tələbləri və müharibə ilə dayandırılmış başqa işlər sülh bağlandıqdan sonra ədalətlə bərpa olunacaq və həll ediləcəkdir. Qarşılıqlı surətdə təbəələrin öz aralarında bu və ya o biri hökumətin xəzinəsinə müqavilə təəhhüdləri dərhal və tamamilə təmin edilməlidir.**

**XII MADDƏ**

**Barışığa gələn yüksək tərəflər təbəələrin xeyri üçün özlərinin ümumi razılığı üzrə qarşılıqlı surətdə qərara almışdır: onlardan Arazın hər iki tərəfində tərpənməz əmlaka malik olanlarına üç il vaxt verilməlidir ki, onlar bu müddət ərzində onu azad surətdə satsınlar və dəyişsinlər. Lakin bütün Rusiya imperatoru həzrətləri ona aid olduğuna görə, keçmiş İrəvan sərdarı Hüseyn xanı, onun qardaşı Həsən xanı və keçmiş Naxçıvan hakimi Kərim xanı bu iltifatlı sərəncamdan kənar edir.**

**XIII MADDƏ**

**Axırıncı və ya bundan qabaqkı müharibənin gedişində əsir alınmış hər iki tərəfin bütün hərbi əsirləri, bununla bərabər hər iki hökumətin nə vaxtsa əsir düşmüş təbəələri qarşılıqlı surətdə azad edilməli və dörd ay ərzində qaytarılmalıdır; onlar həyati azuqə və digər tələbatlarla təmin edilməli və onları qəbul etmək və sonrakı yaşayış yerinə yollamağa sərəncam vermək üçün hər iki tərəfdən ayrılmış komissarlara verməkdən ötrü Abbasabada göndərilməlidirlər. Razılığa gələn yüksək tərəflər hər iki tərəfdən əsir düşmüş, lakin olduqları yerin uzaqlığına və ya başqa bir səbəbə və ya vəziyyətə görə göstərilən müddətə qaytarıla bilməyəcək bütün hərbi əsirlərə, habelə Rusiya və İran təbəələrinə də bu yolla yanaşacaqlar. Hər iki dövlət belələrinin hər bir vaxt tələb edilməsində özünə dəqiq və qeyri-məhdud hüquq verir və öhdəsinə götürür ki, onlar aşkar edildikdə və ya onlar haqqında tələblər alındıqda qarşılıqlı surətdə onları (bir-birinə) qaytarsınlar.**

**XIV MADDƏ**

**Razılığa gələn yüksək tərəflərdən heç biri axırıncı müharibənin başlanmasınadək və ya o vaxtı digərinin təbəəliyinə keçmiş olan satqınların və fərarilərin verilmısini tələb etməyəcəkdir. İran hökuməti bu qaçqınlardan bəzilərinin**

**və onların köhnə həmvətənlərinin və ya hakimiyyəti altında olanların arasında qərəzli əlaqələrdən qarşılıqlı surətdə baş verə biləcək zərərli nəticələrin qarşısını almaq üçün, öhdəsinə götürür ki, indi və ya sonralar Rusiya hökumətinin adbaad göstərdiyi adamların Arazla Çara çayının, Urmiya gölünün, Cakatu çayının və Qızıl Üzən çayının Xəzər dənizinə töküldüyü yer arasında yaratdığı hüduddakı öz torpaqlarında olmasını qadağan edəcəkdir. Bütün Rusiya imperatoru həzrətləri öz tərəfindən İran qaçqınlarının Qarabağ və Naxçıvan xanlıqlarında və İrəvan xanlığının Araz çayının sağ sahilində yerləşən hissəsində yurd salmasına və ya yaşamasına (hər hansı) bir qərarda icazə verməyəcəyini vəd edir. Lakin özlüyündə aydındır ki, ancaq rəsmi rütbə daşıyan və ya müəyyən ləyaqət sahibi olan adamlara: şəxsi nümunələri, nəsihət və gizli əlaqələri ilə keçmişdə onların idarəsində və ya hakimiyyəti altında olan əvvəlki həmvətənlərinə zərərli təsir göstərə bilən xan, bəy və dini rəislər və ya mollalara qarşı bu şərtin gücü var və olacaqdır. Ümumiyyətlə, hər iki dövlətin sakinlərinə gəldikdə isə, razılığa gələn yüksək tərəflər qərara alır ki, hər iki tərəfin bir dövlətdən o birinə keçmiş və ya bundan sonra keçəcək təbəələri onların keçdiyi hökumətin icazə verdiyi hər yerdə yurd sala və yaşaya bilər.**

**XV MADDƏ**

**Şah həzrətləri öz dövlətinə sakitliyi qaytarmaq və öz təbəələrindən hazırki müqavilə ilə bu qədər xoşbəxtliklə başa çatmış müharibədə törədilmiş bədbəxtlikləri daha da artıra bilən hər şeyi kənar etmək kimi xeyirli, xilasedici niyyətlə hərəkət edərək, Azərbaycan adlanan vilayətin bütün əhalisinə və məmurlarına büsbütün və tam bağışlanma əta edir. Hansı dərəcəyə məxsus olmasından asılı olmayaraq, onlardan heç kəs öz hərəkətinə və ya müharibə ərzində və ya Rus ordusunun adı çəkilən vilayəti müvəqqəti tut-**

**duğu zaman davranışına görə təqibə, dini əqidəsinə görə təhqirə məruz qalmamalıdır. Bundan başqa o məmur və sakinlərə bu gündən başlayaraq öz ailəsi ilə birlikdə İran vilayətindən Rusiyaya sərbəst keçmək, hökumət və yerli rəisliyin heç bir maneçiliyi olmadan onların satlıq malına və ya əmlakına və əşyalarına hər hansı gömrük və vergi qoyulmadan tərpənən mülkiyyətini aparmaq və satmaq üçün bir il vaxt verilir. Tərpənməz mülkə gəldikdə isə, onun satılması və ya onun haqqında özxoşuna sərəncam üçün beş illik müddət müəyyən edilir. Lakin bu bağışlanma qeyd olunan bir illik müddət başa çatanadək məhkəmə cəzası düşən günah və ya cinayət işləmiş adamlara şamil edilmir.**

**XVI MADDƏ**

**Müvəkkillər bu sülh müqaviləsi imzalandıqdan sonra, qarşılıqlı surətdə təxirə salınmadan təcili olaraq, hərbi əməliyyatların kəsilməsi haqqında bütün yerlərə xəbər və lazımı fərman göndərməlidir. Eyni məzmunda iki nüsxədə tərtib edilmiş, hər iki tərəfin müvəkkilləri tərəfindən imzalanmış, onların gerbli möhürləri ilə təsdiq edilmiş və qarşılıqlı olaraq bir-birinə verilmiş bu sülh müqaviləsi bütün Rusiya imperatoru həzrətləri və İran şahı həzrətləri tərəfindən təsdiq və ratifaksiya edilməli və onların imzaladığı ratifikasiya mətnləri təntənəli şəkildə hər iki tərəfin müvvəkilləri tərəfincdən dörd ay ərzində və ya mümkün olduqca daha tez dəyişdirilməlidir.**

**Fevral ayının 10-da İsanın anadan olmasının 1828-ci ilində Türkmənçay kəndində bağlanmışdır.**

**Əslinə qol çəkmişlər:**

**Ivan Paskeviç,**
**A.Obrezkov.**

# ŞUŞANIN ABİDƏLƏRİ VƏ TƏBİİ MƏNZƏRƏLƏRİ



*Şuşada bahar fəsli*



*Şuşanın Hacı Yusifli məhəlləsində məscid və bulaq*



*Şuşanın qala divarı*



*Şuşanın Potu ərazisində Qala divarının görünüşü*



*Çaxmaq meşəsinin ümumi görünüşü*



*Cıdır düzündən Çaxmaq meşəsinin görünüşü*



*Hacı Qulunun mülkü*



*Xan qızı Natəvanın evinin (yandırılmış) görünüşü*



***Üçmıx qayasının görünüşü***



***Mehmandarovların imarəti***



***Cıdır düzündə M.P.Vaqifin məqbərəsi***



*Cıdır düzündə M.M.Həvvabın məzarı*



*Şuşa mənzərəsi*



*Qala qapısının açarları*



*Çölqala məhəlləsindən bir görünüş*



*Yuxarı Gövhər ağa məscidi*



*Aşağı Gövhər ağa məscidi*




***Gəncə qapısı***



***Şuşada məhəllə***



*Şuşada qış fəsli*



*Xan qızı Natəvanın bulağı*



*"Meydan bulağı"nın görünüşü*



*Köçərli məhəlləsinin bulağı*



***Çölqala məhəllə bulağı***



***Şor su bulağı***



***Şuşada bulaq***



***Təzə məhəllə bulağı***



***Qurdlar məhəlləsinin bulağı***



*Daşaltı çayı üzərindəki körpü*



*İbrahimxəlil xanın kəmənd istirahət sahəsi*



*İbrahimxəlil xanın kəmənd istirahət sahəsi*



*Şuşada yaşayış binaları*

# İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT


1. Azərbaycan Milli Ensiklopediyası. Bakı, 2007, səh. 101, 111, 257-266.
2. Azərbaycan tarixi. VII cilddə. I cild, Bakı, 2007, səh. 17,19,33, 60-68.
3. Azərbaycan tarixi. VII cilddə. II cild. Bakı, 2007, səh. 352-355
4. Azərbaycan tarixi. VII cilddə. III cild. Bakı, 2007, səh. 83-99, 411, 440, 444-447.
5. Azərbaycan tarixi. VII cilddə. IV cild. Bakı, 2007, səh. 19-56.
6. Mirzə Adıgözəl bəy. Qarabağ tarixi. Bakı 1989, səh 35-36-37.
7. Mirzə Camal bəy Cavanşir Qarabaği. Qarabağ tarixi. Bakı, 1959, səh. 11-14,15,17,20-22, 23,25, 34-35, 49, 50.
8. M.M.Mustafayev. Qarabağ xanlığının iqtisadiyyatı. Rus dilində. Berlin, 1949, səh. 45-69.
9. Jan Kevr. Xacə şah (tarixi roman). II hissə. Bakı, 1994, səh 166,180.
10. T.Mustafazadə. Qarabağ xanlığı. Bakı, 2010, səh. 70-73, 120.
11. Y.R.Hüseynov. Şuşa şəhərinin tarixi. Bakı, 2013, səh. 92-93.
12. X.D. Xəlilov. Qarabağın elat dünyası. Bakı, 1992, səh. 87-88, 90, 97.

# MÜNDƏRİCAT

Ön söz ........ 5
Azərbaycanın Qarabağ bölgəsinin tarixi ........ 10
Qarabağ xanlığının yaranması ........ 46
Azərbaycanın Qarabağ bölgəsi xanlığının təbii-coğrafi şəraiti ........ 83
Azərbaycanın Qarabağ xanlığı bölgəsinin kənd təsərrüfatı ........ 86
Qarabağ xanlığının kustar sənətkarlıq sənayesi ........ 90
Azərbaycanın Qarabağ xanlığının ticarət həyatı ........ 94
Azərbaycanın Qarabağ xanlığı bölgəsində vergi və mükəlləfiyyətlər ........ 98
Qarabağ xanlığının siyasi qurluşu ........ 102
Azərbaycanlıların mart soyqırımı – 100 ........ 105
Qanlı cinayətlər ........ 105
Birləşmiş millətlər təşkilatının təhlükəsizlik şurası
*Qətnamə 822* ........ 111
*Qətnamə 853* ........ 113
*Qətnamə 874* ........ 116
*Qətnamə 884* ........ 119
Azərbaycanın itirilmiş tarixi-etnik torpaqları ........ 123
Şanlı milli Azərbaycan ordusu işğal altında olan
torpaqlarımızın bir faizini azad etdi ........ 134
Erməni prezidenti S.Sərkisyanın qulağı kəsildi ........ 134
Azərbaycan Respublikasının erməni faşist ünsürləri tərəfindən
işğal edilmiş yurd yerlərimizin qısa təhlili ........ 141
*Şuşa inzibati rayonu* ........ 141
*Xankəndi şəhər ərazi dairəsi* ........ 143
*Xocalı inzibati rayonu* ........ 143
*Xocavənd inzibati rayonu* ........ 145
*Ağdam inzibati rayonu* ........ 146
*Cəbrayıl inzibati rayonu* ........ 147
*Kəlbəcər inzibati rayonu* ........ 148
*Füzuli inzibati rayonu* ........ 150
*Laçın inzibati rayonu* ........ 151
*Qubadlı inzibati rayonu* ........ 152
*Zəngilan inzibati rayonu* ........ 153
Rusiya imperiyası ilə qacarlar arasında Azərbaycanın iki hissəyə
bölünməsini özündə əks etdirən ədalətsiz müqavilələr ........ 155
Kürəkçay müqaviləsi ........ 156
Gülüstan müqaviləsi ........ 161
Türkmənçay müqaviləsi ........ 169
Şuşanın abidələri və təbii mənzərələri ........ 177

# REKVİZİT

**Tiraj-300**

**Kemale adı cixsin Mahiyyeddinin adı qoyulsun**

Mətbəənin direktoru – Fuad HÜSEYNOV
Texniki redaktor – Azər RƏSULOV
Dizayner – Kəmalə FƏRHADOVA
Kompüter yığımı – Təranə RƏHİMOVA
Üz qabığının tərtibatı – Məhiyəddin SEYİDOV

*Kitab “AFPoliqrAF” mətbəəsində hazır diapozitivlərdən ofset üsulu ilə çap olunmuşdur.*

afpoliqraf@mail.ru | Tel.: +994(12) 510 96 74
afpoliqraf@gmail.com | Mob.: +994(50) 405 96 74

Yığılmağa verilmişdir: 17.06.2019
Çapa imzalanmışdır: 08.07.2019
Qarnitura: Nyala, Cambria
Şərti çap vərəqi: 13
Formatı: 64x90 $^1/_{16}$
Tiraj: 300